# ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# BEŞ CİLDDƏ

# ŞEİRLƏR

## CİLD I

«MBM» nəşriyyatı
Bakı - 2009

**Redaktor:** **Zülfiqar Şahsevənli**

**Naşir:** **Rafiq Xan-Sayad oğlu**

**Tərtibatçılar:** **Könül Abasova**
**Fərqanə Məmmədova**
**Korrektorlar:** **Ruhiyyə Rasimqızı**
**Günel Idrisqızı**
**Dizaynerlər:** **Ceyhun Əliyev**
**Iradə Əhmədova**
**Operatorlar:** **Aysel Həsənova**
**Gülarə Hacıyeva**

**Şahməmmədov Şahməmməd Gülməmməd oğlu,**
**«Seçilmiş əsərlər» beş cilddə, (şeirlər), cild I.**
**Bakı, «MBM» 2009, 400 səh.**

**ISBN: 978-9952-29-016-1**

**© Şahməmməd**
**«MBM»**

## ŞAHMƏMMƏDIN HƏYAT VƏ YARADICILIĞI HAQQINDA

**Hörmətli oxucu**, Şahmmməd Şahməmmədov 6 avqust 1947-ci ildə Azərbaycan Respublikası, Ağsu rayonu, Ləngəbiz kəndində anadan olmuşdur. 5 yaşında I sinfə getmişdir. Orta məktəbi bitirdikdən sonra M.Ə.Sabir adına Şamaxı Pedaqoji texnikumuna daxil olmuşdur. Texnikumu bitirib, Ağsu rayonunun Səfərli və Ərəbuşağı kəndlərində 2 il müəllim işləmişdir. Sonra Uzaq Şərqə əsgəri xidmətinə getmişdir. Əsəgəri xidməti başa vurduqdan sonra təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlmişdir. ADU-nun hüquq fakültəsinə daxil olmuşdur. Eyni zamanda fəaliyyətini respublikanın hüquq-mühafizə orqanları ilə bağlamışdır. 1982/84-cü illərdə SSRI DIN-nin Moskva şəhərindəki akademiyasında təhsil almışdır. Bir sıra məsul vəzifələrdə işləmişdir. Serjant rütbəsindən polkovnik rütbəsinə kimi yüksəlmişdir. Bütün bu illər ərzində bədii yaradıcılıq bir an olsun belə onu tərk etməmişdir.

**Hörmətli oxucu**, o, 50 ildən çox yaradıcılıq yolu keçmişdir. O, nəyi görmüşsə, nəyi eşitmişsə, hansı məqamlar duyğularına öz bədii təsirini göstərmişsə yalnız onları qələmə almışdır. Onu həmişə Allahın ucalığı, Onun günahları bağışlaması, insanlar, onların gözəl əməlləri, xoşbəxtliyi, valideynlərin müqəddəsliyi, sevginin əzizliyi, vətənə məhəbbət, doğma torpağa bağlılıq, onun gözəlliyi, sıra dağları, gen dərələri, yaşıl baharı, əlvan çiçəkləri, bəyaz qarı, istisi, soyuğu, leysan yağışları, köynəyinin yaxasını sökən külələri, onu bu günə çatdıran, əvvəli və sonu görünməyən yolları, cığırları, izləri düşündürmüşdür. Onun «Dağlar, səndə nəyim qaldı?», «Nastalo vremya», «Sevməsəydim, yaşamazdım», «Xatirələr oc-

ağının işığında», «Çaylar geri dönmür», «Həyəcan dolu beş il», «Yerlə Göy arasında», «Ləngəbiz», «Bakı polisi: qısa tarixi və müasir dövrü 1840-2005», «Ildırımlar qanadında», «Yollar», «Bu gün açılacaq yaylım atəşi», «O sevgini unutmaq olmur», «Azərbaycan, bir də Heydər», «Nəğmələr dünyası», «+994552010290» kimi kitabları işıq üzü görmüşdür. «Bahar çiçəkləri», «Dünyamız ağ göyərçin», «Pieslər» kimi almanaxlarda əsərləri dərc olunmuşdur. Heydər Əliyevə həsr olunmuş əsərlər toplusundan ibarət «Azərbaycan oxusun» adlı kitabda ona həsr etdiyi «Karvan» poeması, «Azərbaycan, bir də Heydər» şeiri ilə siz oxucuların görüşünə gəlmişdir. Bir sıra kitablara redaktorluq etmişdir. Bir sıra kitablarda müxtəlif səpgili yazılarla çıxış etmişdir.

Müğənnilərimiz - M.Bağırzadənin, F.Kərimovanın, Z.Məmmədovanın, F.Ibadovanın, C.Məmmədovun, T.Vəlizadənin, Y.Mustafayevin, B.Əşrəfovun, Y.Babayevanın, B.Mehdiqızının və s. ifa etdiyi 30-a yaxın mahnının sözlərini yazmışdır. Azərbaycan yazıçılar və jurnalistlər birliyinin üzvüdür. «Qızıl qələm», «Araz» Ali-Ədəbi, «Zərdabi» mükafatlarının diplomuna layiq görülmüşdür. Cəmiyyətimizdə ictimai qaydaların qorunmasında bir polis zabiti kimi yaxından iştirak etmişdir. Qarabağ döyüşlərinin iştirakçısı olmuşdur.

***Könül ABASOVA***
***Fərqanə MƏMMƏDOVA***
***Tərtibatçılar***

## «QƏLBINI NAR KIMI KAĞIZA SIXAN ŞAIR...»

Respublika «Araz» Ali-Ədəbi mükafatı laureatı, şair Şahməmmədin imzası ilə mətbuatımızdan çoxdan tanışam və ara-sıra onun dərc olunan şeirləri ilə qarşılaşmışam... Amma iş elə gətirdi ki, onun yaradıcılığı ilə tamamən, bütövlükdə tanış oldum və əlimə düşən «Xatirələr ocağının işığında» (1997) şeirlər kitabını diqqətlə oxuyandan sonra əvvəllər çap edilmiş kitablarını da əldə edib onun ədəbi şəxsiyyətilə ılıq bir ünsiyyət tapdım və bu ünsiyyətdən doğan bəzi qənaətlərimi sizinlə bölüşmək fikrinə gəldim...

Şahməmməd ruhən şairdir, qəlbən şairdir və ürəyində, içində Allah sevgisi, torpaq, Vətən sevgisi, insan sevgisi var. Həyatda sevinc və kədər üzərində köklənməyi, sarı sim üstə «Şirvan gözəlləməsi» ahəngində eşidə bilir... Çiçəklər də onun nəzərində açmır, uşaqlar kimi doğulur, bir insan ömrü sürür və insan kimi də ölür. Elə buna görə də o, şeirinin birini «Çiçəklərin zərif ölümü» adlandırır...

Onun özünəməxsus estetik kredosunda belə bir xətdə, estetik dəyər səviyyəsində məqam var: «Oxunmayan şeir ölüm kimi bir şeydir». Və Şahməmməd həmişə ürəyinin, ruhunun gerçəklikdən oxuduğu, qəlbinin gözü ilə gördüyü, duyduğu, yaşadığı, yanıb-qovrulduğu hissi şeirinə gətirdiyindən onun şeirləri oxunaqlıdır, duyumludur. Deməli, ölüm, durğunluq, ətalət onun yaradıcılığından uzaqdır. O, öz şair ömrünü şeirə köçürməyi bacardığından yaradıcılığında özünəməxsus öz yaşantısı, duyğusu, öz ağrısı olan bir şair ömrü  şeirləşib, başqa sözlə  desək, şair ömrü şeirdə, şeir ömrü şairdə reallaşa bilib.

Şahməmməd klassik ədəbiyyatı sevir, duyur, ruhunda, damarında genoloji kol kimi gəzdirir, onun intellektual səviyyəsi görümlüdür.

Çağdaş günlərimizin ən çox sevdiyi şairləri Əli Kərim, Məmməd Araz, Ramiz Rövşən və Zülfüqar Şahsevənlidir...

Görürsünüzmü, müxtəlif qütblərdə dayanan dördbucaqlının müxtəlif tinlərində duran yaradıcılarıdır onlar. Və elə Şahməmmədin şeirlərində bu cür müxtəlifliyin harmoniyası var. Həyatın disharmonik cəhətləri onun şeirlərində xoşagələn bir sahmanını tapır.

Əsl torpaq, millət, Vətən adamı olan Şahməmməd həm də ürək adamıdır. Və bu keyfiyyətlər onun həm bir insan, həm də şair ömrünün tufanlı yollarına işıq salır, çıraq tutur, dumanlıqlardan çıxarır, bəzən də torpağı daha yaxından, bütün azmanlığı ilə qucmaq istəyi onu qanadlandırır, sevgisini mavi nəğməyə döndərir, bu andan da şairlik başlayır:

**Ulu səsin sehri tutdu ənginlikləri,**
**«Azərbaycan» dalğasını uddu yamaclar.**
**Göz önündə axıb göydən zənginlikləri,**
**Işıq əlli, işıq dilli Günəş qucaqlar.**

Elə buna görə də Şahməmmədin bir şair haqqı çatır ki, açıq ürəklə, səmimiyyətlə deyə bilsin və inandırsın ki, «Mənim misralarım mavi küləkdi, mənim misralarım yatmış dənizdi». Elə buna görə də onun bütöv şeir yaradıcılığına «mavi küləklərin narahatlığı», yatmış dənizin paklığı, sakit dərinlik ovqatı hopubdur.

Şahməmməd ixtisasca hüquqşünasdır, qəlbən isə şairdir, amma əslində şair-hüquqşünasdır. O, həyatda bir peşə sahibi kimi vətəndaşların hüquqlarını qoruduğu kimi şeirlərində də bir vətəndaş, şair kimi Vətəninin, torpağının, xalqının, millətin hüquqlarını qələminin gücü çatdığı, ilhamının avaz dərəcəsi qədər qoruya bilir... Bu «qoruyuculuq» missiyasını yerinə yetirmək qabiliyyətinə malik olduğu üçün şair dostu onun haqqında ürəkdən söz deyə bilir və bu səmimiyyət böyük söz səviyyəsinə yüksəlir, həmçinin, hər iki şair, qələm dostunun saf mənəviyyatına ayna tutur. Şair Zülfüqar Şahsevənli «bu vəfa-

sız dünyada qazandığı barmaq sayı qədər dostları arasında öz saflığını, müqəddəsliyini, səmimiyyətini qoruyub- saxlayan» şair dostu haqqında yazır: «Tanıdığım gündən səni mərd, səmimi, canıyanan və alicənab gördüm. Gözəl ata, baba, dost, şair, vətəndaş... Bunların hamısı sənə yaraşır».

Əsl insan üçün bu mənəvi keyfiyyətlərin elə bircəciyi də bəs edər. Amma şair-vətəndaş olmaq üçün bunların hamısının toplusu, sintezi, mənəvi-əxlaqi buketi mütləq lazımdır. Və bu mənəvi-əxlaqi buket şairin şeirlərində ifadə olunan məhəbbətidir-böyük hərfli məhəbbəti! Bütün ətrafına, mühitinə, dünyasına, Tanrısına MƏHƏBBƏTI! Şair olan kəs, əlinə qələm alıb ağ vərəqlə sinə-sinəyə qalmağı bacaran kəs məhz bu cür məhəbbəti özünə yük eləməyi bacarır:

**Əlli il baş-başa yaşayanları,**
**Ölümmü ayırdı, yoxsa sərt ayaz?**
**Məhəbbət yükünü daşıyanları,**
**O biri dünyada ayıra bilməz.**

Şahməmmədin «Xatirələr ocağının işığında» (1997), «Sevməsəydim, yaşamazdım» (1995), «Dağlar, səndə nəyim qaldı?» (1990) kitabına qədər bütöv yaradıcılığı məhəbbətyüklü poetik karvandır. Və bu karvanın sarvanı isə «onun dumduru göylərə açılan ürəyidir».

**Sarvanımız igid olub, udmuşuq biz,**
**Sarvanımız naşı olub, uduzmuşuq.**
**Bu dünyanın nələrini dadmışıq biz,**
**Düz yolla da, bəzən elə yol azmışıq.**

Şahməmmədin «Karvan» poemasından gətirdiyimiz bu nümunədə onun poetik ruhu, poeziyasının məğzi, «poetik karvanının» marşrutu vulqar sosiologizm illüziyalarından

təmizlənmiş bir istiqamətdə, önəmli bir tərzdə əksini tapır.

Yeri gəlmişkən, «Karvan» poeması, ümumiyyətlə, Şahməmmədin epik yaradıcılığının bir sıra xüsusiyyətləri haqqında ... «Karvan» assosiativ planda düşünülmüş lirik poemadır. Görkəmli bəstəkar, Hacıbəyovlar nəslinin istedadlı nümayəndəsi, saf, büllur Üzeyir bulağının gözündən bəhərini götürən Soltan Hacıbəyovun «Karvan» simfonik lövhəsinin doğurduğu emosional duyğular əsasında yaranan bir poemadır. Əlbəttə, bu poemada emosional başlanğıcla rasional fikir tutumu bir-birinə bülənmiş, çulğalanmış şəkildə özünü büruzə verir. Melodramik, psixisentimental meyldən uzaqlaşaraq, impulitiv poetik fikir kontekstində türk törəsinin mənəvi-siyasi təkamül yolunu fikrən izləyərək azəri-türk millətlərinin, xalqının düşdüyü bugünkü bəlaların tarixi-mənəvi bazası poeziyanın işıq küləyində proyeksiya olunur:

**«Karvan» süitası qulaqlarımda,**
**Əsrlərdən gələn səsdir, nidadır.**
**«Karvan» süitası dodaqlarımda**
**Qabar-qabar olmuş xeyir-duadır.**

**... Hələ yol gedəcək bu boz dəvələr,**
**Sonu görünməyən səhralar durur ...**
**Boğub qaranlığı, doğacaq səhər,**
**Yağacaq göylərdən yağış, işıq, nur.**

Şahməmməd bu poemaya qədər müəyyən epik yaradıcılıq yolu keçmiş «Arxalı dağlar», «Əsgər qardaşıma», «Atalar, analar, oğullar», «Müstəntiq» poemaları ilə oxucularıyla görüşüb. Bu poemalar ənənəvi mövzular olsa da, poetik planda stereotipdən kənara çıxa bilməsə də, əsas verir deyək ki, epik-dramatik üslub onun qələminə yad deyil, istedadının stixiyasından, təbiətdən doğur. Amma «Karvan» poemasındakı epik vasitəli

lirizm yeni keyfiyyət təsiri bağışlayır və lirizm, milli ağrı kədər səviyyəsinə qalxaraq dəyər qazanır.

Şahməmməd deyəndə ki, «Karvanlar içində karvandı xalqım, ovsarı əllərdən əllərə düşüb», - inandırır, milli hissiyyatı oxucu qəlbində mənəvi ocaq çatır, düşündürür ...

Bir cəhəti də qeyd etməyə bilmərəm. «Karvan» poemasının forması, lirik-emosional süjet xətti, assosiativ üslub qatı çox orijinal tapılıb, poetik fikir müstəvisinin genişləndirilməsinə şərait yaradır. Poetik fikrin həm üfüqi xətt boyu, həm də dərin inkişafına imkanlar açır. «Karvan» «Sarvan» qarşılığında - «Karvanlar içində karvan olan» xalqımızın keçdiyi tarixi inkişaf yoluna, türk dövlətçiliyi, Ipək yolu boyunda türk dövlət başçılarının, xaqanların, sərkərdələrin keçdikləri tarixi mərhələlər və bundan çıxarılan poetik, estetik-fəlsəfi nəticələr, tarixdən indiyə, indidən keçmişə poetik ekskurslar geniş planlı, lirik-fəlsəfi səpgili, tarixi və müasir mövzunun qovuşduğunu təqdim edə bilən bir poema yaratmaq stimulu verir ...

Hər şeyə bir qayıdış olduğu kimi, yaradıcılıq faktına da qayıdış məqbuldur və umduğumuz səpgidə, siyasi, fatal eyforiyaya uymayan bu poemaya ikinci qayıdışı müəllifdən təmənna edərdik ...

Bundan başqa «Karvan» poeması və onun əvvəlki poemalarında olan onun özünəməxsus mövzu xətti, «Mən ağı deyirdim», «Şuşada» səpgili şeirləri əsas verir ki, Şahməmməd son on ilin hadisələrini əhatə edən dərin məzmunlu, dəyərli epik-lirik vüsətli, poetik fikrin polofi-poetik fikrin polifonik axarında poemalar silsiləsi yaratsın ...

**Soyuq daşam, çılpaq bağam,**
**Donubdur «dözüm», ayılmır.**
**Nə ölüyəm, nə də sağam,**
**Kəfənim, bezim açılmır.**

**Düyün düşdü dağım, düzüm,**
**Yol gözləyir Cıdır düzüm,**
**Kimə deyim doğru sözü?**
**Dodaqda sözüm açılmır.**

Inarırıq ki, «Ömrü dərddən şələ tutan» şair Şahməmmədin bu xətdə mövzu dairəsi daha da genişlənəcək. Ləngəbiz dağlarından Qarabağ dağlarına - Qırxqıza, Dəlidağa, Sarıbabaya, Keytiyə daha tez-tez boylanacaq, sözü dodaqlarında tumurcuq bağlayıb gül-gül açılacaq ...

Belə bir məşhur deyim mövcuddur ki, şairin tərcümeyi-halı onun şeirlərindəndir. Bu deyimin və Şahməmmədin «Deyirəm, hər yaşın öz nəğməsi var» misrası kontekstində bir məsələyə də toxunmaq istərdim. Əlbəttə, nəzəriyyə çoxdan sübut edib ki, bədii yaradıcılıqda, xüsusən poetik yaradıcılıqda müəllif şəxsiyyətinin, onun keçdiyi həyat yolunun, tərcümeyi-hal faktlarının çox mühüm rolu var. Bura qədər, yəni «Hər yaşın öz nəğməsi var» və bu nəğmələri daha dərinliyi, dəqiqliyi, dəyərliliyi ilə duymaq üçün müəllifin - yəni Şahməmmədin ömürlüyündən bəzi notlarla, bir sıra dönüm-döngələrlə oxucuları da tanış etmək istərdim:

Şahməmmədov Şahməmməd Gülməmməd oğlu 1947-ci il avqustun 6-da Ağsu rayonunun Ləngəbiz kəndində, halal bir kişinin ocağında dünyaya göz açıb. Dağlar oğludur. Gözünü həyata açandan təbiətin əsrarəngizliyini, ülviliyini, ana torpağın dağlar adlı ehtişamını, zümrüd meşələrin, kasıblığın halallığını görüb, zəhmətlə, əməklə diz-dizə, göz-gözə böyüyüb. Təbiətdə, həyatda, doğma kəndində, onun daşında-kəsəyində, suyunda, biçənəyində, zəmisində, sellər aşan yarğanlarında yaxşı, gözəl nə varsa ürəyinə, qəlbinə, sinəsinə köçürüb. Özünü axtara-axtara Şamaxı Pedaqoji Texnikumunda təhsil alıb, Şamaxı ədəbi-mədəni mühitinə daxil olub, çox şey mənimsəyib ...

O, «Yeni Şirvan» qəzetinin nəzdində 60-cı illərdə təşkil edilən «Gənc Sabirçilər» ədəbi məclisinin dərnəklərində müntəzəm, ardıcıl iştirak edir, F.Sadıq, I.Etibar, T.Taisoğlu, G.Rəsul, Q.Əziz və başqa Şamaxı yazarları ilə yaxından tanış olur, ilk şeiri «Çiçək» də elə onların zəmanəti ilə «Yeni Şirvan» qəzetinin 1965-ci il sentyabr nömrəsində dərc edilir. Deməli, Şahməmmədin 30 ildən artıq bir yaradıcılıq yolu mövcuddur ...

Beləliklə, Şahməmməd ömürlük poeziyanın sehrinə düşüb, onun çəmənzarında çiçəkləyə-çiçəkləyə bu günümüzə gəlib çatmış, uğurları ilə qələm dostlarını sevindirmişdir. 1968-ci ildə «Ulduz» jurnalında dərc olunan «Ağır olur» şeiri ilə respublikamiqyaslı mətbuata qədəm qoyur. Indi onlarla şeirlərin, poemaların, şeir kitablarının müəllifidir, tanınmış şairdir...

Bir il üç ay Ağsu rayonunun Cəfərli, Ərəbuşağı kəndlərində müəllim işləyib, sonra - 1967-ci ildə Uzaq Şərqə hərbi xidmətə gedib. Özü ilə üç şeir kitabı aparıb - Məmməd Arazın «Ömür karvanı», Bəxtiyar Vahabzadənin «Insan və zaman», Fikrət Sadığın «Cığır» kitablarını əsgərlik balışının altında saxlaya-saxlaya yuxularına qatıb ... Oradan Azərbaycana - Azərbaycan mətbuatına, Bəxtiyar Vahabzadəyə, Məmməd Araza, Isgəndər Etibara, Tahir Taisoğluna şeir dolu məktubları uçub. ...Cavablar alıb, ümid dolu, məsləhət və məhəbbət dolu ...Isgəndər Etibar onun «Nəğmələr», «Anamın yun palazı» şeirlərini əsgər şəkli ilə birlikdə, əsgər-şair uğurlu sözü ilə «Yeni Şirvan» qəzetində çap edir. Bu fakt uzaq Tayqada, yad ölkədə əsgərlik edən bir şair gəncin duyğularında dərin izlər buraxır.

Isgəndər Etibar həmin yazısında gənc qələm dostu haqqında deyirdi: «Ürəyində şeirə məhəbbət olan, narahat gecələri və gündüzləri özünün rahatlığı kimi qəbul edən hər bir vətəndaş şairdir». Isgəndər Etibar-Şahməmmədin şeirə, sənətə, ədəbiyyata sonsuz məhəbbətini və bağlılığını o vaxtdan duyub qiymətləndirmişdir. Və bu sözlər də, Şahməmmədin keçdiyi həyat

yolu da sübut edir ki, onun bədii yaradıcılığına peşəsinə görə dodaq büzənlərə cavab olaraq əzəldən, özünü dərk edəndən şeirli, poeziyalı ömür üçün doğulub, bütün təbiəti ilə şairdir, qələm sahibidir, özünün şeir dünyasının təqdir ediləcək Şah Məmmədidir!

Şahməmməd hərbi xidmətdən sonra təhsilini davam etdirmək üçün Bakıya gəlir. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olur, müvəffəqiyyətlə oranı bitirirək hüquqşünas kimi bu günə qədər dövlət orqanlarında fəaliyyət göstərir. O dövrün stereotip, ətalətli münasibətləri, elə indinin özündə də inersiya ilə beyinlərdə ilişib qalan çürük psixoloji əhvalla qarşılaşır. Şahməmmədin özü bunu belə xatırlayır: «Universiteti bitirdikdən sonra müstəntiq oldum. Bu peşəm sanki kitab çap etdirmək istəyimə buxov oldu. Əlyazmalarım illərlə «Gənclik», «Yazıçı» nəşriyyatlarında yatıb qaldı. Yalnız müxtəlif almanaxlarda xeyirxah dostlarımın köməyi sayəsində çap olundu. Deyirəm ki, nə yaxşı xeyirxah adamlar var. Onlar olmasa, şər xeyiri, namərd mərdi, pis yaxşını ayaqlaya bilər. Onlar olmasa, dünyanın rəngi, çörəyin dadı qaçar ...».

Bu daşlaşmış baryeri, sümüklənmiş arakəsməni yarıb keçməkdə Məmməd Aslan, Sabir Rüstəmxanlı, Zülfüqar Şahsevənli kimi xeyirxah qələm dostları onun poetik yolunun xeyirxahlarından olublar, bədxahları, «ədəbi sözgəzdirənləri» inandıra biliblər ki, Vallah, Şahməmməd əzəldən, ağlıkəsəndən, canında, qanında, damarında ruhu coşandan şairdir, sonradan müstəntiq olub, bir parça çörək xatirinə bu peşəni seçib ... M.Ə.Sabirə min rəhmət: «Bizdə olan bu soyuqqanları neylərdin, ilahi?!».

Amma bizdən fərqli olaraq, həmin mühiti yaradan «daşqəlblilərdən» fərqli olaraq, indi bol-bol söydüyümüz Moskva mühiti Şahməmmədi bir şair kimi tanımaq istəyib, hörmət edib, öz peşəyönümü ilə Moskva Akademiyasında təhsil aldığı illərdə (1982-1984) «Avrora», «Molodaya Qvardiya», «Sovetska-

ya milisiya» kimi məşhur jurnallarda, «Literaturnaya qazeta» kimi mötəbər, dünyamiqyaslı mətbuatda onun əsərlərinin çapına imkan veriblər ... Bakıda işıq üzü görən «Nastalo vremya» (1994) rusca şeirlər kitabının əsası həmin illərdə qoyulub...

Bu gün Şahməmmədin ömür yolu dünyamızın müxtəlif meridianlarından keçir - Baykaldan tutmuş Bosfor körfəzinə qədər çox müxtəlif yerlərdə olur, özünə dostlar tapır, dünyanın acılı-şirinli günlərini görür, torpaqlarımızın azğın erməni faşizmindən müdafiəsində iştirak edir, yolu Qarabağdan - Şuşadan keçir, Karpat sıra dağlarını aşıb Macarıstanda olur... Və harada olursa-olsun, ora bir şair ürəyi aparır... Və bu ömür yolunun yeganə bəzəyi, yeganə qazancı, bin-bərəkəti, mənası-mahiyyəti şeir, poeziya olaraq qalır, ona «heç vədə rahatlıq verməyən», «saysız-hesabsız əzablara düçar edən, amma həmişə ömür yolunu bəzəyən, əbədi, başıuca, həmişəyaşar edən poeziya...»

Bunu Şahməmməd «Sevməsəydim, yaşamazdım» şeirlər kitabına yazdığı «Məni bu günə çatdıran yollar» adlandırdığı lirik-emosional essevari müqəddəməsində yazır: «... çalışmışam ki, əziz oxucularım bu kitabda bir şair ömrünün əvvəlini və bu gününü görsünlər ...».

Beləliklə, biz də o qənaətə gəldik ki, Şahməmməd bir şair kimi səmimi fikir və hissləri ilə təbii və inandırıcıdır ki, bütövlükdə yaradıcılığı, şeirləri bir müəllif kimi onun psixologiyasını, temperamentini, düşüncəsinin spektrlərinin ruhi hallarını - bir sözlə, keçdiyi ömür yolunun ağrı-acısını, sevincini-şirinini, qəmini-kədərini özündə ehtiva edir:

**Deməyin dolaşıb axarım, çayım:**
**Nə bilim, bəlkə də cığır açmışam.**
**Şeirimin dalınca siz daş atmayın,**
**Ürək hökm eləyib, mən də yazmışam.**

Şahməmmədin yaradıcılığı ilə tanış olduqca bu səmimi sözlərinin səmimiyyət işığına hopursan və bu qənaət səndə qüvvətlənir ki, Şahməmməd pis-yaxşı, zəif-qüvvətli nə yazıbsa, səmimi yazıb, ürəyinin hökmü ilə yazıb və ürəyin hökmü ilə yazılan şeirin, yazının heç vədə süni nəfəsə (əlavə tam qazanması üçün xüsusi «ədviyyata») ehtiyacı yoxdur ...

Şahməmmədin şeirlərinin ümumi axarında bir dərd, kədər, ağrı var - torpaq ağrısı, Vətən dərdi, millətin düçar olduğu kədər, ata itkisi, vaxtsız solan çiçək, yarımçıq kəsən yağış, qüruba enən Günəş, gözü yollarda qalan məhəbbət, hamısı onun şair qəlbində həzin bir kədərə, poetik dərdə çevrilə bilir. O, bir şair kimi heç nəyə biganə qala bilmir, heç nə bu ağrılar müqabilində onu ovundura bilmir:

**Yer necə fırlanır görə bilmirəm.**
**Gülmək istəyirəm, gülə bilmirəm.**
**Bu boyda dərd ilə ölə bilmirəm,**
**Görünür, dağlardan ta qürub daha...**

Bura qədər neyləyəsən, şair qəlbi, yaradıcı ürəyi incədir, nazikdir, kövrəkdir. O harada nizamsızlıq görsə, anoxronizmlə qarşılaşsa, xaos, qarışıqlıq, tarazlıqdan çıxmış bir nöqtə görsə narahatlıq keçirir, həyəcana düşür, əli yerdən üzülür, Tanrıya üz çevirir:

**Qopar, parçalanar bu boyda Kürə,**
**Tanrı, özün qoru qaranı, ağı.**
**Açarı o əldən bu ələ vermə,**
**Tanrı, özün saxla, bu tarazlığı!**

Cəmiyyətin, ictimai axarın, insan təbiətinin, mənəviyyatının tarazlığı pozulanda bütün dünyanın tarazlığı, harmoniyası, nizamı pozulur və millətin, xalqın, bütün bəşəriyyətin bəlası da

tarazsızlıqdan, disharmoniyadan yaranır və Şahməmməd didaktik planda yox, estetik fikir tutumu daxilində, rasional əsasda, poetik-fəlsəfi düşüncənin məntiqi axarında bu problemlərə yanaşmağı bacarır və bir şair narahatlığı keçirir. Buna görə də onun poetik yaradıcılığının müəyyən «əsəb» nöqtələrində bu narahatlığın döyüntüləri, ağrısı aşkar olunur:

**Qara saç yerini verib ağ saça,**
**Ağ günün yerinə qara gün düşüb.**
**Dünya olmamışdı beləcə qoca,**
**Dünyaya qar yağıb, qara gün düşüb.**

Şahməmməd bir şair kimi dünyanın dərdini-insanlığın, ətrafının, dost-qardaşın, qonum-qonşunun, cəmiyyətin, xalqının, millətinin, özünün gizli-aşkar, beləcə, itirdiklərinə heyfslənir, «ağ günün yerinə düşən qara günün» qaralığını özünə də, şeirinə də dərd yükü bilir və maraqlıdır ki, bu dərd pessimizm yaratmır, düşündürür, daşındırır, həyatıdərkə təpər verir ...

«Özü boyda bir tonqalmış, demə dünya» - deyərək, dünyanın dərd tonqalında alışıb-yanır, bir ağacın qırılmasını da, bir didərginin baxışlarında gördüyü dərin kədəri də öz kədərinə çevirə bilir və bu kədəri də özünəməxsus bir pıçıltı ilə vərəqə pıçıldayır:

**Belə getsə, tarix özü dolaşacaq,**
**Belə getsə, dolaşacaq dinimiz də.**
**Arzular da, ümidlər də daş olacaq,**
**Daş olacaq səsimiz də, dilimiz də..!**

«Qoz ağacı», «Torpağın hanı», «Məni yaman düşündürür» şeirlərindən gətirdiyimiz misallar çox mətləblərdən xəbər verir. Şahməmmədin (təkcə onunmu?) bir insan kimi, ziyalı kimi, ən öncə bir şair kimi düşüncəsinin estetik-əxlaqi axarını

müəyyənləşdirir, onun daxili-mənəvi narahatlığının mahiyyətini açır. Narahatlıq sözlə əbədiləşən dünyamızın, bu günümüzün əsrin sonunda bizi haqlayan milli faciəmizin, məğlubiyyətlərimizin narahatlığıdır, əzabla, ağrı ilə göynəyən narahatlıq, estetik, əxlaqi-poetik gücə malik olan narahatlıq!...

Bu insani narahatlığın içərisində Şahməmmədin bir torpaq, Vətən sevgisi var ki, bu da onun dərdlərinin məlhəminə çevrilir, onu sınmağa, əyilməyə qoymur. Vətən sevgisi Şahməmmədin yaradıcılığının məna və mahiyyət yükünü, şeirinin əsas məna tutumunu təşkil edir və əksər şeirlərinin mayası torpaqdan, təbiətdən, Vətən sevgisindən gəlir:

**Deyirəm, obasız, elsiz mən kiməm,**
**Vətənin nə vaxtsa daş balasıyam.**
**Vətənsiz bir ovuc soyuq küləyəm,**
**Meh əssə, göylərə sovrulasıyam.**

Burada cüzi seçilən patetika, şərhi-elan olsa da, sözün, hissin adiliyinə, həlimliyinə, dürüstlüyünə inanırsan, şair «mən»inin bütövlüyünü, Vətənə, torpağa candan bağlılığının, yanarlığının şahidi olursan.

Şahməmmədin poeziyası görümlüdür, duyumludur, torpaq ətirlidir, gül nəfəslidir. Elin-elatın əsrlərin sınağından çıxıb bu günümüzə qədər yaşayan, bəzən «şəhərli psixologiyasının, məişətinin qatı tozanağında» sozalan, unudulma təhlükəsi ilə qarşılaşan nağıllı adətlərimizi əxlaqi-mənəvi keyfiyyətlərimiz, məğrur mənliyi təyin edən cəhətlərimiz nikbin bir ruhda, onun bir sıra şeirlərinin bəlli məna odunu təyin edir. «Mart gəlir, bahar gəlir», «Tüstülü bacalar», «Çərşənbələr», «Tonqal», «Novruz», «Səməni», «Qulaq falı», «Bayram payı», «Sən, ey qışdan çıxan cığır», «Bu qış», «Sizin üçün darıxmışam», «Xatirələr ocağının işığında» qəbildən şeirlərinin duyğu, hiss, düşüncə saxlancı xatirələr ocağının işığında açılır, közərir,

tüstülənir, poetik-retro duyğu və düşüncələrə çevrilir, oxucusunu da kəndin burnumuzun ucunu göynədən nağıllı-boxçalı, bayram xonçalı günlərinə qaytarır, milli müəyyənliyin tam təyinedicisi olan etnoqrafik yaddaşın nöqtələrinə toxunaraq əsli, soyadı dərkə çağırır ...

Bu qəbildən olan şeirlər Şahməmmədin «poetik xatirələr ocağının işığında» sanki yenidən çözələnir, əsrlərin qaranlıq dərinliyində qalan, daşlaşan, konservləşən paklığı, mehri-ülfəti, təmizliyi, ululuq təşnəliyini yenidən canlandırır, onu şeirin sehri ilə yenidən üzə çıxarır. Pirqulu dağında, Şamaxı meşəsində, Umud kişinin həyətində, dağlar qoynunda, bir aylı gecədə «Pir Qarağac»ın dibində, Şuşada, Isa bulağında, onun bu poetik, mənəvi saflıq axtarışlarının, tapıntılarının şahidi oluruq ... Həyatilik, real insani düşüncələr, ömrün dəyərli, kədərli, ovqatlı anları, psixoloji sarsıntıları, sevincləri Şahməmmədin poetik kardioqrammasında ardıcıllıqla çırpıntılarının, döyüntülərinin izini tapır. Onun ata-anasına, doğma kəndinə, onun adamlarına həsr etdiyi «Böyüksüz olmasın heç kəs dünyada», «Sağ ikən», «Hardasan, harda», «Başdaşı», «Səni kim apardı», «Ana-oğul», «Anam bizə gəlmişdi» bu qəbildən şeirlərdə lirik ağı notu, ata itkisinə övlad yanğısı, müqəddəs kədər motivi hakimdir. Və bu şeirlər də poetik xatirə stilində yazılıbdır. Müəllifin özünün dediyi kimi, bu kövrək xatirələrin hər biri ürəkdə, könüldə izi qalan göynərtidir:

**Xatirə -**
**Ürəklərin itirdiyi döyüntü.**
**Ömürlərdə izi qalmış,**
**Közü qalmış göyüntü ...**

Bu göynərtinin rəngarəng spektrlərini onun insani məhəbbətə, insanın bir-birinə qarşı olan sevgi dünyasına həsr etdiyi şeirlərində daha aydın görürük.

Poetik hissin, hissiyyatın dəyərinin bir cəhəti də insani münasibətlərdən doğan məhəbbətə-insanın mənəvi dünyasının anası olan intim dünyaya açılan pəncərədir.

Qadın gözəlliyi həmişə poeziyanın ilham mənbəyi olmuş, şairin duyğular aləmi pərişan-pərişan uçan durna qatarı kimi isti, ılıq, səmimi, inamlı gözəllik nuruna bələnmiş məhəbbət qoynunda gecələyir.

Şahməmmədin poetik duyğusu məhəbbət dünyasına açılan pəncərədən baxanda daha inandırıcı, daha səmimi olur, özü də bəzək-düzəksiz, mənalı-mahiyyətli, duyumlu insani məhəbbəti ... Onun təsvir və təqdim etdiyi məhəbbət romantik çalarlardan çox realist palitraya meyllidir. Sevən, hicran ağrısı çəkən, sevgilisi ilə görüşdən həzz almağı, sevinməyi bacaran müasir insanın adi, isti, saf məhəbbəti Şahməmmədin məhəbbət lirikasındakı ovqata daha yaxındır:

**Şəkilləri öpə-öpə,**
**Bir təsəlli gəzirəm mən.**
**Varlığımı sökə-sökə,**
**Yoxluğuna dözürəm mən.**

Poeziyamızda örnəkləri zəngin və qədim olan mənəvi məhəbbət şeirlərindən fərqli olaraq, Şahməmmədin təsvir etdiyi məhəbbət həyatın özünün yaratdığı, əsl, real insani yaşantılar, duyğular, iztirablarla dolu olan gerçək bir məhəbbətdir. Əlinin təmasını hiss etdiyin, görümlü, relyefli, hissiyyatından duyulan gerçəklik, həyati bir məhəbbət ....

**Tənhalıq Allahın adıdır ancaq,**
**O da ki göylərdən baxar, əyilməz.**
**Tənha bir ürəklə alışan ocaq -**
**Tənha ürəkləri qızdıra bilməz.**

Şahməmməd sevgisini gizlədə bilmir, «ismi-pünhan» saxlasa da, «eşqi-pünhan» saxlamağı bacarmır. Gizli məhəbbətini, sevgisini hamıdan gizlətməyə çalışsa da, poetik ilhamından, şeirindən, qələmindən gizləyə bilmir. Və bilməz də!...

**Gizli məhəbbətlər gizli dərd olur,**
**Çoxu sevgisini ün edə bilmir.**
**Bəzən də bir ürək boşalır, dolur,**
**Ömrünü-gününü gün edə bilmir.**

Onun lirik məhəbbət qəhrəmanında Məcnunanə sevgi ruhu olmasa da, Məcnunanə sevginin səmimiyyəti, müasir insanın məişətinə, düşüncələrinə, duyğu imkanlarına uyğun gələn Məcnunanə sevginin paklığı var. Bu sevgidə sızıltı, sufiyanə ağrı, göz yaşı, tərki-dünyalıq yoxdur. Sevən bir qəlbin real iztirabları, duyğuları, düşüncələri, arzuları, sevinci var ...

**Dünyada tək sənin səsin deyilsə...**
**Səslər bolluğunda, bəli, karam mən...**
**Səni itirmişəm... Keçib... Nə isə...**
**Elə də, belə də günahkaram mən.**

Özünü sevgi, məhəbbət yolunda «günahkar» hesab edən lirik «mən» - sevgisinin günahsızlığında «görən kim öyrətdi sevməyi mənə?» sual dilemması qarşısında durur və bu sevginin real cavabı «əncir yarpaqlarının torpağa düşməsindən» onu diksindirən hənirtisidir. Bəli, ancaq sevən qəlb, sevən kəs və bir də sevən şair duyğusu, hissiyyatı torpağa düşən əncir yarpağının səssiz, lal «səsini» eşidə, duya bilər... Və torpağa bu cür «hay-harayla» düşən əncir yarpağı uzaqlarda qalan məhəbbətin həsrət yanğısını özünə büküb, sonsuzluğa aparır...

Şahməmmədin qələmi isə bu məhəbbətin həsrət yanğısını doğru-dürüst, emosional bir tərzdə bütün çalarları, rakursları ilə zəngin palitrada əks edə bilir... «Gizli xatirələr yatır içimdə, görürəm yaş keçir danışmaq olar...» - misrası ilə qəlbinin indi-

yədək heç kimə açılmayan kodlaşmış qapılarını açır, «məxfi sevgi şrifləri» poetik hissin açarları ilə bir-bir aşkarlanır. Bu günümüzün sevən bir adamının mənəvi-etik, əxlaqi-psixoloji yaşantıları şeirdən-şeirə calanır, qəlbi yandıran «gizli məhəbbəti» ürəkdə yazılan poetik gündəliyinə çevirir.

**Adi gündəliyə bənzəməyən bir,**
**Gündəlik yazmışam ürək odumla.**
**Bu ömür dəftəri bircə nüsxədir,**
**Bəzənir, daranır sənin adınla.**

Məhəbbətin doğruluğu, hicran, ayrılıq iztirabları heç vaxt mahiyyətini dəyişmir, amma poetik ifadə üsulunu, tərzini, əksetmə məqamını dəyişə bilər. Hər bir zaman və məkan daxilində, hər bir məqamda onun təbiətinə uyğun duyğular sistemi mövcuddur. Vaxtilə Məcnun-Leyli qarşılığında onlar öz iztirablarını, duyğularını, dərdlərini səhər nəsimisinə, aya-ulduza, pərvanəyə-şama, Kərəm Ərzurumun gədiklərinə, keçdiyi çaya, durna qatarına, dumana-çənə söylədiyi müasir məhəbbət Məcnunun və ya Kərəmin dərdini müasir dövrün obrazlarına-telefona, maqnitofon lentinə, şəkillərə, videolentlərə, teleqram və məktublara, uzaq məsafələri yaxın edən təyyarəyə, ümumiyyətlə, çağımızın kommunikasiya əlaqələlərinə müraciət edir, obrazlar yeniləşir, təşbehlər orijinal bir tərzdə səslənir, hissin müxtəlif çalarları yaranır, hisslər təzə «köynəkdə» üzə çıxır... Vaxtilə Gəncədən Ərzuruma aylarla, illərlə Əsli sorağına çıxan qəhrəman, dəvə ayağı ilə karvan yollarından keçən Kərəm səfərləri indi tutaq ki, Bakı ilə Moskva arasından iki saatlıq təyyarə səfərlərinə çevrilir, lirik «mən» yollarda, təyyarələr qarşılamaqla, yolasalma mərasimlərində, telefon xətlərindən gələn səslərin tonunda özünü tapır, özünün mənəvi aləminə dalır... Və bu sevgi, məhəbbət səyahətləri ömür keçdikcə gah qara, gah yağışa düşür, son anda səmimi bir sevginin «ağ çiçəyinə» çevrilir, ömrün baharında açır, payızında hicranın xəzanında düşür:

**Mənim ağ çiçəyim, yara yananım,**
**Yar yara yar deməz, yarı yanmasa.**
**Yan, yandır, odunda alışım, yanım,**
**Yara yar demərəm, qarı yanmasa!**

Göründüyü kimi, müəllifin bu şeirində də əksər şeirlərində olan cəhətlər var (apleterasiyadan, səs-ün uyarlığından bacarıqla istifadə etmiş hissin polifonik çalarlarını üzə çıxarmış, poetik dramatizm fonunda saf, ülvi məhəbbəti uğrunda yanan lirik «mən»in psixoloji ovqatını dürüst poetik detallarla əyaniləşdirmişdir).

Ümumiyyətlə, Şahməmmədi bir şair kimi səciyyələndirən də bu adilik, dürüstlük və reallıqdır. O, həmişə doğma, ideal harmonik və dinamik enerjiyə malik heca vəzninin havacat, ahəng kökündən, real, dəyişməz, heç bir aşınmaya məruz qalmayan ölçülərindən kənara çıxmasa da, maraqlı budur ki, poetik fikrin ifadəsində olduqca sərbəstdir. Yəni o, istədiyi həyati detalda gizlənən poetik mənanı sərbəst, izafi güc sərf etmədən, ilhamını-iradəsini zorlamadan tapır, görür, duyur və şeirə gətirir. Özü də, gördüyü, duyduğu əyaniliyə, təhrifə yol vermədən, dürüstlük və aydınlıqla bu və ya digər həyati detalla poetik çaları, rəngi, cizgini və çeşnini görmək, duymaq, hiss etmək və sərbəst şəkildə ona poetik-estetik, məna, mahiyyət vermək sənətin və sənətkarın əsas cəhətlərindən, özünəməxsus orijinal xüsusiyyətlərindəndir.

Şahməmmədin poetik yaradıcılığı ilə başdan-başa tanış olandan sonra adama elə gəlir ki, o, bir şair kimi istədiyi mövzuda əsər yaza bilər, özü də özünəməxsus orijinallıq və sərbəstliklə...

Və bu onun yaradıcılığında əsas üslubi-keyfiyyət səviyyəsinə yüksəlir və zəngin mövzu rəngarəngliyi yaradır. Bu mövzuların əksəriyyəti poeziyanın əbədi-əzəli mövzuları olsa da, Şahməmməd onlara öz yozumunu, öz duyumunu, öz hissini yoğurub qatır, tamamilə yeni, orijinal, təzə-tər, özününkü olan yaradıcılıq nümunəsi ortaya çıxara bilir.

Şahməmmədin əksər şeirlərində demək olar ki, yalançı pafos, yaxacıran temperament, süni patetika yoxdur. Onun poeziyası sakit, həlim, dağ havası kimi təmiz, saf, inandırıcı və səmimi bir poeziyadır. Şairin özünə, öz şəxsiyyətinə, davranışına, həyatda, ailədə, işdə, cəmiyyətdə tutduğu mövqeyə uyğun-vicdanlı bir poeziya ...

Qeyd etdiyimiz kimi, müəllifin hər hansı bir qələm sahibinin, xüsusən şairin şəxsiyyəti ilə onun yaradcılığı, poetik fakturası birləşib qovuşanda, bütövləşəndə daha səmimi, daha inandırıcı, daha ürəyəyatımlı olur. Həyatda bir cür yaşayıb, şeirində lirik «mən»ini başqa cür təqdim edən şair ömrü müqəvva illüziyası yaradar. Poetik hissi peşəkarlıq hesabına nə qədər bəzəsə də, peşəkar tənqidçi, ayıq oxucu gözündə saxta olduğu tez üzə çıxır.

Bu cəhətdən Şahməmmədin şair bəxti gətirib. Doğrudur, onun şeirləri arasında elələri var ki, zəifdir, ifadə və bədiilik cəhətdən qüsurludur, təşbehləri yerinə düşmür, poetik məntiq pozulur və s... Bunlar təbiidir və onun yaradıcılığı canlı bir orqanizm olduğundan qüsurlardan da xali deyildir. Lakin Şahməmmədin hissində, şeirində, yaradıcılığında sünilik, saxtalıq, kənardan bulanıq şırnaq yoxdur. Onun poeziyası onun özününküdür, yaxşı və qüsurlu cəhətləri ilə... Onun öz şair şəxsiyyətinin təsdiqidir və bu şəxsiyyətin poetik salnaməsi, lirik «mən»ini, lirik portretini aşkarlayan cizgiləridir...

Özü demiş:

**Burda uşaqlığım, burda gəncliyim,**
**Burda keçmişimin sorağı yatır.**
**Burda yorğunluğun, burda dincliyin,**
**Yazılmış, pozulmuş varağı yatır.**

Şahməmmədin poetik portretini səciyyələndirən xüsusiyyətlərdən biri də, kökləri milli ənənəmizdən, mənəviyyat səliqə-sahmanından gələn kişiliyi, dürüstlüyü, xeyirxahlığı, təmizliyi –

əsl türkə, əsl insana xas olan bütün müsbət mənəvi keyfiyyətləri canlı bir şəkildə əks etdirmək istəyidir. Və yəqin ki, bu onun özünün də bir yaradıcı şəxsiyyət kimi xarakterinin əsas faktlarındandır. Bu lirik «şəxsiyyət», lirik xarakter incədir, duyumludur, ürəyində bütün keyfiyyətləri cəmləyə bilir, «biri xeyirxahlıqdan başına sığal çəkəndə, gözündə dünyanın rəngi duyulur», «ömrün hesabatını verir, zamanla yanaşı yol getməyi» bacarır, bir «nadan dosta» sərf elədiyi ömrə heyfsilənir, uman yerdən küsəndə kövrək qəlbi ilə bu küsülülüyə dözmür, o qədər həssasdır ki, bu naqafil kəlmədən sınır, hamıda doğmalıq, məhrəmlik axtarır, millətinin bəlalara düşməsindən az qala «qəlbinin çırağı sönür», dünyanın bu cür qarışmasını, insanlığın sozalmasının, acgözlüyün, hərisliyin, imkanlının xəsisliyinin ayaq tutub yeriməsini, artımını, mənəvi fəlakətlər doğurmasını özünə dərd edir, mövcud gerçəkliyimizdə şeytanlığın, şeytanların artımına ən azı təəccüblənir - ümumiyyətlə, poeziyasında «MƏNLIK» uğrunda mübarizəyə qalxır:

**Mənim mənliyimi qorusan əgər,**
**Sənin sənliyində heykəlləşəcək.**
**«Mən»likdir, «sən»likdir, ən yüksək dəyər,**
**«Mən»likdir, «sən»likdir təzə, tər-çiçək ...**

**Mənlikdir insanın başının tacı,**
**Bu adla saçımız tel-tel ağarır ...**
**Kimisi dünyada «mən»lik möhtacı,**
**Kimi də dünyada «mən», «mən» çağırır ...**

Yaradıcı insanın özünüdərk yolunda öz iç dünyasını, öz «mən»ini tapmadan, kəşf etmədən, «mən»liyə sığınmadan bəşəri duyğular aləminə yol açmağı olduqca çətindir. Şahməmməd ümumilikdə götürəndə, bütün yaradıcılığında öz iç dünyasından, poetik «mən»indən ətrafa boylana bilir. Ləngəbiz kəndinin dağlarından «Dəvə yolu»na, oradan da bəşəri-milli problemlərin geniş karvan yoluna çıxa bilir.

Yəni şair, müəllif o vaxt səmimi, onun dediyi o vaxt dəyərli, inandırıcı, milli və bəşəri olur ki, o, dünyanı dərk etməzdən qabaq öz dünyasını, öz iç aləmini, mənəviyyatını dərk edir və onun şeirlərin başlanğıcını yaradıcı «mən»ini özündən götürür. Çünki bu «mən» poetik şəxsiyyətdir, cəmiyyətin və ətraf mühitin dəyərli bir parçasıdır və ya başqa sözlə desək, bəşəri problemləri öz iç dünyasında gəzdirməyi bacaran bir şəxsiyyət tipidir ...

Elə bu xarakterik cizgiyə görə də şair olan kəs «nar kimi qəlbini kağıza sıxa bilir», «ağappaq qar kimi qəlbi üşüyə bilir», poetik məntiq oraya gəlib çıxır ki, «dünya ulduza kimi onun olur», «yer şarı mənzilinə, üfüq pəncərəsinə» çevrilir! Və onun bütün varlığı şeirə bağlanaraq, «dumduru göylərə açılan bir şair ürəyinin» poetik hekayətinə dönür.

**Dedilər, dövlətim, varımdı şeirim,**
**Sevgim-sevincimdi, yarımdı şeirim.**
**Göynədən, göyərən yaramdı şeirim,**
**Bir dəli çay kimi axasıyam mən!**

*Qurban BAYRAMOV*
*Ədəbiyyatşünas-tənqidçi*

## YOLLAR HEÇ ZAMAN QURTARMIR

«Cığırlar yolların davamıdır, cığırlar yolları - yollara calayan izlərdir».

Şair Şahməmmədin «Sevməsəydim, yaşamazdım» şeirlər kitabındakı ön sözdə məni bu sətirlər cəlb elədi. Böyük poeziya meydanında cığır, lap balaca bir iz olmağın özü də böyük bir səadətdir. Düşünəndə ki, bu meydanda Nizami, Füzuli, Nəsimi, Sabir, Hadi, Səhhət, S.Vurğun, R.Rza, Ə.Kərim, M.Araz var, doğrudan da bu yolun yolçusu olmaq, bu yolla əbədiyyətə baş alan o böyük karvanın adi müsafirinə çevrilmək böyük

bir şair ömrü tələb edir. «Taleyimlə əl-ələ verib gedirəm bu yollarla. Kəlmələrim, sətirlərim, kitablarım, övladlarım çiyinlərinə götürüb aparır məni bu yollarla. Aparır, aparacaq əvvəli və sonu görünməyən yollarla! Bu sətirlər də Şahməmmədindir.

Mən Şahməmmədin «Sevməsəydim, yaşamazdım» şeirlər kitabını son səhifəsinədək oxudum. Bir tənqidçi kimi açığını deyim ki, onun şair obrazını gözlərim qarşısında canlandıra bildim. Bu şair obrazında çağdaş poeziyamızın şeirə bağlı fədaisini gördüm. Fədai sözü ola bilsin artıq səslənir, bəlkə işçil, bütün günü əlləşib-vuruşan, güldən-çiçəkdən şirə toplayan arı desəm, daha yaxşıdır. Və bu şeirləri oxuyub başa çatdırandan sonra mənim üçün Şahməmmədin şair səviyyəsi də aydınlaşdı. O, iddiasız, təkəbbürsüz şairdir, şitil kimi poeziya ləklərinə süni olaraq sancılmayıb, ədəbiyyata kimsənin yedəyində gəlməyib. Ən nəhayət, biləndə ki, onun çiyinlərində polis poqonları bərq vurur, bir az da təəccübləndim: Belə ürək sahibi - bu şeirlərin müəllifi heç cür polis ola bilməz. O, öncə şairdir!

**Təbiət buludları**
**Doğrayır tikə-tikə.**
**O məğrur qayaları,**
**Boğça paltarı kimi**
**Öz ağ bağlamasına**
**Sakitcə**
**Bükə-bükə -**
**Qar yağır...**

Qışın qarı - bu qarın təmizliyi, ağlığı, saflığı, gözəlliyi. şeirimizdə belə sakit qar çox yağıb. Həzin-həzin ... Və qarı göylərin ağ dənizinə də çox bənzədiblər. Bəs «Göylərin ağ dənizi» şeirindəki qardan Şahməmmədə nə qalır? Baxaq görək:

**Ümidlərə qar yağır,**
**Kəlbəcərə, Şuşaya.**
**Cəbrayıla qar yağır.**
**...Çadır şəhərlərinin**
**Kürəyinə qar yağır.**

Qar təmizliyi, qar paklığı birdən-birə qəm-qüssə gətirən bir duyğu kimi ruhumuza yağır.

Şahməmmədin təbiətdən cəmiyyətə və eləcə də cəmiyyətdən təbiətə boylanan belə şeirləri az deyil. Xüsusilə təbiətdən danışan şeirlərində o, daha təbii təsir bağışlayır, çünki təbiət, doğulduğu kənd, o kəndin otu, gülü, çiçəyi, yolu, cığırı, daşı, kəsəyi xatirələrində əbədi ünvan tapıb, yəni kənddən yazanda, Şahməmməd əslində özündən yazır. Şair özündən yazanda da ya təkəbbürlü olur, onun məhdud eqosentrizmi ön plana keçir, ya da təbiəti içindən keçirir, təbiiləşir. «Mənə dağlar qaldı» - şeirinin adı sənə o şair haqqında nəsə pıçıldayır.

Elə bircə bu misra çox söz deyir: «Şamaxı payızı qızıl payızdı». Bütün şairlər kənddən yazır. Amma Şahməmməd qədər çox, hərtərəfli, ətraflı, sevə-sevə yazan yoxdur.

Şeirlərinə kəndin quruca adını yox, çiçəyini, gülünü, qayasını, çəmənini, qərib bulağını və nəhayət, ana sevgisini, ata sığalını, bacı-qardaş məhəbbətini gətirir.

**Ana, kənddən gələr olsan,**
**Bir udumluq hava gətir.**
**O dağların yamacından,**
**Bir az dərman-dava gətir.**

**Gəz quzeyi, gəz güneyi,**
**Yığıb gətir kənd-kəsəyi,**
**Istəmirəm bər-bəzəyi,**
**Nə gətirsən saya gətir.**

Ləngəbiz kəndi Şahməmmədin doğulduğu ocaqdır, yurddur və bu kəndin təbiəti də, adamları da, bu kəndlə bağlı xatirələr də onun şeirlərində öz təbii görümü ilə canlanır. Kitabına yazdığı müqəddimədə şair bu kənddən ürəkdolusu, oğul məhəbbətilə söz açır. Və çox güman ki, poeziyamızın xəritəsində bu adı, bu ünvanı əbədiləşdirən ən yaxşı şeirlərini də Şahməmməd bundan sonra yazacaq.

Kitabdakı şeirlərin bir mühüm məziyyətini də qeyd etməyə dəyər. Bu şeirlərdə bizim ustad şairlərdən gələn, lakin təqlidə, usandırıcı təkrara yol açmayan, bununla da şair fərdiyyətini təsdiqləyən ənənəvi məqamlar yaşayır. Şeirlərdə Əli Kərim, Məmməd Araz, Bəxtiyar Vahabzadə şeirinə yaxşı mənada rəğbət var, amma təkrar yoxdur. Çünki təkrar olan yerdə sənət bitir. Şahməmməd bu həqiqəti dərk edir.

Şahməmmədin sevgi şeirləri də təbiidir. Ola bilsin, bəzi şeirlərinə şair öz ürək odunu qata bilməyib, amma bir damla da bəs edər. Onun şeir dilindəki aydınlıq, səmimilik əsas məqamlardan biridir.

Qoy bu sərrast poetik misralar Şahməmmədə çıraq tutsun! Şahməmmədin «Arxalı dağlar» poeması onun bütün yazdıqlarının və bundan sonra yaza biləcəklərinin poetik nəqərratıdır desəm, səhv etmərəm. Şairin bütün mənəvi dünyası, kökə, ilkinliyə, ocağa bağlılığı, yurda sevgisi, dünyaya, insana məhəbbəti bu poemada əbədiləşib. Ata ömrü, bir kəndin keçmişi və bu günü, hətta gələcəyi, oğul sevgisi poemadan sətir-sətir boy atır.

**Axı kənd neyləsin, ağac neyləsin,**
**Əgər uçubdusa qaranquşları?**

Bu iki misra poemanın leytmotividir, şair fikrinin ən sərrast ifadəsidir. Dünən də kəndin, yurdun qəribsəməsindən söz açırdıq, indi də. Bəlkə də torpaqlarımızı itirməyimizin faciəsi

bundan közərib.

Yollar heç zaman qurtarmır! - Bu da Şahməmmədin poeziyaya gətirdiyi sözüdür. Şair üçün yol qurtarmırsa, ömür də qurtarmır. Əli Kərim demişkən: «Səfərdədir həmişə». Qoy ömür yolu şeir yoluna, şeir yolu ömür yoluna çevrilsin Şahməmmədin...

***Vaqif YUSIFLI***
***Filologiya elmləri doktoru***

## ŞAH PƏRDƏLƏR ÜSTÜNDƏ

Əvvəl-axır xatırladaq ki, son illər poeziyamızda gənclərin yaradıcılığı xeyli inkişaf etmişdir. Azərbaycan şeirinin əlvan mövzuları, çalarları, sınaqlar görmüş sənətkarlığı sıxlığında kiminsə imkan tapıb gözəl şeirlər yaratması sadə bir iş deyil, hünər və istedad tələb edir. Get-gedə şair olmaq çətinləşir, təzə söz, təzə nəfəs tələbi indi qarşıda daha inadkarlıqla dayanır.

Olduqca xoşdur ki, bizim Şahməmməd adlı şairimiz poeziya sıxlığında, axtarışlar bolluğunda, şeirimizin təşəkkülü dövründə özünü təsdiq etdirə bilmiş, imzasını yaddaşlarına möhkəm həkk etdirmişdir. Onun «Araz» Ali-Ədəbi mükafatına layiq görülməsi tamamilə təbiidir. Mən bunu tərəddüdsüz deyirəm. Biz bəzi tanınmış şairlərdən elə də aralana bilməyib, son doğulmuşlara diqqətsiz oluruq. Bu daha çox mənə aid olan qüsurdur. Şahməmmədin «Xatirələr ocağının işığında», «Sevməsəydim, yaşamazdım», «Nastalo vremya», «Dağlar, səndə nəyim qaldı?» şeir kitabları çoxdan oxuculara təqdim olunmuşdur. Mən isə onu təsadüfən əlimə düşən «Çaylar geri dönmür» kitabında tapdım və iftixar hissi keçirdim ki, bizim belə bir şairimiz var.

Hərəsi bir dəftər qalınlığında 50 kitabın adını çəkmək olar. Şahməmmədin həm də xatirələr, bioqrafik məlumatlarla zən-

gin olan 5 kitabının hərəsi azı bütöv bir cildə bərabərdir. Poeziyada həcm doğrudanmı şərtdir? Bəli, həcm həqiqi poeziya nümunələrini əhatə edirsə, şərtdir - özü də sevindirici şərt! Həcm həqiqi şeir nümunələrini əhatə etmirsə, 500 kitabın da xeyri yoxdur. Bu hər hansı müəllifin eybinə kor olmayıb uğursuz cəhdləri ilə öz gərəksizliyini gələcək üçün sənədləşdirməsi deməkdir. Şahməmməd şeirlərinin birində deyir: «Ürəyimi buraxın bir çiçəkli çəmənə». Nə qədər gözəldir! Sözün tutumu heyrət doğurur. Hiss edirsən ki, bu ürəyə dünya ağırlığı çökmüşdür; hiss edirsən ki, bu ürək dünya ziddiyyətlərindən təngə gəlmişdir; hiss edirsən ki, şairin ürəyini dövrümüzün pozulmuş mənəvi ekologiyası əzmiş və ürəyin mühitini korlamışdır. Əslində, ürəyinə çiçəkli çəmən arzulayan Şahməmməd hamımızı ifadə etmişdir. Indi hər kəsin ürəyi yük altındadır, dincəlmək, sağalmaq istər.

Mən sənətkarlıqdan misal gətirdim, şeirdə mənim üçün bu, çox əhəmiyyətlidir. Amma mövzusuz sənətkarlıq yoxdur. Bu ikisinin vəhdətində şeir şeir olur.

Şeir kitabı haqqında yazmaq çətindir, hər şeiri bir təhlil gözləyir, ümumi istiqamətlərə söykənməyə məcbursan.

Şeirlərindən və qeydlərindən görünür ki, Şahməmməd yüksək intellektə malikdir. Dünyanın, insanın problemlərini bilir, nəhəng söz ustalarına bələddir, bir sıra ölkələrdə olmuş, bu məmləkətlərin tipik cəhətlərini mənimsəmişdir. Lakin o, öz bağçasının bülbülüdür, birinci növbədə özünün Vətən adlı bağbağçasında cəh-cəh vurur, səyahətlər şairi deyil, heç də o, yazarkən dünyanı bir kənara qoymur, dünyanı öz şeirlərinə Azərbaycanın mənafeyi naminə gətirir, uzaq səsləri Azərbaycan bülbülünün cəh-cəhində əridir. Şahməmməd birinci növbədə «Qarlı dağlar», «Vətən... Vətən...» deyə haray qoparır, Azərbaycan haqqında «mənimkisən, səninkiyəm» deyir, «Ilanlı dağ»dır onun nəğmələrində ucalan. Şahməmməd nadir şairlərimizdəndir ki, doğulduğu məkan-gözəl Şirvan torpağı onun

üçün mövzu baxımından bir dəfinədir. Bu deyilənlər Şahməmmədin «Çaylar geri dönmür» kitabında birinci mühüm istiqamətdir, ikinci mühüm cəhəti sənətkarlıq, sözlə ustad səviyyəsində rəftar təşkil edir:

**Yaşıl düzlər, yaşıl bağlar,**
**Şaldı dağlarda-dağlarda.**
**Qəribsəmiş ocaq daşı,**
**Xaldı dağlarda-dağlarda.**

Birinci, ikinci xətlərdəki bənzətmələr olan şeylərdir, mənzərədir. Amma bu xalabənzər qəribsəmiş ocaq daşı tale nəğməsidir, xatirələrin, arxada qalan hər hansı tarixin səsidir. Yaylaqlar, yaylağa köçüb öz-özünə yurd yeri seçənlər, yumru daşları baş-başa qoyub onların arasında ocaq çatanlar, ocaq hisindən qaralıb insan buraları tərk edəndən sonra ona əziz günləri xatırladan daşlar-xallar ... Şairin adını xal qoyduğu daşlar bizlərə buralardan köçüb getmişləri, bəlkə də hansı təcavüzdənsə can qurtarmışları xatırlatmırmı? Sevilən, anılan şeylər detalları ilə sevilib, anılır. Detalları cazibədən məhrum olan gözəllik yoxdur. Tapılmış, yerinə düşmüş, bənzədilən, düzgün ifadə eləyən bənzətmə - bircə «xal» sözü bizi nə qədər həzzə və düşüncələrə apardı. Şahməmmədin əksər şeirlərində xəyalı qanadlandıran incəliklərlə qarşılaşmaq mümkündür.

Şahməmmədin şeirlərində bir növ hecalı şeirimizin sərbəst şeirimizlə qovuşuğu üzə çıxır. Onun sərbəst dediyimiz şeirləri bir növ şərti sərbəstlərdir. Bölgülər gözlənilir, sadəcə qafiyələrlə qafiyələr aralı düşür. Şahməmməddə bütün bunlar fikri çevik çatdırmaq cəhdlərindən irəli gəlir.

Qaynarlıq, qızğınlıq, qaynarlığın, qızğınlığın sürətli ifadəsi Şahməmmədin şeirlərində müstəsna bir keyfiyyətdir. Yaxşı mənada poetik fikrin həllinə, qəlbi kağızlara səpələməyə tələsir. «Ilanlı dağ», «Ümid dolu bir səhər», «Iki pələng heykəli»

şeirlərində olduğu kimi. Seyrək qafiyəli bu şeirlərdə hətta bircə qafiyə işlənməsə belə, eyni həzzi almalısan. Çünki niyyət gözəl, nəfəs təravətli, şairin tələsdiyi ünvan müqəddəsdir.

**Əlim çatmır o sahillərə ...**
**Ayılıb görürsən**
**Bir sən qalmısan,**
**Bir də xatirələr.**
**Qoy söndürüm işığı,**
**Bir azdan açılacaq səhər ...**
**Ümid dolu bir səhər.**

Sənətdə bir estetik ideal tələb var. Nə demək istəyirsən, necə deyirsən, həyatda tələbin nədir, gecələrin, gündüzlərin yaradıcılıq məşəqqətlərinə nəyin xatirinə dözürsən? Burda xidmətlə şöhrət qarşılaşır. Istedad varsa, şöhrət əhəmiyyətsiz olur, əlbəttə, nisbi mənada. Əlində istedad varsa, xidmət şöhrəti də gətirir. Və istedadlılar qiymətini xidmətdə tapır, onun birinci qazancı xidmətdir. Şahməmmədin kitabında estetik ideal baxımından «Şamaxı dəftərindən» silsilə şeirləri qızıl xəzinədir.

Məni bir yazı-pozu adamı kimi şeirimizdə narahat edən məsələlər çoxdur. Bu günləri təhriflərlə təsvir edən bəzi şairlərin qələmindən sonralara bir yığın ağılar-ağlaşmalar qalacaq. Mən demirəm ki, dövrümüzdə hər şey yerli-yerindədir. Amma gəlin görək lirikası, bu lirikanın inciləri ilə öz dövrlərini zənginləşdirən klassiklərin zəmanəsində hər şey yerli-yerindəmi olmuşdur? Füzuli, Xaqani, Nəsimi, Vaqif məgər dərdsiz dövrlərdəmi yaşamışlar? Poeziya əslində öz dövrü ilə vəhdətdə ümumiləşmə yükü daşıyır. Əgər bu gün bəziləri, xüsusilə müxaliflər qismindən bəziləri ağlaşma qurmuşlarsa, onlar bütövlükdə öz müasirlərini təhqir etmirmi, doğrudanmı bircə onlar bəşəri səviyyədə durmuşlar, qalanları kor-küt, ruhsuz, zövqsüz, mübarizəsiz adamlardır. Hər şair dövrünə işıq salmaq

üçün yaranır, qaranlıq gətirmək üçün yox. Doğrudanmı çaylarımız axmır, quşlarımız oxumur, gözəl qızlar doğulmur, lalələr, qərənəfillər doğrudanmı yoxa çıxmışdır? Doğrudanmı bu ağlaşma quran şairlərin həyatində ağac çiçək açmır, kəpənək uçmur? Doğrudanmı bunlarda poeziya yoxdur? Heç barışa bilmirəm ki, sızıltılar, iniltilər irsi ilə məşğul olanlar sənət yaradırlar. Estetik ideal qəbul etmir hər növ eybəcərliyi.

«Çaylar geri dönmür» kitabı məndə ümidlər doğrultdu. Şahməmmədin poetik məqsədi, estetik idealı bəşəri idealdır. «Şamaxı dəftərindən» göründüyü kimi, Şahməmməd xalqını şah pərdələr üstündə kökləməyə çalışır. «Gün batana bir az qalmış», «Ağlaya bilmirəm», «Əlvida, ey bahar», «Eldar şamı», «Fikrət Sadıqla görüş» və bu kimi yüzlərlə şeir şah pərdələr üzərində yazılmışdır. Bu, şairin qərarından yox, ürəyindən gələn təşəbbüsdür. Şahməmmədin ürəyi tərənnümdə şah pərdələri tələb edir, o, yurda duyğuları şah pərdələrlə bölüşür. Bu, xalqa, mənsub olduğun torpağa, torpağın və xalqın taleyinə məsuliyyətdən irəli gəlir. Şah pərdələr üzərində dinən şeirlər heç də həmişə Vətənin boyuna libası tər-çiçəklərdən biçmir, ona kədər də yad deyildir. Düzdür, əsasən şah pərdələr hər kəsin dəstinə qızılgül bəxş edir, amma müqəddəslərin də qəbrinə qərənfilləri şam kimi sancır. Məkrdə, qaranlıqlarda ləngimək bu şeirin proqramına yaddır. Məni düzgün başa düşün, şah pərdələr şairi çal-çağır şairi deyil, dərdlərindən onun da infarktı var, ağrı-acılarından onun da göz yaşları selləmə gedir. Lakin o, ahlar-ufultularla məğlubiyyətlərin ağuşuna atılmaqdan uzaqdır, o, şərin qəhqəhəsinə imkan verə bilməz. Imkan verə bilməz ki, şeir çamırlığı ilə xalqın dirçəliş gücü, qurtuluş iradəsi güdaza getsin. Bu mövqeyi itirməyə «şairəm» deyənlərdən heç kəsin haqqı yoxdur. Şah pərdələr şairi xalqa daim dirilik, ölməzlik təlqin edir. Məğlubiyyətə elə işıq salır ki, şərin bağrı yarılır.

**Mənim on yeddi yaşım vardı.**
**O zaman elə bilirdim ki,**
**Səni torpaq yox,**
**Mələklər apardı.**

Fiziki və mənəvi cəhətdən elin dayaqlarından olan Etibar kişi bu gün dünyasını dəyişir, onu «mələklər aparır». Məgər hamını mələklər aparır? Yox! Etibar kişini, bütün həyatını və ürəyini elinə-obasına sərf edənləri mələklər aparmalı idi ki, əcəl sevinməsin, ömrün işığı faciəni sarsıtmış olsun.

**Qırıb məzar daşlarını,**
**Söküb torpağı,**
**Qaldırmaq istəyirəm səni.**

Bax, budur şah pərdənin təqdimatı. O, tərənnümə də biganə deyil, bahar yağışlarına, sünbüllü zəminin dalğalanmasına, gözəl qızın nazlı yerişinə də biganə deyil, Etibar kişinin vəfatına da biganə qala bilməzdi. Şairin qayəsində, estetik idealında bütün bunlar eyni xəttə məxsusdur. Bunlar gözəlliyin mövcudluğunda, süquta uğramış gözəlliyin ölməzliyində qovuşurlar.

**Dağılacaq dünya,**
**Sənin kimi**
**Qocalar olmasa.**

«Nuruş baba» şeirində də Şahməmməd mərdliyi, igidliyi, xeyirxahlığı bu dünyadan getməyə qoymur. Daha bir dünyasını dəyişmiş qoca Nuruş kişinin - bu canlı abidəsinin strukturunu, memari xüsusiyyətlərini, ornamentlərini, daşı və kərpiclərini Şahməmməd ürək ağrısı ilə misralara yığıb dünyada qalanlar üçün saxlayır. Bu da şah pərdələr şeiridir.

**Yol gedirəm, qar yağır, qar,**
**Gün batana bir az qalmış.**
**Dağlar mənə əl uzadır**
**Gün batana bir az qalmış.**

**Xatirələr dönüb dinir,**
**Ağ zirvələr yanıb, sönür ...**
**Üfüqlər al-qana dönür,**
**Gün batana bir az qalmış.**

Çox gözəldir!

«**Ayazlı, şaxtalı bir qış axşamı,**
**Yeddi qardaş olub yola düzəldik,**
**Qarlarla örtülü bir düzə gəldim ...».**

«**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən».**

Mən böyük Səməd Vurğundan bu misraları təsadüfən mətnə daxil etmədim. Bizdə şeir var ki, onun dili yox, ürəyi danışır, onun nitqi içərisindədir, onun poetik məqsədi melodiyasına bürünmüşdür.

Şahməmmədin misal gətirilən şeir parçalarının da ürəyi və nitqi içərisindədir, poetik məqsədi melodiyasına bürünmüşdür. Məgər bu melodiyada tale yoxdur, dünya gözəlliyi yoxdur, dünya vəfasızlığına təəssüflər yoxdur? Uzaqda ağaran dağlar, bu dağların zirvəsini közərdən qış günəşi, tənha yolçuya əl uzadan dağlar məgər bir şey demir? Bu elə anların, elə təbiətin təsvirləridir ki, dərhal ruhu başdan alır. Yaşadığın dünya barədə, qarşına çıxan heyrətlər barədə də dərin düşüncələrə dalırsan. Bax, bu şeirdir, şah pərdələr şeiridir.

Beləcə, Şahməmmədin bütün şeirləri üzərində dayanmaq olardı. Buna ehtiyac varmı? Onun poetik idealı heç də hamı üçün görünməyən kamil bir proqramdır. Hər şey yüksək sə-

nət tələbləri üzrə inkişaf edir. Şahməmmədin süjetli əsərləri də, xatirələr poeziyası da, məhəbbət lirikası da, poemaları da dəyərli sözə layiqdir.

Bəs biz şair dostumuzu heç tənqid etmədik. Şairin nəfəsində odun-alovun bolluğu bəzi şeirlərində onu tərənnümün təbiiliyindən sapdırır. Ocaq gur olanda nəyi yandırır, deyiblər? Özü fikirləşər.

«Çaylar geri dönmür». Bu çay isə müəllifə lazım olan məsafəni çoxdan keçib. Narahatlıq heç ağla gəlmir. Şair dostumuzdan yeni töhfələr gözləyirik.

***Məstan GÜNƏR***
***Dövlət mükafatı laureatı,***
***Şair-publisist***

## ŞAHMƏMMƏDIN ŞEIRLƏRI VƏ «KARVAN» POEMASI HAQQINDA DÜŞÜNCƏLƏR

Mən, şair Şahməmmədi çoxdan tanıyıram... «Gənclik» nəşriyyatında Baş redaktor işləyəndə Şahməməd nəşriyyata təzə-təzə gəlib-gedirdi. O, təvazökar, utancaq bir gənc idi, səhv etmirəmsə, həmin vaxt Şahməmməd Şamaxıda Pedaqoji məktəbdə oxuyurdu...

Illər keçdi. Şahməmmədin şeirləri respublika mətbuatında, almanaxlarda çap olunmağa başladı. Mən Şahməmmədin şeirlərində bir şeyin şahidi olmuşam, o nədən yazır yazsın, heç vaxt öz təmkinini itirmir. Çalışır ki, az sözlərlə böyük lövhələr yaratsın.

Məsələn o «Şeh» şeirində deyir:

**Çiçəklər, yarpaqlar, otlar mənzili,**
**O səhər nurudur yaşıl baharda,**
**Sayrışar, üzülər dünyadan əli,**
**Içilib öedəndə zər şüalarda...**

Sonralar Şahməmmədin «Dağlar, səndə nəyim qaldı?», «Nastalo vremya», «Sevməsəydim, yaşamazdım» adlı kitablarını oxudum. Şair öz üzərində həmişə çalışır, kitabdan-kitaba püxtələşir, kamilləşir. Bu yaxınlarda «Nəsimi» qəzetinin yeni nömrəsi əlimə keçdi. Qəzetin səhifələrində «Karvan» poeması çap olunmuşdu. Respublikamızın möhtərəm prezidenti Heydər Əliyevə həsr edilmiş bu poemanın həm poetik, həm də sənətkarlıq cəhətdən kamil bir əsər olduğunu duydum. Şahməmməd bu poemanın girişində yazır: «Soltan Hacıbəyovun «Karvan» simfonik löhvəsini dinləyərkən həmişə gözlərim önündə Azərbaycan xalqının müdrik, yenilməz, məğrur oğlu Heydər Əliyevin böyük amallar uğrunda apardığı mübarizələr dayanır».

**«Karvan» suitasın dinlədim bu gün,**
**Qəlbimin başında qəm kolu bitdi.**
**Özümə təsəlli dilədim bu gün,**
**Karvanlar gözümdə doğuldu, itdi...**

Poemada bu cür insanı düşündürən, onu gələcəyə səsləyən işıqlı misralar çoxdur, Şair poemasının son fəsillərində əsl məqsədə keçir.

**Karvanlar içində karvandır xalqım,**
**Ovsarı əlindən, əllərə düşüb.**
**Hardasa yatmışdı, oyandı xalqım,**
**Dağlara, daşlara bir nərə düşüb.**

«Karvan» poemasının qayəsi bu günümüz və respublikamızın ağsaqqalı, onun müdrik rəhbəri Heydər ƏliyevLə bağlıdır.

**Çalın suitanı, yerisin karvan,**
**Yerisin inamla saçların dən-dən.**

**Ey igid sərkərdə, ey böyük insan,**
**Yaxşı tanıyırsan bu yolları sən...**

«Karvan» poeması haqqında öz sözünü oxucular da deyəcək. Bu əsər şair Şahməmmədin ən uğurlu əsəridir. Poemanın Azərbaycan Respublikası Jurnalist Həmkarlar Ittifaqının «Araz» Ali-Ədəbi mükafatına layiq görülməsi də buna canlı sübutdur.

«Karvan» poemasında şair bu qanətə gəlir ki, müdrik dövlət başçısı xalqı öz ardınca aparmağa qadir olmalıdır. Əks halda, o, istəyinə çata bilməz. Poemada tarixi faktlar, tarixi şəxsiyyətlər əməlləri ilə bağlı ön plana çəkilir:

**Karvan! – o bir dünya, sahibi kimdir?**
**Karvan yol üstündə oddur, ocaqdır.**
**Çalın o nəğməni, o bir həkimdir,**
**Xəstə ürəkləri sağaldacaqdır.**

**Hər xalqın, hər dövrün öz rəhbəri var,**
**Sıxıb ürəyinin başına gedir!**
**İnsanı dünyaya inamı bağlar,**
**İnamın itdisə, dünyan da itir.**

**Qacar da gəlmişdi əlində yedək,**
**Çingizxan, İsgəndər, nə bilim, kimlər.**
**Kimlər də deyirdi: - Dünyanın gərək,**
**Qanını dəyişə alman həkimlər.**

Şair «Karvan» poemasında dövlət başçısına haqlı olaraq sərkərdə gözü ilə baxır və poemanı uğurlu sonluqla bitirir. Bu sonluğa biganə qalmaq qeyri mümkündür, onu şairin yazdığı kimi vurğulamaq yerinə düşmüş olar:

**Uzaqlardan**
**Gələn karvan,**
**Uzaqlara**
**Gedən karvan,**
**Bax beləcə,**
**Addımlayın,**
**Yeriyin siz.**
**Bu dünyanı**
**Lərzə salıb!**
**Sərkərdəmiz!**
**Sərkərdəmiz!**

**Büdrəməzsiz,**
**Yıxılmazsız**
**İndən belə, ulu karvan.**
**Boz dumanda, qum selində**
**Azmazsınız**
**İndən belə, yolu karvan.**
**Qorxutmasın sizi qumlar**
**Bax beləcə,**
**Addımlayın,**
**Yeriyin siz!**
**Yumruğunu**
**Dağlar kimi,**
**Qaya kimi**
**Düyünləyib**
**Sərkərdəmiz!**
**Sərkərdəmiz!**

**Yaşayarıq,**
**İndən belə udmaz bizi boz səhralar,**
**Nəhəng əlin kölgəsində,**
**Nəhəng əlin hərarəti**
**Bəsimizdir, ey insanlar!**

**Hər duyğunu,**
**Hər kəlamı**
**Duyuruq biz!**
**Əbədidir,**
**Müqəddəsdir**
**Rəhbərimiz!**
**Rəhbərimiz!**
**Üfüqlərdən**
**Çıraq kimi**
**Asıl Günəş!**
**Bu karvanın taleyinə**
**Doğan Günəş,**
**Qızıl Günəş!...**
**Gedir karvan,**
**Gedir zaman.**
**Ağır-ağır,**
**Aram-aram.**
**Qaysaq tutur**
**Dərin yaram**
**Qucaqlaşır**
**Günəş – Dəniz**
**Ağ Günəşdir**
**Rəhbərimiz!**
**Rəhbərimiz!**

Şahməmmədin yaradıcılığını izləyən oxucular ondan başqa bir sonluq da gözləyə bilməzdi.

Mən onun diqqəti cəlb edən yaradıcılığına bir şair kimi həmişə inanmışam və düşünürəm ki, bu fikrimdə yanılmıram.

Bir daha inanıram ki, səmimilik, sadəlik, təbiilik, sözü yerli-yerində işlətmək onun yaradıcılığından uzaq olmayacaq.

*Ilyas TAPDIQ*
*Şair*

## ŞAHMƏMMƏDİN MƏNƏVİ DÜNYASI

Əvvəlcə onu qeyd edim ki, mən tənqidçi deyiləm. Sadəcə olaraq, bir oxucu kimi Şahməmmədlə tanışlıqdan, onun yazılarını oxuduqdan sonra keçirdiyim, varlığımı silkələyən hisslərimi, odlu-alovlu, yanan-közərən fikirlərimi oxucularla bölüşmək istəyirəm.

Ilk tanışlıqdan sonra ilk düşüncələrim məni rahat buraxmadı. Qələm götürüb yazmağa başladım:

Dünyaya gələn hər bir insan özünəməxsus bir ömür yaşayır. Nisbi olaraq çox, ya da az yaşayan hər bir insan son anda - dünyadan narazı olur... Bəzən unudulur ki, hər bir insanın fiziki dünyası ilə yanaşı, mənəvi dünyası da var. Bəli, xoşbəxt o insandır ki, onun mənəvi dünyasının qapıları taybatay açıqdır. Şahməmmədin mənəvi dünyasının qapıları da beləcədir. Şahməmməd ilk öncə insan (əgər belə demək mümkünsə), sonradan şair doğulub. Inanıram ki, o, heç bir təhsil almasaydı belə, onun mənəvi dünyası qol-budaq atıb pöhrələnəcəkdi. Onun mənəvi dünyasının abidəsi onun özü tərəfindən bəlkə də özündən xəbərsiz doğulan sətirləridir. O sətirlər ki, böyük cazibə qüvvəsinə malikdir. Təəssüflər olsun ki, belə bir cazibəni hesablamaqda elm acizdir. Yəqin ki, bu, belə də olmalıdır.

Şahməmmədin bir şair kimi şeirlərində mənəvi varlığı güclüdür. Bu da yəqin ki, ilahi vergidir.

Mən Şahməmmədlə yazıçı-həkim dostum Ramiz Əkbərin vasitəsilə tanış olmuşam. Elə o vaxtdan da ona vuruldum. Onun mənəvi dünyasını kitablarından əvvəl danışığında, hərəkətlərində, sonra isə yazdıqlarında gördüm.

**Böyüksüz yaşamaq çətindir, çətin,**
**Bu zalım dünyanın qarı, qışı var.**
**Görünən görünməz hər səadətin,**
**Yaşıl qanadı var, qara daşı var.**

Yaxud başqa bir şeirində:

**Deyirəm, obasız, elsiz kiməm mən,**
**Vətənin nə vaxtsa daş balasıyam.**
**Vətənsiz bir ovuc soyuq küləm mən,**
**Meh əssə göylərə sovrulasıyam.**

Şahməmməd Azərbaycana, onun hər qarış torpağına, hər damla suyuna, dumanına, yağışına, qarına bağlı şairdir. Şeirlərində Şahməmmədin mənəvi dünyası yazdıqları ilə üst-üstə düşür. O, heç nəyi gizlətmir. Hər şeyi olduğu kimi, gördüyü kimi öz «kosmik» düşüncələrindən keçirir.

**Niyə unuduruq, niyə görmürük,**
**Bu qara torpağın soyuq qoynunu?**
**Siz, ey «mənləri» yox, taleyi çürük...**
**Unudun! Unudun şeytan oynunu.**

O, heç zaman dünyasında zəlzələ qoparan sözə, varlığını çarmıxa çəkən kəlməyə, təbiəti saz kimi bağrına basıb çalan küləyə, qayalarını duz kimi yalayan dumanına, torpağın bağrına sancılmış Günəşin şəfəqlərinə biganə qalmır. O, şeiri, sözü mahir bir zərgər kimi ölçüb-biçə bilir. Dünyaya sətirlər arasından əsl bir vətəndaş kimi baxır.

**Ürəyim çırpınır söz sorağında,**
**Sözü zərrə-zərrə çəkəsiyəm mən.**
**Bir həsrət yaşayır könül bağımda,**
**Nə qədər canım var çəkəsiyəm mən.**

**Bir heyrət heykəli yondurub bahar,**
**Dağlara don biçib, yan durub bahar.**
**Gülləri şam təki yandırıb bahar,**
**Bir çiçək çök desə, çökəsiyəm mən.**

Doğulduğu Ağsu rayonuna yaxınlaşarkən dağların qoynunda avtomobilin radiosunu açan Şahməmməd ecazkar dalğaların sehrində dağlara hopmuş Azərbaycan kəlməsinin sonsuzluğunu, böyüklüyünü vəsf edir:

**Ulu səsin sehri tutub ənginlikləri,**
**Azərbaycan dalğasını uddu yamaclar.**
**Göz önündə axıb gedən zənginlikləri,**
**Işıq əlli, işıq dilli, Günəş qucaqlar.**

Çalışdığım Azərbaycan Müəllimlər Institutundakı Əmək və peşə təlimi kafedrasının əməkdaşlarının həmin kitablardan aldığım mənəvi qidaya güclü maraq göstərmələri də məni təəccübləndirmədi. Hər dəfə onunla görüşəndə oxuduğum şeirlər barədə qısaca da olsa fikirlərimi bildirirdim. Onlar mənimlə həmfikir olurdular. Bir gün iş otağında Şahməmmədlə görüşdüm. Xeyli söhbət etdik. Görüşün sonunda siyirtməni açaraq, qalın bir kitab çıxarıb müəllif fikrini yazdı və mənə hədiyyə etdi. «Yerlə Göy arasında» adlanan bu kitabda mənə müəllif tərəfdən ünvanlanan sətirlər:

«**Şahrza müəllim!**
***Bu gündən etibarən sizin kitabxananın bir kitabı da artmış oldu. Inanıram ki, bu kitab sizin kitabxanada özünə isti bir yuva quracaq. Bu isti yuva sizin isti əllərinizin nəfəsi ilə hər dəfə yenidən yaşayacaq. Sizə uğurlar, səadət və cansağlığı arzulayıram!»***

***Müəllif***

«Mərhəmətli və rəhmli Allahın adı ilə», «Yerlə Göy arasında» adlı kitabda özünə yuva qurmuş fikirlərin mahiyyəti ilə tanış olub, mənəvi qida almağa başladım. Bəli, onun yazıları çoxdandı qəribsəyibmiş kimi mənim ruhuma hopdu. Inanmıram

ki, 353 səhifəlik söhbəti şairlə onun ən doğmaları, lap ailə üzvləri belə imkan tapıb bölüşə bilsinlər. Kitaba daxil olan hər bir kəlmə müəllifin qəlb evindən özünə yol tapan qaynamalardır. Dilinin altında saxladığı həbdir, hikmətlərdir:

**Çəkir torpaq məni, çəkir el məni,**
**Çəkir sıra dağlar, dərin dərələr.**
**Sanki qayalara çırpır sel məni,**
**Sökür yaxasını qızıl lalələr.**

Xeyirxahlıq, ədalət naminə deməliyəm ki, bu kitabda Şahməmmədin əvvəlki kitablarında olduğu kimi mənəvi dünyasının parametrlərinin nə qədər böyük olduğunun bir daha şahidi oldum. «Yerlə Göy arasında» adlı kitab mən deyərdim ki, müəllifin son illər poeziya dünyasında ən uğurlu, haradasa mənim aça bilmədiyim dərəcədə yüksək qələbəsidir. Bəli, Azərbaycan Yazıçılar və Jurnalistlər birliyinin üzvü, «Qızıl qələm», «Zərdabi» və «Araz» Ali-Ədəbi mükafatı laureatı olan şair-publisist Şahməmməd «Dağlar, səndə nəyim qaldı?», «Nastalo vremya», «Sevməsəydim, yaşamazdım», «Xatirələr ocağının işığında», «Həyəcan dolu beş il», «Çaylar geri dönmür» və s. kitablarında öz mənəvi dünyasının rəngli suallarından kəhkəşanlar yaradıb. «Yerlə Göy arasında» kitabında «Nağıllı, nəğməli yollar»-la söhbətə başlayan müəllif oxucuya həyəcanla müraciət edib ötənlərə nəzər salaraq, sanki hesabat verir. Oxuculara tanış olan bir sıra əsərlərini birləşdirərək «Yollar» adlı sənədli povest çap etmək arzusunda olduğunu bildirir. Biz də bir oxucu kimi ona uğurlar diləyirik. Doğrudan da hər şey yollarda başlayır. Bəli, hər şey!.. Adi bir şamın yanmasından tutmuş, kosmosa, raket uçuşuna qədər. Yollarla bağlı istənilən qədər mühakimələr yürütmək olar. Kainatın özü də həmin yolların fəlsəfəsi daxilində hərəkət edir.

**Ayın bir yolu var, Günün bir yolu,**
**Qısalsın, uzansın, qırıla bilməz.**
**Birdir Araz yolu, birdir Kür yolu,**
**Düz yola çıxanlar heç vaxt əyilməz.**

**Zəhmətdən yoğrulub səadət yolu,**
**Axtarın dağları, dərəni, düzü...**
**Axtarmaq insandan uludur-ulu,**
**Allah da axtarıb yaradıb bizi.**

Həyat hadisələrinə bütövlükdə nağıl və nəğmə kimi baxan şair ilk növbədə göz açdığı yurdu, obanı, eli, ağsaqqalları düşünür, onların sevincinin, kədərinin rəngli spektrlərini görür. Hər şeyin vəhdətdə olması fəlsəfəsi şairin yaradıcılıq dinamikasını təşkil edir. «Mən nağıllı, nəğməli yollar deyəndə, acılı-şirinli xatirələrimi bağrıma basıb, gələcəyə aparan yolları düşünürəm» deməsi, fikrimizi bir daha təsdiqləyir. Haqlı olaraq təbiiliyi hər şeydən üstün tutan Şahməmməd misralarının mayasını küləklərin səsindən, çiçəklərin «göz» yaşından, günəşin şəfəqlərindən, torpağın isti nəfəsindən alır. Bütün bunlar müəllif üçün nağıllı-nəğməli yollardır. Biz hamımız nənələrin nağılları və nəğmələri ilə həyat yollarında pərvazlanmışıq. Şahməmmədə mamalıq etmiş Umu nənənin:

«**Dünyaya balam gəlir...**
**Ya oğlan ol, ya qız ol.**
**Dünyaya dünyam gəlir,**
**Ya gümüşdür, ya qızıl.**»

- deməsini Şahməmməd elə şeir xətrinə yazmamışdır. Dünyanın elə ən böyük fəlsəfəsi dünyanın özünü yaşadan insanların dünyaya gəlməsidir. Dünyaya gələn körpənin ilkin eşitdikləri belə nağıllı-nəğməli sətirlər olmuşdur. Bəşəriyyət-

lə eyni yaşda olan nəğmələrimiz, nağıllarımız Şahməmmədin qələmilə «qızıl kitaba» düşür. Nə yaxşı ki, Şahməmmədin hamının gedə biləcəyi mənəvi dünyası var, yaşayır və bizi uzaq keçmişdən gələcəyə aparır. Yaxşı yadımdadır: Rəhmətlik atam evə gəlməmiş rəhmətlik anam süfrə açmazdı. On uşaq evin girəcəyini gözləyərdik. Zəhmətkeş atamız mexanizator idi. Sənəti torpağı bəsləmək, şumlamaq, ondan bolluca sərvət alıb bizi dolandırmaqdan ibarət idi. O, başqa heç bir şey düşünmürdü. Süfrə yığışdırıldıqdan sonra atam keçmişdən söhbətlər edər, nağıllar danışardı. Hamımızı doğru yola səsləyərdi. O söhbətlər bəlkə də mənim aldığım ilk təlim dərsləri idi.

Şahməmməd «Nağıllı, nəğməli yollar»ı - sanki mənim üçün yazıb. Ailədə on uşağın üçüncüsü olmuşam. Məndən sonrakıların demək olar hamısını mən beşiyə salmışam, onları kürəyimə bağlamışam, təndir qalamışam, nehrə çalxalamışam, nələr-nələr etmişəm. Ocaqda köz olmuşam - külə dönməyib bərkimişəm, çətinliklərə sinə gərib, həyat eşqi ilə ziddiyyətlərə qarşı mübarizə aparmışam.

Ləngəbiz kəndinin ərazisini tərcümeyi-halı kimi bilən, onun «Qoşadərə» ünvanlı yerlərində taxıl biçən Sayad kişinin oxuduğu mahnı mənim qəlbimin sevinc marşı kimi səslənir:

**«Zəmidə Sayad təkdir,**
**Bir yandan da küləkdir.**
**Allah bol taxıl verib,**
**Yığanımız gərəkdir...»**

Bu misralar məni xəyalən Masallı rayonunun Mahmudavar kəndində, o vaxtlar çəltik yetişdirilən zəmilərinə aparır. Həmin yerlərin göy libasa bələnməsi, lalələrin qızarması, bu və daha nələr... Təbiətin unudulmaz rəngli yolları heç vaxt yaddan çıxmır. Indi həmin torpaqlar boynu bükülü qalıb. Onları danışdıran, onlara nəğmə oxuyanlar demək olar ki, dünyalarını

dəyişiblər. Ləngəbizin ağsaqqalları yəqin ki, həmişə Şahməmmədə dua edir, uzun ömür diləyirlər ki, kəndin tarixi keçmişini və bu gününü yaşadan bəlkə də yeganə övladıdır.

Ləngəbizin tarixini mükəmməl bilən el ağsaqqalı Əsgər kişinin sağlığında ondan kifayət qədər bəhrələnmədiyini özünə bağışlaya bilməyən Şahməmməd Əsgər kişinin doğma Ləngəbiz kəndi haqqında mahnı yazmaq arzusunu yerinə yetirməkdən təsəlli tapır:

**Bu dağlar, ulu dağlar,**
**Əritməz dolu dağlar,**
**Sənin boyunbağındı,**
**Kəndimin yolu dağlar.**

**Doğma yurdum Ləngəbiz,**
**Dedim, durdum «Ləngəbiz».**
**Babam arzu dilədi,**
**Yuva qurdum Ləngəbiz.**

Bəli, əsl vətəndaşlıq hissi doğma yurd-oba, el sevgisindən başlanır. Kəndini sevmədən, onun qayasına, yollarına, ağsaqqallarına, ağbirçəklərinə vurğunluq etmədən mənəvi dünyaya sahib olmaq mümkün deyil.

**Ana, kənddən gələr olsan,**
**Bir udumluq hava gətir.**
**Ulu dağın yamacından,**
**Bir az dərman-dava gətir.**

**Gəz Güneyi, gəz Quzeyi,**
**Yığıb gətir kənd-kəsəyi.**
**Istəmirəm bər-bəzəyi,**
**Nə gətirsən saya gətir.**

Şahməmməd kəndindən ayrı yaşasa da, özünü ondan ayrı hiss etmir. Şair «Yerlə Göy arasında» kitabını mənə təqdim edəndə xahiş etmişdi ki, əvvəlcə «Kədərli notlar»ı oxuyum. Mən isə kitabı əksinə, ardıcıllıqla oxudum. Istəmirdim ki, təkrar geri qayıdım. Vaxtıma heyfin gəlirdi, axı hər bir ömrün qisməti olan vaxt azdır, çox az...

«Kədərli notlar» müəllif tərəfindən əvvəlcədən planlaşdırılmayan, gözəgörünməyən ilahi bir qüvvənin diktəsi ilə yazıya çevrilən nəcib hisslərdir. Əsərin qəhrəmanı müəllifin nəcib göstərməyə çalışdığı, oxucuya hər bir an daxili həyəcan və rezonans yükləyən gözəl bir insan Eteri xanım və onun ömür yoludur. Hiss edirsən ki, Eteri xanımı sonsuz məhəbbətlə sevən həyat yoldaşı Nazim dostu Şahməmmədə ünvanladığı məktublarda əks olunan fikirləri, şairi kədərli notlar üzərində səmimi söhbət qurmağa sövq etmişdir.

«Kədərli notlar» əslində Şahməmmədin, Nazimin, Eteri xanımın, müəllifin həyat yoldaşı Yəmən xanımın xatirələrlə dolu, rəngarəng fotoalbomudur. «Kədərli notlar» əslində yaşadığımız acılı-şirinli, sevincli-qəmli günlərin, mübarizələrin fotoalbomudur. «Kədərli notlar»da Xeyirlə-Şər üz-üzə dayanır. «Kədərli notlar»da kim-kimi məsələsi ön plana çəkilir. «Kədərli notlar»da şair bu gün cəmiyyətdə baş verənləri zərgər dəqiqliyi ilə dünyanın tərəzisində çəkir. Özü deyə bilmədiklərini dostlarının, ruhların, mələklərin dili ilə deyir. Son anda unudulması mümkün olmayan bir mənzərə yaranır.

«Ana torpaq» şeirində şair deyir:

**Varım da sən, yoxum da sən,**
**Anam, atam, sənsən, sənsən...**

Bəli, torpağa övlad qayğısı göstərməyə mənən hazır olmağımız son dərəcə vacib bir problem kimi ortaya atılır və öz həllini tapmaq üçün yollar axtarılır. Allah yeri-göyü, bütün gö-

zəllikləri insanlar üçün xəlq edib. Insan Tanrının yaratdığı, insanın yaratdığı isə onun əməlləridir. «Kədərli notlar»ı oxuduqca görürsən ki, Şahməmmədin qəlbində dərin iz buraxan Eteri xanımın, Nazimin xoş əməlləridir. Həzrəti Məhəmməd (ə.s.) insanları qiymətləndirərkən «əməl, əməl, əməl» demişdir. Hər kəs öz əməli müqabilində Allahdan öz mükafatını alır.

Şahməmməd çox böyük orijinallıqla hadisələri poetik düşüncələrin süzgəcindən keçirərkən onları öz rənginə uyğun mənalandırır. Gözlərin, sevincin, yolların və s. - nin közərməsini şair misraları ilə cana gətirir, onlara həyat verir və oxucunu bu közərtilərin iştirakçısı etməklə düşündürür:

**Gözləri közərən gözəl,**
**Közərmək sönmək deyil.**
**Olsaq da çilik-çilik,**
**Hələ biz ölməmişik.**
**Biz bu qoca dünyaya**
**Vaxtından tez ölməyə**
**Gəlməmişik.**
**Gəlməmişik, əzizim,**
**Gəlməmişik.**

Başqa bir şeirində:

**Közərən yolların yolçusuyam mən,**
**Gedirəm ayağım qabar-qabardı.**
**Közərən yolların işığı dən-dən,**
**Bir yanı bahardı, bir yanı qardı.**

**Nələr görməmişik, nələr dünyada,**
**Közərən kədərim olmuş qismətim.**
**Özümdən ayrılmaq qalsın bir yana,**
**Zülfündən ayrılmaq çətindir, çətin.**

Közərmə anlayışı fəlsəfi baxımdan təkamülə başlanğıcdır. Sanki hər bir oyanmanın əvvəli közərmədən başlayır. Səhərə çörəkpulu axtaran da, dünya banklarında milyonları olan da dünyadan gileylidir. Nədir bunun sirri? Hələ tam əhatəli cavab tapmaq çətindir. Şahməmməd həmkarı Natiq Qocayevin «Namussuz dünyanın sakinləri» adlı əsərinə münasibət bildirərək, dünyanı namuslu dünya kimi çağırır, üzərində yaşayanları isə düz yola səsləyir:

**Dünya, qayıt səni bu günə çatdıran**
**Yolların əvvəlinə.**
**Qayıt müqəddəsliyə,**
**Qayıt Qurana.**
**Ilahi kəlamları,**
**Allah mənim üçün göndərib.**
**Sənin üçün göndərib.**
**Gəl oturaq düşünək,**
**Gəl oturaq dərdləşək.**
**Sən tək, mən tək, o da tək.**
**Təklik yıxacaq bizi,**
**Təklik boğacaq bizi.**
**Onsuz da gecikmişik.**
**Ürəyim deşik-deşik,**
**Ürəyim parça-parça.**
**Qanıma şəkər düşüb.**
**Mən ağ qandan qorxmuram!**
**Mən taundan qorxmuram!**
**Namusdan qorxuram mən,**
**Saçım ağappaq, dən-dən.**
**Ölümə gedən yolun**
**Çoxunu getmişəm mən.**

Sətirlərin hər birində Şahməmməd insanları namusa, qeyrətə, mərdliyə, birliyə çağırır. Dünya dövlətlərinə inteqrasiya olunmağımız, müstəqilliyin verdiyi bu imkanlar çox yaxşıdır. Bununla belə, namusu özündə birləşdirən keçmişdən miras qalmış nə varsa, göz bəbəyimiz kimi qorunmalıdır. Milli-mənəvi dəyərləri qorumaqla xalqın qeyrəti təyin olunur. Şahməmmədin narahatlığına biz oxucular vaxtında, gecikmədən qoşulmalıyıq. Müəllim sinfə daxil olur. Şagirdlərdən «Nə üçün oxuyuruq? Nəyə görə yazırıq?» - soruşur, ancaq bütün bunların səbəbini açıqlamır. Amma açıqlamaq lazımdır! Çox lazımdır!!.

**Allah hər şeyi verib sənə,**
**Ağlı da,**
**Nəyi soraqlayırsan?**
**Niyə hönkür-hönkür ağlayırsan?**
**Bəsdir!!!**
**Allah sənə daha nə verməlidir?!**

- deyən şair hiddətlənir...

Işığım-məhəbbət, məhəbbətim-nur deyən şairin mənəvi dünyasından heç bir şey yan keçmir:

**Işığım-məhəbbət, məhəbbətim-nur,**
**Önündə kölgələr başını əyir.**
**Düşürsən, gedirsən, gözlərim dolur,**
**Sürürəm, gedirəm, ürək getməyir...**

**Tutub yaxasından qoca dünyanın,**
**Zamanın çarxına zəncir vuracam.**
**Təzəcə gülübdür üzü dünyanın,**
**Gülməsən üzümə, dəli olacam...**

Işıqsız, məhəbbətsiz yaşamaq qeyri-mümkündür. Şahməmməd məhəbbəti işıqda, işığı məhəbbətdə görür. Bəlkə də bu,

sevgiyə ən böyük heykəldir. Bu heykəlin heykəltəraşı isə Şahməmmməddir. Biz hamımız Yerlə Göyün arasındayıq. Şahməmməd də, onun dünyası da, sonu olmayan əvvəli də, yerlə göy arasındadır. Yerlə göy arasında hərə bir cür ömür edir. Təbiət də dondan-dona düşür. Dünya bu gün kataklizmalara məruz qalır. Bəlkə də Şahməmməd bu kitabın adını elə bu çırpıntıların özündən götürmüşdür. Kitabın üz qabığında şahə qalxmış dalğalarla üzü şırım-şırım olan qayaların döyüşü verilir. Bəlkə də müəllif tərəfindən bu lövhə bilərəkdən belə seçilmişdir. Bütün bunlar isə ayrıca bir yazının mövzusudur. Yəqin ki, dəfələrlə bu məsələlərə qayıdılacaq.

**Mən bir məktub almışam,**
**Yerlə Göy arasında.**
**Bulud kimi dolmuşam,**
**Yerlə Göy arasında.**

**Dirilmişəm, ölmüşəm,**
**Ölmüşəm, dirilmişəm.**
**Yarı deyib gəlmişəm,**
**Yerlə Göy arasında.**

Zəngin ədəbi yaradıcılığa dərin düşüncə qabiliyyətinə, geniş həyat təcrübəsinə malik olan, ömrünün kamillik çağını, məhəbbət eşqi ilə yaşayan vətəndaş şair, gözəl şəxsiyyət Şahməmmədin mənəvi dünyasından bəzi məqamlara işıq saldıq. Ruhlara qida olan Şahməmmədin mənəvi dünyası ümid edirəm ki, onu sönməz bir işıq mənbəyi və əbədi bir ocaq kimi közərdəcəkdir və həmişə də közərəcəkdir.

***Şahrza AĞAYEV***
***Pedaqoji elmlər namizədi, dosent***

## ŞAHMƏMMƏD POEZİYASI KOSMOQONİK SÖZ İNVARİANTININ ƏBƏDİ VARİANTLAŞMA ÇEVRƏSİNDƏ

Söz birbaşa kosmoqonik aktdır. O, ilahi kosmoqoniyanın hələ ruha və maddəyə ayrılmamış mərhələsinin substratıdır. Bütün maddi və qeyri-maddi anımlar, assosiativ-kosmik görüntülər yaradan varlığı ilə sehrlidir. Çünki Maddə və Qeyri-Maddənin, Bədən ilə Ruhun, Insan ilə Allahın arasında bərqərardır; varlığının bir qatı ilə Yaradana, o biri qatı ilə Yaradılana bağlıdır. Onların ortasında, əslində isə birləşdirici strukturlarında dayanmaqla Varlıqla Heçlik arasında əlaqə funksiyasını yerinə yetirir. Bu, mediasiyadır. Sözün məhz mediativliyi ona qarşı heyrət yaradır. Insan bütün hallarda maddiliyin fövqündə dayanan bu qeyri-maddinin daşıdığı Teoqonik Semantikanın önündə heyrət keçirir və bu Heyrət bəzən Füzuli sözündə olduğu kimi, əslində simvollaşmış nidaya dönür: «Heyrət, ey büt!» Və Füzuli heyrəti bütün heyrətlərin yer üzündə ən etiraf olunmuş gözəli olmaqla yenə də ancaq heyrəti ifadə edə bilir. Insan Füzuli simasında olsa belə, bu heyrətdən irəli gedə bilmir; onun gördüyü də, elə bildiyi də və ona qalan da elə bu heyrətin özü olur. Şahməmməd də eləcə. Öz içində olanın, onu «qaynadanın» nə olduğunu dərk edə bilmədən içindən gələnin ritminə düşməyə, onun kosmik ahənginə köklənməyə məcbur olur. Bu, poeziya məqamıdır. Sözün doğuluş məqamıdır və söz, sözün məhz hərfi anlamında, doğulmaqla insanı heyrət faktoru ilə üzbəüz qoyur. Dünyanın ən ali həqiqətinin simvolik olduğunun ilahi tablosunu yaradır. Və Insan Invariantının sözü köklənmək qabiliyyəti verilmişlər cərgəsində Şahməmməd bütün varlığı ilə, yəni Özü və Sözü ilə ancaq kosmik daşıyıcı ola bilir. Ilahidən gələn sözün daşıyıcısı... Bu, onun taleyidir, bu taledən o, qaça bilməz. Bütün ağrısı və acısını, əzabları çəkməli və əzabın sevgisinə köklənməlidir. Çünki Tanrı ona Şair Taleyi verib və bu tale ilə

o, məhz ilahi-kosmik missiyanın daşıyıcısı olmaqla öz funksiyasını şərti sona qədər - Tanrının onun bədəninə qoyduğu ruhu öz heyrətamiz əsrarəngizliklər dünyasına çəkənə qədər yerinə yetirəcək. Elə hey öz şeirini yazacaq, yazaraq Yaratmaq əzabına düşəcək, dözərək də bu əzabın sevgisindən nəşələnəcək. Bizə isə bir oxucu kimi, bu sevgi nəşəsinin sözdə maddiləşən simvollarından zövq almaq qalacaq...

Söz əgər ilahi-kosmik missiyanın məhsulu olaraq doğulursa, həqiqidir, canlıdır və heyrətlidir. Ona maddi təzahürləşmənin harasından baxılırsa-baxılsın, bütün hallarda Ilahi Söz Invariantının gerçək təzahür variantı olaraq görünməlidir. Bu anlamda şair yaradıcılığı necə böyük bir ümmanı andırırsa-andırsın, həqiqi poeziya bir yarpaq şeiri ilə belə özünü bildirə bilir. Şahməmməd poeziyası artıq 1990-cı ildən «Dağlar, səndə nəyim qaldı?» kitabı ilə başlanan söz qatarı ilə «Nastalo vremya» - 1994, «Sevməsəydim, yaşamazdım» - 1995, «Xatirələr ocağının işığında» - 1997, «Çaylar geri dönmür» - 1999 Azərbaycan poeziyası məkanında öz varlığını tanıtmış poetik söz faktorudur. Şahməmməd Sözünün poetikliyi, gerçəkçi poeziyaya örnək ola bilməsi bu anlamdan artıq maddi faktordur. Həmin Söz faktorunun kəmiyyət qloballığı ilə təqdimi burada mümkünsüzdür. Ancaq bu mümkünsüzlük onun poeziyasının ən qeyri-ixtiyari alınmış yarpaqları ilə belə özünü təqdim edə, üzərində dayandığı, şair ürəyinin kökləndiyi tematik semantemləri ortaya qoya bilir.

Şahməmməd ilk kitabını «Dağlar, səndə nəyim qaldı?» adlandırıb. Bu, cismani dünya ilə ilk dəfə baş-başa qaldığı məkandan - doğma dağlardan qopa bilməyən şairin dağlarla halallaşmasıdır. Və yalnız şair qəlbinin gücü çatardı ki, o dağları qəlbində gəzdirsin. Bəlkə də şeir kimin üçünsə ancaq qafiyələndirilmiş bir fonemdir, ancaq mən Şahməmməd şeirinin bütün poetik substratını onun qəbul imtahanında yazdığı «Doğma kəndim» inşasının ruhundan sezdiyimi yazmaya bilmirəm:

«Mən bu kənddə doğulmuşam. Ağaclarından, qayalarından,

dərələrindən yapışa-yapışa bu kənddə ayaq açmışam, böyümüşəm...» (Şahməmməd. «Sevməsəydim, yaşamazdım». Bakı, 1995, s.4). Bəlkə də «yapışa-yapışa» ifadəsi Şahməmməd təhkiyəsində bu qədər heyrətli səslənir, bilmirəm, ancaq bu dünyanın dağlarının ağaclarından, qayalarından, dərələrindən yapışa-yapışa böyüyən kəsin əli o dağlardan haçan qopsa, şair olmalıydı. Dağların boya-başa çatdırdığı övlad ondan qopub pərvazlanmaq məqamı gələndə bu ağrını ancaq Sözlə soyuda bilərdi:

**Bulud ağlar için-için,**
**Göy nurunu için, dağlar,**
**Göynəyirəm sizin üçün,**
**Uşaqlığım keçən dağlar...**

Əslində, həm bu «Dağlar» şeirində, həm də bütün poeziyasında Şahməmməd şeirinin bütün poetexniki ölçüləri dağa köklənib: onun misra düzümləri də, səs spektrinin bütün düzüm məqamları, sözün bir-birini maddi müstəvidə şərtləndirən doğum ahəngi də, bəndlərin texniki sıralanma «vüqarı» da ancaq dağlardan gəlir. Şahməmməd şeirinə həm məna, həm də forma gözəlliyini dağların özü verib. Ona görə də şair dağlardan qopa bilmir, dağlar həmişə onunladır; şəhərdə, kənddə, idarədə, istirahətdə, fərqi yoxdur, Ləngəbiz dağları bir an belə şairi tək qoymur. Körpə anasından ayrı dura bilmədiyi kimi, Şahməmməd də dağlarsız dura bilmir:

**...Arxam da siz, qorxum da siz,**
**Dincliyim də, yuxum da siz,**
**Dolanırsız qanımda siz,**
**Sizsiz yoxam, heçəm, dağlar.**

Hər bir şairin şeirinin öz rəngi var və bu rəng onu bir şair kimi seçdirir, məhz onun varlığının da olduğunu bəlirdir. Şahməmməd poeziyası dağ rəngindədir. Dağların boyası onun bü-

tün Sözünə çöküb və bu, heç də təsadüfi deyil. Çünki Tanrı onun Özünü, Sözünü və Dağları birgə yaradıb. Ləngəbizin şair oğluna dağları sevməyi tapşırıb və Şahməmməd dünyaya göz açanda dağ sevgisi ilə birgə doğulub. Ona görə də Sözünü və Özünü həmişə dağlarda tapır. Dünyadan bezəndə, onun min işləklərindən yorulanda, usananda, bəzən lap sınmaq məqamı gələndə, bir insan olaraq da insan taleyinin ən acı məqamlarını yaşayanda, elə bir məqam ki, ordan o yana insana yaraşan məkan qurtarır, bax, onda Şahməmmədin təsəllisi dağlar olur:

**...Mənə dəniz qaldı, bir də göy dəniz,**
**Bir də qoca dağlar öz sırasıyla.**

Məhz belə məqamlarda Şahməmməd yaza bildiyi üçün, şair olduğu üçün sevinir. Bu sevginin poetik təzahürü onun bir şair kimi də şeirinin kosmoqonik missiyadan irəli gələn dəyərini, özünəməxsusluğunu üzə çıxarır. Və Şahməmməd şeiri Azərbaycan şeirinin üfüqləri və dərinlikləri görünməyən məkanında məhz görünə bilmək gücünü ortaya qoyur:

**Deyirəm, yaxşı ki, yazır əllərim,**
**Yoxsa hər baharım qışa dönərdi.**
**Yoxsa gördüklərim, eşitdiklərim,**
**Mənim ürəyimdə daşa dönərdi.**

Şair ürəyində isə daşa yer ola bilməz. Şair ürəyində daş başlanan yerdən Söz qurtarır, Sevgi qurtarır və bu baxımdan, istər ümumi kosmik anlamında, istərsə də Şahməmməd sözünün kosmik üfüqlərində Söz və Daş, Sevgi və Daş qlobal antitezlər cərgəsi yaradır. Həmin poetik antitezlər Şahməmməd poeziyasının maddiləşdiyi semantik oppozisiya qoşalıqları olmaqla əslində bizə - onun poeziyasının istər adi oxucuları, istərsə də tədqiqatçılarına həmin poeziyanın üzərində durduğu

semantik məna qütblərini, struktur semantemlərini aşkarlamağa imkan verir. Şahməmməd poeziyasının üzərində durduğu, yükləndiyi belə qlobal psixosemantemlərdən biri Sevgidir. Bu, onun poeziyasını bütövlükdə öz rəng-ruhuna bələyib; şeirinin bütün məna gözəlliyinin, estetik enerjisinin substratında durur. Ona görə də şair ikinci kitabında özü öz içərisində kökləndiyi missiyanı kəşf edirmiş kimi, elə beləcə də poetik kredosunu elan edir: «Sevməsəydim, yaşamazdım».

**Sən göy dəniz, qucağında mən bir ada,**
**Qoruyuruq məhəbbəti biz ikimiz.**
**Sevməsəydim, yaşamazdım bu dünyada,**
**Sevməyi də sən öyrətdin mənə, dəniz...**

Şahməmməd sevgisinin poetik strukturu qlobal parametrlərlə gerçəkləşir. Bu struktur insan adlanan varlığın fizioloji-psixi elementləri ilə məhdudlanaraq qalmır. Daha doğrusu, qala bilmir. Bu mənada, onun sevgisi öz metaforik ifadələnmə tərzi ilə düşüncənin çata biləcəyi bütün yaradılış qatlarını əhatə edir. Nəhəng bir Sevgi Kainatı yaranır. Həmin kainatda Dünya və Insan qatbaqatdır; hansının haradan başlandığı və qurtardığı bəlli deyil. Sevgi cazibəsi real olanda irreal olanı baş-başa qoyub, burada insanla dünya arasında fərq mütləq yoxluğadək gedir. Bax bu, kosmik ahəngi qlobal kainat parametrləri ilə birgə döyünən sevgidir və bu sevgisi ilə Şahməmməd bütöv bir varlıq olaraq orijinaldır. Çünki belə bir sevginin ifadələnmə tərzi də məna elementlərinin sadəliyi və mürəkkəbliyi qəribə şəkildə bir-birinə qovuşdurub, avtonom poetik gözəlliyə çevirən mənzərə ilə nəticələnməlidir. Bu mənada, Şahməmməd şeirinin poetexniki görüntüsü əruz görüntüsündən müəyyən məsafədə dayansa da, çox maraqlıdır ki, müqayisə müstəvisinin ən görümlü yerində Füzuli şeiri və bəlkə də onun bu beyti dayanır:

**Məni candan usandırdı, cəfadan yar usanmazmı?**
**Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?**

Füzuli sevgisində sevən aşiq bütün varlığı ilə məkanda əriyib, tamamilə onun harmoniyasına düşüb. Aşiqlə Kainat kosmoqonik-substativ qovuşmadadır. Eyni ilahi substratın müxtəlif çevrilmələri olmaqla Aşiq Kainatı, Kainat da Aşiqi duyur, anlayır və ona görə də Aşiqin ahı fələkləri yandırır. Göylər bu eşqdən od tutub yansa da, bu nəhənglikdəki alov yerdəki bir balaca məhəbbət şamını yandıra bilmir. Və məhz buradan Dünya adlanan varlığın real görüntüsünün eşqlə dərki başlanır. Bizə balaca görünənlə nəhəng görünənin fərqi yalnız görüntüdür. Substrativ məqamda, ilahi-kosmoqonik çevrədə bu ayrı anlam, ayrı məna daşıyır. Və şair gücü, şair möcüzəsi də məhz bu Ayrı aləmə, Ayrı mənaya köklənə bilməkdə üzə çıxır. Füzuli bu aləm və mənaya şəksiz köklənib. Şeirinin bütün möcüzə heyrəti oradan gəlir. Şahməmməd şeirində də belə köklənmə var. Bu vəhdət kontekstində Şahməmmədin Insana, dağa, Dənizə, Dünyaya, Yurda olan sevgisini təsnifləndirmək əslində, mənasız işdir. Çünki həmin sevgi vəhdətə köklənib, vəhdət koduna düşüb və yalnız bu koddan keçib gələn şeir başdan-başa metaforik obrazlaşma tapa bilər:

**Sevməsəydim, yaşamazdım, elə sən də...**
**Sevgi-hava, sevgi-dəniz, sevgi-torpaq.**
**Nə yaxşı ki, yaşayırsan sən sinəmdə,**
**Nə yaxşı ki, sən yandırdın mənə çıraq.**

Şahməmməd Sözünün Füzulini andırması təsadüfi deyil. Və əslində burada Şahməmmədlə Füzulinin bu müqayisə kontekstinə gətirilməsi şairin məhz Füzulidən təsirlənməsi, yaxud məhz Füzuliyanə şair olması ilə bağlı deyil. Yox! Gerçək olan Şahməmməddən də, Füzulidən də fövqəladə durmaqla nəinki onları, eləcə də Sözün Kosmoqonik Substratına köklənə bilən-

lərin hamısını içinə alır. Bu - Yaddaşdır! Insanın içində yaşayan və eləcə də insanı öz içində yaşadan Yaddaş! Şahməmməd sevgisiz yaşaya bilmədiyi kimi, yaddaşsız da yaşaya bilmir. Əslində, invariant substratın sublimasiya olunmuş vahidləri olmaqla Şahməmməd, Sevgi və Yaddaş vahidlərinin düzüm sırası var. Və bu, kosmik koddan reallaşan proqramlaşdırılmış düzümdür. Bu mənada yaddaş Şahməmmədlə Sevginin ortasında dayanır; Şahməmməd Sevgiyə məhz Yaddaşdan keçib gedir. Belə olmasaydı, biz onun poeziyasında fizioloji sevgi yaşantısının şahidi olardıq. Onun şeirində fiziologiyaya köklənmiş, poetik strukturunda reallaşmamış fizioloji tələbatlar duran, psixoloji anlamında götürülmüş xülyavari obrazlara rast gəlmirik. Bütün sevgi coşğunluğunda, qarsayıb yandıran alovunda belə bir təmkin var. Belə sevgi Yaddaşdan gələ bilərdi. Və belə olduğu üçün də Şahməmməd şeiri ilə, tutaq ki, Füzuli şeiri, yaxud kristal poetik obrazlarının daşlaşmış şəffaflığa malik mənəvi strukturları olan qədim oğuz şeiri arasında bağlar görünməzdi. Bu mənada, Şahməmmədin içində yaşayan Yaddaş nə vaxt ki onu öz içinə alır, onda məhz Şahməmməd şeirinin Sevgi obrazı doğulur. Ilk baxışda antistruktur yaranır: Şahməmmədin poetik dünyasının məkan ölçülərində hər şey qatmaqarış düşür, ölçülər dəyişir onun qəlbində, ruhunda yaşayan yaddaş və əslində onun qəlbinə nəsimisayağı «sığan» Yaddaş birdən-birə sığmaz olur və elə bir ölçüsüz nəhənglik kəsb edir ki, Şahməmməd özü fiziki və fizikaüstü varlığı ilə Yaddaş adlı məkanın struktur elementinə çevrilir. Yaddaşla Şair Varlığının sərhədləri itir: şair yaddaşa, yaddaş da ona köklənir. Bax onda qlobal sevginin ən intim, ən incə qatları Şahməmmməd şeirinin misra qatarına çevrilir:

**Xatirə –**
**Məktəb cığırlarına**
**Çanta-çanta səpilmiş**
**Gülüşlər...**

**Söyüdlər kölgəsində,**
**Zil qara gecələrdə,**
**Işıqsız küçələrdə**
**Azdırılmış görüşlər.**
**Xatirə –**
**Uşaqlar,**
**Xatirə –**
**Gənclik**
**Xatirə –**
**Könüldə «ah» silsiləsi,**
**Gözlərdə həsrət məhəlləsi.**
**Xəyallarda**
**Bölük-bölük,**
**Çilik-çilik**
**Xatirə –**
**Ürəklərin itirdiyi**
**Döyüntü.**
**Ömürlərdə izi qalmış,**
**Közü qalmış göyüntü.**

Bu şeir Yaddaşa köklənmiş Şahməmməd poeziyasının xatirələr şəklində poetik təzahürləşməsini tapan bütün metaforik mənzərəsini ortaya qoymaq gücündədir. Şeirdə bütöv bir ömrün yaşantıları həmin ömrün kökləndiyi bəşəri informasiya tarixinin tranqmentar-metaforik laylaşması olaraq öz əksini tapır. Qırıq-qırıq, diskret anımlar, fasiləli informasiya axını konkret bir fərdin ömründə təzahür edən Insan hadisəsinin bəşəri fasiləsizliyini məhdudlaşdırmayaraq, əksinə, bir bütöv olaraq təqdim edə bilir. Poeziyanın gücü məhz bundadır. Insan bəşər hadisəsinin növ vahidi olmaqla fasiləsiz dinamizmə köklənib. Bu dinamizm həyatın həm özü, həm də tarixidir. Hər bir fərd öz qısa ömrü daxilində həmin bəşəri dinamizmin bütün tarixini təkrar edir. Məsələnin bütün mahiyyəti burada Yaddaşın məhz Informasiya olması ilə bağlıdır. Bu anlamda Şahməm-

məd poeziyası burada verdiyimiz bir parça şeiri simasında belə, poeziyanın məhz Yaddaş olduğunu, yaddaşdan qıraq olanın poeziya olmadığını ortaya qoyur. Yaddaşa köklənən Həqiqətə köklənir; Həqiqət Yaddaşa, Yaddaş da poeziyaya sublimasiya olunur. Bu çevrilmədə Sevgi ilahi-ülvi anlam olaraq poetik informasiyanın substratında durmaqla onun yaşarlılığını təmin edir. Hər hansı tipin universallığı burada Şahməmməd şeirinin simasında Insan, Dünya, Tanrı məfhumlarının Yaddaşda danışan Sevgi ilə ayrılmaz bağlılığı şəklində təsdiq olunur.

Ömür bədii kodla açılan ilahi informasiya kimi istər ümumiyyətlə, istərsə də Şahməmməd şeiri simasında, əgər yönü həqiqətdirsə, müdrikliyə məhkumdur. Bu müdriklik irsi olanla fərdi qazanılanın vəhdətində təzahür edir. Və şair ona yaxınlaşdıqca Sözü fəlsəfiləşir, Özü isə filosoflaşır. Yəni Şahməmmədin öz sonuncu şeir payını «Çaylar geri dönmür» adlandırması onun şair vergisinin, şairlik missiyasının bu mərhələyə qədəm qoymasından şəksiz xəbər verir:

**Çaylar...**
**Atır özünü zirvələrdən sonsuzluğa**
**Geri qayıtmır.**
**Çaylar...**
**Yüyrək çaylar...**
**Yatmır ki, yatmır,**
**Yaşayır...**

Bəlkə də Şahməmməd poeziyası üçün bir simvolik şeir parçası seçmək lazım gəlsəydi, bu parçanı mən tərəddüdsüz məsləhət görərdim. Ilk baxışdan adi görünən bu misralarda Şahməmmədin anlaya bildiyi dünya şeirləşib. O dünya ki, ancaq ona məxsusdur, Şahməmməd onu ancaq çayı ilə tanıya bilib. O dünyanın dağlarını, düzlərini sevib Şahməmməd, ancaq onu adlandırmaq lazım gələndə, bir obrazla onu obrazlaşdırmaq gərək olanda gözünün önünə çay gəlib. Və Şahməmmədə görə:

**«Çaylar geri dönmür...»**
**«Çaylar ümmanlara tələsir...»**

Ən başlıcası isə:

**«Çaylar... geri dönmür...»**

Və Şahməmməd bu məqamda özü də bilmədən dünyanın ən böyük təzadına tuş olur. Axı «Çaylar... (həm də - müəllif-lər)» ...yatmır... Və bu şeirində də Şahməmməd məhz universal həqiqətə köklənir: Oğuz fəlsəfəsində olduğu kimi - «Gəlimli, gedimli dünya...»

Əski arxetipik informasiyanın «Gəlimli dünya» qütbü Şahməmməd şeirinin «Yaratmayan çay» qütbünü, «Gedimli dünya» qütbü isə «Geri dönməyən çay» qütbünü təşkil edir. Əbədi dövriyyə alınır. Hamı kimi Şahməmməd də bu dövriyyədən keçir, ancaq o, şair kimi keçir və sevinir ki, nə yaxşı şeir yaza bilir. Yoxsa fikirlər onu içəridən boğardı. Müdrikləşir Azərbaycan poeziyasının Şahməmməddir. Hər cür üzünü yaşadığı dünya indi onun üçün ancaq əlçatmaz, ünyetməz həqiqətləri ilə maraqlıdır. Daha bu dünyanın heç bir qeyri-adilikləri onu heyrətə salmır. Indi o, əvvəllər heyrət etmədiklərinin qabağında heyrət edir. Bu, ali-bəşəri həqiqətdir və bu həqiqətdən də keçməlidir Şahməmməd öz şeirilə. Və şeirinin müdrik çağında bu dünyanın nağıl həqiqətini kəşf edib Şahməmməd. Demə, bu dünya ancaq bir nağılmış və onun nağıl olmağı elə bu dünyanın mahiyyəti imiş. Şahməmmədə dağları, dağlardakı ağacları, insanları, quşları, çiçəkləri sevdirən elə bu nağılmış. Onu şair edən də, içəridən gələnləri sözlə cilvələndirən də ancaq bu nağılmış. Və bu nağıl Dünya Nağılı imiş və onun nağıl olmağı bu dünyanın hər bir üzünü şirin edirmiş. Çünki yaradan Özü öz Varlıq Həqiqətinin önündə bu dünyanı bizim üçün bizim özümüzlə birlikdə bir nağıl olaraq yaradıbmış. Və kimsə bu dünyanın nağıl həqiqətini edibsə, onda bu nağıl dünyanın

nağıl xoşbəxtliyinə çatıb. Şahməmməd belə şairlərdəndir.

Onun Azərbaycan şeir məkanında dəyəri də, özü də, sözü də elə bu həqiqətin dərkindən keçirmiş:

**Nağıla çevrilib ömür də, gün də,**
**Nağıla çevrilib əllərin sənin.**
**Nağıla çevrilib toy da, düyün də,**
**Nağıla çevrilib illərin sənin.**

Nağıl ömrünün nağıl müdrikliyini bizə bir nağıl şirinliyinin poeziya işığında çatdıran şairimizə uğurlar diləyirik.

*Seyfəddin RZASOY*
*Filologiya elmləri doktorantı*
*Ramiz ƏKBƏR*
*Nizamişünas, yazıçı-dramaturq*

## UĞURLU YOLDA

Keçən ilin əvvəllərində «Gənc Sabirçilər» məclisinin növbəti məşğələsində hərəkətləri ilə ilk gəlişini büruzə verən, ortaboylu bir gənc iştirak edirdi. O, oxunan şeirlər haqqında fikir deməyə utanır, şeirlərini oxuyarkən daxili iztirab keçirirdi:

«Görəsən, şeirlərimi bəyənəcəklərmi?». Həmin gənc Şamaxı Pedaqoji Texnikumunun məzunu (indi isə Ağsu rayonunun Cəfərli kəndində müəllimdir) Şahməmməd Şahməmmədov idi. Artıq o vaxtdan bir il keçir. Get-gedə həyatı dərindən duyan, şeirləri ilə həyata bağlanan, şeiri bütün məsuliyyəti ilə dərk edən Şahməmməd «Gənc Sabirçilər» məclisinin fəal üzvlərindən biridir.

Mən onun şeirlərini dinləyərkən yeni fikir üçün çırpınan bir qəlbin döyüntülərini eşidir, məna və təşbehlərin təravətini duyuram. «Çiçək», «Nəğmələr», «Pıçıltılar», «Istəyirəm», «Gə-

lin» onun məhz belə şeirlərindəndir.

O, «Pıçıltılar» şeirinin bir yerində belə deyir:

**Sevgililər küçə boyu,**
**Qolumdakı saatınsa**
**Əqrəbləri çevrə boyu,**
**Zaman isə kürə boyu**
**pıçıldaşır...**

Şirvan torpağının gözəlliyini sadə dillə nəzmə çəkən, öz fikirlərini oxuculara çatdırmağı bacaran Şahməmməd primitiv şeirlərdən quru fəlsəfəçilikdən qaçır. Sevindirici cəhət burasıdır ki, Şahməmməd sabit qalmır. Qələmi ilə dostluğa inadla can atır. Şahməmməd yaxşı bilir ki, ən böyük ad şair, ən çətin yol şeir yoludur. Ürəklərə yol tapmaq üçün yuxusuz gecələr keçirməli, düşünməli, düşündürməlidir... Özü demişkən:

**Istəyirəm mənа dolu sətirlərim,**
**Ürəklərdə dəniz olsun**
**ləpənlənsin ...**
**Istəyirəm**

Qoy belə də olsun!

## SEVMƏSƏ, YAŞAYA BİLMƏYƏN ŞAİR HAQQINDA DÜŞÜNCƏLƏR

Adamlar da ağaclar kimi olurlar. Ağaclar da adamlar kimi. Adları müxtəlif, meyvələri, yarpaqları cürbəcür... Biri dağda bitir, biri aranda qol-qanad atır, birinin boyu balaca olur, digərininki uca... Bunların heç birində sözüm yox... Həyat müxtəlifliyin və əksliklərin vəhdətindən yaranmayıbmı? Amma ağacları da, adamları da bir-birindən ayıran onların düşdüyü şəraitdir. Onla-

rı əhatə edən qayğı, rifah, güzərandır. Ağac var ki, (istəsəniz oxuyun «şair var ki...») şəhərdə, lap elə götürək Bakıda, dənizkənarı xiyabanda, lap elə «Bakı Soveti» metrosunun girişində bitir, onu hamı hər gün görür, tanıyır, ona bir növ öyrəşir. Lap televizor şairləri kimi... və nəhayət onu sevir...

Ağac da var ki, fərz edək Cəngi meşəsinin ayaqlarında, lap elə Qozluçayın, hələ-hələ insan ayağı dəyməyən bir çərəyində, bir parçasında bitir, gül də açır hər bahar, meyvə yetişdirir, hər payız torpağını qışda şaxtadan qoruyur, yayda qızmar istidən, amma bir-iki səyyahdan, bir-iki çobandan, meşəbəyindən başqa heç kim tanımır, onu görmür, axtarmır, sevmir. Bir təsadüf ucundan bir tabaq meyvəsi, bir cib yarpağı insan tünlüyünə gəlib çıxır, bəzən heç çıxmır da...

Belə ağaclardan, belə şairdən birinə «Sevməsəydim, yaşamazdım» adlı şeirlər toplusunun müəllifi Şahməmməd adlı bir qələm sahibi yaman çox oxşayır. O, uzun illər gözdən-könüldən uzaq, şairlər məclisindən kənarda, Yazıçılar Birliklərindən bixəbər böyük-böyük vəzifəli adamların nəzərindən gendə şeirlər yaratmışdır - təkbaşına, öz xoşuna. Taleyin, qismətin ümüdinə. Kənddə yaşaya-yaşaya, yaza-yaza şəhər uşaqlarından xahiş edə-edə ki, «şeirimin dalınca siz daş atmayın, ürək hökm eləyib, mən də yazmışam». «Yəni mənim təriflənmək, mükafat almaq, ad-san qazanmaq azarım olmayıb. Ürəyimin sözü ilə nə etmişəmsə, etmişəm. Çünki o, xalqının övladı kimi böyüyüb, öz millətinin bağrından qopub, bilib ki, onu başqaları kimi, «varı-dövləti yaşatmayacaq, duyumu, ürəyi yaşadacaq. Elə belə-belə, öz işini görə-görə bir də görüb ki, qara saçları yol üstədir».

**Əlvida, gözümdə dəfn olunan dan,**
**Sağ ol, qara saçım, sən yol üstəsən...**

Gözdən, nəzərdən, nəşriyyatdan, qəzet və ədəbi-bədii jurnallardan uzaq şair, təbiidir ki, müntəzəm çiçəkləyib, hər gün

şeir «gətirə» bilmir. Amma içində böyüdüyü poetik ana torpaq o «ağacı» həmişəlik qurumağa qoymur. Köklər, rişələr var axı. Qəfil bir ılıq, isti bir bahar ona elə poetik güc gətirir ki...

**Əyildim, istəyim ucaldı getdi,**
**Ömrümün çoxunu bac aldı getdi,**
**Gəncliyim özü də qocaldı getdi.**

**Hər şeyə təzədən baxasıyam mən,**
**Illərin heyfini çıxasıyam mən...**

Bunla belə, bir də görür ki...

**Zirvə qardı, saçım bəyaz,**
**Hara getdi sən de, o yaz?**
**Hər ömürə düyün çalmaz,**
**Allah baxır, Allah seçir!..**

Seçilə-seçilə, bomboz, kasıb, heç nəsiz, heç kimsiz düzənlərdən keçə-keçə bir də görür ki, böyük bir şəhərdədir. Nəinki şəhərdədir, bir vaxtlar tək-tənha çəkinə-çəkinə, aza-aza gəzdiyi o şəhərin küçələrində, indi onu «gülləkeçməyən» xidməti avtomobil gəzdirir. Çünki uzaq-uzaqlardan gələn kimsəsiz o ağaca möhtəşəm tünlük bir şəhərdə qol-budaq atmaq üçün «torpaq» verirlər.

**Vəzifə verdilər pulsuz, filansız,**
**Bir kasıb uşağı gərəkmiş, demə,**
**Alışdım, vuruşdum, bəli, yalansız -**
**«Yalanlar hər şeyə bələkmiş», demə!**

Bir də görür ki, «onu saymayanlar salama gəlir», şəninə tərifiər, sağlıqlar çələngi seçirlər. Kənd ağacından bir-iki yarpaq qopara bildikləri üçün bəzən ona «hərif» də söyləyirlər. Am-

ma o yaxşı ki, «vəzifə başında dost axtarmayır». Dostunu qarlı-çovğunlu uzaq yanvar ayındakı vaxtlarda qədim bir şəhərin «Sabirçilər» şeir məclisinə gələrkən üstü qarlı, kasıb, bir şeirli komada gəzir...

Çünki yaxşı bilir ki, axırda ona nə qalacaq. Nə, kim əbədidir, daimidir, müqəddəsdir.

**Vəzifə verdilər səssiz-səmirsiz,**
**Sonra da aldılar haray səsilə.**
**Mənə dəniz qaldı, bir də Ləngəbiz,**
**Bir də qoca dağlar öz sırasıyla!..**

Səsli-küylü vəzifə, susmaq bilməyən rəngbərəng telefonlar, üstünə axışan böyük bir şəhər... Ziyafətlər, sağlıqlar, dəvətlər, gülüşlər, öpüşlər... Sonra da bütün bunların qəfil sonu. Heç nə yoxdur. Gəlirsən tək-tənha dəniz qırağına, dənizlə söhbətləşirsən. Yenə də darıxırsan, hiss edirsən ki, sənin bir kəndin var, uzaqda, sıra dağların ətəklərində, bir də sıralanmış dağların özü var!..

Elə belə anların qəm-qüssəliyindəcə yadına, harayına gəlir ilk məhəbbət xalları, ilk sevginin rəngləri...

**Mən görüş istədim, sənsə gəlmədin,**
**Dedin, qızılgüllər hələ öndədir.**

Eh!.. Sən demə, təkcə qızılgüllər yox, həm də qızıl günlər də hələ öndəymiş. Yenə vəzifə də qayıda bilər, dostlar da çoxala bilər. Sağlıqlar, görüşlər, öpüşlər də istiləşər, amma gənclik qayıtmaz.

**Hər gecikən görüş, hər susan ümid,**
**Nə qədər xatirə itirəcəksən.**
**Yolacaq saçını o tənha söyüd,**
**Yaş üstə bir yaş da gətirəcəksən.**

Çünki:

**Nə bahar bahardı, nə payız, nə yaz,**
**Sənsiz çörəyin də dadı itərmiş!**
**Dönərmiş ağaca istədiyim qız,**
**Mənim ürəyimdə gəlib bitərmiş!..**

Sevməsə, yaşaya bilməyən şair deyir ki, «dünyada hər şeydən sevməkdir çətin» Niyə? Çünki sevəndə gərək ürəkdən sevəsən, inam, etibar böyüdəsən qəlbində... Ona görə ki, qoyub gəldiyin uzun, bütöv bir ömür, kövrək, əbədi sevgi «xatirələr libasında BIR SIRR kimi ürəyində yaşayacaq!» Bütün bu sevgi «sirr»ləri axır ki, çiçəklədi, baharlandı, sevə-sevə yaşadı, yaşaya-yaşaya sevdi... və bir şeir toplusu oxucuların, sevdiyi xalqının görüşünə gəldi. «Şərq-Qərb» nəşriyyatı 12-13 çap həcmində bir kitab nəşr etdi: «Sevməsəydim, yaşamazdım» deyən şair bir daha sübut etdi ki, ədəbi dəllalların nəzərindən uzaq, yapışqan, təmənnalı təriflərindən gendə ola-ola da sənət əsərləri yaratmaq olarmış!... Əsas odur ki, qəlbində sevgi işıqları sayrışsın, xalqına, millətinə, Vətəninə. Təki qəlbində məhəbbət çağlasın, haqq-ədalətə, düzgünlüyə tərəf, etibar və sədaqət sütünlarının sarsılmamasına, doğma ocağına, dostlarına, ana təbiətə, otlara, böcəklərə, ağaclara tərəf boylana-boylana, yan-yana...

Moskvada Puşkin meydanında şairin çiyninə qonan şahlıq quşunu seyr edəndə də, Uzaq Şərqdə əsgər qızı ağ gülə oxşadanda da, «Sabirçilər» məclisində ilk şeirini oxuyanda da, Şamaxıdan Ləngəbiz kəndinə gedərkən şaxtalı, boranlı bir qış axşamı yolu azanda da!..

Ən əsası odur ki, Şahməmməd bir şair kimi şeir-sənət yollarında öz yolunu azmadı, itirmədi. Özünəməxsus orijinal poetik ruhuna xilaf çıxmadı. Ilk şeiri dərc olunan 1965-ci ildən bu günə kimi sakit-səssiz, adsız, şöhrətsiz yazdı, yaratdı. Bircə ona inandı ki, vaxt gələcək qədirbilən Azərbaycan xalqının

şeirsevənləri biləcəklər ki, o, şeir dünyasına şöhrət, ad üçün gəlməmiş, millətinin eşqi, dolu qəlbinin hərarəti ilə isitmiş şeirlərini onlara ərməğan eləmişdir. Sevə-sevə, yana-yana, ümidlə, inamla...

## POETİK UCALIQ SORAĞINDA

Doğru demişlər ki, uşaqlıq illəri insanın vətənidir. Həmin xatirə dünyası arzuların, istəklərin, daim ziyarət etdiyi məkan, şirinliyindən və ya acılığından asılı olmayaraq, ruhuna dinclik gətirən duyğularının vilayətidir. Bu yaşantıların bəxş etdiyi hər nə varsa, ömür dastanının rəngbərəng fəsilləridir və bu səhifədə yazılanları duyğulanmadan oxumaq kimsəyə nəsib olmur.

Xatirələr sonsuz kainatda kiçik bir adaya bənzəyir və bu adada hər kəsin öz guşəsi olur. Həm də elə bir adaya ki, o nəhəng dəryanı addım-addım gəzir, yerini, məkanını yavaş-yavaş dəyişir.

Amma sonsuz kainatda bir guşə də var ki, o, doğma yurd, hər kəsin doğulub boya-başa çatdığı ocaqdır. Onun istisi, ılıq nəfəsi həmişə oyaqdır.

Yazıçını yazıçı eləyən əslində öz doğma kəndi, o kəndin ağacları, yamacları, çayı, çölü, dağları, dərələri, çəmənləri,əli təsbehli, dili hikmət dolu, baxışları mehribanlıq təcəssüm etdirən ağsaqqallar, ağbirçəklər, məktəb yoldaşları, «qaçdı-qovdu» oynadığı həmyaşıdları və bir dəg bənövşə ürəkli, ilk məhəbbət ünvanlı qızları olur.

Yaradıcı şəxsin doğma yurdun xatirələrindən bəhrələnmədən yazıb-yarada bilməsi qeyri-mümkündür. Yaradıcı şəxs doğma yurdun hər qarışına bələd olan, ona bağlanan, ondan ayrı düşəndən sonra sızıltısını misralarda, sətirlərdə yaşadan yurddaşdır.

Belə yurddaşlardan biri də yaxınlarda tanıdığım, yaradıcılığına və şəxsiyyətinə hörmət etdiyim şair-publisist

Şahməmməddir. Onun 2003-cü ilin sonlarında «Bakı» nəşriyyatı tərəfindən çap etdirdiyi əbədi-bədii nəşr olan «Ləngəbiz» kitabını mütaliə etdikcə hərarətli hisslərin-uşaqlıq xatirələrinin ağuşunda isindim.

Kitabın üz qabığında kəndin şəkli və 2-3-cü səhifələrində Şirvanda qədim yaşayış məskəni sayılan Ləngəbiz kəndinin xəritəsi verilmiş, yer adları isə sıra ilə göstərilmişdir: «Qoşa dərə», «Ağdaşbaba», «Əbil bağı», «Dağ yurdu» və bu kimi adlar bəzi gənclər üçün unudulmuş yerlərdir.

Çoxları həmin yerlərin xalq tərəfindən verilmiş adlarını bilmir, bu baxımdan kitabdakı xəritə tarixin aynası kimi nəzərə çarpır.

Müəllifinn təbiri ilə desək, həqiqətən də «maddi və mənəvi tükənməz sərvət» olan kəndlərimiz bu gün yavaş-yavaş unudulmaqda, ömür-gün kitabından silinməkdədir. Unutqanlıq isə tarixin faciəsidir.

Həyat şəraitinin, iqtisadi çətinliklərin məngənəsində sıxılan kəndlərimizin əhalisi iş, güzəran dalınca şəhərlərə üz tutur və bəzən də şəraitsizlik onları bir daha geriyə qayıtmamağa sövq edir. Olduqca kədərli-kədərli olduğu qədər də həll olunası vacib olan problemdir!

Kəndini məcburən, iki sevəni ayrı salan hicran qədərağrılı tərk edənlər də var, şəhərinrahatlığına can atmaqla torpaqdan qaçaq düşən könüllülər də.

Şahməmmədin əsərlərində ürəyinin bir parçasından, uşaqlıq illərindən, ilk arzusu, ilk məhəbbəti, kəndinin dağlarında əbədiyaşar küləklərdən, çağlayan bulaqlardan ayrı düşmüş sızıltı duyulur. Oxucu bu göynəyə şərik olmaqla doğma yurdun şirinliyini, xatirəsinin müqəddəsliyini dərk edir, düşünür ki, bu ayrılığın nə vaxtsa sonu olacaq və o geri qayıdacaq!

Amma çox vaxt şairin özü demişkən, çaylar kimi geri dönmək olmur. Şahməmməd ağrılarının dönümünü hiss edir, görür, amma çayların dönməsini heç zaman görmür. Şair geri

dönməyən gənclik kimi, sevgi kimi, ömür kimi gedənlərin qayıtmadığını dünyanın ağır yükü hesab edir:

**Buluddan ayrılıb torpağa çökdüm,**
**Qaynar baxışını dan kimi sökdüm.**
**Dalğın saçlarını üstümə tökdün,**
**Gülüm, məndən sonra çətin olacaq.**

Şahməmməd əsl tədqiqatçı zəhməti, əzab-əziyyəti iləLəngəbiz kəndinin səlnaməsini yaratmışdır. 19 çap vərəqi həcmində, nəfis tərtibatla oxucuların ixtiyarına verilən bu kitabı təkcə Ləngəbiz kəndinin deyil, eyni zamanda şairin öz həyat və yaradıcılıq səlnaməsi kimi də qəbul etmək olar.

Kitabın birinci bölümü 1965-ci ildə şeir-sənət aləmində ilk kövrək addımlarını atan bir şairin – Şahməmmədin haqqında kiçik xeyir-duanın nəfəsi sayalı ilə açılır. Həmin xeyir-dua sayalı, düşərli oldu. Bu sədadan sonra onun barəsində görkəmli şəxsiyyətlər rəy yazır, fikir bildirirdilər.

Bu da oxucuya geniş və çoxşaxəli yaradıcılıq imkanlarına malik bir insanın əməyini göz önündə canlandırır, şairi yaxından tanıyanlar isə fərəh və iftixar hissinə bürünürlər.

Ağsu çinarlarının budaqlarından qoparaq uçuşan yarpaq kimi kəndindən ayrılan və nəhəng bir məmləkətin paytaxtı Moskvaya qədər gedib çatan şeir misraları, sevməsə, yaşaya bilməyən şairin şeirə sadiqliyi məhz elə Ləngəbiz kəndinin sıralanmış dağlarında əbədiləşir.

**Mənə dəniz qaldı,**
**bir də Ləngəbiz.**
**Bir də qoca dağlar,**
**öz sırasıyla!**

Xatirələr ocağının işığında qızınan duyğu və düşüncələrindən bəhrələnən şairin xəyalı Ləngəbiz dağlarında gəzir:

addım-addım, nərgiz, novruzgülü kimi. Üzünü dağlara çevirən şairin bircə özü bilir ki, o dağlarda nəyi qalıb. Amma fikrimizcə, sual başqa cür verilməlidir: Şahməmmədin dağlarda nəyi qalmayıb?!

**Gözlərdə buludlar oynaşırdılar,**
**Leysan bir yağışdan xəbərdar kimi!**
**Al donlu lalələr boylaşırdılar,**
**Çətirsiz səfərə çıxanlar kimi.**

Kitabı, Şahməmməd haqqında, onun nəşr olunmuş şeir kitabları barəsində obyektiv, ətraflı rəylər toplusunun birinci bölümünə aid etmək lazımdır. Ikinci bölüm, necə deyərlər, kitabın adını daşıyır. «Salam, doğma yurdum!» – deyən şairin salam verməyə, necə deyərlər, kəndinin üzünə baxmaq üçün başını qaldırmağa haqqı da var, kəndin nəğməkar əhalisinə deməyə sözü də.

Az qala dünyanın yarısını gəzib dolanan şair könül rahatlığını, məhəbbətini, taleyini Ləngəbiz kəndində axtarır və tapır. Öz misralarında kəndini qarış-qarış, oba-oba, əqrəba-əqrəba «gəzib-dolaşır», kəndin ilk dəyirmanından təzə doğulan körpəsinə qədər hamısına «baş çəkir», hər kəsi birər-birər anır. Əsərinə kənd dəyirmanını təsvir etməklə başlayan şair sanki bununla oxucuya dua edir, həyatının müqəddəslik və bərəkətlə müşayət edilməsini arzulayır. Məncə, bu kitabı bir alim zəhmətinin bəhrəsi adlandırmaq daha ədalətli olardı. Amma bilmirəm ki, hansı sahə üzrə - filologiya, coğrafiya, etnoqrafiya, yoxsa tarixçilik?

Düşünürəm ki, kaş vətəndaşlıq elmi dərəcəsi də olaydı və sözsüz ki, Şahməmməd belə bir alimlik dərəcəsinə layiq olan ilk yazar sayılırdı.

Kitabda özünə yer tapmış «Kimdir günahkar?» əsərini kiçik povest də adlandırmaq olar. Mənəviyyat və əxlaq fonunda

yazılmış bu əsərin sujeti əsasında qısametrajlı film də hazırlamaq olar. Zamanın sürüşkən döngələrini, dövrün bugünkü ağrılarını həyatın aynasında canlandıran müəllif mənəvi təmizliyinin keşiyində durur. Bununla belə, həyatın sərt həqiqətlərini də cəsarətlə göstərir. Əşrəfin həyat yoldaşının mənəvi ucalığını, mənliyini qoruyub saxlamasını həyati detallarla qələmə alır. Əsrin bəlası olan qadın alverini bədii ədəbiyyata gətirərək bir daha sübut edir ki, adi çətinlik bütöv xarakterli, təmiz mənəviyyatlı qadınları yolundan döndərə bilməz! Oxuya-oxuya düşünürsən: «Nə yaxşı ki, əsər belə sonluqla bitir».

**Görən onlar bu dünyadan nə apardı?!**
**Görən biz?**
**Qalacaqmı izimiz?**

Iz... Ləpir... Yollarda, Qayalarda, Dağlarda, hətta daşlarda?!

Şahməmmədin hər şeiri, hər kitabı şeir yollarında min-min yolun, cığırın içində bir iz deyimi?!

Amma nə yaxşı ki, bu cığırın sahibi özündən narazıdır, bəziləri kimi özündənrazılıq xəstəliyinə düçar olmayıb:

**Çox doğulub Yer üzündə yazan-pozan,**
**Bu dünyanın kimi, yoxsa şairi var.**
**Sabir olub haqsızlığa qəbir qazan,**
**Tapılarmı Sabir kimi bir sənətkar?!**

Söz... Əbədi, Ulu Söz... Söz adamı, Söz abidəsi adı elə...

Bu kəlmələr şairin bütün yaradıcılığında ana xətt kimi keçir, sözə müqəddəs əbədi bir varlıq kimi baxılır.

**Nəyi səsləyəcək, nəyi tapacaq,**
**Demirəm sözlərin rəngləri nədir.**

**Sənin əllərinlə qalanan ocaq,**
**Bəlkə də sünyanı isidəcəkdir!**

Soyuq, laqeyidlik dumanlarında insan üzüdönüklüyünə, var-dövlətə uymayan, şeir-poeziya ülviyyətinə, sənət təmizliyinə və yaratmaq ucalığına nur saçmaqla dünyanı isitmək istəyən şairə öz sözlərini ismarıc edirəm:

**Doğumla-ölümün arası qısa,**
**Bu qısa böyükdür... Fəqət yaz deyil.**
**Əgər yaşamağa bir gün qalıbsa,**
**Onu duyan üçün bu da az deyil!**

***Tahir TAISOĞLU***
***Şair-publisist,***
***politoloq, siyasi elmlər namizədi.***

## ŞAİR-ƏSGƏR

***Gənc yazıçıların ümumittifaq müşafirəsi qarşısında***

**Al geyimli gündoğan,**
**Öpərək dodağından,**
**Günəşi yola salır.**
**Günbatan həsrət çəkir,**
**Axı gəlin yoldadır.**
**Üfüqlər çıraq-çıraq**
**Alışıb yanır.**
**Günbatan bu gəlişdən**
**Nura boyanır,**
**nura!**

Bir il bundan qabaq eşitdiyim bu kiçik şeirin xəyalımda yaratdığı lövhə hələ də silinməmişdir. Bu misralar hələ də dodaqlarımın pıçıltısıdır. Bu, əlinə təzə qələm alan Şahməmməd Şahməmmədovun gələcəkdə yaxşı şeirlər yaza biləcəyindən xəbər verirdi. Əlbəttə, uğurlu addımın sonrakı davamı zəhmətə, yuxusuz gecələrə, narahat günlərə bağlıdır. Ürəyində şeirə məhəbbət olan, narahat gecələri və gündüzləri özünün rahatlığı kimi qəbul edən hər bir vətəndaş şairdir. Əks halda, zədəli sim kimi mahnının şirin yerində qırılmalıdır.

Bir illik ayrılıqdan sonra Ş.Şahməmmədovla yenə də görüşdük. Üz-üzə yox, «Yeni Şirvan»ın səhifəsində. Həmin səhifədə indi ordu sırasında xidmət edən Şahməmmədin «Vətənə tələsirəm» şeirini oxudum. Sevindim. Azərbaycandan uzaqda, doğma ana dilində çıxan qəzet və jurnallardan, təzə kitablardan aralı düşsə də, o, irəliləmişdir. Onun bu şeirində tutarlı misralar zəif sətirlərdən qat-qat çox idi.

Bu günlər «Yeni Şirvan» qəzeti redaksiyasında mənə onun hərbi xidmət yerindən göndərdiyi bir neçə şeirini verdilər. Həmin şeirlərdə də yerində deyilmiş ifadə və təşbihlər var. Lakin Şahməmməd hələ çox oxumalı, çox axtarmalıdır.

Bu şərəfli və məsuliyyətli yollarda sənə uğurlar olsun, Şahməmməd!

***İsgəndər ETİBAR***
***Şair-publisist***

## «YER ŞARI MƏNZILIM, ÜFÜQ PƏNCƏRƏM ...»

Şimşəklərin şaqqıldadığı qoca göyrüş ağacı yanmış qollarını göylərə qaldırıb dua edir, elə bil ... Əl-ələ tutmuş vəhşi çöl çiçəklərinin, biçilmiş biçənəklərin ətri adamı dəli edir. Dəyirman daşına bənzəyən yastı sal qaya parçalarının üstündə yağışların döyəcləyib yazdığı «yazıları» barmaqlarınla oxuyursan. Elə bil milyon illik bu daş kitabələrin içində tilsimə düşübsən.

Sənin haqqında yazmağa başlayanda, o an hardan düşdü yadıma, bilmirəm. Illərin o üzündə qalmış o anda sən öz dünyanla üz-üzəydin. Maviliyə sərilmiş ala bulud da, başımızın üstündə oxuyan quşlar da, adamı dəli eləyən biçənəklərin ətri də səni o «sehrli dünya»dan qopara bilmirdi ...

**Ruhuma nur yağır ulu göylərdən,**
**Uzaq buludlarla qucaqlaşıram.**
**Qoynuna gələndə sanıram ki mən,**
**Allahın evinə yaxınlaşıram.**

Çox-çox sonralar bu misraları oxuyanda hiss etdim ki, ulu Tanrıya «yaxın» olan o dağların qoynunda, o müqəddəs ata yurdunda doğrudan da insan özünü unudarmış ...

Sənin haqqında yazmağım iyirmi, iyirmi beş il geriyə-gənclik illərimizə qayıtmağımdı. O illəri bir misranın işığıydı bizi pərvanə kimi başına yığan. Hər gün təzə bir şeir ... Heç yadımdan çıxmaz, bağda oturmuşduq. Balaca, şeytan qızların da dizinin üstündə. Təzə şeir yazmışdın, qızlardan hansısa nadinclik edib şeir yazdığın əl boyda kağızı əlindən aldı. Külək əsirdi. Bir də gördük ki, təzəcə yazdığın şeir qızılı yarpaqlara qoşulub, qala divarlarının üstüylə uçur. Qızlardan biri boynunda, o birisi qolunun üstündə şeir dalınca «uçduq». Şeir hardaydı? Çata bilərdikmi? Anası ölməsin Bakı küləyinin ... Sonralar «Çiçəklərin zərif ölümü» adlı bir şeir oxudun mənə. Çox xoşuma gəldi. Sən demə, küləyin Sədanın əlindən alıb apardığı şeirin adı «Çiçəklər» imiş. Mən soruşanda ki, bəs niyə «Çiçəklərin zərif ölümü», sən kədərli səslə dedin:

- Oxunmayan şeir ölüm kimi bir şeydi.

Və mən zarafatla dedim ki, sənin şeirlərini küləklər oxudu, dənizlər oxudu, Şahməmməd ...

Heç bircə gün keçmədi ki, «Mənim misralarım mavi küləkdi, mənim misralarım yatmış dənizdi ...» kəlmələri ilə başlanan

şeirini oxudun. Necə də qayğısız, xoşbəxt idik biz o zaman. «Nə xoşbəxt imişəm bir zaman Allah ...» şeirini gündə bir neçə dəfə xatırlayırdıq. Məmməd Arazın «Qanadlı qayalar» «Anamdan yadigar nəğmələr» kitabı stolüstü kitabımız idi.

Moskvada Akademiyada oxuduğun vaxtlar yazdığın məktubları, vurduğun zəngləri da unutmuram:

Dünyanın bir nömrəli xeyirxah adamı nə ilə məşğuldur?

Mən də zarafatla deyirdim ki, yetim-yesirin şeirlərini, kitablarını çap etməklə.

O vaxt sənin xəbərin olmadan şeirlərinin çoxunu, pyesini toplularda, qəzetlərdə çap etdirmişdim. Bu qəfil xəbərin qanadında sevindiyindən bir dəfə hətta Moskvadan təcili Bakıya uçmuşdun. Və mən o zaman gördüm ki, sən əsl ürək adamısan. Bu vəfasız dünyada qazandığım barmaq sayı qədər dostlarımın arasında öz saflığını, müqəddəsliyini, səmimiliyini qoruyub saxladığın üçün əlli yaşının astanasında sənin haqqında belə ürəklə söz deyirəm. Və elə bilirəm ki, başqalarının əlindən bu səlahiyyəti «aldığım» üçün, qabağa düşdüyüm üçün məni qınamazsan ...

Səni bir dost kimi, qardaş kimi doğulduğun Ləngəbizdə - ata yurdunda olarkən tanıdım, sevdim. Vağamlamış zəmilərin arasıyla, dağların belinə dolanan cığırla üzüyuxarı qalxırdıq. Dünyanın ən qəribə mənzərəsi açılmışdı gözlərimiz önündə. Ağappaq, pənbə buludlarla elə bil dərələr siləl追nmişdi. Canavarağız kahalarda düyün düşüb mürgüləyən quzğun küləkləri yaylaq hənirli dağ mehi əvəz etmişdi. Sal qaya parçasına dirsəklənib ağappaq buludlarla siləlinmiş sıldırımlı sərt uçurumların, dərələrin qulağına dünyada ən çox sevdiyin Məmməd Arazın misralarını pıçıldayırdı:

**Döy qapımı, döy qapımı, Müşfiq küləyi,**
**Əli Kərim qasırğası, qır pəncərəmi.**
**Bir uçurumdan asılıdır şair ürəyi,**
**Bir sal daşa söykəmişəm pəncələrimi.**

**Küləklərin laylasında uşaq kimiyəm,**
**Küləklərin nənnisində oynayır əlim.**
**Küləklərə qısılıram, nənəmdir deyə,**
**Saçlarını oxşamaqdan doymayır əlim.**

**Torpağımız alov quşlu, şimşək cüyürlü,**
**Bu torpağı qucmaq üçün dumanlaşaydım.**
**Əyiləydim bir div kimi, Arazlı, Kürlü,**
**Dərələri sümürəydim, tufanlaşaydım.**

O anda mənə elə gəlirdi ki, kürək-kürəyə vermiş bu nəhəng qayalar qanadlıdı. Biz bu qanadlı qayaların çiynində ağappaq buludların üstü ilə uçub gedirik. Aşağılarda, lap aşağılarda saralmış zəmilərdə başı çalmalı biçinçilər taxıl biçirdilər. Qəflətən ildırım çaxdı, şimşəklərin şaqqıltısı yeri-göyü titrətdi. Şıdırğı yağış başladı. Qaçıb biçinçilərin sığındığı qayanın altında daldalandıq. Yaşı yetmişi adlamış qoca biçinçi gülümsünüb dedi:

- «Çörəyimiz daşdan, qayadan çıxır...»

- Əsl şeir misrasıdır, - dedin. Çörəyimiz daşdan çıxır ...

Yağış qəfil başladığı kimi, qəfil də kəsdi. Bayaq keçib gəldiyimiz yerdə yarğan əmələ gəlmiş, sel-su göynən gedirdi. Bir az aralıda mamır basmış qədim abidələr, qəbir daşları görünürdü. Daşların sinəsini yağış oyduğundan su yığılmışdı. Və bir cüt göyərçin qəbir daşının sinəsinə yığılmış yağış suyundan içdikcə başlarını göyə qaldırır, elə bil Tanrıya dua edirdilər. Kədərli-kədərli dedin:

- Bəlkə bu göyərçinlər rəhmətlik atamın, bibimin, nakam qardaşımın ruhudur, göyərçin donunda burda yolumuzu gözləyir?

Atanın, bibinin, qardaşının baş-başa vermiş qəbirləri önündə dayanmışıq. Gözlərin yaşla dolur:

- Ağruy alım, üstünüzü örtün, soyuq dəyər ...

Elə bil diksinib ayılıram. Zeyvə anamızın səsidir. Ananın səsində də bir istilik, müqəddəs bir doğmalıq var. Necə də anama

oxşayır. Əlləri cadar-cadar, gözlərində dünyanın dərdi, əzabı, dilində dünyanın heç yerində eşitmədiyim şirin-şirin sözlər...

- Sınıxıbsınız, elə bil şəhərdə yeyib-içmirsiniz. Heç olmasa, ayda, ildə bir dəfə bu Şaxını götür-gəl, dağın-dərənin havası üz-gözünüzə dəysin. Səhər-səhər yığdığı tutu ovcumuza tökür. - Ağzınıza atın, dizinizə qüvvət gəlsin ...

Ürəyimdə öz-özümə pıçıldayıram: «Dünya durduqca yaşayasan, Zevi ana. Sənin elə quruca kölgən bizə bəsdi ki, hər il bu doğma ocağa baş çəkək, dərdimizi bulaqlara pıçıldayaq, ürəyimizi dumduru bu göylərə açaq ...».

«Sevməsəydim, yaşamazdım» kitabına yazdığın ön sözdə ata yurdundan, uşaqlıq illərindən necə də sevgi ilə danışırsan. Və mən bu doğma yerləri qarış-qarış gəzdikcə elə bil sənin sevə-sevə vəsf elədiyin o illəri, o günləri, Gülməmməd kişinin gülümsər çöhrəsini görürəm. Köçəri babanın biçənək ətirli səsini eşidirəm. «Yurd yeri»ndən üzüaşağı düşdükcə alpinist kimi dağlardan asılan sap kimi nazik çığırlarda sənin izlərini axtarıram ... Bütün bunlar illərin o tayında qalıb. Kəndlər, dağlar, dərələr yerində qalsalar da, o kişilər yoxdur bu dağlarda ... Amma bir şeyə sevinirəm ki, bu dağlar da, o köhnə kişilər də sənin səsində, nəfəsində, şeirlərində yaşayır.

Əlli yaş ömrün yolayrıcıdır. Elə bil yolçu ağır bir yükü çiynindən yerə qoyub bircə anlığa nəfəs dərir və sonra yenidən yollar başlayır. Günçıxana, günbatana gedən yollar ...

Çətinliklərimiz çox oldu, qardaş, arzularımızın şəhəri bu Bakıda. Uzaq kəndlərdən qopub gələndə heç nəyimiz yox idi, sevən ürəyimizdən başqa ... Dişimizlə, dırnağımızla özümüzə gün qazandıq. Xeyirxahlıq gördük insanlardan. Bəlkə buna görə də böyüklə böyük olduq, uşaqla uşaq. Bəlkə buna görə də bu gün sənin haqqında belə ürəklə danışırıq, uğurlarına sevinirik.

Tanıdığım gündən səni mərd, səmimi, canıyanan və alicənab gördüm. Gözəl ata, baba, dost, arxadaş, şair, vətəndaş ... Bunların hamısı sənə yaraşır, əziz qardaşım...

Heç yadımdan çıxmaz, düz on dörd il bundan qabaq uşaqlarla Moskvaya istirahətə getmişdim. Qatardan düşəndə qucağında gül dəstələri gözəl bir ailə bizi qarşıladı.

Təəccübləndiyimi görüb dedi:

- Şahməmməd Bakıdan zəng edib dönə-dönə tapşırıb ki, qardaşım ailəsi ilə istirahətə gəlir, onu qarşılayın və nə lazımsa kömək edin.

Bir ay Zelenoqrad şəhərində təbiətin qoynunda istirahət etdik. Bizi qarşılayan o adamlardan hədsiz hörmət-izzət gördük. Və sən özün Intizarla dəfələrlə zəng edib əlaqə saxladın. Bu adicə bir epizod olsa da, mənə olan bu diqqətini uzun müddət keçsə də, unutmamışam.

Dostumuz, qardaşımız, böyük şairlərimiz Xəlil Rza Ulutürklə, Məmməd Arazla bağlı narahatçılığımızı, bir yerdə ona baş çəkməyimizi, Azərbaycanımızın qüdrətli aktyoru Mikayıl Mirzənin o görüşlərdə oxuduğu şeirləri, xəfif yumorla dolu o anları, dəqiqələri də unutmamışam.

Sənin Nardarandakı bağında türkiyəli qonaqlarla keçirdiyimiz o şeirli, nəğməli gün də yadımdadır. O gün sən necə də sevinirdin. Nəvən Həmidi boynuna alıb qızılı qumların üstüylə düz dənizin sahilinə kimi qaçdın. O anda mən fikir verirdim, sən dünyanın ən xoşbəxt adamıydın. Və sonralar dəniz pıçıltısı hopmuş şeirlərini oxuyanda gördüm ki, sən o möcüzəli bağın, qumlu sahillərin təkrarsız cizgilərini necə də ustalıqla vermisən. Bax, əsl şairlik budur!

Çətin günlərin oldu həyatda, haqsızlıqlar gördün. Amma Xəlil Rza Ulutürkün dediyi kimi, «sarsılmadın, basılmadın, qoltuqlara qısılmadın», yoluna çıxan namərdlərə, şeytan xislətli adamlara sərt, qəzəbli şeirlərinlə cavab verdin:

**Yandıra bilmədin bir yurdun odun,**
**Bilmirəm nə deyib doğdular səni.**
**Şeytan məclisində baş şeytan oldun,**
**Axırda «şeytanlar» boğdular səni.**

Yadıma Nazim Hikmətin bu misraları düşür:

**Uşaqlıqda milçəklərin qanadını qopartmadı,**
**Vedrə bağlamadı pişiklərin quyruğuna.**
**Kibrit qutularında həbs etmədi böcəkləri,**
**Qarışqa yuvalarını dağıtmadı.**
**Böyüdü, bütün bunları onun başına gətirdilər ...**

Biz böyüdükcə çox şeylər gördük həyatda. XX əsrin ən böyük faciələrindən birini də xalqımız yaşadı. Ən gözəl, igid oğullarımız yurd uğrunda döyüşlərdə şəhid oldular, qundaqda olan körpələrimiz tonqallarda yandırıldı, minlərlə adamlar öz elindən-obasından didərgin düşdü. Erməni faşistləri yer üzünün görmədiyi ən dəhşətli faciəni - Xocalı soyqırımını törətdilər.

Xalqımızın bu ağır günlərində onun taleyilə alver eləyən şeytan xislətli adamlara da rast gəldik və tarix acı bir həqiqəti qulağımıza pıçıldadı:

«- Özünə qayıt, sən özünə qayıdanda böyük olursan...»

Yaxşı şeir sehrdir. Ananın körpə balasına oxuduğu layla kimi, çiçəklərin pıçıltılı-pıçıltılı açıldığı an kimi, budaqdan üzülən yarpaqların uçuşu kimi, yazağzı bulaqların dilinin açılması kimi...

Təzə kitabının ilk oxucusu da mənəm. «Xatirələr ocağının işığında» keçib gəldiyimiz günlərə boylanıram. Acılı-şirinli və həm də göz yaşları ilə süslənmiş o günlərin bir ləçəyi də sabaha olan ümiddi. Yazılarının hamısında can yanğısı, səmimiyyət, vətəndaş mövqeyi var.

... Artıq karvan yola düşüb. Onun mənzil başına çatması öncül durna kimi qabaqda gedən sarvandan asılıdır. Başı bəlalar çəkmiş xalqımızın taleyi üstündə köklənmiş «Karvan»la başladığın bu kitabın da taleyinin uğurlu olacağına bir inamın var.

Əziz qardaşım, səsin, sözün meydanı Cıdır düzü kimidir. Yel qanadlı, qızıl yalmanlı atların üstündə uçanlar da var, mənzil başının uzunluğunu duyub löhrəm yerişli atlarda yol gedənlər də

... Sən əkinçi ömrünə bənzəyən şair ömrü yaşayırsan. «Dağlar, səndə nəyim qaldı?», «Nastalo vremya», «Sevməsəydim, yaşamazdım» kitablarının onlarla toplularda, qəzetlərdə, jurnallarda çap olunan maraqlı yazıların, neçə-neçə mahnı mətnlərinin müəllifisən. Sən şeirlə nəfəs alan yurdunun, balalarının, dostlarının üstündə yarpaq kimi əsən bir şair, əzabkeş bir dostsan...

Yazılan hər təzə şeiri ilə doğulur şair. Dan üzünə, qürub çağına oxunan şeir, pıçıltı şairin tanrı duasıdır. Tanrı duaları üstümüzdə yar olsun! Özün gözəl deyibsən:

**Altıda, Yeddidə boşalır sinəm,**
**Bəzən də uzanır səkkizə kimi.**
**Beləcə, səhərlər doğuluram mən,**
**Qarlı zirvələrdən dənizə kimi.**

Əlli yaşın mübarək, Şahməmməd! Sənə balalarının, nəvələrinin, dostlarının, şeirlərinin yolunda, böyük Azərbaycanımız uğrunda «əzablı» günlər arzulayıram.

## «HƏYƏCAN DOLU BEŞ İL»İN DOĞURDUĞU HƏYƏCAN

Işlədiyim iyirmi ildən artıq bir müddətdə yüzlərlə nəsr, poeziya, publisistika kitablarının redaktoru olmuşam. Bu kitablar bütöv bir nəsil tərbiyə edib, yaşamağa, həyatı sevməyə, mübarizəyə səsləyib. Bir vaxtlar ilk şeirlərini çap etdiyim, uğur dilədiyim gənclər indi respublikamızın tanınmış yaradıcı ziyalılarıdır.

Öz səsi, öz nəfəsi, dəst-xətti ilə seçilən istedadlı şairimiz Şahməmməd də belə qələm sahiblərindən biridir. Mən onun «Sevməsəydim, yaşamazdım», «Xatirələr ocağının işığında», «Çaylar geri dönmür» kitablarının redaktoru olmuşam. Bəzi kitablarına ön söz yazmışam. «Nastalo vremya», «Dağlar, səndə nəyim qaldı?» kitabları haqqında mətbuat səhifələrində ürək

sözlərimi bildirmişəm. Ömrün 30 illik məsafəsində boy verən xatirə, nağıl, göz yaşlarından doğan müqəddəs bəşəri kədər, taleyimizin dan üzü, qürub çağı, xəfif, titrək, yaddaqalan duyğularla zəngin olan bu yazıların əksəriyyətini ilk dəfə mən oxumuşam. Şahməmmədin tələbəlik illərindən üzü bəri poeziya dolu ömrünün bütün anları gözlərimin önündən keçib. «Bahar çiçəkləri», «Dünyamız ağ göyərçin», «Pyeslər» toplularında gedən yazılarının işıq üzü görməsində az-çox əməyim olub.

Mən bu gün istedadlı qələm dostumun zəngin poeziya dünyasından söhbət açmaq istəmirəm. Onun poeziyası haqqında kifayət qədər yazılıb, söhbət açılıb. Mən onun yaradıcı ziyalı kimi işgüzarlığından, maraqlı axtarışlarından, zəngin dünyasından və son günlər işıq üzü görmüş yeni kitabından söhbət açmaq istəyirəm. Şahməmməd təbiətin insanlara bəxş etdiyyi gözəllikləri, cəmiyyətdə gedən ictimai-siyasi prosesləri həssaslıqla duymağı, görməyi bacaran və bütün bu reallıqları öz yaradıcılığına gətirən gözəl şair, publisistdir. Son dərəcə duyğulu, təbiətin özü qədər yumşaq, sərt və həssas olan qələm dostum Şahməmməd yaşıl dağlara bənzəyir. Onun sözündə-söhbətində Azərbaycanımız necə də zəngindi, sadədi, müqəddəsdi. Bu yaxınlarda Şahməmmədin yeni bir kitab üzərində işini başa çatdırdığını eşidəndə çox sevindim. Bu kitabı otuz il çalışdığı Bakı şəhər BPI-nin fəaliyyətinə həsr etdiyini biləndə marağım daha da artdı. Kitabın redaktoru oldum. Sənədli publisistika janrında olan «Həyəcan dolu beş il» kitabı göstərir ki, Şahməmməd həm də yaxşı publisistdir. Müəllif cərəyan edən hadisələri nəinki müşahidə etmiş, hətta bəzi dramatik məqamların iştirakçısı olmuşdur. Açığını deyim ki, mən də Bakı Polis Qarnizonunun fəaliyyəti ilə bağlı sənədlər əsasında yazılmış ilk kitab olan «Həyəcan dolu beş il»i həyəcanla oxudum, Polisin narahat, yuxusuz gecələr keçirdiyinin, gərgin anlar yaşadığının şahidi oldum. Hər addımda ölümlə üz-üzə, göz-gözə dayanan qəhrəman polis işçilərinə başçılıq edən general-mayor

Məhərrəm Əliyev ilə və onun ətrafında birləşən Bakı Polis Qarnizonunun dövlətçiliyimizə, ölkə başçısı cənab Heydər Əliyevə sadiqliyinin, sədaqətinin gözəl nümunəsini gördüm. Hadisələr burulğanında çarpışan polis ömrünün cəmiyyətimiz üçün nə qədər gərəkli, vacib olduğunun canlı şahidi oldum.

Kitabın başlanğıcında 1987-ci ildən başlayaraq sürətlə birbirini əvəz edən ictimai-siyasi proseslərin qısa xarakteristikası, xronologiyası, cənab Heydər Əliyevin respublikanın çiçəklənməsi naminə, xalqın iradəsi ilə hakimiyyətə qayıdışı, bu qayıdışın labüdlüyü, qanunauyğunluqları lakonik, yaddaqalan cizgilərlə verilmişdir. Cənab Heydər Əliyevin cinayətkarlığa qarşı mübarizədə öz xüsusi yeri olan, respublikamızın paytaxtı Bakı şəhər BPI-nə rəis təyin edilmiş Məhərrəm Əliyevin dövlətimizin rəhbəri cənab Heydər Əliyevin cinayətkarlıqla mübarizə sahəsindəki göstərişlərini necə reallaşdırması, iş üslubu, təşkilatçılıq fəaliyyəti, kadr siyasəti, ayrı-ayrı dramatik məqamlardan düzgün çıxış yolu tapması, cinayətkarlarla «döyüşdə» cəsurluğu, fədakarlığı, qətiyyətli addımlar atması, şəxsi heyətin qayğısını çəkməsi, şəhid ailələri, ictimaiyyətin nüfuzlu nümayəndələri ilə görüşləri öz əksini tapmışdır.

Məhərrəm Əliyev Bakı şəhər BPI-nin rəisi təyin edildikdən sonra onun rəhbərliyi altında Bakı Polis Qarnizonunun beş il ərzində gördüyü işlər, ildən-ilə yaxşılaşan fəaliyyətinin qeydə alınması, statistik rəqəmlərə nəzər saldıqda, dövlətin dayaqlarından biri olan polis orqanlarının necə də əzmlə, hünərlə, inadla çalışdığı kino lenti kimi gözlərimin önündən keçir.

Kitabda 60-dan çox fotoşəkil verilmişdir. Diqqətlə nəzərdən keçirdikdə hiss edirsən ki, bu şəkillər adi şəkillər deyil, canlıdır, həyatın donmuş anıdır. Bakı şəhər BPI-nin həyəcan dolu beş ilinin izlərini yaşadan məqamlardır. Bu şəkillər elə ustalıqla seçilmişdir ki, onlara baxdıqca oxucu heyrətini gizlədə bilmir, BPI-nin beş illik ömrünün mənzərəsini duyur.

Kitabı oxuduqca məsləhətçilər - polis polkovnikləri Yaşar

Əliyevin, Şirin Şirinovun zəhmətlərinin hədər getmədiyinin şahidi olursan.

Nəfis şəkildə çap olunmuş bu kitab polis işçilərinə, oxucularımıza gözəl hədiyyədir. Bakı şəhər BPI-nin beş illik ağır, çətin, uğurlu fəaliyyətinin işıqlandırılmasına yönəlmiş bu böyük zəhmətə görə qələm dostuma təşəkkürümüzü bildiririk.

Bir redaktor kimi bu kitab haqqında çox danışa bilərdim. Lakin bu gün məqsədim sadəcə olaraq, bu kitabı oxuculara təqdim etməkdir. Son söz onlarındır.

***Zülfüqar ŞAHSEVƏNLI***
***Şair-publisist***

## MÜDRİKLİK MANİFESTİ

Şeirləri oxuduqca «Ildırımlar qanadında» fikir sonsuzluğunun adi düşüncə üçün qapalı olan metafizik məkanının ilahi ritminə köklənmiş şair ilhamının müdrikləşməsi qarşısında, Şahməmmədin göz görə-görə gözəlliyə söz qoşmasından, gözəlliyin sehrinin heyrətinə düşən «filosofa dönməsi» önündə heyrətlənməmək olmur.

Onun hələ «Çaylar geri dönmür» kitabını oxuyanda «Müdrikləşir Azərbaycan poeziyasının Şahməmmədi» yazmışdım. Poetik düşüncəsinin, ilham tərzinin get-gedə keyfiyyət dəyişikliyi keçirdiyini, mütləq gözəlliyin kosmoloji ahəngi olan şair «marağının» aqil «fəhminə» döndüyünü sövq-təbii duymuşdum. Və bunu duymamaq, «görməmək», sadəcə mümkün deyildi. Onun poeziyasının «idrak» tonu Şahməmmədi dünya gözəlliyindən sadəcə olaraq zövq alıb, bu zövqün səfası ilə «xumarlanan» poetik varlıq olmaqdan çıxarıb, get-gedə dünyanın mahiyyəti, zəmanənin gərdişi, həyatın ilahi-kosmoqonik döyüntüləri barəsində aramsız olaraq düşünən müdrikə çevirirdi.

«Ildırımlar qanadında» adlanan kitabın təqdim etdiyi ədəbi faktura bu dönüşün, bu keçidin, bu «teoinformativ təqdirin» ar-

tıq «kosmoloji təğyir» olaraq gerçəkləşməsini cisimləndirir. Kitabın böyük bir qismi şair düşüncəsinin ilahi funksionallığının fasiləsiz ritmini inikas etməklə yanaşı, şərdən çıxıb şeir üstünə qalxan, səsin, sözün, fonomelodiyanın zahiri cazibəsindən qopub fikrin amorf məkanına yüksələn, forma-məzmun ahənginin gözqamaşdıran işığının bəbəyində məna axtaran intellektual düşüncəni bəlirdir. Istər-istəməz düşünməli olursan: şeir hadisəsi qurtarırmı bu şeirlərdə, yoxsa tamam başqa şeirlərdir bunlar?!

Hər şey artıq mizandan asılıdır, necə baxmaq, nədən baxmaqdan asılıdır. Gözəlliyi mənadan ayıranda o, artıq ilahi qaynağından qopmuş olur. Fizioloji yaşantıların şüurda yaratdığı ideya «qrafiklərini» maddənin düzüm məntiqi ilə sıralayanda, təhtəlşüurun teokosmik substratla süslənməmiş materialının poeziya dəzgahının ağzında buraxanda və alınan «məhsul» sənət əsəri sayılanda dəyərləndirmənin əsasında duran meyar belə «şeirüstü» şeirləri də dəyərləndirmək üçün artıq dəyərsiz olur. Və belə şeirlər zahiri gözəlliyində, mənaüstü qılafında uduzur «qılafı» cazibəli poeziyaya. Ancaq axıracan uduzurmu? Bax sual budur! Getmək olacaqmı o şeirlərlə Tanrı dərgahına, Tanrıya dualar olacaqmı o şeirlər? Qəbul edəcəkmi Tanrı onları bizim dualarımız kimi?!

Əlbəttə, hökm vermək olmaz. «Hökm onun hökmüdür, fərman onun fərmanıdır», nəyin necə qiymətləndiriləcəyi də onun hökmündədir. Ancaq bu da dünyanın bəlli həqiqətidir ki, ondan qıraqda olanların onu anmadan, ona güvənmədən «yaradılanlar»ın, onun yaratdığının heyrətinin təcəssümü olmayan, bu heyrəti daşımayan «məhsulat»ın alıcısı, dəyərləndiricisi məhz onun özü deyil. Özünün öz əli yaradıb proqramlaşdırdığı məlum antipodudur.

Mən «Ildırımlar qanadında» kitabını oxuyarkən dünyanın ilahi gerçəklərinə yaxınlaşan və yaxınlaşdıqca çaşqınlığı, heyrəti artan bir varlıq gördüm. Şair Şahməmmədlə insan Şah-

məmmədi ikiləşən gördüm. Bu ruh ilə bədənin ayrılması teokosmik invariantının maddi kosmos səviyyəsində paradiqması idimi, ya nə idi, bilə bilmədim. Ancaq belə çaşqınlıq, belə heyrət, özünü bu heyrətin ağuşuna atıb, zamanın tənələrinə qarşı «dereflektor» (reaksiyasızlıq) durumuna dalan sufi kimi ətrafın fərqində olmamaq bu kitabın «əvvəli» ilə «axırının» oxucuda yaratdığı və asanlıqla müşahidə edə biləcəyi inkarsız bir görüntüdür. «Soyuq başla» yazdığı «müqəddimə»dən görünən Şahməmmədlə ilahi cazibənin dinamikasına könüllə köklənmiş Şahməmməd sanki bir şəxs yox, bir şəxsin fərqi görüntüləridir. «Müqəddimə»də dünyanın sirrindən baş açmadığını, bu sirlərin «ümumiyyətlə» qapalı olduğunu «bəyan edən» Şahməmməd şeirlərində bir özgə «bəyan ilə hal olur», o sirlərin heyrətində olur, ilahi sərməstliyin röyasından ayrılıb «halbahal olduğu» vücudunun fərqində olmaq istəyir...

«Mən «Çaylar geri dönmür» şeirlər toplusunda yazmışdım ki, «insanlar həmişə haqqın, ədalətin yolunu axtarmışlar, bu gün də axtarırlar. Lakin... tapa bilmirlər. Bilməyəcəklər də». Mənim bu fikirlərimin üstündən illər keçdi. Və mən bir daha söylədiyim fikrin həqiqət olduğunu dönə-dönə təsdiqləyirəm...»

Bu cümlələr Şahməmmədin öz kitabına yazdığı müqəddimənin ilk sətirləridir. Və bu sətirlərdəcə o, Ilahi sirlərini idrak etməyin «acizliyini» ifadə edir. Və bunu etiraf etmək məqamına yüksələn nə birinci, nə də axırıncı insan olur.

Şeirlərində isə biz başqa bir varlığı, dünya heyrətinin sonsuzluğuna köklənmək istəyən, kökləndikcə usanmayan, gerçəkliyin mehini duyduqca müdrikləşən, zərifləşən, kövrəkləşən, ilahi məhəbbətin daşıyıcısına çevrilən şairi görürük:

**Bağlaya bilmirəm gözlərimi mən,**
**Sönmüş ocaqlara, sönmüş şamlara.**
**Taleyim yapışıb çəkir əlimdən,**
**Özüm də bilmirəm haradan hara.**

Tanrı ona göz verdi ki, görsün, bəsirət gözünü açdı ki, görsün və anlasın. Baxmaya bilmədi, anlamaya bilmədi. Anladığı bu oldu ki, taleyini yaşayır, taleyinə düşəni yaşadır. Və bu da onun taleyidir: Tanrı ona düşünməyi buyurub, düşünməyə dəvəti buyurub:

**Bu dünyanın tarazlığı pozulsa,**
**Əyilərsə bu dünyanın bir üzü.**
**Talelərə belə yazı yazılsa,**
**Tərs düşəcək yeri gecə-gündüzün...**

Şair insanları Tanrı nizamına, ilahi mizanlara köklənməyə çağırır. Bu həm də ilkinliyə, əzəliyyətə məhəbbətdir. Dünyanın o çağına, o məqamına məhəbbətdir ki, onda insanlar günəşlə durardılar, ayla yatardılar, ağaca, ota, suya, gülə, çiçəyə Tanrı nəfəsinin təcəssümü kimi məhəbbət bəsləyərdilər. Indi isə dünya nizamından çıxıb bilə-bilə, görə-görə demək olar ki, xaosa doğru gedir:

**...Mən nə deyim zəlzələyə, daşqına,**
**Yer kürəsi pəncəmizdə oynayır.**
**Mən nə deyim bu oyunun adına,**
**Salxım-salxım kədər dadır, qəm dadır.**

Bu dünyada bir ömür yaşayıb, acısından-şirinindən dadıb müdrikləşən, onun insanlarının hər cür sifətinə bələd olan şair yenə də insan oğlunun bəd əməlləri qarşısında heyrətə gəlir:

**...Məni düşündürür illərdən bəri,**
**Gözüm də yaşarır, qəhər də boğur.**
**Deyirəm, bəlkə də çox kişiləri,**
**Haradasa analar elə daş doğur...**

Insan isə dünyaya daş olmaq üçün yox, daş kimi olmaq üçün yox, insan olmaq üçün gəlir. Və bu insanlıq dünyanın yaxşı-

yamanının anlanmasından, Tanrının onu hansı yüklə «yükləndirməsinin» idrakından keçir:

**Mənim deyəcəyim yollar keçibdir,**
**Mənim deyəcəyim illərdən heykəl.**
**Qəlbimə Tanrının adı köçübdür,**
**Yaxşını, yamanı gəl unutma, gəl...**

Şair könlünə Tanrının qonaq gəlməsi dünyanın ən şərəfli məqamıdır. Könül elə Allahın insan mikrokosmunda şərəfləndiyi sakral məkandır. Şahməmmədin də könlü belə məqamla şərəfləndirilib.

«Ildırımlar qanadında» pərvazlanan Şahməmmədin yönü Tanrıya doğrudur. Indi onun poeziyası həmişəkindən daha çox Tanrıya edilən duaları xatırladır. Və bu şeirləri elə gerçəkdən Tanrıya dualar saymaq olar. Bu şeirin ki bütün ruhundan, poetik strukturundan, məna və məzmunundan Tanrı adı keçir, onu ilahi nəfəsli dua saymaq olar. Şairə görə Tanrıdan qıraqda və Tanrısız heç bir varlıq, yaradılış ünsürü ola bilməz:

**Yer üzündə**
**Kim nə iş tutsa,**
**Xəbərdardır**
**Tanrı.**
**Əzəldən**
**Etdiyiniz əməlləri**
**Ölçüb-biçin barı...**

Bu şeir yarpağı «Hər şeyi biləndir O», «Hər şeydən xəbərdardır O» ayələrinin şair mikrokosmu səviyyəsində təcəssümüdür. Bu müqəddəs xəbərdarlıq hələ 1400 il öncə nazil oldu. Və indi nədən şair düşüncəsində poetik möcüzə kimi yenidən doğulur? Bəlkə elə dünyanın mahiyyəti budur?! Dünya elə onun tükənməz gözəlliyinin təkrar-təkrar cilvələnməsindən ibarətdir?! Demir, bizə bunu şair Şahməmməd və biz də bil-

mirik belədir, ya yox? Ancaq Şahməmmədin əmin olduğu ilahi həqiqətlər var:

**Haqqı,**
**Ədaləti**
**Bir mən,**
**Bir də mənim kimilər...,**
**Bir də Tanrı bilir.**
**Onun da əli,**
**Özü doğru,**
**Sözü doğru**
**Olanların**
**Çiynindədir.**

Tanrının əli insanların çiynindən çəkilən yerdə həqiqət olmur və onun yoxluğu bu dünyanın «faniliyinin» bəd üzü kimi soyuq və acı olur. Bədbinlik yaradır:

**Həqiqəti axtarma,**
**Yoxluğunu**
**Bilə-bilə.**
**Tapsan,**
**Yerini**
**Mənə də söylə!**

Ancaq bu heç də şair həqiqəti deyildir. Əksinə, onun dünyaya iztehzasıdır. Haqqı, həqiqəti olmayan yerdə axtarmazlar. Həqiqət Tanrının əlinin qoyulduğu çiyindədir, onun adının qonaq gəldiyi könüldədir. Ona çatanlar Tanrıdan güc alır, Tanrı iradəsinin daşıyıcısı olaraq cəsarətin simvoluna çevrilir:

**Həlak olsan da,**
**Həqiqəti de.**
**Qurtuluş budur.**

**Qorxub-çəkinsən,**
**Yalan**
**Hər şeyi udur.**

Yalandan qurtulmaq, haqsızlıqdan qurtulmaq bəşəriyyətin ilahi harmoniyaya çatmağının yoludur. Çünki O, yaratdığı dünyanı heç vaxt sahibsiz qoymaz. Öz rəhm əlini çiyinlərə qoyduğu kimi, qəzəb əlini də çiyinlərə qoyacaq. Bu şair inamının poetik ifadəsindən daha çox onun müdriklik manifestidir:

**Həqiqəti bilib**
**Cəza verənlərə,**
**Həqiqət**
**Özü də güləcək.**
**Çox heyf...**
**Onlar**
**Bilməlidirlər ki,**
**Gec-tez**
**Tanrının**
**Qəzəbinə gələcək.**

Tanrını sanki bir möcüzədən ibarət olaraq zənn edənlər onun dünya adlı möcüzəsini sanki görmürlər. Bunun üçün bəlkə də, şair olmaq lazımdır. Ancaq Şahməmməd bununla razı deyil. Insan olmaq lazımdır bunun üçün. Insanların alqışını qazanmaq lazımdır, qarğışını yox; Biz öz hisslərimizi istəklərimizə çevirərkən Tanrı iradəsinin teokosmik gücünə tapınmış oluruq. Şahməmməd «müdriklik manifestində» dünyanın Tanrı adlı möcüzəsi onun sadə və ali həqiqətlərinin dərki olaraq ifadə olunub:

**Acı da olsa,**
**Həqiqəti danış.**

**«Bər-bəzək» vurma,
Sənin də qapını
Döyər qarğış.**

O da bir insan kimi bu dünyada öz məqamını anlamağa çalışır. O məqam ki, ona tale olaraq göndərilib, «yazılıb». Və hər bir insan öz taleyini axtarmalıdır. Şahməmməd öz «yazısını» tapmış insanlardandır:

**Mən
Əzab və məşəqqət
Vermək
Üçün doğulmamışam.
Gərək
Hər şeyi anım,
Axı mən də insanam...
Bədniyyətlərin
Daxilində
Şeytanlar yuva qurub,
Düşündükcə məni
Qara basır...
Şeytanlar hara,
Mən hara?!
Söküb dağıdasıyam
Bu yuvaları,
Qaranlıqları.
Qoy hamının ürəyində
Bahar olsun, bahar,
Qoy gül kimi tər,
Bir də təmiz böyüsün
Uşaqlar.**

O, şeytanlara döyüş elan edir; varlığı ilə ağ dünya və qara dünya arasında çəpər çəkir. Özünü sipər edib gələcəyin keşi-

yində durur. Uşaqlığı şeytan fitnəsindən qorumaqla öz varlığının gələcəyə yönələn ulu karvanının mənəviyyat yükünün paklığını qorumuş olur. Yalnız müdrikləşən, bu dünyanın ulu mahiyyətini başa düşən şəxsiyyətlər bu dünyanın ölümünün və olumunun müvəqqəti olduğunu, olumun da, ölümün də vahid bir hadisə olduğunu idrak edirlər.

Şahməmmədin dünyanı belə qavradığı, «yazı» olaraq anladığı, varlığın ümumiyyətlə, yazının təcəllası olmasını idrak etdiyi onun şeirlərindən açıq şəkildə «boy verir»:

**Nağıla çevrilib ömür də, gün də,**
**Nağıla çevrilib əllərin sənin.**
**Nağıla çevrilib toy da, düyün də,**
**Nağıla çevrilib illərin sənin...**

Ömrün, günün, sevgili əllərinin, toyun, düyünün, illərin nağıla çevrilməsi, ümumiyyətlə, gerçəkliyin yaddaş olaraq, yazı olaraq dərkidir. Yaddaş, yazı informasiyadır. Yaradılış aləmi ilahi substratın informativ çevrilməsi, sublimasiya olunmasıdır. Şahməmədin bu dünyanı bir nağıla «çevirməsi» onun ilham konteksində yaradılışın informativ mahiyyətinə köklənməsi deməkdir:

**Nə bilim, bəlkə də nağıl olmusan,**
**Nağıllar ardınca baş alasıyam.**
**Qara bulud kimi, gülüm, dolmuşam,**
**Bir külək toxunsa, boşalasıyam!**

Sevginin də nağıl kimi dərk olunması bu dünyanın heç bir hadisəsinin teoinformasiyadan qıraqda olmadığının anlamına gəlir. Nağıl bu dünyanın şirinliyidir, arzuların çin olduğu, ədalətin haqsızlıq üzərində qələbə çaldığı, insanlığın şər qarşısında heç vaxt məğlub olmadığı məkandır. Insanlar öz tekosmik strukturu ilə bu məkana bağlıdır. Nağılın ideala köklənmiş ma-

hiyyəti onda dünyanın ulu, əzəli və ilkin həqiqətlərinin ifadə olunduğunu göstərir. Şahməmmədin ilham anında nağıla «gəlib çıxması» ona qismət edilmiş xoşbəxtlikdir. Bu dünyanın nağıl «yazısını» anlamaq xoşbəxtliyi...

Şahməmməd poeziyasında ilhama gəlmiş elə yarpaqlar var ki, onlar birbaşa olaraq dünyanın informativ mahiyyətindən, yaddaş həqiqətindən soraq verir. «Yazı» və onun derivativ törəmələrində (yazmaq, yazıçı, yazar və s.) ifadə olunan dünya gerçəkliyi şairin yaradıcılığında dünya xronotopunun hərəkət dinamikasının teosubstratı səviyyəsində mənalandırılır; yazmaq ilahi qədər, ilahi tale, yaşamın qutsal qayəsi kimi tərənnüm olunur:

**Bildiklərini yaz,**
**Yazmasan,**
**Itib-batar.**
**Bəs mənə,**
**Ona**
**Səndən**
**Nə çatar?**

Poetik «vəyh» məqamında dünyanın ən uca həqiqətlərinə yaxınlaşan Şahməmmədin bu həqiqəti «bilik» (bilgi, informasiya, yazı) olaraq «görməsi» onun artıq şairlik kodundan qırağa çıxması, dünyanın fəlsəfi dərki koduna köklənməsi deməkdir:

**Soruşsan ki,**
**Bilik nədir?**
**Deyərəm ki,**
**Başdan-başa**
**Sirdir, sirr.**
**Insanlar isə**
**Onun**
**Bircə qətrəsini bilir.**

Şairə görə dünyanı sonadək dərk etmək qeyri-mümkündür. Tanrı özü bunu istəməyib. Ancaq O, insanlara hüdud bilməyən sezmək hüququ verib. Insan dünyaya sevmək üçün gəlib, gözəlliyi görmək, duymaq, heyrətlənmək üçün gəlib. Və Tanrının yaratdığı  dünyanın gözəlliyi sonsuzdur:

**Hələ nə gəzmişik bu torpağı biz,**
**Hələ toy soraqlı günlərimiz var.**
**Dünyada rəngini görmədiyimiz**
**Çiçəklərimiz var, güllərimiz var...**

Insanın torpağa, yurda bağlılığı onun düşüncəsinə ilahinin qoyduğu «teoimpulsdur». Dünya və onun bütün ünsürləri öz başlanğıcını bu ilahi təkandan götürür. Ona görə də insanın dünyaya vurğunluğu, varlığa vurğunluğu ilahi təbiətli olub, tükənməz sevgi hadisəsini gerçəkləşdirir:

**Çəkir torpaq məni, çəkir el məni,**
**Çəkir sıra dağlar, dərin dərələr.**
**Sanki qayalara çırpır sel məni,**
**Sökür yaxasını qızıl lalələr...**

Sel olub qayalara çırpılmaq istəyən Şahməmməd üçün artıq bu dünyanın seli-suyu, tufanı-qasırğası bir dəhşət, vəhşət yox, vəhdətdə olduğu ana torpağın sevinci, şən, şux oyanışıdır. Bunu insan qopduğu torpağa ruhən qovuşmaqla, birgələşə bilməklə anlaya bilər:

**Deyirəm, obasız, elsiz kiməm mən,**
**Vətənin nə vaxtsa daş balasıyam.**
**Vətənsiz bir ovuc soyuq küləm mən,**
**Meh əssə, göylərə sovrulasıyam.**

Hər varlıq zərrəsi hansı məqamdan qopubsa, o məqama da qayıtmalıdır. Bu dünyanın nazil olmuş funksionallıq prinsipidir. Varlığın zərrədən azmana qədər hər bir ünsürü materialından, görkəmindən, kimliyindən və nəliyindən asılı olmayaraq, bu funksionallığın ilahi sxeminə tabedir.

**Ürəyim çırpınır söz sorağında,**
**Sözü zərrə-zərrə çəkəsiyəm mən.**
**Bir həsrət yaşayır könül bağında,**
**Nə qədər canım var, çəkəsiyəm mən...**

Bu həsrətdir, ancaq ilahi həsrətdir. Insan onu bütün ömrü boyu varlığında gəzdirir, həsrətin odu ilə çırpınır, döyünür. Və nə yazıq o kimsələrə ki, içindəki həsrətdən uzaqdır, onu maddiləşdirir, bütləşdirir, dünya malı səviyyəsinə endirir. O da dönür, çatır istədiyinə... Ancaq bu dönüş ilahi mahiyyətə doğru deyil. Onun gözəllik adlanan xoşbəxtliyinə ünvanlanmayıb. Bunun üçün «Ildırımlar qanadında» uçmaq, «sel kimi qayalara çırpılmaq», «səsini küləklərə qatıb dağlara səpmək» lazımdır:

**...Düşmüşəm gözümdən, könlümdən tora,**
**Bura dönəsiyəm uçsam da hara.**
**Küləklər, səsimi səpin dağlara,**
**Sinəmi sizinçün sökəsiyəm mən...**

Müdrikləşib Azərbaycan poeziyasının Şahməmmədi. Bədii sözü gerçəkliyin universalilərinin qanadlı ifadələrinə döndərib. Kim udub, kim uduzub bilmirəm. Şeir udub-uduzub bilmirəm. Bilinən odur ki, bu dünyanın Şahməmməd adlı bəndəsi sözün fəlsəfi sehrinə düşüb, bu sehrə çulğaşıb, eşqi ilə məcnun olub...

*Seyfəddin RZASOY*
*flologiya elmləri doktorantı*

## «SOVETSKAYA MILISIYA» JURNALININ SƏHIFƏLƏRINDƏ

O, narahat bir ömür yolu keçib. Duyğuları da keşikdədir, özü də. Amma ürəyi ilə peşəsi arasında doğma bir yaxınlıq var. Özü insanların keşiyini çəkir, ürəyi isə ali hisslərinin! Qəlbində insanlara deyiləsi çox söz var ...

... Milis baş leytenantı Şahməmməd Şahməmmədov müqəddəs bir amalla yaşayır. O, poqonu və qələmi ilə şirin arzuların, ümidlərin keşiyində durmağı böyük səadət hesab edir.

Əmək fəaliyyətinə adi milis nəfəri kimi başlayan, S.M.Kirov adına ADU-nun hüquq fakültəsini bitirəndən sonra isə Bakı şəhər Daxili Işlər Idarəsinin Istintaq Şöbəsində əvvəlcə müstəntiq, sonralar isə bölmə rəisi işləyən Ş.Şahməmmədov artıq ikinci ildir ki, SSRI Daxili Işlər Nazirliyi Akademiyasının dinləyicisidir. Milisdə nümunəvi xidməti - fərasətlililiyi, cəsurluğu, başlıcası isə insanpərvərliyi, təvazökarlığı işlədiyi kollektivlərdə ona böyük nüfuz qazandırıb.

Hələ doğma Ağsu rayonunda keçirdiyi qayğısız uşaqlıq illərindən bu günəcən Şahməmmədin qəlbində bir arzu alovlanır. Şeir yazmaq arzusu. Beləliklə, gənc qələm dostumuzun ömür yolu iki yerə haçalanıb: biri – peşə cığırı, o birisi – sənət cığırı.

... Şahməmmədin ilk şeiri «Azərbaycan gəncləri» qəzetində işıq üzü görüb. Sonralar şeirləri «Bakı», «Sovet kəndi», «Ədəbiyyat və incəsənət», «Azərbaycan pioneri» qəzetlərində, «Təşviqatçı», «Ulduz», «Azərbaycan təbiəti», «Göyərçin» jurnallarında dərc olunub. Bu yaxınlarda isə onun yaradıcılığı ilə «Gənclik» nəşriyyatı tərəfindən çapa hazırlanan şeirlər toplusunda tanış olacağıq. Poeziya həvəskarlarının çoxu Şahməmmədin şeirlərini sevə-sevə oxuyarkən bu şeirlərin müəllifinin onların asayişi keşiyində durduğundan bəlkə də xəbərsiz idilər.

Bu gün biz onları şairqəlbli milis zabiti ilə yaxından tanış edirik.

Bir neçə gün əvvəl Şahməmməd Şahməmmədovun poetik bioqrafiyasında uğurlu hadisə baş verib: SSRI Daxili Işlər Nazirliyinin «Sovetskaya milisiya» jurnalı özünün sentyabr nömrəsində gənc şairin bədii yaradıcılığına nəfis tərtibatla qoşa səhifə həsr edib. Şeirləri rus dilinə moskvalı şairlərdən Irina Yefimova və Viktor Zabelışinski çevirib. Bu hadisə akademiyanın dinləyicilərinin və professor-müəllim heyətinin böyük sevincinə səbəb olub. Akademiyada həmyerlimizlə görüş keçirilib.

Istedadlı qələm dostumuz, milis baş leytenantı Şahməmmədə seçdiyi peşədə, tutduğu çətin sənət yolunda böyük uğurlar arzulayırıq.

***Zeynal BABAYEV***
***Azərbaycan SSR əməkdar***
***mədəniyyət işçisi, publisist***

## YOLLARIN SONU GÖRÜNMÜR

Bu dünyaya gəlişi ilə ömür yolunun yolçusuna çevrilir insan. Qarşıda bizi nələrin gözlədiyindən xəbərsiz olsaq da, daim irəliyə doğru addımlayırıq. Burada nə geriyə dönmək, nə də taleyimizin bizə göstərdiyi cığırdan bircə addım da olsa, kənara çıxmaq imkanımız yoxdur. Büdrəsək də, yıxılsaq da, qalxıb irəliyə doğru addımlamalıyıq. Tufanlarla üzləşsək də, dərələrdən keçməli, dağlardan aşmalı olsaq da, dayanmamalıyıq.

Bu yolun çətinliklərinə hər adam tablaya bilmir. Bu yolu başadək hər kəs üzüağ gedə bilmir. Düzdür, ömrün bəzi məqamlarında kimlərsə əlindən tutur, kimlərsə sənə düz istiqamət göstərir. Amma zaman keçdikcə əlindən tutanların bəzilərini itirir, bəzilərindən isə ayrılmalı olursan. Bir də baxıb görürsən ki, artıq ömür yolunda özün irəliləməli, öz gücünlə

addımlamalısan. Hələ lazım gələndə kimlərinsə əlindən tutub, onlardan köməyini də əsirgəməməlisən.

Dünyada canlı və cansız bütün varlıqların öz yolu var. Dünyanın özü də müəyyən bir yol ilə daim hərəkətdədir. Çayların öz yolu, küləklərin, yağışın öz yolu, günəşin, ulduzların öz yolu var. Ancaq bunların hamısından keçən, hərəsindən bir rəng alan bir yol da var: Şairlərin yolu. Təqdim edəcəyim yazıda sizə görkəmli şairimiz Şahməmməd Şahməmmədovun keçdiyi ömür yolundan və bu yola həsr etdiyi kitabından - «Yollar» xatirələr toplusundan söhbət açmaq istəyirəm.

Şahməmməd müəllimin «Yollar» kitabını oxuyarkən bir insan ömrünə güzgü tutursan. Onun uşaqlıqdan bu günə kimi bütün yaşantıları, sevincli, kədərli anları ilə tanış olursan. Ağsu rayonunun Ləngəbiz kəndindən bir körpə uşağın başladığı və böyüyüb ataya, babaya çevrildiyi, müəllim, müstəntiq, nəhayət tanınmış şair olanadək keçdiyi ömür yolunun hər qarışından xəbər tutursan. Bu yollarda sevinc də var, kədər də, xoş duyğular da, ağrılar da, çatdığı və çatmadığı arzular da.

Müəllif uşaqlığını kövrək duyğularla xatırlayır. Birinci sinfə getdiyi zamanları, ilk müəllimini hörmətlə yad edir: «...Birinci sinfə 5 yaşında getmişəm. Atamın, anamın sevincinin hüdudu olmayıb. Ona görə ki, onların ilk övladı məktəbə gedirdi. Deməli, onların da evində kimsə oxumağı, yazmağı bacaracaqdı.

Boyum lap balaca olub. Bir də ki, beş yaşında bir uşağın palçığı yapışqan kimi olan bir kəndin yolları ilə dərsə gedib-gəlməsi sizə asan gəlməsin. Anam deyərdi ki, yollarda palçıq dizə çıxanda səni kürəyimə alıb, məktəbə aparıb gətirərdim. Dərsə getdiyim həmin ildən yaddaşımda bircə Bikə müəllimə qalıb, bir də onun Stalin ölən günü yanaqlarından sildiyi göz yaşları...»

Hamımızın ilk müəllimi olub həyatda. Amma hər müəllimin yetirmələri yüksək zirvələri fəth edə bilmir. Bu mənada Şahməmməd müəllim də qazandığı uğurlarına görə ilk növbədə müəllimlərinə və xüsusən də Bikə müəlliməyə borclu

olduğunu kitabda dönə-dönə vurğulayır.

Səkkizinci sinifdə təhsilini davam etdirmək üçün qonşu kəndə getməli olduğunu bildirən müəllif sinif yoldaşlarını da hörmətlə yad edir: «Biz altı yoldaş - mən, Rəhim, Yusif, Kamal, Ağamirzə, Baldadaş onuncu sinfi bitirənə qədər hər gün bir-birindən iki kilometr aralı olan Ləngəbiz və Bağırlı kəndlərini birləşdirən o yolla tozundan-torpağından, palçığından asılı olmayaraq, gedib gəlirdik, oxuyurduq, çünki oxuyub nəsə bir peşə sahibi olmaq istəyirdik.

Illər ötdü. Baldadaşdan başqa hamımız müəllim olduq. O isə işləmək üçün Sumqayıta getdi. Indi də orada işləyir və yaşayır. Ağamirzə müəllim isə artıq həyatda yoxdur...»

Amma müəllim olmaqla kifayətlənməyən, daha böyük işlər görməyə, özünü müxtəlif sahələrdə sınamağa çalışan Şahməmməd müəllim «Gənc Sabirçilər» ədəbi məclisinin dərnəklərində iştirak etməyə başlayır. O vaxta kimi yazıb heç kimə göstərmədiyi şeirlərini dərnək üzvlərinin müzakirəsinə verir. Günlər keçdikcə hamı onun şeirlərinin oxuculara xoş təsir bağışlamasından danışırdı. Şahməmməd isə daha da ruhlanırdı. Nəhayət, dərnəyin rəhbərliyi tərəfindən bəyənilən şeirləri «Yeni Şirvan» qəzetinə göndərilir və 3 sentyabr 1965-ci ildə iki şeiri həmin qəzetdə dərc olunur. Bu şeirlərdən birinin adı «Çiçək» idi.

**Çiçək, ay çiçək,**  
**Açıldıqca sən**  
**Yaşıl çəməndə,**  
**Gülümsəyirsən.**

**Solduqca yarpaq,**  
**Saralır çəmən.**  
**Sən də ətrinlə,**  
**Birgə köçürsən.**

Şeirini qəzetdə oxuyarkən özünü dünyanın xoşbəxti hiss edir və o zamandan Şahməmmədin ömür yolunda bir şairin də açdığı cığır görünür.

Hərbi xidmət illərində də o, qələmini yerə qoymur. Bir-birindən gözəl şeirlər yazır. Xidmətini bitirib kəndə qayıtdıqdan sonra isə ailə həyatı qurur: «...Toyumuz bugünkü kimi yadımdadır. 1969-cu il dekabrın 14-də kəndimizdə hamı bizdən, xoşbəxt ailə quran iki gəncdən danışırdı. Şəffaf bir yağış yağırdı. Toyumuzu rəhmətlik aşıq Əbil edirdi...

Yəmənxanımın ayağı sayalı oldu. Həyatda həlli mümkün olmayan çətinliklərə rast gəlmədim...

Övladlarımızın sağlam böyüməsi üçün Yəmənxanımın zəhmətləri əvəzsizdir. Ömrünü-gününü Sədanın, Mətləbin, Könülün, Mehribanın, Həbibin, Fərqanənin və bir də mənim yolumda əritmişdir. Ymumiyyətlə, ailəmizin möhkəmliyini məndən çox o qorumuşdur. Indi övladlarımız hamısı evlənib, on nəvəmiz var. Ən kiçik övladımız Fərqanənin oğlu Fuadın bir yaşı tamam olmayıb...»

Bunların hamısı yaşı 60-ı haqlamış bir insanın ailə qruduğu vaxtdan bəri keçdiyi yollara baxışıdır. Indi övladları və nəvələri ilə qürur duyur, onlara baxanda ürəyi fərəhlə döyünür.

Indi Şahməmməd müəllimin bu günə kimi gəldiyi yoldan onun altı övladının hər birinin öz yolu ayrılır. Artıq nəvələr də öz yolları ilə addım-addım irəliləyirlər. Şahməmməd müəllim isə onlara bir ata, bir baba kimi düzgün istiqamət göstərir, büdrədiklərini görəndə əllərindən tutur.

Şahməmməd müəllim hüquq mühafizə orqanlarında işə başlamasını da fərəhlə xatırlayır: «Hiss edirdim ki, bir kəndin və aldığım təhsilin çərçivəsində inkişaf etmək qeyri-mümkündür. Bakıya gəldim. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul oldum. Yenə də tələbəlik... Yenə də dostlar... Soltan, Əli, Hazim, Yaqub... Imtahanlara birgə hazırlaşırdıq. Özü də Soltanın mühazirə dəftərindən.

Çünki o, bütün mühazirələri səliqəylə yazmışdı.

Universiteti bitirdikdən sonra müstəntiq oldum...»

Beləcə, Şahməmməd müəllim hüquq mühafizə orqanlarında işə başlayır. Bu da onun ömründə keçdiyi şərəfli yollardan biri olur.

«Yollar» kitabını oxuduqca müəllifin uğurlarına, qazandıqlarına nə qədər sevinirsənsə, itirdiklərinə kədərlənir, qəmlənirsən. Bu qısa yazıda mən onun bütün həyat yolu haqqında dolğun məlumat verə bilmədim. Düşünürəm bunu kitabı oxumaqla əldə etmək olar. Ona görə də oxuculara bu kitabla tanış olmağı məsləhət görürəm.

Ömrün hansısa məqamında insan dayanıb geriyə boylanır. Hətta bu boyda yolu, belə çətin yolu necə keçdiyinə, bu yollarda qarşılaşdığı çətinlikləri necə dəf etdiyinə təəccübləndiyi anlar da olur. Xatirələrə dalır. Itirdiklərini yada salanda nə qədər kövrəlirsə, qazandıqlarını xatırlayanda ürəyi qürurla döyünür, fərəhlənir, sevinir. Bu gün Şahməmməd müəllimin də sevinməyə, fərəhlənməyə haqqı var. Çünki uğurları daha çoxdur. Yollar isə hələ davam edir. Bu sonu görünməyən yollarda sizə yeni-yeni uğurlar arzulayırıq, Şahməmməd müəllim!..

## ƏSL SEVGİ UNUDULMUR

Məhəbbət mövzusu əbədiyaşar mövzudur. Ən daha yazarlar da neçə illərdən bəri bu mövzuda yazıblar, yaradıblar. Hələ bundan sonra da illərlə sevgidən, məhəbbətdən yazılacaq və bu cür yazılar oxucular tərəfindən rəğbətlə, maraqla qarşılanacaq. Çünki nə qədər ki, insanlıq var, sevgi də, məhəbbət də olacaq. Bu gözəl duyğu, müqəddəs hiss heç vaxt insanları tərk etməyəcək. Şairlər, yazıçılar isə həmişə bu gözəl mövzuda yazacaqlar və yazdıqca yorulmayacaqlar.

Şair Şahməmmədin bu yaxınlarda çapdan çıxan «O sevgini unutmaq olmur» şeirlər kitabını oxuyarkən bir daha bu

fikirlərimdə yanılmadığıma inandım. Onun çox kitablarını oxumuşam. Şeirlərində vətənə, yurda bağlılıq, təbiət gözəlliklərinin tərənnümü, həqiqətin dönməzliyi kimi fikirlər həmişə önəmli yerlərdən birini tutmuşdur. Bu gün haqqında söhbət açdığım kitab isə əvvəlki kitablarından çox fərqlənir. Ən əsası ona görə ki, bu kitabda əvvəldən axıra kimi verilən şeirlərin hamısı sevgi şeirləridir. Özü də hamısı səkkiz bənddən ibarətdir. Şairin bu şeirləri uzun illər əvvəl, ömrünün gənclik çağında qələmə aldığını və indiyə kimi heç yerdə çap etdirmədiyini də nəzərə almaq lazımdır. Hamı gəncliyində məhəbbətin oduna düşür. Hamı bu hissləri yaşayır. Bəziləri elə gənc yaşlarında ikən bunu hamının yanında etiraf eləyir, bəziləri isə illər keçsə də, yaşadığı həmin anları öz xatirələrində əzizləməyi üstün tutur. Amma gəlin etiraf edək ki, sevgi qaynar bulaq kimidir. Hə qədər üstünü basdırmağa cəhd göstərsən də, haradansa özünə yol açıb, varlığını, ölməzliyini, əbədiliyini bəyan edəcək. Şahməmməd də belə bir ölməz, böyük sevginin şəninə yazıb bu şeirləri. Heç kimə göstərməsə də, heç kimə oxumasa da, yazıb. Və bu yazdıqlarını gənclik illərinin ən şirin xatirəsi kimi əzizləyərək saxlayıb.

Indi ömrünün müdriklik çağında şair vaxtilə yazdığı sevgi şeirlərini oxucularına təqdim etmək qərarına gəlib. Bəlkə də çoxları fikirləşəcək ki, bu şeirlər elə yazıldığı vaxtlarda oxunsaydı, daha yaxşı olardı. Amma yaxşı şeir heç vaxt köhnəlmir və nə vaxt oxunmağından asılı olmayaraq, insanın ruhunu oxşayır.

Adı məxfi saxlanılan bir xanıma həsr etdiyi bu şeirləri oxuduqca Şahməmmədin sevgiyə necə böyük qiymət verdiyinin, pak sevgidən ötrü nələrdən keçməyə hazır olduğunun şahidi olursan. Şahməmmədin yazdıqları bayağılıqdan uzaqdır. O, həqiqəti yazır, hər şeyi olduğu kimi, gördüyü kimi qələmə alır. Sevgisinin səmimiliyinə, hisslərinin

təmizliyinə güvənir. O, dilə gətirdiyi, qələmə aldığı hər sözə görə məsuliyyət daşıdığını dərk edir. Ona görə də sözləri bir-bir qəlbinin süzgəcindən keçirdikdən sonra vərəqlərə köçürür.

**Sevidir dünyada sevginin adı,**
**Yuya bilməz onu nə yağış, nə qar.**
**Hamını yandırmaz məhəbbət odu,**
**Leyli ola bilməz bütün xanımlar.**

Həqiqətən də bütün xanımlar Leyli ola bilməzlər. Hətta Leylini, Məcnunu Füzulinin uydurması kimi qəbul eləyənlər də var. Amma yuxarıda qeyd etdiyim misraları ilə Şahməmməd bir daha vurğulayır ki, onun üçün əsl məhəbbət timsalı Leyli və Məcnundur. Sevənlər ürəkdən sevməlidirlər və bu sevginin uğrunda hər şeyə hazır olmalıdırlar. Hətta lazım gəlsə, ürəklərini belə şam kimi əritməlidirlər:

**İki ömür bir taledə birləşə bilər,**
**Məhəbbətlə bir sırada yerimək üçün.**
**Bir ürəyin işığında görüşə gələr,**
**Bir ürəyin işığında ərimək üçün.**

Sevməyi və sevgisi uğrunda hər əzaba dözməyi bacaran sevgililər qovuşsalar da, qovuşmasalar da, ürəklərində həmişə məhəbbət olur. Vaxtilə onları yandırıb-yaxan bu sevginin odu ömrün sonunadək onları tərk etmir. Hər yerdə, hər yerdə o sevgidən bir iz, bir nişanə bir xatirə axtarırsan. Məhəbbətindən ötrü hətta aya, ulduzlara kimi də getməyə hazır olursan.

**O mənə məhəbbət bağışlayıbdır,**
**Mən onu kiməsə verə bilmərəm.**
**O, sevgi yolunda dağlar aşıbdır,**
**Ulduza getsə də, gedəsiyəm mən.**

Şair bu kitabında məhəbbətlə bağlı hisslərini daha dərindən, daha ətraflı şəkildə oxuculara çatdırmağa çalışır və bunu bacarır. Sevgidən bu qədər çox yazıldığı halda eyni mövzuda yazmaq və yazdığınla seçilmək razılaşın ki, o qədər də asan məsələ deyil.

Şahməmməd təbiətə də, dağa-dərəyə də ona görə vurğundur ki, nə vaxtsa bu təbiətin qoynunda, həmin dağlarda, qayalarda gözəl bir sevgi hissi yaşayıb. Yenə də o yerlərə dönəndə həmin o anları xatırlayır. Buna görə də tək getmək istəmir:

**Getmək istəmirəm o dağlara tək,**
**Getmək istəmirəm dərəyə, düzə.**
**Xanım, gəl əl-ələ bir yerdə gedək,**
**Xeyir-dua versin qayalar bizə.**

Bəli, zirvələrin ağ qarı kimi təmiz, dağlar kimi uca, möhtəşəm bir sevginin xeyir-duasını elə müdrik qayalar verməlidir.

«O sevgini unutmaq olmur» kitabında Şahməmmədin bütün misralarından məhəbbət qoxusu gəlir. Uzaq keçmişdən boylanan, təmizliyi, saflığı ilə bu günkü gənclərimizə örnək ola biləcək sevgi duyulur misralardan. Ona görə də 25-30 il əvvəl yazılmasına baxmayaraq, bu sətirlər indi də öz təravətini itirmir.

**Məhəbbətin izidi,**
**Bizim görüş yerimiz.**
**Dünyanın mərkəzidi,**
**Bizim görüş yerimiz.**

Bəli, həqiqətən də məhəbbətin izi sevənləri görüş yerinə aparıb çıxarır. Amma çox təəssüflər olsun ki, bütün

məhəbbətlər vüsal ilə bitmir. Ayrılıqla, həsrətlə bitən sevgilər də az olmur. Böyük məhəbbətlərin çoxunun arxasında böyük iztirablar, ürək ağrıları, göz yaşları durur. Bəlkə də belə yaxşıdır. Bəlkə də böyük eşq yaşayanlar qovuşsalar, onların məhəbbəti tez sönər. Amma hər halda, sevənlər qovuşmağa can atırlar. Elə ona görə də Şahməmmədin misralarında hərdən həsrət acısı, ayrılıq yanğısı da duyulur. Amma bütün bunlara baxmayaraq, üstündən illər ötəndən sonra həmin sevgini, sevgi dolu anları yada salan şair qürurunu sındırmır. Özünə və sevgi şeirlərinin ünvanı olan həmin xanıma üz tutaraq, «Sevmək evlənmək deyil», - söyləməklə, sanki təsəlli tapır.

Şairlər həmişə ürəkdən sevirlər. Bu sevginin vüsalını da ürəkdən qəbul edir, həsrətinə də ürəkdən yanırlar. Şahməmmədin də unuda bilmədiyi o sevgi ötən illər ərzində tükənməyib, əksinə, daha da böyüyərək qollu-budaqlı bir ağac kimi onun qəlbinin dərinliklərinə kök atıb. Məhz bu səbəbdən də kitabdakı sevgi şeirlərini oxuduqca mən şairin ürək döyüntülərini, qəlb çırpıntılarını, vüsalının sevincini, həsrətinin sızıltılarını hiss edirdim. Hamıya belə böyük məhəbbət yaşamağı arzulayıram və inanıram ki, Şahməmmədin «O sevgini unutmaq olmur» kitabı sevgi hissi ilə yaşayan bütün oxucular tərəfindən maraqla qarşılanacaq...

***Emil TAHIROĞLU***
***Yazıçı-jurnalist***

## AZƏRBAYCAN, BIR DƏ HEYDƏR!

Sevgimiz aşır-daşır,
Azərbaycan, bir də Heydər!
Yarpaqlar da pıçıldaşır,
Azərbaycan, bir də Heydər!

Dilə gəlir söz bulağım,
Qucaqlaşır daşım, dağım.
Şərqim, nəğməm, laylam, ağım,
Azərbaycan, bir də Heydər.

Bilir aləm, bilir Kürə,
Yol keçilib zərrə-zərrə.
Iki dayaq, iki zirvə,
Azərbaycan, bir də Heydər.

Torpağımın dağı, düzü,
Hər sobanın odu, közü.
Bu dünyanın iki gözü,
Azərbaycan, bir də Heydər!

Ümid yolu, nicat yolu,
Açılır torpağın donu.
Çıraqların şəfəq qolu,
Azərbaycan, bir də Heydər.

Həyat üçün sabah, murad,
Yoxuşlarda qeyrət, inad,
Azadlığa iki qanad,
Azərbaycan, bir də Heydər.

Ayrı-ayrı doğulubdur,
Ayrı-ayrı yoğrulubdur.
Axır gəlib bir olubdur,
Azərbaycan, bir də Heydər.

Bu torpağın iki əli,
Vuran qəlbi, deyən dili.
Bir muğamın bəmi, zili,
Azərbaycan, bir də Heydər.

Qəm, sevincin barışığı,
Bir-birinin yaraşığı,
Bir qismətin qarışığı,
Azərbaycan, bir də Heydər.

Babaların yuxusudur,
Neçə qəlbin duyğusudur.
Səmalardan yağan ağ nur -
Azərbaycan, bir də Heydər.

Haray salır dünya, cahan,
Haray salır sinəmdə can.
Heydər, bir də Azərbaycan!
Azərbaycan, bir də Heydər!!!

***1998***

## ATA – OĞUL

Al günəşin zərrəsidir,
Ata Heydər, oğul Ilham!
Müqəddəslik kəlməsidir,
Ata Heydər, oğul Ilham!

Bir dəryalıq zəka, zinət,
Daha yaxşı bilir millət.
Qoşa arzu, qoşa niyyət,
Ata Heydər, oğul Ilham!

Hər ikisi daş qalamdır,
Su çəkilər, daş qalandır.
Xalq yolunda daş yonandır,
Ata Heydər, oğul Ilham!

Bu millətə çıraq olub,
Ağ günlərə soraq olub.
Sel önündə bir dağ olub,
Ata Heydər, oğul Ilham!

Düşmənləri düşündürüb,
Ulduzlardan dövlət hörüb.
Xeyri görüb, şəri görüb,
Ata Heydər, oğul Ilham!

Sarvan olub karvan üçün,
Ölçüb, biçib bir an üçün.
Bir dünyadır qanan üçün,
Ata Heydər, oğul Ilham!

Bu dünyanı silkələyib,
Daş fikirlər daşa dəyib.
Xainlərin xofun əyib,
Ata Heydər, oğul Ilham!

Yaşayacaq bu iki ad,
Yaşayacaq ata, övlad.
Yaşayacaq qoşa polad...
Ata Heydər, oğul Ilham!
***2008***

## ƏR OĞLU ƏR

Bir kimsə yox, «Xalqım» dedi,
Ilham adlı nər oğlu nər.
«Azərbaycan» deyib gəldi,
Ilham adlı ər oğlu ər!

Nə elədi, tam elədi,
Ürəyini şam elədi.
Bu milləti cəm elədi,
Ilham adlı ər oğlu ər!

Od yurdunun odun, közün,
Sübut etdi qeyrət sözün.
Sübut etdi nədir dözüm,
Ilham adlı  ər oğlu ər!

Heydər kimi Heydər oldu,
Ünvanlara axıb doldu.
Gündüzlərə gedən yoldu...
Ilham adlı ər oğlu ər!

Söz düşəndə sözün deyər,
Deyəndə də düzün deyər.
Bir deyənə yüzün deyər...
Ilham adlı ər oğlu ər!

O, Heydərin bəxşişidir,
O, tarixin əl işidir.
Bir əsərin girişidir,
Ilham adlı ər oğlu ər!

***2008***

**NƏ DEYIM KI?...**

Nə deyim  ki, Vətənimin tarixinə?
Kimi söküb, kimi tikib, kimi qurur.
Boylanıram cığırlara dönə-dönə,
Ürək məndən Xalqa yaxın ünvan sorur...

Ulu Öndər «Azərbaycan» - deyib getdi,
Millətinin alqışını görüb getdi.
Oğul Ilham qopuqları qaynaq etdi,
Bir ürəkdə milyon qəlbin nəbzi vurur...

Nə deyim ki, cəsarətin zirvəsinə?
Nə deyim ki, dağdan ağır kəlməsinə?
Bir kəhkəşan olub ürək, olub sinə,
Ilham - çıraq, Ilham - dayaq, Ilham - qürur!

Əldə qələm qurumuşam söz önündə,
Uzaqlara gedən yollar göz önündə,
Isinirik, qızınırıq köz önündə,
Sorduğunuz ünvan budur, soraq budur!

Nə deyim  ki, Haqdan gələn haqqa, nura?
O, yol gedir dəryaları yara-yara!
Vətənimi qayalardan qura-qura...
Ey insanlar, qayğı çəkən insan odur.

O, nə edir, nələr edir, mən bilirəm,
Qarşısında uşaq kimi kövrəlirəm,
Baş Komandan işığında yol gedirəm...
Ürəyimə sevinc dolur, fərəh dolur.

Mən şairəm, nə deyirəm, düz deyirəm,
Ildırımdan işıq alan söz deyirəm,
Qəlbim bir az döyünəndə «döz» deyirəm,
Onun qədər el sevgisin kimlər duyur?

Nə deyim ki,  Vətənimin tarixinə?
Kimi söküb, kimi tikib, kimi qurur.
Boylanıram cığırlara dönə-dönə,
Ürək məndən Xalqa yaxın ünvan sorur...

Bir kəhkəşan olub ürək, olub sinə,
Ilham-çıraq, Ilham-dayaq, Ilham-qürur,
Vətən budur, ünvan budur, soraq budur,
Ey insanlar, qayğı çəkən insan odur!

***2008***

## AZƏRBAYCAN QARTAL KIMI

Bu gün yenə xəritənin qarşısındayam,
Bilirsənmi varlığımı göynədən nədir?
Bir xalqın ki, keçmişi bir,
tələsmə, dayan!
Axır, bir yol üstə yenə birləşəsidir.

Bu gün yenə xəritənin qarşısında mən,
Od alıram, alışıram göz görə-görə.
Düşüncələr uşaq kimi tutur əlimdən,
Çəkir məni Araz Kürdən yapışan yerə!

Bax, beləcə dayanmışam yüz yol, min kərə,
Ürəyimdə göyəribdir söz puçur-puçur.
Azərbaycan qartal kimi qalxıb göylərə,
Xəzəri də dimdiyinə götürüb uçur!

Kağız üstə görünərmiş hər yol, hər qaya,
Kağız üstə görünərmiş ağ saçlı dağlar.
Xatirələr qucağında dönürəm çaya,
Araz axır, mən axıram, axır uzaqlar.

Fikir məni alıb çəkir hey dərinə,
Xəritəyə gör nə qədər bölgülər düşüb.
Dağ neyləsin, daş neyləsin, talelərinə,
Insanların biçdikləri ülgülər düşüb?

Xəritənin qarşısında dönürəm daşa,
Orda dava, burda dava, toplar «hürüşür»
Boyanıram gilə-gilə qara, yağışa,
Sözlərimin qanadına ağ ümid düşür.

Xəritədən boylanarmış dağ da, dərə də,
Rəngləri də danışarmış hey puçur-puçur.
Azərbaycan! Qartal kimi mavi göylərdə
Göy Xəzəri dimdiyinə götürüb uçur.

***1984***

## AZƏRBAYCAN

Göz açmışam işığa mən,
Azərbaycan qucağında.
Dönüb körpə uşağa mən,
Sürünmüşəm torpağında.

Böyümüşəm addım-addım,
Ha yanına addım atdım.
Arzulara burda çatdım,
Sehir varmış çırağında.

Nə ucaymış bu dağların,
Çətir imiş budaqların!
Ballaşıbdır bulaqların,
Sənin loğman ocağında.

Söykənəsən qayasına,
Qartalların qıyyasına!
Çəmənlərin boyasına –
Yamacların gül çağında.

Sözüm qaynar, sözüm daşar,
Əhdim, eşqim qoşalaşar.
Bir günəşin odu yaşar,
Azərbaycan bayrağında.

***1978***

## AĞSU

Səmalardan baxar dağı,
Bu yerlərin adı Ağsu.
Dolayları boyunbağı,
Gözlərimin odu Ağsu.

Çinarları qatar-qatar,
Gedib ulduzlara çatar.
Səadətlə bir boy atar,
Sevincimin dadı Ağsu.

Çiçəkləri çilçıraqdır,
Çəmənlərə bir oylaqdır.
Al Günəşdir, al bayraqdır,
Arzumun qanadı Ağsu.

Dörd tərəfin yaşıl dəniz,
Bu dünyada kiməm sənsiz.
Dolaşardı cığır, yol, iz?
Qəlbimin muradı Ağsu.

Min demişəm, deyim bir də,
Varlığımı didə-didə.
Səndə tapdım sevgimi də,
Adımın soyadı Ağsu.

***2009***

## QALX AYAĞA, AZƏRBAYCAN!

Səndə, məndə ümid gəzən,
Başı üstən yellər əsən
Qarabağa, Şuşaya sən
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

Torpağ da torpağa həsrət,
Içimdə qaynayır nifrət...
Varlığımı didir qeyrət,
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

Dağın, daşın gözü yolda,
Bulaqların sözü yolda.
Daha dözmür cığır, yol da,
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

Hanı gediş, hanı gəliş?
Libasını dəyiş!.. Dəyiş!..
Yaddaşlardan silinməmiş,
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

Yurdum yada qala bilməz!
Belə getsə, ürək gülməz!
Düşmən nəfəs ala bilməz,
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

Yaxındadır qələbəmiz,
Şəkər dadır qələbəmiz.
Qalx ayağa, hazırıq biz,
Yürüşə çıx, Azərbaycan!
Döyüşə çıx, Azərbaycan!

***2004***

## AZƏRBAYCAN ƏSGƏRI

Gücümdür, vüqarımdır,
Azərbaycan əsgəri.
Əyilməz bayrağımdır,
Azərbaycan əsgəri.

Müstəqildir, azaddır,
Dünyada bir təzaddır,
Yetişdiyim muraddır,
Azərbaycan əsgəri.

Vətəninə bağlıdır,
Səadət soraqlıdır.
Bu günlü, sabahlıdır,
Azərbaycan əsgəri.

Yağıya yumruq olar,
Gecə də çıraq olar.
Dayaq olar, dağ olar,
Azərbaycan əsgəri.

Atəş, alov, işıq, nur,
Böyük sülhə - dayaqdır.
Gecə-gündüz oyaqdır,
Azərbaycan əsgəri.

***2000***

## VƏTƏN... VƏTƏN...

Müqəddəsdir ölməzliyim,
Ziyarətim, vətən, vətən.
Son məqsədim, son mənzilim,
Saf niyyətim, vətən, vətən.

Uşaq oldum, əzbərlədim,
Böyüdüm, böyüdü əhdim.
Qayalardan çıxır bəxtim,
Səadətim, vətən, vətən.

Yamacların indi qardı,
Ana südü, ana yurdu.
Günəş özü sənə yardı,
Məhəbbətim, vətən, vətən.

Tanıyıram sərhədləri,
Geniş idi, iri, iri.
Doğradılar diri-diri,
Mətanətim, vətən, vətən.

Zəngəzurdan Təbrizədək,
Cığırlara söhbət əkək.
Ağrısını çəkək, çəkək,
Sədaqətim, vətən, vətən.

Belə getməz, belə qalmaz,
Səfərindən qayıdar yaz.
Dincələrik biz də bir az,
Eh, cənnətim, vətən, vətən.

***1995***

## VƏTƏN

Səni qoruyacam, vətən, göz kimi,
Vətən, hər ağrına qatlaşasıyam.
Kim bilir, bəlkə də yanar köz kimi,
Sənin ocağında alışasıyam.

***1970***

## VƏTƏNƏ SEVGI

Dəryalardan dərindi,
Anadan da şirindi.
Bu kəlməsiz kiməm? – de,
Vətənə sevgi.

Hay-haraylı seldi o,
Saçlarımda əldi o.
Mən ağladım, sildi o –
Vətənə sevgi.

Günəşdi göy üzündə,
Al lalədir düzümdə.
Bir dövlətdi gözümdə,
Vətənə sevgi.

Qəlbin döyüntüsüdür,
Hər kəlməsi almaz, dür.
Ürəklərdə körpüdür,
Vətənə sevgi.

Bir yumruqda yüz əldir,
Dünyadan da əzəldir.
Vətən kimi gözəldir,
Vətənə sevgi.

***2008***

## VƏTƏN UĞRUNDA

Mən də döyüşmüşəm, eşidin, bilin,
Atam da döyüşüb yolunda, Vətən.
Oğlum da döyüşə hazırdır bu gün,
Hazır olasıdır, nəticəm, nəvəm,
Nə zaman ayağa qalx desə Vətən!

***2000***

## YADDA SAXLA!

Vətən, Vətən!-deyən qardaş,
Ya uzaq ol, ya yaxın ol!
Ürəyində göyəribsə bir qəlpə daş,
Yadda saxla, arxayın ol!
Bilirəm ki, nigaransan,
Bilirəm ki, həsrət səni
Qaralayıb,
Paralayıb.
Elə budur Vətən, Vətən,
Ola bilməz yoldan ötən,
Bir əlcə daş...
Bir vətəndaş
Ola bilməz.
Əl yanmasa, can yanmasa,
Yatıbdırsa, oyanmasa,
Ola bilməz yurda dirək,
Danışmasa erkək-erkək...
Vətən! Vətən!-deyən qardaş!
O dilinə qurban olum,
Qurban olum yumruğuna.

Torpağında cığır açan
qeyrət əkən, heyrət əkən
dırnağına.
Qurban olum səsinə mən.
Qurban olum
Vətən, Vətən haraylayan
adına mən.
Qurban olum alovuna,
oduna mən.
Söyləmə ki, uzaqdasan,
Parisdəsən, Londondasan
Söyləmə ki, Afrikada yanır için
Hava kimi, için-için...
Vətənində olmaq deyil
vətəndaşlıq.
Ovuc boyda çıraq deyil,
Məşəl kimi alışmasan,
Vətən, Vətən
Çağırmağa dəyərmi heç?
Canından keç,
qanından keç.
Söyləmə ki, şölələnmək
Həsrət qalmaq, görən, nədir?
Yer üzündə doğulanlar
Axı bir gün öləsidir?!
Belə demə, daş olar daş!
Anlamırsa Vətən nədir,
Söz açmağa dəyməz, qardaş!..

***2002***

## YURDUM

***Vətəni başdan-başa gəzməmiş, sehrini, ovsununu duymamış bəziləri başqa ölkələri gəzib, onlardan ağızdolusu danışmağı şöhrət sayır.***

Hələ nə gəzmişik bu torpağı biz?
Hələ toy soraqlı günlərimiz var.
Dünyada rəngini görmədiyimiz,
Çiçəklərimiz var, güllərimiz var.

Uzaq ölkələrin, uzaq dağların,
Hay salma al-əlvan boyalarından.
Hələ görməmisən buz bulaqların,
Hələ keçməmisən qayalarından.

Dəniz də yan alıb isinsin deyə,
Ən böyük, ən ulu ocaqdı yurdum.
Dünyanın bu ülvi gözəlliyinə
Bəlkə də ən böyük qucaqdı yurdum.

Sirli bir nağıldı hər dağ döşü də,
Sirli bir nağıldı hər daş, hər qaya.
Bu yerdə doğulan ilk atəşi də
Bakı küləkləri yayıb dünyaya.

Sən Mili, Muğanı, Şirvanı dolan,
Abşeiron sinəmdə qızıl yarımada.
Bir ovuc torpaqçun gözləri dolan,
Qərib görməmisən, qardaş, dünyada.

Səndən istəmirəm nə var, nə daş-qaş,
Mənim istəyim var, məhəbbətim var.
Özgə cənnətlərdən danışma, qardaş,
Mənim öz torpağım, öz cənnətim var.

***1979***

## BERLINDƏ

Bu şəhərin aqibəti belədi,
Sərhəd gəlmir çoxlarının xoşuna.
Bu dərd-səri siyasətlər əlƏdi,
Bu şəhərin, bu torpağın başına.

Bu şəhərin tutu yoxdu tər-təzə,
Gövdəsinin bükümündən bilərdim.
Çinarı yox düz boylana, düz əsə,
Sarı yarpaq tökümündən bilərdim.

Avropada çinar nədi, bilən yox,
Heç çinarlar ölkəsi də tanınmaz.
Bakı nədi? Nefti nədi? Bilən çox,
«Azərbaycan» – mənim üçün danılmaz.

Bu kəlməyə yoxdur belə inanan,
Eh, bizə də rus deyirlər, «ruşen»ik.
Baxan kimdi rəngə, ruha, inama,
Sözdən sonra üç nöqtəyə düşənik!

Mənim Bakım ürəyimdə yaşıldı,
Bənövşəyəm, qar altında baxıram.
Fikirlərim evimizə daşındı,
«Vətən» adlı ulu çayam, axıram!

***1985***

## ULULAR YURDU

Qədim Qobustanda bir qoca gördüm –
Eynən oxşayırdı dağın birinə.
Onu nəhəng gördüm, nərpaça gördüm,
Dağları götürüb çiyinlərinə!

Olub-keçənlərdən qoca danışır,
Xatirə susunca, söz yorulunca.
Baxıb deyirdim ki, necə yaraşır –
Bu uca dağlara bu məğrur qoca!

Ömründə dadmayıb bir haram tikə,
Onun duruluğu yurduma bəzək!
Ulu babaların müqəddəs ruhu,
Hamıya lazımdı, hər kəsə gərək!

***1978***

## MƏNƏ ELƏ GƏLIR KI...

Günəş işıq saçını
Üfüqlərdə darayıb.
Göy Xəzərə səpərkən
Donu qara gecəni
Ağ ləpələr içərkən
Mənə elə gəlir ki,
Təbiət insan kimi
Həm gülür, həm ağlayır.
Ürəyinin odunu,
Bax beləcə saxlayır.

***1971***

## UNUDULMUŞ YURD YERI

***Atamın söhbətindən:***

***– Oğul, kəndimizin camaatı yayda dağ yurduna, təbiətin üzü payıza dönəndə dağların ətəyinə köçərdilər. Hər ailənin iki evi vardı: biri dağlarda, biri də dağların ətəyində. Iki Ləngəbiz kəndi vardı: biri dağların qoynunda, biri də Ləngəbiz sıra dağlarının Şirvan düzü ilə birləşdiyi yerdə.***

***1941-ci ildən dağ yurduna köçmürük. Təkcə əkilmiş ağaclar qalıb keçmiş həyətlərdə, bir də evlərin söykəndiyi məğrur qayalar!***

Gəldim, salam verdim, susdu yurd yeri,
Dinmədi dərəsi, dinmədi düzü.
Qanadı sınıbmı 41-dən bəri?!
Üfüqdə qalıbmı 41-dən gözü?!

Niyə zirvələrin fikrə dalıbdır?
Bu yaşıl cığırlar nədən qəmlidir?
Bilirəm buludlar niyə dolubdur,
Bilirəm kirpiyin niyə nəmlidir!

Sənə də o illər əlini çəkdi,
Fəqət, ürəyinin odu sönmədi.
Yenə hər tərəfin çiçək-çiçəkdi,
Təkcə gedənlərin geri dönmədi.

Bilirəm, əsəbin çəkilib dara,
Hanı gəlin gedə bir kənd gözəli?!
Hanı pəhləvanlar sümük sındıra?!
Hanı kəndirbazlar – duzlu, məzəli?!

Hanı qoç Koroğlu, hanı «Cəngi»lər?
Qulağı çəkilib qayaların da.
Inandın, gözlədin, dedin, gün gələr,
Məşəllər boy atar qayalarımda.

Yurd yeri, bağrıma köz elədin, köz!
Susmağın daşların haray səsidir.
Analar, bacılar dözüb, sən də döz,
Sənin dözümün də göyərəsidir.

***1979***

## EL-OBA

Çəkir torpaq məni, çəkir el məni,
Çəkir sıra dağlar, dərin dərələr.
Sanki qayalara çırpır sel məni,
Sökür yaxasını qızıl lalələr.

Deyirəm, hər yaşın öz nəğməsi var,
Bir zaman kəndimiz düşməzdi yada.
Indi gözlərimdə göynəyir bahar,
Indi yuxulardan getmir el-oba.

Çoxalıb o yolda qəbir daşları,
Bir daşın altında yatıb atam da.
Diz çöküb öpürəm bir-bir daşları,
Köz-köz xatirələr dodaqlarımda.

Deyirəm, obasız, elsiz kiməm mən?
Vətənin nə vaxtsa daş balasıyam.
Vətənsiz bir ovuc soyuq küləm mən,
Meh əssə, göylərə sovrulasıyam.

Çəkir torpaq məni, çəkir el məni,
Çəkir sıra dağlar, dərin dərələr,
Sanki qayalara çırpır sel məni,
Sökür yaxasını qızıl lalələr.

***1997***

## OCAĞIMIN ODU

Ocağımın odu anam,
Istisinə qızınıram.
Ana, salam, ocaq, salam,
Udmaz məni daha boran.

Balalarım bir parça od,
Üfüqlərdə ocaq gözü.
Yağış yüklü uçan bulud,
Çəmənlərin çiçək gözü.

Ocağımın odu mənəm,
Nəvələrim Həmid, Nihad.
Hökumədir kiçik nəvəm,
Qoyulacaq hələ çox ad.

Ocağımın odu sevgi,
Ocağımın odu səsim.
Eh, sevəndə elə sev ki,
Sevgin yolda büdrəməsin.

Ocağımın odu sönməz,
Közərəcək cahan-cahan.
Ocağım nur, ocağım səs,
Kərpicini qoyub atam.

***1997***

## LƏNGƏBIZƏ GEDƏN YOL

Bu səfərdən qalma, dostum,
Gedirsənsə, uğurlu yol!
Heç nigaran olma, dostum,
Yadda saxla, arxayın ol:
«Bu yol gedir Ləngəbizə».

«Dağ yurdu»nu aşan kimi
Dağlar özü verər soraq.
Bir balaca çaşan kimi,
Səslənəcək «Qərib bulaq»:
«Bu yol gedir Ləngəbizə».

Yol üstündə bir qaya var,
Yaxasında bitər çiçək.
Ya qış olsun, ya da bahar,
«Təpə boyu» əl edəcək:
«Bu yol gedir Ləngəbizə».

Bu yerlərin adı əziz,
Bu yerlərdən doymaz insan.
Bu torpağın dadı şirin,
Dadan kimi duyasısan,
«Bu yol gedir Ləngəbizə».

Bu sehrli dağlar ki var:
Hər qayası – bir möcüzə.
Qabağına düşər bu yol,
Qalxar yala, enər düzə,
Deyər: «Gedək Ləngəbizə!»

***1979***

## LƏNGƏBIZ DAĞI

Qəsdən gecə gəldim,
Astaca gəldim:
Yatmışdı, oyandı Ləngəbiz dağı.
Dedim: Hər cığıra, izə bələdəm,
Laləyə boyandı Ləngəbiz dağı.

Mürgülü əsnədi dərin dərələr,
Kaş mənə açaydı sirrin dərələr!
Sənə ölü gəlsə, Vallah, dirilər,
Çiçəyin dərmandı, Ləngəbiz dağı.

Günəşin kirpiyi toxunar yala,
Buludlar boylanar saç yola-yola.
Qayalar əl tutub axışar yola,
Daşların karvandı, Ləngəbiz dağı.

Dünyada belə bir kövrək dağ olmaz,
Torpağı ələnməz, daşı dağılmaz.
Köçmüşəm şəhərə, uzağam bir az,
Atama hayandı Ləngəbiz dağı.

Dağları yırğalar kükrəyən sular,
Torpağa sığınar gələn qış-bahar.
Mənim sığındığım bir diyarım var:
Şirvanda Şirvandı Ləngəbiz dağı.

***1979***

## SALAM, DOĞMA KƏNDIM

Salam, doğma məktəb, doğma kənd, salam,
Bəlkə də silmisiz yaddaşdan məni.
Sizsiz ürəyimdə göynəyir yaram,
Hər gün oyadardız obaşdan məni.

Salam, a kol basmış qara qayalar,
Siz ki küləklərə dözən olmusuz.
Salam, a çiçəklər, a yaşıl bahar,
Salam, a bulaqlar - suları bumbuz.

Söyüdlər başını torpağa əyir,
Elə bil gözümə nəsə toxunmur.
Içimdə bir sual gör-gör göynəyir,
Çoban nəğmələri niyə oxunmur?

Bu qoca dağların nəyi çatışmır?
Gətirmişəm nəfəs, gətirmişəm səs .
Dinir dərələrdə şəlalə şır-şır,
Alışır gözümdə kövrək bir həvəs.

Deməyin hardayam, a doğmalarım,
Sizsiz sizsizliyə dözürəm bu gün.
Yeriməz olsa da daş ayaqlarım,
Bağrıma basacam sizi mən bu gün.

Salam, ay uşaqlar, a yurda daşlar,
Bu Vətən torpağı unutmaz Sizi.
Uçmayın uzağa, uçmayın, quşlar,
Udar duman bizi, udar çən bizi.

***1997***

## «ILANLI DAĞ»

Naxçıvanda
çoxdu dağlar,
Yaxasının bər-bəzəyi
sıldırımlar.
Kötüyünü Araz döyər,
Zirvəsində
keşik çəkər
ildırımlar.
Bu dağların arasında
Ovsunladı məni bir dağ,
bir daş çırağ.
«Ilanlı dağ»
deyib ona
əcdadımız.
«Ilanlı dağ» -
yumruğumuz,
qanadımız!
«Ilanlı dağ» -
göy üzünə sütunlardan
biri budur.
«Ilanlı Dağ» -
əyilməzlik simvoludur.
«Ilanlı Dağ» -
Bu torpağın
Allahına uzatdığı
daş əlidir!
Əsrlərin alov dilli,
tonqalının
heykəlidir!!
heykəlidir!!

***Naxçıvan, 1997***

## ÇAYKƏNDDƏ

Bir günləri yolum Çaykəndə düşdü,
Burda qoca gördüm vüqarı Kəpəz.
Burda cavan gördüm, elə cavan ki,
Mərdanə sözündən geriyə dönməz.

Bir də heyran oldum, düzü, buna çox,
Hamısı bir-birindən qonaqsevəndi.
Hansını dindirdim, «gözüm üstə» yox,
«Qəlbimin içində yerin var», – dedi.

***1967***

## SEVMƏSƏYDIM, YAŞAMAZDIM

Sən göy dəniz, qucağında mən bir ada,
Qoruyuruq məhəbbəti biz ikimiz.
Sevməsəydim, yaşamazdım bu dünyada,
Sevməyi də sən öyrətdin mənə, dəniz.

Sənin kimi pıçıl-pıçıl ləpələndim,
Sənin kimi şahə qalxdım, kükrədim də.
Yağış kimi bu dünyana mən çiləndim,
Eh, nə bilim, ağladım da, kiridim də.

Sevməsəydin, qovuşmazdı o yol, bu iz,
Yalvarardı baxışlarım, diz çökərdi.
Sevməsəydim, yaşamazdım, mavi dəniz,
Sevməsəydim, işığını kim içərdi?!

Qismətinəm, ulduzunam, sorağınam,
Gecəm də sən, Günəş də sən, Vətən də sən!

Sevirsənsə, işığınam, torpağınam,
Hara uçsan, sinəmdəsən – Vətəndəsən.

Sevməsəydim, yaşamazdım, elə sən də,
Sevgi – hava, sevgi – dəniz, sevgi – torpaq.
Nə yaxşı ki, yaşayırsan sən sinəmdə,
Nə yaxşı ki, sən yandırdın mənə çıraq.

***1995***

## BIZIM DAĞIN ITBURNUSU

***Ömrünü dağların qoynunda əritmiş Dostu xala bir az nasaz olduğumu eşidib, dağlarımızdan bir zənbil itburnu yığaraq, mənim üçün Bakıya göndərmişdi.***

Dostu xala,
şirin xala,
şəkər xala,
Göndərdiyin
o itburnu,
xəyalımı
O dağlara
çəkər, xala!
O dağların,
bulaqların
doğma qızı,
dan ulduzu!
Dostu xala,
Gözlərimdə o dağlardan
uca xala,
qoca xala!

Həkimliyi kim öyrədib
sənə, söylə?
Yerlə, göylə
vuruşanım- Dostu xala!
O dağların, dərələrin
dostu xala!
Kədəriylə, bəlasıyla,
sevinciylə, laylasıyla,
Babasıyla, balasıyla,
saplarının qarasıyla
itburnuya dolaşanım,
Dostu xala!
Qayalara, cığırlara
qarışanım,
Dostu xala!
Gör, bir necə
gözəl deyib:
«Bizim dağın xəstəsini
Bizim dağın itburnusu
sağaldacaq».
Dostu xala,
sağ ol,
sağ ol!
Əllərində yanan ocaq,
yanan çıraq
sönən deyil.
O ürək ki
qismətindi,
ölən deyil.
Dostu xala,
sorağına qurban olum.
Itburnuna, sumağına qurban olum,
Əriştdənə, umacına, yamacına qurban olum.

Dostu xala,
kəklikotu istəyirəm,
Çənlibeli, mən Qıratı istəyirəm,
Istəmirəm ağ yolları,
Sinəsində şahə qalxan
«Mercedes»i
«BMW»ni.
Istəyirəm dağ yolları
«əkə məni», «biçə məni».

Dostu xala,
şirin xala,
şəkər xala,
Əziz xala,
təmiz xala,
məhəbbəti dəniz xala!
Mayası da qayalardan
yoğrulanım.
Dostu xala,
ağrın alım,
ağrın alım,
ağrın alım.
***1994***

## MART GƏLIR, BAHAR GƏLIR

Qış torpaqdan ayrılar,
Ayılar, ağ ayılar.
Daş özü də ayılar,
Mart gəlir, bahar gəlir.

Göyərəcək dərələr,
Açılacaq lalələr.
Üfüq tər, səhər də tər,
Mart gəlir, bahar gəlir.

Nə deyim, nə danışım?
Yaz gəlir, artır yaşım.
Dağlardan baxır qışım,
Mart gəlir, bahar gəlir.

Günəş qızıl qanadlı,
Dünya qayğı soyadlı.
Yağış yağır, sel adlı,
Mart gəlir, bahar gəlir.

***1980***

## TÜSTÜLÜ BACALAR

Bu qış qonaq gəldim doğma kəndimə,
Inana bilmədim gözlərimə heç.
Çox şey qayıdarmış geri, sən demə,
Dönərmiş bir az tez, ya da bir az gec.

Baxdım ki, ocaqlar alışıb yenə,
Elə gözəlliyi budur qışın da.
Baxdım ki, cığırlar dolaşıb yenə,
Evlərin, damların astanasında.

Tüstülü bacalar asıb kəndimi
Göylərin buludlu sinələrindən.
Ağappaq bəyaz qar basıb kəndimi,
Ağ ümid boylanır ləpirlərimdən.

Deyirəm, nə yaxşı qalır ocaqlar,
Babalar, atalar duyan olublar.
Nə qədər istəsən quru budaq var,
Bir də ki, dağlardan boylanır bahar.

Bu qış qonaq gəldim doğma kəndimə,
Inana bilmədim gözlərimə heç.
Çox şey qayıdarmış geri, sən demə,
Dönərmiş bir az tez, ya da bir az.

***1997***

## ÇƏRŞƏNBƏLƏR

Mart ayında dörd çərşənbə,
Alov dilli nəğmə, nağıl.
Od, su, hava, bir də torpaq –
Bu sehiri açır ağıl.

Çərşənbə – od, çərşənbə – su,
Hava, torpaq budur həyat.
Çərşənbələr – mart yuxusu.
Yatanları, bahar, oyat!

Çərşənbələr – sevinc günü,
Unuduruq ağrıları.
Çıxıb dizə Novruzgülü,
Dəstə tutun, dərin barı.

Xəstələrin gözü yolda,
Gül ömrünü versin ona!
Qışın qar izləri yalda,
Tala-tala, topa-topa.

Çərşənbələr xeyir-dua,
Çərşənbələr yaxın – uzaq.
Yaşayıram saya-saya,
Bahar çıraq, tonqal çıraq

***1980***

## TONQAL

Köhnə qəzetləri yığıb uşaqlar,
Çərşənbə tonqalı qalamışdılar.
Barı inciməsin, küsməsin bahar,
Burda çırpı yoxdu, çoxlu kağız var.

Atılın üstündən o yan- bu yana,
Təki tonqal olsun, yığın, yandırın,
Deyin nəğmənizi dil yana-yana,
Tökün ağrınızı, sonra yan durun.

Həyətə düşməyə imkan olmasa,
Eyvanda yandırın hər çərşənbəni,
Alov bağışlayın fikirli yaza,
Qovun ağrısını, qovun qəmini.

Üfüqdə közərən, gülən Günəşmi?
Şöləsi bərq vuran tonqallar yansın!
Kağızmı, yonqarmı, otmu, küləşmi?
Təki hər mənzildən alov boylansın.

***1987***

## NOVRUZ

«Əlvida» deyirəm köç edən qışa,
Öpürəm ayların ən kövrəyini.
Novruz sığal çəkir torpağa, daşa,
Çıxarır yamaclar qar köynəyini.

Unudub kədəri, unudub qəmi,
Barışır küsənlər, gəlibdi Novruz,
Tutsun yer üzünü şah plov dəmi,
Bəzəsin, bəzənsin hər oğul, hər qız.

Martın iyirmisi, qıpqırmızı dan,
Bayram lalələrdən bəzənib, nədir?
Vulkanmı püskürür qara zurnadan?
Yox! Yox! Şahə qalxan ulu «Cəngi»dir.

Bu elin ruhu da qorxu görmədi,
Köçdü tarixlərə hər kədər, hər iz.
Novruz nə gileydi, nə də kölgədi,
Novruz – ürəklərdə çırpınan dəniz.

Novruz, qızıl bayram, qanadlı bayram,
Baharı əlindən tutub gətirdin.
Mən isə köklənmiş yaralı taram,
Göynəyir içimdə dağ boyda dərdim.

***1997***

## SƏMƏNI

Səməni baharın
gəlinlik simvolu.
Səməni bar dolu,
məhəbbət dolu.
Yurduma səpilən
yamyaşıl işıq,
Səməni süfrədə
bəzək, yaraşıq.
Səməni barın-bərəkətin
Günəşə uzanmış
yaşıl əlləri.
Səməni – kökləri
damar-damar,
zəncir-zəncir,
Parçalamaq istəyir
ona yataq olmuş
bir əlcə yeri.
Göstərmək istəyir
bütün dünyaya
«Azərbaycan»ı.
Səməni –
canı var,
canı.

***1969***

## «QULAQ FALI»

Hərdən fikrim çəkir məni
kəndimizə,
Yaddan çıxmış adətləri düşünürəm.
Ağrılara, acılara dözə-dözə,
Ürəyimdən bir qış keçir, üşünürəm.

Görən, niyə unudulur əsrlərdən
Qonub gələn bu yaddaşlar,
bu təmizlik?
Bu dağların, bu torpağın saçı dən-dən,
Qədim diyar, günahların
bizik,
bizik.
Azaldıqca qocaların sayı bir-bir,
Ən müqəddəs adətlər də çıxır yoxa.
Eh, nə bilim, bəlkə çox şey təzələnir,
Təzələnir dəyirmanlar, təzələnir
qutab, yuxa.

Bayram günü topa-topa bacalardan,
Bizə baxar, bizi süzər ağ ulduzlar.
«Novruz» günü «Qulaq falı»
qocalardan,
Ümid dolu söz gözləyər kövrək qızlar.
«Qulaq falı» uzaq düşüb lüğətdən də,
Itirmişik «ruhumuzu», «ağımızı».
Gedəsiyəm uşaqlarla bu il kəndə,
«Qulaq falı» edəsiyəm bacamızı.

***1995***

## «PIR QARAĞAC»

Qoca pirim, ulu pirim,
Uca pirim, «Pir qarağac».
Bu gün yaman üşüyürəm,
Deyən, bu gün qar yağacaq.

Sənin üçün nə fərqi var,
Sən işıqsan, sən ocaqsan.
Yaman ölür qarağaclar,
Pir ki ölmür, pir ağacsan.

Aç mənimçün sirlərini,
Kim əkibdi səni burda?
Bircə sən qalmısan diri,
Nişanəsən köhnə yurda.

Deyirlər ki, quru yerdən
Ağac özü göyəribdi.
Sənə torpaq döşlərindən,
Su veribdi, süd veribdi.

«Pir qarağac», qara ağac,
Budaqların dolay-dolay.
Qollarını sən geniş aç,
Qurusa da o çay, bu çay.

«Pir qarağac», nə yaxşı ki,
Hələ varsan, yaşayırsan.
Bu dağların paklığını,
Sabahlara daşıyırsan.

Niyə belə üşüyürəm
Ilin-günün bu çağında?
Deyən, bu gün qar yağacaq,
Alıb məni qucağına.

Çal laylamı «Pir qarağac».
Laylan üçün gözüm yaşlı,
könlüm də ac
«Pir qarağac!..»

***Ləngəbiz, 1995***

## «GÜZGÜ QAYA»

«Güzgü qaya» bu dağlardan su içib,
Bu yerlərə, bu torpağa kök atıb.
«Güzgü qaya» daş səbrinə daş biçib,
Mürgü tutmuş hisslərimi oyadıb.

Dönməzliyi igidlərin qanında,
Kövrəkliyi çiçəklərə bəxş olub.
Gur bulaqlar qırçınlanıb yalında,
Hörük-hörük köksü üstdə nəqş olub.

Yaşadıbdır igidlərin əksini
Baxışının şöləsində, qorunda.
Kölgəsinə sığınmışam anam tək,
Böyümüşəm qanadında-qolunda.

«Güzgü qaya» vərəq-vərəq açılıb,
Kəlmə-kəlmə, sətir-sətir oxunub.
Daş cığırlar xınalanıb qüdrətdən,
Kəkliklərin dırnağıyla toxunub.

Başı üstə ildırımlar şığıyar,
Kirpik qırpmaz, qoxu gəlməz vecinə!
Tufanları, gurşadları oxşayar,
Arxayındı dözümünə, gücünə!

***Ləngəbiz, 1979***

## «KÜÇÜKLÜ QAYA»

Beləcə nə qədər dayanasısan,
Səfərin haraymış «köç yüklü» qaya?
Sən «daş küçüklərin» daş anasısan,
Adın ordan qalıb «Küçüklü qaya».

Təbiət əliylə nə sərrast yonub! –
Sən bir heykələ bax, sən bir hökmə bax.
Analı-balalı yol üstə donub –
Doğma doğmasından düşməyib iraq.

Yır-yığış eləyib düzəldin yola,
Nə oldu qəfləti daş oldun belə?!
Yol üstdə qayalar əbədi qala,
Sən də daş karvana qoşuldun belə.

*Ləngəbiz, 1979*

## «QƏRIB BULAQ»

Qoy öpüm üzündən, a «Qərib bulaq»,
Dərd olub qəlbimdə qəriblik adı.
Qoy içim gözündən, a «Qərib bulaq»,
Hopsun ürəyimə torpağın dadı.

Bu adı kim verib, kim qoyub, görən,
Yurdundan, elindən olan qəribmi?
Yuyub həsrətini daşlara sərən,
Gözləri yaş ilə dolan qəribmi?

Bilmirəm bu bulaq kamanmı, tarmı?
Bulaqlar adında torpaq yaşadır.

Bulaq da dünyada qərib olarmı?
Bulaq öz dağının vətəndaşıdır!

Bu ada, ünvana, bu həzin səsə,
Bu həzin laylaya, sığışmır bahar.
Yaraşmır qaş-qabaq sənə, gülümsə!
Bəlkə çiçəklənə məxmər mamırlar.

Bu gün səyridirəm ilham atımı,
Barı cingildəsin yerin qulağı.
Pozub qayalardan bu gün adını,
Səni çağırıram, Vətən bulağı!

***Ləngəbiz, 1983***

## QORXURAM KI...

Dedilər ki, kənddən gəlib – Ləngəbizdən,
Tanış oldum, yada düşdü gen dərələr.
Sual verdim, dedim, bəlkə «Yaşıl düz»dən...
«Dağ yurdu»ndan alıb məni endirdilər.

Soruşdum ki, tanıyırsan «Nəzərdaşı»?
«Narınca»nı, «Şirəliy»i, «Bağ»ı necə?
Bəs «Körpü»nü, «Dolaylar»ı, bəs «Ağ daş»ı?
Cavab nədi? Batdı Günəş, düşdü gecə?

«Gen nava»nı, «Həsən çölü», «Kor bulaq»ı,
«Qaynama»nı, «Iki yolu» tanımadı.
Eh, nə bilim, saydım, saydım, yaşadığı,
Qatar-qatar dağ-dərəni tanımadı.

Tanımadı quşqonmayan qayaları,
«Bərk qoşum»u, «Ruslar düşən» düzünü də.

Neynəyirəm, Allah, belə koru, karı?
Soruşsaydım, tanımazdı özünü də.

Ürək dedi, bir kitab yaz bu dağlardan,
Qıçı, gözü, əli, qolu öz yerində.
Belə getsə, qışım, yazım bu dağlardan,
Qorxuram ki, birdəfəlik köçüb gedə.

***1995***

## ÇINARLI-ÇAYLI ŞƏHƏR

Dolaylardan seyr etmişəm
Ağsunu mən qarış-qarış,
Gündoğana bir az qalmış.
Ağacların yaşıl-yaşıl yuxusunu,
Səhər gəlib qoparanda, aparanda,
Başım üstə Günəş gülüb,
Ayağımın pəncəsində
Nərgizlərin baxışları,
Dərələri, yoxuşları.
Quzeyləri, güneyləri
dolaşmışam.
Cığırlardan, yamaclardan
boylanmışam.
Dolaylardan seyr etmişəm
barı,
varı,
«Paraşüt»lə göydən enmiş
bu şəhəri,
Pıçıltılı al səhəri.
Sığışmayıb gözlərimə
tarlaları,
zəmiləri.

Sığal çəkib saçlarıma
dan yelləri.
Sütül-sütül,
yaşıl-yaşıl,
Çinarların yaşıl əli,
yaşıl donu.
Yurd yerinin üfüqlərdə
itən sonu.

Gülşən diyar,
Ey şən diyar,
Sən bəxtiyar,
mən bəxtiyar.

Dolaylardan seyr etmişəm
mən Ağsunu.
Dolay kimi sinəsindən
axıb keçən,
Çinarlara, qovaqlara
Arzu kimi baxıb, keçən
«Ağsu» çayı.
Qayıq kimi sinəsinə alıb Ayı
«Ağsu» çayı.
Seyr etmişəm bir şəhərin
ağ ömrünü,
dağ ömrünü.
Burda nə var, müqəddəsdir,
Burda bahar müqəddəsdir.
Yağan qar da müqəddəsdir,
Şah çinar da müqəddəsdir.
Bu torpağın bərəkəti,
ucalığı,
qocalığı,
Nəsil-nəsil mənə bəsdir.

***1973***

## GÖY GÖLÜM, MARAL GÖLÜM

Kəpəzin bir cüt gözü,
Göy gölüm, Maral gölüm.
Dağların ocaq gözü,
Göy gölüm, Maral gölüm.

Palıdlar görər, içər,
Dələlər dələr, içər,
Gedənlər gələr, içər,
Göy gölüm, Maral gölüm.

Qayaların güzgüsü,
Göy üzü su, güzgü su,
Təbiətin arzusu,
Göy gölüm, Maral gölüm.

Burda doğulur bahar,
Baş-başadır iki yar.
Ürəyim deyib durar,
Göy gölüm, Maral gölüm.

***1974***

## VƏTƏNƏ TƏLƏSIRƏM

Tayqa...
Nə sahili, nə sonu var.
Tövşüyə-tovşüyə,
Sürüyə-sürüyə ayaqlarını
Yol gedir qatar.
Belə niyə?
Əs, qatar!
Tufan tək tələs, qatar.

Küləklər yalan olsun,
Mən
Vətənə tələsirəm.
Oğul yolu gözləyən,
Oğul şəkillərini
Öpənə tələsirəm.
Həsrətini ömrünə
Nərgiz gülləri kimi
Səpənə tələsirəm.
Tələs, öpüm yurdumun
Daşından-torpağından.
Gəzib çəmənlərini,
Dəstə tutum gülündən.
Yapışım sevgilimin
Mən gedəndə arxamca
Su səpən əllərindən,
Su səpən əllərindən.

***Uzaq Şərq, 1968***

## ƏSGƏRƏM, YATMAMIŞAM

Səhər üzü,
Sərhəd boyu
Sərhəd ocaq,
Dağ – yuxulu, daş – yuxulu,
Gül şaxları şeh – yuxulu.
Çəmənlərə
ulduz-ulduz köz ələnib,
Elə bil ki, nənələrin
Nağılları
təzələnib.
Dolanıram bu sehiri
Gözlərimlə içə-içə.

Bu gözəllik qucağında
Bir diz büküb oturmağa
Həsrət, həvəs
Ürəyimdən keçə-keçə.
Islanmışam şeh gölündə
Çəmən kimi dizə qədər,
Təki rahat mürgüləsin
Beşiyində bal körpələr!
Mən əsgərəm,
                    mən olmasam,
Bir namərdin gözü qızar,
Bir raketin od uçuşu yolun azar,
Dağım, daşım səksənər,
Uçuq düşər dodağına,
Ürəklərin qızıl qanı
Yarğan salar
Yanağına.
Mən əsgərəm,
Yatmamışam,
                    yatsam əgər,
Çiçəklərin yaz baxışı,
                    qız baxışı
Yarpaq-yarpaq sökülər.
Mən əsgərəm, yatmamışam,
Bükülməzdi qolum, dizim.
Doğulmuşam
Bu torpağı qorumaqçun, yaşatmaqçun,
Özgə eldə,
Özgə yerdə
                    yoxdur gözüm,
                    yoxdur gözüm.

***Uzaq Şərq, 1969***

## ƏSGƏR YUXUM

Yağış yağır...
Ağır-ağır,
　　　　　yavaş-yavaş,
Yağış hopur iliyəcən.
Qoyun-quzu qaçışdadı,
Təkcə mənim fikirlərim uçuşdadı.
Dağ selləri haray çəkir dərələrdə,
Çay daşları seçilmir heç
Köpüklənən kürələrdən
Iri daşlar
Nəhəng-nəhəng kötüklər də, budaqlar da
Axıb gəlir.
Nəhəng bulud karvanları,
Dağ dalından çıxıb gəlir.
Ağsu çayı sahilləri gəmirmədə,
Sahillərin kol-kosunu sümürmədə.
Dəli sular hara gəldi azıb gedir,
Qayaların özülünü qazıb gedir,
Meşələrin nəğməsini pozub gedir.
Tarlalara əl uzadır,
Söküb-tökür bəndləri də.
Yamanca qorxuya salıb
Şəhəri də, kəndləri də.
Iki sahil arasında
Lilli sular ləngər edir.
Bəzən adi bir daşı da
Böyük bir ev səngər edir.
Qulaqlarda uğuldayır çayın səsi,
Bir yandan da külək əsir,
Çırpır yağış qamçısını sifətlərə,
Öz hayına qalıb hərə...

Heyvanları qaytaran kim,
Tayasını bərkidən kim,
Həyətlərə axan seli
Ora-bura döndərən kim,
Qonşusuna «ərk» edən kim.
Xəyalımda qoca kəndlər...
Belə yerdə yaşamağı
«Tərk edən» kim...
Yağış elə gəldiyi tək kəsir qəfil,
Dolaylardan dönüb gedir, külək – səfil,
Dağ dalından Günəş baxır ağır-ağır,
Çaylar isə dəli kimi axır,
axır...

*Uzaq Şərq, 1968*

## SƏRHƏDÇI

Gözəl bir yaz səhəri,
Sərhəd xətti,
Dağın ətəyi ilə burula-burula
uzanan cığır...
Əlimdə avtomat,
Düz-dünya rahat.
Sevgilimin gözlərində
səhərin şəkər yuxusu,
Xalatında əsgər şinelinin qoxusu.
Mənsə narahat, –
Kirpiklərimdən çay daşı kimi
asılıb yuxu.
Tərk edib məni,
təlaş, qorxu.
Bir tərəfdə dağların əzəməti, vüqarı,
Bir tərəfdə sonsuz-sonsuz çəmənlik.

Gedirəm,
sükutu çilikləyir ayağımın səsi,
Beləcə doğulur əsgər iradəsi.
Baxdıqca təbiətin bu səhər tablosuna
qəlbimə od düşür,
Eh, bircə an içində xəyalımdan
nələr, nələr, ötüşür...
Sıxıb silahı əlimdə,
Yığaraq çəmənlərdən baxışlarımı,
Tikanlı məftillər arasına
səpib gedirəm.
Gedirəm,
gedəsiyəm beləcə,
sərhəd dirəkləri ocaqlara
tökülənə kimi.
Məftillər sökülənə kimi.
Gedirəm...

***1968***

## ATAMA MƏKTUB

***1969-cu ildə Sovet-Çin sərhədində baş vermiş hadisələr bir əsgər kimi mənim də həyəcanıma səbəb olmuşdu.***

Bilirəm ki, ay ata,
41-dən 45-əcən
Vətəni qorumusan.
Dodağı süd qoxulu,
Yuxusu gül yuxulu...
Milyon-milyon körpəni,
Anaların ahını,
Daşını, torpağını

Sevəni qorumusan.
Qorumusan dağları
Mərmi hikkələrindən,
Güllə vıyıltısından.
Düşüb gözündə gecə,
Sökülüb gözündə dan.
Indi illər ötüşüb,
Saçlarına dən düşüb.
Sən narahat olmusan
Səadət sorağında...
Indi mən keşiyində,
Narahatam, narahat.
Sənə yaraşıq kimi
Güc duyuram qolumda.
Yanıram işıq kimi
Milyonların yolunda,
Milyonların yolunda.

*«N» hissəsi, 1969*

## ƏSGƏR DOSTUM

Mən əsgər, Arif əsgər,
Iki uşaq atası.
Doğur gözündə səhər,
Yanar o dağ atası.
Qayğılıdır, neyləsin?
Oğul gözü yoldadır...
Qəriblik udub səsin,
Amma sözü bal dadır.
Hərdən Vedibasardan,
Danışır həvəslə o.
Soyumuş ürəyi də
Isidir nəfəslə o.

Elə bil dağ havası,
Yol açır «kazarma»ya.
Anamızdır anası,
Qurban olaq anaya.
Aparır əsgərləri,
Aparır Vediyəcən.
Sonuncu aşrımacan,
Sonuncu gədiyəcən
Sonra da qollarını,
Açaraq qucaqlayır.
Birdən baxıb görürsən,
Uşaq kimi ağlayır.
Mən vururam tək səbir,
Niyə belə bəd olur?
Yox, Arifə düşürmüş
Əsgər dostum şad olur.
Sevinir tək səbirə,
Danışır, dinir, gülür
Dağdan arana enir,
Arandan dağa qalxır.
Elə bu an səsləyir:
«Bölmələrə düzülün».
Yoxlanışa başlanır,
Bu qəfləti əmrdən
Bircə nəfər xoşlanır.
O da ki, starşina
Hirslidir, qürurludur,
Əmrlərin dostudur.
Sıra yoxlamasında
Üz-gözünü turşudar.
Əgər «naryad» verməsə,
Acığından daş udar.
Boyunluğu pis tikən,

Üzü tüklü olan var.
Köynəyinin düyməsi
Bir az çirkli olan var.
Hamısı cəzalanır
Birdən, üç naryadacan.
Bəzən bu iş uzanır
Savaşdan fəryadacan.
Ancaq starşinanın
Günahı daha çoxdu.
Millətçilik toxumu
Səpir aramıza o.
Gözümüz görə-görə
Qara çəkir ağa o.
Məmmədovun qəddarı,
Səmədovun qəddarı,
Çelidzenin qəddarı.
Özüm burda kəsirəm
Deyiləsi adları.
Mən əsgər, Arif əsgər,
Iki uşaq atası.
Doğur gözündə səhər,
Yanır o dağ atası.

*Uzaq Şərq, 1968*

## RƏŞIDIN SƏSI

Radionun səsindən
Diksinirəm qəfildən.
Rəşidin qərib səsi
Hisslərimi oxşayıb,
Damarıma yeriyir.
Elə bil ki, bu səsdən
Buz layları əriyir.

Əriyir gilə-gilə,
Əriyir damla-damla.
Hər görünən adamla
Görüşmək istəyirəm,
Öpüşmək istəyirəm.
Bu sənətin önündə
Dayanıb, baş əyirəm.
O sənətin ki, məni
Vətənlə qovuşdurur,
Dərdin ağır dağını
Üstümdən sovuşdurur –
Heç olmasa bircə an,
Sevinc dolu bircə an,
Fərəh dolu bir cahan
Yaranır ürəyində.
Bu bircə an sağaldır
Ağrıların açdığı
Yaranı ürəyimdən.
Indi Vətən mülkünün
Dağı ürəyimdədir,
Aranı ürəyimdə.
«Azərbaycan» kəlməsi
Açılıb göy üzündən
Ilk bahar Günəşinin
Sevgili üzü kimi.
Nurlandırır o sözü
Günəş də özü kimi.
Yaşayıram bu anı,
Yaşayıram tənha, tək.
Yaşayıram bu anı
Tarixlərə dönəcək
Fərəhli bir ömür tək.

***Uzaq Şərq, 1969***

## BAYATILAR

Əzizim, uca dağdı,
Qəlbimiz haça dağdı.
Ana, layla bir yana,
Arxada ata dağdı.

Əzizim, yollar məni,
Gətirdi yollar məni.
Ürək məni quş edib,
Üstünə yolar məni.

Əzizim, bu dövrlər,
Bir gün gələr devrilər.
Qəriblikdə olanlar,
Daha şirin sevirlər.

Əzizim, ata dərdi,
Ağırdı ata dərdi.
Fərsiz oğul gərəkdi,
Başından ata dərdi.

Əzizinəm, şən keçir,
Günüm-ayım tən keçir.
Dünyanın dərdi gəlib,
Mənim qəlbimdən keçir.

Əzizim, şaxta, külək,
Könül bağımda gül ək.
Səni yaşatmaq üçün,
Özüm yaşayam gərək.

Əzizim, bir min olsun,
Yuxularım çin olsun.
Bizi ayrı salanın,
Sevinci yetim olsun.

***Uzaq Şərq, 1969***

## MƏN ƏSGƏR GEDƏNDƏ

Məni yola salmadın,
Ürəyin ağrıdımı?!
Yoxsa dözə bilmədin,
Ayrılıq ağırdımı?!

Baxışın buza döndü,
Üstünü qar aldımı?
Ya bu sizdə qaydadı,
Ya qanın qaraldımı?!

Barı dönüb baxmadın
Mənim getdiyim yola?
Sənsiz yola düzəldim
Fikrimi yola-yola?!

Məni yola salmadın,
Gözüm qaldı arxada.
Mən ki səni bilmişdim,
Qohum-qardaş, arxa da.

Arxamca da çıxmadın
Bir piyalə su ilə.
Kimdən cavab istəyim
Bu sorğuya-suala?!

***1971***

## SARALMIŞ NAĞILLAR

Mən əsgər gedəndə sağ idi nənəm,
Qədim nağıllar da bizdə yaşardı.
Bayatı dilindən qopardı dən-dən,
Söhbət də yaşardı, söz də yaşardı.

Əridi hardasa nənəmin səsi,
Mənim sevincim də yandı, qaraldı.
Nənəmi itirdik bir qış gecəsi,
Nağıllar özü də soldu, saraldı.

Dözməyir ürəyim, göynəyir yaram,
Hələ də içimdə tüstüləyir o qış,
Istəyirəm gedim o qəbri yaram,
Deyəm ki, ay nənə, dur, nağıl danış!..

***1970***

## «ZEYA» ÇAYI SAHILINDƏ

Dayanmışam, «Zeya» çayı sahili...
Çay oxşayır ağ yollara, ağ laya.
Hanı o qızg qəlbim dəli, «Kür» dəli...
Hanı anam, əsgər gedəm, ağlaya...

Qıvrım-qıvrım çay burulur, çay axır,
Dan qızarır, ürəyimə köz düşür.
Ləpələrdən bir nişanlı qız baxır,
Həsrətimiz əl uzadıb görüşür.

Yapışırıq ləpələrin əlindən,
Axıdırıq çay uzunu, çay boyu.
Bağlayırıq çiçəyindən, gülündən
Çaldırırıq oğlan toyu, qız toyu!

Ayılıramg «Zeya» çayı axmada,
Öyrənmişəm ləpələrin dilini.
Yaddaşıma gurşad yağış yağmada,
Çay andırır xatirələr selini...

*Uzaq Şərq, 1969*

## MARŞ, IRƏLI

Komandirin səsi gəlir:
Marş. irəli!
Marş, irəli!
Nə deməyə sözün qalır,
Nə susmağa bir macalın,
budur canın?
Döy təpiyi, döy ağ qarı,
Niyə yerə «düşməlidi»
Komandirin arzuları?
– Cavan əsgər, sən ki, hələ
Bərkdən-boşdan çıxmamısan.
Düyün-düyün yağar qardan,
Bu ilk qışdan çıxmamısan.
Komandirin hər sözünü, hər əmrini
Qardaş, başa çıxmamısan.
Bura ki, sən
Yağan qardan qorunmağa gəlməmisən,
Baxışlardan qorunmağa gəlməmisən.
Dolay-dolay
Yaxuşlardan qorunmağa gəlməmisən,
Bərkiməyə, öyrənməyə,
Vətənini qorumağa,
Vətəninə yarımağa buyurubsan...
Haydı qardaş, marş, irəli!
Marş, irəli!
Marş, irəli!

*Uzaq Şərq, 1967*

## RUS DILINI BILMƏSƏM DƏ

Anam hər vaxt deyərdi ki,
Sən bir «kişi qırığısan».
Qoca nənəm Soltan arvad
deyərdi ki,
Yox! Yox!.. Sən ki, bir qırğısan.
Bax, beləcə əsgər oldum mən Vətənə,
Komandirlər buyurdular,
Icra etdim dönə-dönə.
Sevinirdim uşaq kimi,
Bir «Molodes» kəlməsindən.
Tez duyardım göstərişi,
Rus dilini bilməsəm də...

***Uzaq Şərq, 1967***

## STARŞINA

Starşina! Əsgərlərə
«Qalx!» harayı gərək deyil,
Çoxdan qovdun yuxusunu,
Əsgərlərin çoxusunu.
Həsrəti də əynindədir, paltarı da,
Güllə kimi şığımağa
Himə bənddi.
Qoru, qoru, qanun həddin,
Ver əmrini,
Sıçrasınlar yataqlardan,
Şığısınlar otaqlardan,
Günün alatoranına.
Künc-bucaqda düşüb qalan
Harasa ilişib qalan
Gecənin tör-töküntüsü

Ürküb qaçsın.
Zülmət qaçsın, çirkab qaçsın,
Qoy şahinlər qanad açsın,
Gecənin göz yaşlarını qurutsunlar.

***Uzaq Şərq, 1969***

## ƏMRLƏRIN SOYUQLUĞU

Nur baxışlar, qara gözlər,
Yolmu çəkir? Eh, nə bilim...
Heç bilməzdim əsgərlik də,
Bir peşəymiş, igidlərim.
Azərbaycan torpağından
Uzaq düşmüş igidlərim...

Əsgərlərin bəziləri
Çəkilərək bir kənara,
Sümürürlər siqareti
Bu bir həsrət, bu bir yara,
Siqaretin tüstüləri
Keçib gedir ağrılardan
Nə sevincdən xəbər-ətər,
nə bahardan.
Sahilləri görünməyən bu həsrətin,
Baxışlarda donub izi.
Elə hər gün hədələyir
əmrlərin soyuqluğu
bizi,
bizi...

***Uzaq Şərq, 1968***

## YARPAQLAR

Şəfəqsiz, nəğməsiz tel kimə lazım?
Baxış olan yerdə dil kimə lazım?
Bu yaz çiçəyindən qızlar gözəldi,
Qızlar olan yerdə gül kimə lazım?

Tutuşub ürəkdə yanırsan, gözəl,
Ömrümə nəğməli baharsan, gözəl.
Hər gün ürəyimlə pıçıldaşıram,
Axı ürəyimdə sən varsan, gözəl.

***Uzaq Şərq, 1969***

## QOZ AĞACLARI

***Bu il qoynunda böyüdüyüm dağlara yolum düşdü. Babalardan yadigar illərin şahidi «Qanlı qoz», «Yağlı qoz», «Cüt qoz», «Tək qoz», «Dörd qoz» ağaclarımı baltalanmış gördüm. Respublikamızın qiymətli meşə zolaqlarının, ağaclarının vəhşicəsinə qırılması günümüz önündə ən acı həqiqətləridir.***

Görən niyə daşa dönüb bu insanlar,
Görən niyə güvə düşüb beyinlərə?
Baltalayıb ağacları qopar, apar,
Əvvəl-axır köçəsisən soyuq yerə.

Bacarırsan, ək torpağı, çörək qazan,
Bacarırsan, sök torpağı, sərvət üçün.

Yaşıl-yaşıl ağaclar da sənin baban,
Babalara belə divan, axı neyçün?

Ağacların nə günahı, ac oğlu, ac,
Allah, allah, dilsizləri bumu gözlər?
Belə getsə, məhvərindən yer qopacaq,
Belə getsə, kor olacaq baxan gözlər.

Ey yaradan, sən də düşün, sən də dillən,
Eh, nə bilim, nə yazırsan, nə pozursan.
Bilirəm ki, demək olmur Vallah, dilnən,
Saya gəlmir bu dərd, bu sər, yolun azan...

Belə getsə tarix özü dolaşacaq,
Belə getsə dolaşacaq dinimiz də.
Arzular da, ümidlər də daş olacaq,
Daş olacaq səsimiz də, dilimiz də.

«Qanlı qoz»un, «Yağlı qoz»un kəsilməsi,
Meşələrin kəsilməsi nədir belə?
Ağ dişlərin caynağında ruhun səsi...
Yol gedirik, görə-görə, bilə-bilə.

Aman Allah, sən də düşün, sən də dillən,
Yer üzünü boğar gecə, uçar səhər.
Ey yuvasız, ey dilənçi, sən də dilən,
Bəlkə, bəlkə duamızı eşitdilər?!

***1995***

## HAYDI, SABAHA DOĞRU

Düşmənin varlığı toz olsun deyə,
Əsgər ürəyində tufan gərəkdir!
Bu qışı əridən yaz olsun deyə,
Bu cənnət torpağa qurban gərəkdir!

Igidlik, cəsarət yağsın torpağa!
Ərlər yürüşüdür bugünkü yürüş!
Əli silah tutan qalxsın ayağa! –
Zəfər döyüşüdür sonuncu döyüş!

Sıyrılsın qayalar, kükrəsin dağlar!
Kişnəsin buludlar, çaxsın ildırım!
Bir gün gülən düşmən, bir gün də ağlar.
Göylər düyün-düyün, yer şırım-şırım.

Bu gün nifrətimiz gərilmiş yaydı,
Qurtarmaz yağılar bu oxdan daha.
Haydı, igidlərim, döyüşə, haydı!
Haydı, dan yerinə! Haydı, sabaha!

***1992***

## LAYLAMI DEYIM SƏNƏ

***Vətənimizin igid oğullarından biri Tərtər döyüşlərində həlak olmuş zabit Ələsgər Əliyevə ithaf olunur.***

Yolda qalıb gözləri,
Səni gözləyənlərin.
Düyün düşüb sözləri,
Qoca çayın – Tərtərin.

Niyə susdu bu çıraq?
Kimdən cavab alım mən?
Udmayıb səni torpaq,
Həmişə bizimləsən.

Gözümün bulağında,
Yaş dönüb daş olubdur.
Vətəndaş sorağında,
Daş dönüb yaş olubdur.

Dözməyir dərdə sinə,
Xəzan vurub bağımı.
Laylamı deyim sənə,
Bayatımı, ağımı?

Qoşuldu ulduzlara,
Çiynindəki ulduzlar.
Sən hara, bahar hara?
Səni aparıb bahar?!

***1997***

## SƏN – MƏNIM ÖMRÜM

Güldən kövrək, baldan şirin,
Pöhrəsisən sən bəşərin.
Baxışların neçə dərin,
Naz-nemətim, dadım, oğul!

Dörd bacının bir qardaşı.
Evimizin üzük qaşı!
Taleyimin zər naxışı,
Ömrüm, günüm, adım, oğul.

Yağıya tük saldırası,
Qəlbimə nur doldurası.
Məni göyə qaldırası,
Ay tərlan qanadım, oğul!

Hələ yerin güllü bələk,
Qımış, bəlkə biz də gülək.
Qədəmini dünya bilək –
Sən atınca addım, oğul.

Baba yurdu – ər qeyrətim,
Qönçələnib cəsarətim.
Məhəbbətin – məhəbbətim,
Inadın – inadım, oğul.

Nəslimizin gələcəyi,
Gülüşlərin gül ləçəyi,
Sən ömrümün ağ çiçəyi!
Ay yetmiş muradım, oğul!

***1981***

## BU GÜN ADDIM ATDIN

Bu gün addım atdın, qorxaq, sevincək,
Ayağın torpağı deyəsən, duydu.
Bu torpaq üstündə açılır çiçək,
Bu torpaq yaşadır ocağı, odu.

Bu torpaq üstündə ömür axan çaydı,
Yamacı, dərəni yalayıb gedir.
Nə deyim, bəlkə də qismətdi, paydı,
Insan öz kökünü sulayıb gedir.

Bu gün sürünməyin daşını atdın,
Doğurdun gözümdə bahar, yaz daha.
Bu gün keçmişimi, oğul, oyatdın,
Keçdiyim cığırlar darıxmaz daha...

Bu gün addım atdın, mən də sevindim,
Sevindik böyükdən-kiçiyə qədər.
Bu gün addım atdın torpaqda çin-çin,
Bir ocaq başından küçəyə qədər.

Getdikcə uzanar bu cığır, bu iz,
Torpağı oxşasan, torpağı öpsən.
Büdrəyib yıxılsan, səssiz-səmirsiz,
Heç kimə yalvarma, torpağı öp sən.

***1982***

## OĞUL GÖZLƏRINDƏ

Mənə belə gəlir anam qocalmır,
Durulub durubdur elə bil yaşı.
Günəşi borc almır, ayı borc almır,
Gecikir anamın payızı, qışı.

Mənə belə gəlir, qocalmır anam,
Bəlkə göz öyrənib...
Ya nurdan qalır?
Gözlərim işıqdan düşsə, ay aman –
Elə bilərəm ki, anam qocalır.

Dostlarım deyir ki, «qoca»lır anan,
Tutub ətəyindən səksəninci il.
Mənə belə gəlir qocalmır anam
Saçın ağarması qocalıq deyil!

Oğul gözlərində ana qocalmaz!
Övlad gözlərində ana, anadır!
Vətən, yurd qocalmaz, dünya qocalmaz,
Mənim gözlərimdə ana dünyadır!

***1985***

## ANA TORPAQ

Sənin üçün qəlbim yanır,
Ana torpaq, ana torpaq.
Atəş olub qəlbin yanır,
Ana torpaq, ana torpaq.

Dağı, düzü alıb kədər,
Gözüm-kədər, canım - kədər.
Bu ağrılar gəlib keçər,
Ana torpaq, ana torpaq.

Hər gecənin bir sonu var,
Bahar gəlir, ərimir qar.
Əriyər qar, əriyər qar...
Ana torpaq, ana torpaq.

Dağlarından doymuram mən,
Varım da sən, yoxum da sən.
Anam, atam sənsən, sənsən,
Ana torpaq, ana torpaq.

Uşaq olub gülmüşəm mən...
Yaşa dolub bilmişəm mən.
Qurbanınam, gəlmişəm mən,
Ana torpaq, ana torpaq.

Qarış-qarış ölçüldün də,
Içdilər də, içildin də.
Böyümədin... Kiçildin də,
Ana torpaq, ana torpaq.

Mən bir daş əl, sən ağ çiçək,
Doymasam da gün gələcək,
Gözlərimə töküləcək,
Ana torpaq, ana torpaq.

***2000***

## TORPAQ MƏNIMDI

Torpaq da mənimdi, daş da mənimdi,
Bu ulu Tanrının təntənəsimi?
Bahar da mənimdi, Qış da mənimdi,
Əkəcəm torpağa bu gün səsimi.

Qatacam sözümü qara torpağa,
Yağış diləyəcəm ulu göylərdən.
Torpaq sahibləri, qalxın ayağa,
Torpaq dən istəyir, bizdən qızıl dən.

Qayıdın öküzə, qayıdın vələ,
Bərəkət insanın barmağındadı.
Sən, ey Odlar oğlu, bir az səbr eylə,
Dünyanın nəfəsi torpağındadı.

Çırpıl qayalara, çırpıl daşlara,
Daşlar da dinəcək, sal qayalar da.
Ey insan, din, danış, nəyisə ara,
Yerini, yurdunu sal qayalarda.

Bu torpaq neçə yol qılıncdan keçib,
Bu torpaq neçə yol ölüb, dirilib.
Bu torpaq zəhər də, şəkər də içib,
Polad bir yay kimi indi gərilib.

Ey insan, torpağın qoluna gir sən,
Bayatı dilində, layla dilində.
Dərdini torpaqla bölüşə bilsən,
Əriyər, ovular lay-lay əlində.

Torpağa qatacam bu gün sözümü,
Göyərsin, gül açsın, laləzar olsun.
Bu gün unudacam şair özümü,
Xatirə libasım zərbəzər olsun !

***1997***

## TORPAQ

Sahilsiz suları, sonsuz səmanı,
Rahat gəmilərdə çox yarmışam mən.
Dolanıb hər yanı, gəzib hər yanı,
Dincimi torpaqda çıxarmışam mən.

Ağaclar dizədək batır torpağa,
Qayalar dünyaya torpaqdan baxır.
Günəş torpaq üçün dönüb çırağa,
Göydən çay axmır ki, torpaqdan axır!

Torpağa döşənib bu ulu yollar,
Əyrisi, biçimi torpağa düşüb.
Gəlib də, gedib də neçə yol bahar,
Geyimi-keçimi torpağa düşüb.

Torpaqla ölçülür elin sərvəti,
Torpaqsız qalanın ömrü sökülür!
Bu torpaq o qədər müqəddəsdir ki:
Insanı torpağa tapşıranda da,
Son dəfə gözlərə torpaq tökülür!

*1980*

## BARI TORPAĞI ITIRMƏ...

Içini yandırdı gözünün yaşı,
Kəsdi yollarını yaslı baxışı.
Gərək daş olasan ya da ki, aşıq,
Duya bilməyəsən bu qara qışı.

Itki var: itməsi – qəlbin arzusu,
Itki var: nə yeri, nə izi qalar.
Itki var: üstünə tökməsən də su,
Alovu qaralar, odu qaralar.

Var-dövlət itirsən, tapa bilərsən,
Bu var zəhmətindən süzülübdüsə.
Necə qayıdarsan, necə gələrsən,
Məhəbbət itibsə, eşq ölübdüsə.

Bəzən səadət də çıxır əlindən,
Nə edək, dünyanın işi qalındı.
Olur...
        Qara yaylıq düşmür telindən,
Sanırsan ömrünün gülü çalındı.

Dedim, ya demədim, ötür saatlar,
Kimisi itirir, kimisi tapır.
Göyərir təpələr, quruyur otlar,
Çiçək də yetişirg pöhrə də qopur.

Hamı dadasıdır bu acı payı,
Ürəksiz bir evə işıq gətirmə.
Itirmə dənizi, itirmə çayı,
Torpağı itirmə, daşı itirmə!

***1984***

## ÜMID DOLU BIR SƏHƏR

Əlim çatmır o sahillərə...
Dalğalar məni nə çox
uzaqlara aparıb?
Hardan hara aparıb?
Baxıram vərəqlərə
donmuş,
saralmış
illərə.
Ürəyimdə çırpınır
Təəssüflər dolu bir kədər.
Gör nə qədər,
Nə qədər yadlaşmışam...
Bəlkə elə əvvəldən
yad olmuşam ?
Yox, bilmirəm
Həyat fəlsəfədir,
ya nədir?
Bircə onu bilirəm ki,
Ayrılıb görürsən
Əllərin çatmır
dərələrə,
çaylara,
dağlara.

Əkdiyin,
Gölgəsində nəfəsini dərdiyin
bağlara.
Ayılıb görürüsən
saçın ağ,
saqqalın ağ...
Kəsib qapıları qışın qarı.
Eynəksiz oxuya bilmirsən
Işıqçının,
suçunun,
qazçının,
kimlərin...
Gətirdiyi kağızları.
Ayılıb görürsən
Bir sən qalmısan
bir də xatirələr.
Qoy söndürüm işığı,
Bir azdan açılacaq səhər...
Ümid dolu bir səhər...

***1997***

## ANAMIN YUN PALAZI

Anam həvəsə düşdü,
Ilk oğlunun adına
Palaz toxumaq üçün.
Anam işə başladı,
Yun daradı neçə gün,
Sonra əlçim əyirdi.
Cəhrənin cır səsində
Kiriş düyün düşsə də,
Fikri düyün düşmədi.
Anam palaz uzatdı,

Özü də cümə günü,
Işi əyməsin deyə.
Hanasının qoluna
Qaratikan bağladı,
Nəzər dəyməsin deyə.
Anam palaz toxudu,
Rəngini güldən aldı,
Çeşidini çəməndən,
Qüvvəti eldən aldı,
Ilhamı məndən.

***1967***

## ANA PAYI

Köçdük təzə evə, arzumuz dən-dən,
Köçdük, qoy hər köçüm adsız olmasın.
Anam od gətirdi ata evindən,
Dedi: – Ocağınız odsuz olmasın.

***Ləngəbiz, 1969***

## YAXŞI YADIMDADIR

Yaxşı yadımdadır...
Uşaqkən məni,
Anam şirin-şirin tərifləyərdi.
Verdiyi bir işi tez görən kimi,
Bağrının başına sıxıb öpərdi.

Onda bilməz idim işin qiymətin,
Elə tərif üçün görərdim onu.
Sonradan bildim ki, sənin niyyətin,
Yoluymuş ay ana, həyatın yolu.

O vaxtdan bağlanıb əlim zəhmətə,
Dağı da yarmağa çatar qüdrətim.
Həmişə borcluyam, ay ana, sənə,
Sənin zəhmətindir mənim zəhmətim.

***1968***

## BAYRAM AXŞAMI

Ürəyim bu axşam düşəcək «tora»,
Qızıl balıq kimi çırpınacaqdır.
Bu gün açılacaq qapım bahara,
Xatirə budaqlar çırpılacaqdır.

Uzadıb bahara yaşıl əlini
Səməni otaqdan,
Həyətdə boran.
Mən necə sevməyim axı elimi?!
Odur əllərimdən tutub qaldıran!

Yığışın, a dostlar, siz dəstə-dəstə,
Sinəmdə bir ocaq qalanasıdır.
Telefon telləri «Çahargah» üstə
Köklənib bu axşam, çalınasıdır.

Yığışın bir yerdə olaq bu axşam,
Hamıya bəs edər odum, ocağım.
Yığışın, bir yerdə şam yandıraq, şam,
Baxsın pəncərədən kəndim, torpağım!

***Moskva, 1983***

## BAYRAM PAYI

Bayram payı aldım bu gün,
Göndərmişdi kənddən anam.
Ocaq kimi yandım bu gün,
Inciməsin məndən anam.

Yaman qarışıbdı başım,
Itirmişəm yazı, yayı.
Çıxıb yaddaşımdan yaşım,
Bir də sənə oğul payı.

Bağışlamaq olmur düzü,
«Ana», «ana», demək azdır.
Yollardadır ana gözü,
Novruz gəlir, yenə yazdır.

Bir «düyünçə» bəsi olar,
Qocalara nə gərəkdi?
Səsin itsə, səsin olar,
Anaların canı bərkdi.

Bayram payı – nehrə yağı,
Dada gəldi dişim, dilim,
Unutmuşam daşı, dağı,
Doğra məni dilim-dilim.

Bayram payı aldım bu gün,
Göndərmişdi kənddən anam.
Ocaq kimi yandım bu gün,
Inciməsin məndən anam.

***1996***

## O YOL

O yol,
O məktəb yolu
Iki kəndin arası,
Xatirələrlə dolu.
Biz altı yoldaş idik,
Qonşu kəndə gedərdik.
Yolumuza tökülərdi
qışın qarı,
yazın çiçəkləri,
payızın yağışı.
Böyüklərin öyüdü,
istəyi,
çağırışı.
O yoldan başlanıb narahat güllərimiz,
Ordan açılıb həyata gözlərimiz.
O yoldan ayrılıb
bu indiki dolaylar.
Bu yolda ayrılmışıq biz,
Bu yolda ayrılanlar
bir-birini haraylar.
O yolg
Unuda bilmirik o yolu.
Arabir yığışıb biz altı yoldaş,
Vərəqləyirik o günləri,
Deyirik: «Dönə biləydik
o yola kaş»,
Yollar geri dönmür ki!

***1966***

## NƏĞMƏLƏR

Dəniz nəğmə oxuyur,
Külək nəğmə oxuyur,
Ürək nəğmə oxuyur.
Analar nəğmə deyir,
Körpəyə beşiyində.
Insanlar nəğmə deyir,
Həyatın keşiyində.
Yağış, qar, işıq seli,
Göydən yağar nəğmə nur...
Sevincim, kədərim də
Nəğmələrlə doludur.
Bu sirr, bu hikmət nədir?
Insanları yaşadan
O şirin nəğmələrdir,
O şirin nəğmələrdir.

***1966***

## ANA, KƏNDDƏN GƏLƏR OLSAN...

Ana, kənddən gələr olsan,
Bir udumluq hava gətir.
Ulu dağın yamacından
Bir az dərman-dava gətir.

Hanı kəklikotu çayı? –
Bu pay – mənə ana payı!
Bir kəndistan hay-harayı,
Bir az xeyir-dua gətir.

Gəz güneyi, gəz qüzeyi,
Yığıb gətir kənd-kəsəyi,

Istəmirəm bər-bəzəyi,
Nə gətirsən, saya gətir.

Ürəyimə düşüb deyə –
Sığışmıram yerə-göyə.
Şahməmmədin isinməyə
Qucağında yuva gətir.

***1979***

## ANAM BIZƏ GƏLMIŞDI

Gəzməyə gəlmişdi Bakıya anam,
Yığıb gətirmişdi kəndi-kəsəyi.
A mənim dünyada işıqlı dünyam,
A mənim ömrümün bəri-bəzəyi.

Üzünə hopsa da dərin qırışlar,
Sənsən bu dünyada qolum-qanadım.
Saçında göylərin ağ qarı qışlar,
Qıçında dağları dolaşan addım.

Dəli külək qopsa yıxıla bilər,
Dizinin heyini yaşmı apardı?
Deyir ki, ürəyim sıxıla bilər.
Deyir: – «Bu gen dünya istidi, dardı».

Qurudub itkilər göz yaşını da,
Quru səsi qalıb, nəfəsi qalıb.
Itirib ömür-gün yoldaşını da
Elə özü boyda kölgəsi qalıb.

Çubuğu çiynimdə alışan anam,
Indi təsəlliylə ovudur məni.
Yer ilə, göy ilə vuruşan anam,
Bu gün də obaşdan oyadır məni.

Anam – ürəyimin enməz bayrağı,
Bağrımın başından asılan odur.
Anam – dar günümün yarı-yarağı,
Anam ocağımın istisi, odu.

***1995***

## ANA – OĞUL

Həkimə gətirdi oğul ananı,
Baxdı tanınmışlar, tanınmamışlar.
Keçirdi «UZI»dən şam tək yananı,
Yazıldı nüsxələr, rəy verdi başlar.

Ayrıca otaq da tapıldı ona,
Süfrəsi çiçəkli, qaşığı gümüş.
Bəli, yorğun-yorğun baxırdı ana,
Ən böyük yorğunluq qocalıq imiş.

On gün, iyirmi gün, dözürdü qoca,
Oğul borcunu da verirdi oğul.
Qayğı görməmişdi ömrü boyunca,
Bu da bir yuxudu, bu da bir nağıl.

Bir gün də oğlunun üzündən öpüb,
Dedi: – «Dərdin alım, incitmə məni.
Daha sənlik nə var, yaş məni büküb,
Görmək istəyirəm indi kəndimi».

Dayandı üz-üzə oğulla, ana,
Ana hiss etdi ki, oğul incidi.
Dedi ki, dərmanım Ismayıllıda,
Doğma kəndimizdə – Quşencədədi.

***1995***

## OXŞARLIQ

***«Şamaxının dağları elə bizim Quba dağlarına oxşayırmış ki...» Dostum Əli Ələkbərovun heyrətindən.***

Dağların dağlara oxşarı varmış,
Insanın insana oxşarı kimi.
Dağlar qoşa yaşar, qonşu yaşarmış,
Dağlar ünləşərmiş «Ovşarı» kimi.

Bulaqların «Şur»u, «Cahargah»ı bir,
Bir ana bəsləyib laylaları da.
Gecəsi-gündüzü, eşqi, ahı bir,
Qövsi-qüzeh çəkib boyaları da,

Çıxıb zirvələrin çiyinlərinə,
Uzatsan, əllərin Günəşə çatar.
Gəl dönək dağların qoşa neyinə,
Bu qatar dağlarda səslənən «Qatar».

Bu naxış qayalar, bəzək qayalar
Ruhumuzun sehri, laylası imiş.
Göylərin köksünə dirək qayalar
Günəşin daşlaşmış boyası imiş.

Dağların dağlara oxşarı varmış,
Insanın insana oxşarı kimi!
Dağlar qoşa yaşar, qonşu yaşarmış
Dağlar ünləşərmiş «Ovşarı» kimi.

***1978***

## QALDI DAĞLARDA

Yaşıl düzlər, yaşıl bağlar
Şaldı dağlarda-dağlarda.
Ömrü boyu buz bulaqlar
Baldı dağlarda-dağlarda.

Boz qayalar – üzük qaşı,
Xatirəmi, duman, daşı!
Qəribsəmiş ocaq daşı
Xaldı dağlarda-dağlarda.

Sellər-sular gileyini
Tər qönçələr bələyini,
Qərib durna lələyini
Saldı dağlarda-dağlarda.

Bir qız sevdim – ər qız kimi
Həcər, Nigar – nər qız kimi.
Həsrətimi nərgiz kimi
Yoldu dağlarda-dağlarda.

Xatirələr susar, dinməz,
Nə dağ çəkər, nə daş nəfəs.
Uçdu illər, geri dönməz,
Qaldı dağlarda-dağlarda.

***1975***

## ÇINARLI ÖMRÜM

Çinarlar qoynunda böyümüşəm mən,
Çinar nəfəsiyəm,
Çinar səsiyəm!
Onlara bağlıyam körpəliyimdən
Mən çinar görməsəm, kövrələsiyəm.

Çinara oxşayıb şah vüqarım da,
Sevincim çinarla aşıb-daşıbdır.
Çinar-çinar olub addımlarım da,
Getdiyim Yollar da çinarlaşıbdır.

Hardasa çinarsız bir kənd görəndə,
Qəlbim göynəyibdir, gözüm dolubdur.
Mən ilqar bağlayıb, könül verəndə
Ən yaxın şahidim çinar olubdur

Çinarlar qoynunda böyümüşəm mən,
Baharı bahara çatana kimi.
Çinarlar tutublar mənim əlimdən,
Böyüyüb bu günə çatana kimi.

***1977***

## BU YERLƏRƏ DÖNƏSIYƏM

Ürəyim çırpınır söz sorağında,
Sözü zərrə-zərrə çəkəsiyəm mən.
Bir həsrət yaşayır könül bağında,
Nə qədər canım var, çəkəsiyəm mən.

Bir heyrət heykəli yondurub bahar,
Dağlara don biçib, «yan durub» bahar.

Gülləri şam təki yandırıb bahar,
Bir çiçək çök desə, çökəsiyəm mən.

Qızılgül ləçəyi al baldır qanı,
«Ballı» çiçəyinin saf balıdır «qanı»,
Körpə cincilimi, tər baldırqanı,
Nazik yuxa kimi bükəsiyəm mən.

Düşmüşəm gözümdən, könlümdən tora,
Bura dönəsiyəm, uçsam da hara.
Küləklər, səsimi səpin dağlara,
Sinəmi sizinçün sökəsiyəm mən.

Duyğun bu yerlərdə sozala bilməz,
Burda doğan sözə söz ola bilməz!
Şairim, ovsunun azala bilməz,
Azalsa, göz yaşı tökəsiyəm mən.

***1975***

## NƏ VAXTSA DINƏCƏK YAŞIL AĞACLAR...

Qızıl yarpağını tökür ağaclar,
O yetim budağa heyifim gəlir.
Külək səsinə də ürkür ağaclar,
Addım da atmağa heyifim gəlir.

Bu ki, təbiətin öz qaydasıdır:
Torpağa ziynətdir gələn hər fəsil.
Yaşıllıq budağa qayıdasıdır;
Insan budağına qayıdan deyil.

«– Qardaş, ayaqlama, ehtiyatlı ol –
Torpağa döşənmiş qızıl əsəri».

Qarşımda dağlardan keçən yaşıl yol,
Önümdə dağların yaşıl əlləri...

Söykəndim ağaca, payız yarımla
Yarpaq üstümüzə yağdı, nə yağdı...
Yoxladım nəbzini barmaqlarımla,
Baxdım ki, yatmayıb, ağac oyaqdı.

Dağlar avazıyıb, yarpaqlar bumbuz,
Sinəmdə duyğular ocaq-ocaqdır.
Bu şahid ağaclar, bu şahid payız
Mənim yerimə də danışacaqdır...

***1978***

## ÖMRÜMÜZÜN RƏNGLƏRI

I

Çınqılları kəklik olub dağların,
Daşlarının xınası var, xınası.
Əgər sizə dönük çıxsam, dağlarım,
Dilim-ağzım yanasıdı, yanası.

Çəmənləri ömrümüzün rəngidi,
Baxışlarım zirvələrdə ləngidi.
Sellərinin hay-harayı cəngidi,
Bulaqların bu yerlərin sonası.

Sevinc yolum qırılmasın yarıda,
Sənsən könlün həmdəmi də, yarı da!
Istəyimi uzaqda da yarıda
Ömrümüzün, günümüzün anası!

II

Bu torpağın gülüşü var, qəmi var,
Ürəyimi ovsunlayan dəmi var.
Bu sahilə yan alası gəmi var,
Qoy lövbəri çiçəklərə atılsın.

Çəmən məni çiçək kimi bəsləyə,
Xəzan yeli başım üstdən əsməyə,
Həsrətimi qılınclayıb kəsməyə
Zirvələrin bulud qaşı çatılsın.

Qədəmlərin addım-addım sayıldı,
Istəklərim gədiklərə yayıldı.
Ürəyimdə yatan duyğum ayıldı,
Qoy varlığım bu dağlara qatılsın!

***1970***

## DAĞLAR

Bulud ağlar için-için,
Göy nurunu için, dağlar,
Göynəyirəm sizin üçün,
Uşaqlığım keçən dağlar.

Mənim canım, mənim ərzim,
Qayaları öpüb dizim,
Yamacların yolum, irzim,
Dərələrin küçəm, dağlar.

Gözü yolda qalan varmı?
Bulaqların darıxarmı?

Görən şəhər buraxarmı?
Qoynunuza köçəm dağlar.

Hanı yuvam, hanı yurdum?
Su doldurum bircə udum.
Çiyələyim, daş armudum,
Mənim balım, beçəm, dağlar,

Ey xatirəm, dağ donunda,
Tut əlimdən, dur yanımda,
Dərdim də siz, dərmanım da,
Mənim «neynim», «necəm» dağlar.

Siz baharım, siz gərdişim,
Susma ürək, bir danış, din,
Hər gün doğan al Günəşim,
Hər gün düşən gecəm dağlar.

Arxam da siz, qorxum da siz,
Dincliyim də, yuxum da siz,
Dolanırsız qanımda siz,
Sizsiz yoxam, heçəm, dağlar.

***1995***

## YAY... DAĞ... GECƏ...

Lay ola, dağ ola, yorğun olasan,
Yatasan, oyada sehirli quşlar.
Dumana, çiskinə vurğun olasan,
Döyə pəncərəni yağan yağışlar.

Dinə saçlarında bir səhər mehi,
Qızıl tellərini kökləyə, çala.
Dünyanın ulduzlu mirvari şehi,
Yağa, çiçəklərin gözləri dola...

Durasan yuxudan, baxıb görəsən,
Axır ürəyindən soyuq dağ çayı.
Bağrına basasan uşaq kimi sən
Bu şirin gecədə dağlarıg Yayı...

***1995***

## YAY DÜŞÜB

Yenə də yay düşüb, köçmüşük bağa,
Içirik Günəşin səhər nurunu.
Könlümüz istəyir gül-çiçək yığa,
Yığırıq dənizin «qızıllarını».

Qabaqdan çovğunlar, sazaqlar gəlir,
Dəniz qumlarında bərkiyim gərək.
Fikir də dincəlir, can da dincəlir,
Topla qış ruzunu, sən də ey ürək.

Dərmanın qiyməti «Baba» dağında,
O da hər adamın payına düşmür.
Ürək ağrıyanda, baş ağrıyanda,
«Vətən», «torpaq», – deyib əsgər döyüşmür.

Köçmüşük... Sahillər udubdu bizi,
Bir əlcə çörək də bəsimiz olar.
Çəkibdi başına duzlu dənizi,
Dünyadan xəbərsiz dəcəl uşaqlar.

Yenə də yay düşüb, yay düşüb, ancaq
Gör neçə ürəyin dolaşıb simi.
Qəm yemə, bu dərdi dəniz udacaq,
Ümman günahları udduğu kimi.

***1995***

## PIRQULU DAĞINDA

Yüz yol bu yerlərə gəlib-getmişəm,
Düşmüşəm küləkli yağışlarına.
Bəzən kor dumanda azıb itmişəm,
Gücümü sıxmışam yoxuşlarına.

Burda kötüyüm var, burda suyum var,
Bu yaşıl budaqlar nəğmələrimdi.
Burda nağıl deyir qara qayalar,
Yarpaq pıçıltısı şah əsərimdi.

Müqəddəs ocaqdı dərəsi, dağı,
Səpilər başıma qar birəm-birəm.
Odur dərələrin yanan çırağı,
Qərib şəhərlərdə yuxuma girən.

Ruhuma nur yağır ulu göylərdən,
Uzaq buludlarla qucaqlaşıram.
Qoynuna gələndə sanıram ki, mən,
Allahın evinə yaxınlaşıram.

***1995***

## MƏNƏ DAĞLAR QALDI

Deyirəm yaxşı ki, yazır əllərim,
Yoxsa hər baharım qışa dönərdi.
Yoxsa gördüklərim, eşitdiklərim,
Mənim ürəyimdə daşa dönərdi.

Bir insan ömründə nələr görmədim,
Yerli də, yersiz də yedilər məni.
Özümü bir dəfə gülər görmədim,
Boğdu çəkişmələr, dedilər məni.

Vəzifə verdilər pulsuz, filansız,
Bir kasıb uşağı gərəkmiş demə.
Alışdım, vuruşdum bəli, yalansız,
Yalanlar hər şeyə bələkmiş demə.

Məni saymayanlar salama gəldi,
Gecə də, gündüz də tərif dedilər.
Yaltaqlar, hərislər dolama gəldi,
Girəvə tapanda «hərif» dedilər.

Kimi tanıyırdım, tanıdım onu,
Vəzifə başında dost axtarmadım.
Yüz dəfə, min dəfə, sınadım onu,
Ləkə götürmədi, ləkəsiz adım.

Vəzifə verdilər səssiz-səmirsiz,
Sonra da aldılar haray səsiylə...
Mənə dəniz qaldı, yenə göy dəniz,
Bir də qoca dağlar öz sırasıyla...

***1990***

## PAYIZDA

Yaşıllıq sökülər, yaşıllıq itər,
Xəzələ bürünər dərə də, dağ da.
Saçını ağaclar torpağa tökər,
Dincini çıxarar daşda, torpaqda.

Dağların axarı, dağların çayı,
Sarı yarpaqlarla yüklənər, gedər.
Yetişər durnalar köç edən ayı,
Hər kolun dibində qəriblik bitər.

Gümüş qayaları isladar, yuyar,
Çiskin də oyanar bir az səhərdən.
Çılpaq budaqları darar, qurudar,
Küləklər özü də dönüb səfərdən.

Dumanı dərələr üstünə çəkər,
Əlçatmaz zirvələr ayaqlarına.
Günəş də bir qədər göylərdən enər,
Söykənər dağların uca yalına.

***1977***

## ŞAMAXIDA

Gecənin yarısı, hamı yuxuda,
Mənimsə əlimdə qələm titrəyir.
Bəlkə zəlzələdir? Bir an qorxu da,
Yüyürüb üstümə imdad diləyir.

Yatmışlar toy görür yuxuda bəlkə,
Bəlkə də ev tikir, barı qaldırır.
Alim toyumuzda oxudu bəlkə...
Şirin yuxulardan şirin bal dadır...

Bu dərdli şəhərə qonaq gəlmişəm,
Zəlzələ... Zəlzələ ürəyimdədir.
Yox, yox, bu gecəyə çıraq gəlmişəm,
Bu qara fikirlər bilmirəm nədi?

Bir qara geyimdə ötüşür anlar,
Bu dəli fikirlər buraxmır məni.
Hər gün necə yatır, burda yatanlar?
Çırpınır saçımda ümidin əli...

Şamaxı şərabı süzün, qardaşlar,
Qoy bir sağlıq deyim, ucalsın səsim.
Gərək qaynaq olsun burada daşlar,
Bu şəhər bir daha qurban getməsin!..

***1997***

## ŞAMAXI PAYIZI

A xırda meşələr, a dağlar, sizdən,
Nə qədər yazsam da, azdı ki, azdı.
Qızarar yarpaqlar, bir adi sözdən,
Şamaxı payızı, qızıl payızdı.

Şamaxı payızı küləkdən uzaq,
Ancaq zəlzələlər tökür yarpağı.
Yağışı şərbət tək içir, dərə, dağ,
Yanır çıraq kimi Pirqulu dağı.

Ən yaxın adamlar üzməyir ayaq,
Yoxsa torpaqlar da daşa dönərdi.
Oğullar, qayalar bu yurda dayaq,
Yoxsa sərin yay da qışa dönərdi.

Şamaxı payızı sözdü, nağıldı,
Şirin əfsanəsi Qız qalasıdır.
Mən yuxumu gördüm? Yuxum dağıldı,
Yuxum da deyəsən, çin olasıdır.

***1993***

## MƏNSIZ KEÇƏN PAYIZ

Yenə duman alıb bizim dağları,
Çiskindən asılıb obalar, evlər.
Sarı muncuq kimi düzüb dağları,
Gümüş sinəsinə bizim tərəflər.

Islanıb yamaclar saçına qədər,
Könlümdən sürüşmək, yıxılmaq keçir.
Qartal qıyyasına açılır səhər,
Yamaclar donunu dumandan biçir.

Cığır da təklənib, dərə də susub,
Həsrətəm bir dəstə durna telinə.
Yarpaqlar özünü budaqdan asıb,
Atılır ömrünün son mənzilinə.

Əlim yetişmədi bu payız sizə,
Qoy deyim sözümü, ay uca dağlar.
Köz külə bürünər, ümid də közə,
Yaşadar özünü, ay qoca dağlar.

***1975***

## ELƏ KI, PAYIZ GƏLIR

Yağışdan-yağışa yuyunan dağın
Dərəsi köpüklü, gilli çay olur.
Çobanın səsinə oyanan dağın
Başının üstündə ulduz, Ay olur,

Deməyin, daşların ürəyi yoxdu,
Deməyin, qayalar gözucu baxdı.
Yatmayıb, zirvədə qartal oyaqdı,
«Hay!» desən, səsinə «haray!» olur.

Elə ki, payızın sorağı gəlir,
Dumanlar – dağların duvağı gəlir,
Küləklər – saçının darağı gəlir,
Alay sürülərdə sayhasay olur.

Elə ki, yuxuya gedir ağaclar,
Susub mürgü döyür tənha bulaqlar.
Atları meydana çəkir qoçaqlar:
Yollarda, izlərdə qıyhaqıy olur.

***1975***

## ŞAMAXI MEŞƏLƏRI

Qışına gələnlər gəlmir yayına,
Yayına gələnlər, qışına gəlmir.
Həsrətim dönübdür axar çayına,
Bilmirəm sinəmdə çırpınan nədir?

Qışda da gəlmişəm, yazda, yayda da,
Indi dünyamızın rəngi dəyişib.
Yasda da gəlmişəm, şən bir toyda da,
Indi söz meydanı, «Cəngi» dəyişib.

Qışda gələnləri çatdır bahara,
Insan nəfəsidir yaşadan səni.
Qapqara saçlarım batıb ağ qara,
Bağışla, qışına gəlmirəm sənin.

Indi qartopundan üşüyür əlim,
Sürüşmək, yıxılmaq uzaqlardadı.
Yandır ocaqları, sən ey müəllim,
Demə ki, çovğundu, küləkdi, qardı...

Qışına gələnlər gəlmir yayına,
Yayına gələnlər, qışına gəlmir,
Indi xatirələr düşür payıma,
Yaşımın bu günü xoşuma gəlmir.

***1997***

## BU AYLI GECƏ

Bu Aylı gecənin sonu görünmür,
Bürüyüb dünyanı bulağın səsi.
Bu qoca dağlarda ayaq sürünmür,
Basıb dərələri qaya kölgəsi.

Gözəllik ilhamla verib əl-ələ,
Udur təbiətin nəğmələrini.
Söykənir dağ-dağa, baxır gül-gülə,
Ay sıxır dağların daş əllərini.

Belə bir gecədə sevməyə nə var,
Içir məhəbbəti meşə, dağ, dərə.
Sanki istəyimi duyub ağaclar,
Yarpaq əllərini açır göylərə.

Bərq vurur otlarda göylərin şehi,
Çəmənlər elə bil pıçıldaşırlar.
Yapışır əlimdən gecənin mehi,
Yapışır əlimdən çiçəkli bahar.

Ay baxır, dolanır dağlardan ayrı,
Dağların söhbəti bu gün Ayladır.
Bu aylı gecəni...
Ey Ulu Tanrı,
Alma əlimizdən, bu bir layladır.

***1995***

## BIR VAXTI ŞƏHƏRƏ CAN ATAN CANIM...

O kəndə gedirsən...
Gərək mən dəg kaş...
Susur əllərimdə, susur gündəlik.
O doğma yerlərin bayrağı Günəş,
Göylərə qaldıran ikimiz idik.

Mən sənin gözündə doğan bir bahar,
Sən mənim gözümdə yanan çilçıraq.
Tutub əllərimdən məni də apar.
Şəhərin yay günü məni udacaq.

Gözləri yol çəkir qayalıqların,
Apar həsrətimi çəkən o kəndə.
Apar başı açıq, ayağı yalın,
Bayatı dilimdə, nəğmə dilimdə.

Apar mən çırağı, apar dağlara,
O sal gecələrdə alışmalıyam.
Açıb əllərimi buz bulaqlara,
Torpaqla, Günəşlə barışmalıyam.

Apar o sehrli dağlara, canım,
Oxu da, çağır da, danış da, din də,
Bir vaxtı şəhərə can atan canım,
Qayıtmaq istəyir indi də kəndə.

***1985***

## DALĞALAR... SAHILLƏR...

Dalğalar sahilə dəyər, qayıdar,
Qayıdar pərişan-pərişan gedər.
Ruhumda bir yığın həsrət oyadar,
Qəlbimdə ləpələr doğular, itər...

Dərdimi dalğalar pıçıldar sizə,
Nə deyir təlatüm, nə deyir dəniz?!
Niyə susmusunuz, sözüm var sizə, –
Yoxsa doğrudanmı, daşdı qəlbiniz?!

***1979***

## XƏZƏR SAHILINDƏ

Bakının ürəyi burda döyünür,
Bu yerin nağılı, söhbəti şirin.
Burda xatirələr danışır, dinir,
Burda qayaların kökü çox dərin.

«Koroğlu» çalınır, «Cəngi» çalınır,
Dalğalar ağ atlı qoşunlar kimi.
Suların qoynunda tonqal qalanır,
Üfüqlər qızarır qızıl nar kimi.

Xəzəri bağrına basır al Günəş,
Səhərlə gecənin toranlığında.
Alanda canımı burda al, Günəş –
Sahil qumlarının narınlığında.

***1979***

## YOLLAR... YOLLAR...

Yeni yola çıxan tər bənövşədi,
Soyuq qar altından qalxar, boylanar.
Yeni yola çıxan nə bilim, nədi,
Onu bilirəm ki, içindən yanar.

Çəmən də, uçrum da çıxar qarşına,
Bu pay sənin payın, sənin qismətin.
Baxma imkanına, baxma yaşına,
Açarı səndədi o səadətin.

Ayın bir yolu var, Günün bir yolu,
Qısalsın, uzansın, qırıla bilməz.
Birdir Araz yolu, birdir Kür yolu,
Düz yola çıxanlar heç vaxt əyilməz.

Zəhmətdən yoğrulub səadət yolu,
Axtarın, dağları, dərəni, düzü.
Axtarmaq insandan uludur-ulu,
Allah da axtarıb, yaradıb bizi.

Yeni yola çıxan qorxmasın gərək,
Deməsin, yollarda boğular səsi.
Bu cocuq dünyanın göyərdəcəkdir,
Mənim nəfəsinlə, onun nəfəsi.

***1982***

## AĞ YOLLAR

Deyirsən, nə yaman ağarıb saçın,
Deyirsən, saçına nə tez düşüb dən?!
Axı öz-özünə ağarmır saçım,
Axı öz-özünə sökülməyir dan.

Ömrə özbaşına gəlmir fəsillər,
Nəyinsə hökmüylə yaşayır cahan.
Axı elə-belə ötüşmür illər,
Axı möcüzədən yoğrulub insan.

Saçım ürəyimdən su içib mənim,
Saçım bar gətirib: Saçım barımdır!
O uzaq yollardan yol keçib mənim
Ağaran saçlarım – ağ yollarımdır!

***1979***

## SÖZ

Sözün güllə kimi açılması var,
Gərək məsləkini bayraq edəsən!
Sözün güllər kimi açılması var,
Qəlbini şeirinə torpaq edəsən.

***1965***

## ŞEİR SƏNƏTDİR

Ürəyi görməyə ürək gərəkdir,
Zahiri gözlərlə süzməyə nə var?
Şeir bir atəşdir, şeir sənətdir,
Sözləri yan-yana düzməyə nə var?

***1965***

## ŞEİR YOLU

Dostum, şeir yolu meşə yoludur,
Burda neçə iz var, neçə də cığır.
Nə fərqi, onları nə seç, nə ayır,
Qələmi götürdün, zəhməti çağır.

***1973***

## UTANCAQ QIZ

– Bənövşə, əzizim, sevdiyim gözəl,
Sənə qəlb açıram, boyun əyirsən...
Belə utanmağı bənövşə səndən,
Yoxsa bənövşədən sən öyrənmisən?

***1966***

## MƏRC

Hələ uşaq ikən bir gün atamla,
Mərc gəldik, o zaman mərci mən uddum.
Yenə də mərcləşdik ata və bala,
Bu dəfə nədənsə mərci unutdum.

Lovğa bir qürurla tutub əlindən,
Elə həmin günü «uduşu» aldım.
Onun udduğunu ömrüm boyu mən
Qaytara bilmədim, eh, borclu qaldım.

***1967***

## LALƏ QÖNÇƏSI

Baharın nübarıdır,
Torpağın damarıdır.
Tək gəzməz,
Tək dolanmaz,
Oyatmasan, oyanmaz.
Torpağı qamarlamış,
Ya sevgidir, ya ündür,
Açılmamış düyündür.
Közərər tala-tala,
Qızıldır, bağrı qara,
Bağrı qara...

***1966***

## SAHILLƏR

Çırpılır sahillər günahkar kimi,
Atılmaq istəyir meşəyə dəniz.
– Çəkilin, sahillər! Susur kar kimi,
Sahillər olmasa, özü də bilmir,
Dönər bir qırpımda heç nəyə dəniz.

***1967***

## TÜTƏK SƏSI

Tütəyin çaylara qarışan səsi,
Çobanın dağlara məhəbbətidir.
Bu səsdə sürünün ehg dincəlməsi
Onun yetişdiyi səadətidir.

***1967***

## BİR ANLIQ MƏHƏBBƏT

Vüsala yetişən
Sevgililər tək
Bir arı, çiçəyi
Sorurdu, sorurdu...
Sonra,
Çiçəyin şirəsini də,
Məhəbbətini də
Özüylə apardı.
Bu da arı səadəti,
Bu da arı məhəbbəti...

***1966***

## BƏNÖVŞƏNIN CAVABI

Bir gün səhər yeli titrəyib dedi:
– Bənövşə, nə üçün boynunu əydin?
– Bütün aləm mənə sevgi bəslədi,
Mən də utanaraq boynumu əydim.

***1965***

## AY HƏSRƏTI

Bir şagird sual verdi:
– Niyə belə sarıdır
Göydə Ayın surəti?
Ikincisi dedi ki:
– Yer şarından ayrılıb,
Onu didir, göynədir
Anasının həsrəti.

***1971***

## QANIN ŞIRINLIYI

Bir qərib şəhərdə sordular məndən:
– Suyun şirin gəlir, ay oğul, yaman.
– Sizin də qanınız...
Qopdu dilimdən,
Bildim ki, onlar da gəlib Şirvandan,

***Irkutsk, Baykal, 1989***

## PƏRVANƏ KIMI

Pərvanə fırlanır
Çırağın ətrafına
ölənə kimi.
Biz isə dolanırıq
Günəşin ətrafına
pərvanə kimi.

***1972***

## SƏN, SƏN IDIN...

***Atamın əziz xatirəsinə.***

Birinə kök idin, birinə budaq,
Budaqmı kəsildi, kökmü qurudu?
Sən idin bu evdə qədim çil-çıraq,
Işığımı itdi bu qoca yurdun?

Dağlar da gözümdə kiçilib bir az,
Böyüksüz olmasın heç kəs dünyada!
Sən niyə qəmlisən, a çiçəkli yaz?
Sənin kimin köçüb bu gen dünyadan?

Əzrayıl baxmayır qışdı, bahardı,
Gəldimi, aparır, doydun, doymadın...
Nəvən Cavanşirmi səni çağırdı?
Ya bacın Güllüyə özün qıymadın?!

Özüm də bilmirəm necə yeyəcəm,
Birgə əkdiyimiz o «Tut» payından.
Sənsiz itirəcək dadını gecəm,
Bilmirəm hayandan söküləcək dan.

Sənin yoxluğunu duyacaq, ata,
«Sarı» inəyimiz, «dəli» cöngəmiz.
Sənsiz göynəyəcək o ocaq, ata,
Sənsiz yaşayacaq daha Ləngəbiz!

Anam darıxırmı, ya tələsirmi?
Hayana baxırsa, yol çəkir gözü.
Qayıdan deyildir!.. Hardasa sirmi?
Itməz Köçərinin – babamın izi.

Yox! Yox! Bu dünyada hələ biz varıq,
Hələ nəfəsimiz, səsimiz də var.
Nağılıq, işığıq, dövlətik, varıq,
Qol-budaq atacaq hələ uşaqlar.

Yaradan olsaydım, verməzdim qərar,
Almazdım insandan canı, cənnəti.
Ay ata, Allahın öz ölçüsü var,
Ay ata, hərənin yolu, qisməti...

Yanıram... Bilmirəm yanıram niyə?
Sanki sinən üstə torpağam, daşam.
Ona yanıram ki, hər dediyinə,
Sənin istəyin tək yanaşmamışam.

Gecikmiş olsam da, bağışla, ata,
Bütün günahları Allah yolunda.
Düzü, inanmıram yoxsan dünyada,
Sənsən doğan Günəş, Günəş donunda.

Özün bizimləsən, ruhun bizimlə.
Övlad gözlərində atalar ölmür!
Allah, özün qoru, özün əzizlə,
Sal qayalar kimi yaşasın ömür!

Birinə kök idin, birinə budaq,
Budaqmı kəsildi, kökmü qurudu?
Yox! Yox! Sönməyəcək o od, o ocaq –
Yox! Yox! Uzanacaq ömrünün ardı...

***1995***

## BÖYÜKSÜZ OLMASIN HEÇ KƏS DÜNYADA

Böyüksüz olarsa insan dünyada,
Pisini yaxşıdan ayıra bilməz.
Yol azmış gəmiyə bənzər dəryada,
Çarəsi tapılmaz, gözləri gülməz.

Ya ağsaqqal ata, ya ana olsun,
Ya qardaş, ya bacı, Böyük olsun o.
Kədəri, sevinci bir yana qalsın,
Tək nəfəsi olsun. Dirək olsun o.

Böyüksüz yaşamaq çətindi, çətin,
Bu yaşıl dünyanın qarı, qışı var.
Görünən, görünməz hər səadətin,
Bir az işığı var, bir az yaşı var.

Böyüksüz ağlamaq asan gəlməsin.
Gözünü yandırar silən olmasa.
Üzülər nəfəsin, qırılar səsin,
Kiçik harayına gələn olmasa.

Böyüklər kölgədi, böyüklər işıq,
Sənə baş əy desə, soruşma, əyil.
Onlar yol göstərib, yola çıxmışıq,
Gedirik, bu yollar tükənən deyil.

***1995***

## HARDASAN, HARDA?

Qayalar, küləyi, fiti dilində,
Dərələr bir ovuc duman əlində,
Mən də ki, torpağı sıxıb əlimdə,
Deyirəm, ay ata, hardasan, harda?

Kimdir dərə udan, kimdir dağ udan?
Bu ulu torpağı sökən, dağıdan?
Mənə dərman verin sözdən, ağıdan,
Deyirəm, ay ata, hardasan, harda?

Izlərin torpaqdan çətin silinə,
Həsrətəm danışan, dinən dilinə.
Yenə də bu fürsət düşüb əlimə,
Deyirəm, ay ata, hardasan, harda?

Dərə də sənindi, dağ da sənindi,
Qara da sənindi, ağ da sənindi,
Sinəmdə yurd salmış dağ da sədandı,
Deyirəm, ay ata, hardasan, harda?

Dünya qəlbimizin tutur simini,
Yeyir kimisini, udur kimini,
Təkcə şeytan bilər onun himini,
Deyirəm, ay ata, hardasan, harda?

Çox igid oğullar boğuldu qışda,
Çox igid əllərə vuruldu qandal.
Halal, bu dünyada olubdu halal,
Deyirəm, ay ata, hardasan, harda?

***1996***

## BAŞ DAŞI

Atam dünyasını dəyişdiyindən,
Mənimçün dünyada bir çığır artıb.
Gedirəm məzarlar arasıyla mən,
Hamı dinməz yatıb, müqəddəs yatıb.

Gedirəmg Qəbirlər qaralı, ağlı,
Var-dövlət burda da sözünü deyir.
Məndən inciməsin bir insan oğlu,
Şairlər hər şeyin düzünü deyir.

Görən, nə gərəkmiş bu dəbdəbələr?
Bir adı tarixə bəs edər onun.
Nəyinə gərəkdir o qara mərmər?
Bir quru baş daşı bəsidir onun.

Demirəm, unudun, qəbir yox olsun,
Başdaşı dünyanın yaş tarixidi.
Əl boyda daş olsun, təki iz qalsın,
Bu, insan oğlunun daş tarixidi.

Daşın söhbətini, daşın dilini,
Nə vaxtsa, hardasa bilən tapılar.
Bir adını yazın, bir də ilini,
Daşın adı kimi elə ömrü var,

***1995***

## SƏNİ KİM APARDI?

Mən səni unuda bilmirəm ata,
Səni kim apardı, hara apardı?
Sən indi hardasa uzaq bir ada,
Həmdəmin bəlkə də yağışdı, qardı.

Yetim günlərimin nə günahı var,
Yarısı sənindir, yarısı bizim.
Onun ümid dolu bir sabahı var.
Işığı sənindir, ağrısı bizim.

Sən yoxsan, yoxluğun ağırdır, ağır,
Bizim varlığımız şanə-şanədir,
Sən yoxsan, şəklin də divardan baxır,
Bu bir xatirədir, bir nişanədir.

Göyərib dərdimiz, buz tutub cahan,
Küləklər saç yolur, sən hardasan, sən?
Yox! Yox! Hər dan üzü üfüqdən doğan,
Demişdim, deyirəm, qızıl Günəşsən!

***1997***

## HEÇ KƏS...

Atadan, anadan yetim qalanlar,
«Ata, ana» deyib fikrə dalmasam.
Kimlər bu dünyanı tutub qalacaq?
Heç kəs səadətdən yetim qalmasan.

***1965***

## SAĞ İKƏN

Uyuyur torpaqda məzarın, ata,
Bir əlcə baş daşın yerə naxışdı.
Ər ilə, arvadın məzarı, ata,
Qonşu yox, yanaşı olsa yaxşıdı.

Atanın istəyi gərək itməsin,
Bu son vəsiyyətə sadiq qalmışıq.
Deyirəm, Allaha acıq getməsin,
Yanında anama yer ayırmışıq.

Əlli il baş-başa yaşayanları,
Ölümmü ayırdı, yoxsa sərt ayaz?
Məhəbbət yükünü daşıyanları,
O biri dünya da ayıra bilməz.

Ay ana, xətrinə dəyməsin sənin,
Demə, göz-görəsi ölçüb-biçirik.
Deyirəm, bu dünya əyməsin səni,
Ana – əbədilik, ana – dirilik...

Sən, mən, qara torpaq, Ay, Gün, göy dəniz,
Əgər qismət olsa yaşayasıyıq.

Qəm yemə, nə vaxtsa balaların – biz,
Səni atamıza tapşırasıyıq.

Vəsiyyət olubsa, gərək itməsin,
Ata istəyinə sadiq qalmışıq.
Deyirəm, Allaha acıq getməsin,
Sağ ikən anama yer ayırmışıq.

***1995***

## QOŞA BAŞ DAŞI

Anamı ruhuna tapşadıq ata,
Yanaşı göyərdi oxşar baş daşı.
Nələr görməmişik biz bu dünyada,
Qəlblərin yaşını yudu göz yaşı.

Anamın əlindən tutdu əllərin,
Bu əllər necə də darıxmışdılar.
Qarışdı dünyası ötən günlərin,
Sanki yer üzünü qar basmışdı, qar.

Başqa bir dünyanın sakini olduz,
Sizi ayırmışdı həyatın özü.
Səmada alışan o qoşa ulduz,
Elə bil olmuşdun göylərin gözü.

Donduz xatirəyə gözlərimizdə,
Alışan ocaqlar sandıq ki, söndü.
«Ata», «ana» sözü sözlərimizdə,
Burulan, durulan çaylara döndü.

Köçdüz bu dünyadan haqq dünyasına,
Müqəddəs çığırın biri də artdı.

Hopduz məzarlığın daş astanasına,
Gör bir içimizdə nələr boy atdı.

Anamı ruhuna tapşadıq ata,
Yanaşı göyərdi oxşar baş daşı.
Nələr görməmişik biz bu dünyada,
Qəlblərin yaşını yudu göz yaşı.

***2007***

## SAĞ OL, QARA SAÇIM

***Bakı şəhərində 1970-ci ildən tanıyıb,dost-laşdığım saç ustası Qələndər qocalıb daha.***

Keçirtdiz daraqdan qara saçımı,
Keçirtdiz... Bu dünya, bir də usta, sən.
Alıb şəkərimi, verdiz acımı...
Daha qara saçım, sən yol üstəsən.

Birtəhər görürəm səni, ay usta,
Düzü, yaraşmayır gözünə eynək.
Həyatmı günahkar, mənmi, ay usta?
Gəl, bir az oturaq, bir az dərdləşək.

Tərpənişin də gec, yerişin də gec,
Olub gileyindən qarışıq saçım.
Səni burulğana salmamışdı heç,
Mənim buruq saçım, dolaşıq saçım.

Işini ölçəndə qəpik-quruşlar,
Özünü dünyanın şahı sanırdın.
Uçub yuvasından, uçubdu quşlar...
Qara saçlarımı hara apardın?

Gözün də itiydi, qayçıların da,
Yaxşı ətirləri özün seçərdin.
Növbə soruşardım, bir dəfə ayda,
Özün «şumlayardın», özün «biçərdin».

Qara saç yerini verib ağ saça,
Ağ günün yerinə qara gün düşüb.
Dünya olmamışdı beləcə qoca,
Dünyaya qar yağıb, qara gün düşüb.

Uddu gəncliyimi əllərin sənin,
Uddu qara saçı gözün qarası.
Səni alacağın qoy ürkütməsin,
Səni yaşadacaq Allah duası.

Keçirtdin daraqdan, dəmir daraqdan...
O dəmir ömrümü, bəli, usta, sən.
Əlvida, gözümdə dəfn olunan dan,
Sağ ol, qara saçım, sən yol üstəsən...

***1995***

## ACIZ OLMA BU DÜNYADA

Sevməyir acizi bu dünya, qardaş,
Tanıdı, yaxanı buraxan deyil.
Ya sən od-alov ol, ya da qara daş,
Qatıb qabağına aparacaq sel.

Cəsur ol, qorxmaz ol, yel qanadlı ol,
Vermə öz əlini namərd əlinə.
Yollara çıxdınmı şimşək atlı ol,
Bir nəğmə yazılsın dəli könlünə.

Qoy qulaq kəsilim bu fəlsəfəyə,
Kökü hardan gəlir, budağı hardan?
Aciz qurban gedər hər zəlzələyə,
Gecəsi hayanda, çırağı harda?

Səni qorxutmasın nə od, nə savaş,
Qaynar bulaq kimi həmişə çağla.
Sevməyir acizi bu dünya, qardaş,
Qılıncı qınında ovxarlı saxla!

***1979***

## OTUZ IL ƏVVƏL

***Tahir Taisoğlunu o vaxtdan tanıyıram. Otuz ildən çox yaradıcılıq yolu keçmişik, nələrin, nələrin şahidi olmuşuq...***

Günlər il olarmış, yaşarmış demə,
Gör neçə il keçib, həmin o gündən.
Ürəyim köz üstə qoyulub dəmə,
Qardaş, qaralmayıb dəmim o gündən.

O gün daşlaşıbdır yaddaşımızda,
Eh, bizi yaşadan səsidir onun.
Bu gün qışlaşıbdır yaddaşımız da,
Indi xatirələr isidir onu.

Uşaq da deyildik, gənc də deyildik,
Ancaq niyyətimiz düz niyyət idi.
Bəli, saf sevirdik, çılğın sevirdik,
Bizi şair edən məhəbbət idi.

Vaxt olub küsmüşəm, barışmışam mən,
Adi bir söhbətdən, adi bir sözdən.

Nə yaxşı, səninlə dost olmuşam mən,
Məni sən qorudun nəzərdən, gözdən.

Yadında qalıbmı dənizə, çaya,
Dua, zəncir, mismar, qıfıl atmağın?
Sən idin yetişən, haraya-haya,
Qalmışdı əlində sinəm «axmağın...»

Deyirəm yaxşı ki, duymağımız var,
Yazırıq, pozuruq heykəlləşirik.
Yoxsa heç olardı, olub qalanlar,
Biz də bax, beləcə qələm əkirik.

Indi saç ağarıb, indi duymuşuq,
Pisimiz, yaxşımız qiymətimizdi.
Kim deyir həyatdan, qardaş, doymuşuq?
Bu da bir ömürdü, bu da bir izdi.

***1993***

## QALAN QALIR, KÖÇƏN KÖÇÜR...

Əlli yaşdı dağ zirvəsi,
Kimi çatır, kimi keçir.
Hər gün ömrün bir zərrəsi,
Səni gilə-gilə içir.

Ora gedən yollar uzaq,
Ətək çiçək, yamac sazaq.
Gəl, azmamış, yazaq, pozaq,
Tale bərkə-boşa çəkir.

Kəndirim yox, kəndir atam,
Eh, daha yüyənsiz atam,

Istəyirəm çapam, çatam,
Ürəyim də ölçür-biçir...

Zirvə qardı, saçım bəyaz,
Hara getdi, sən de, bəs yaz?
Hər ömürə düyün çalmaz...
Allah baxır, Allah seçir.

Çaylar coşar qar gücünə,
Ümid qalıb yar gücünə,
Bu dünyanın nə vecinə
Qalan qalır, köçən köçür.

***1995***

## MƏNDƏN SONRA

Dağlar, daşlar yaşayacaq,
Mən dünyada olmasam da.
Yurdum-yuvam gül açacaq,
Mən dünyada olmasam da.

Üfüqlərdən baxasıyam,
Selə dönüb axasıyam,
Şimşək kimi çaxasıyam,
Mən dünyada olmasam da.

Ağ yollara qar yağacaq,
Gün batacaq, Ay doğacaq.
Közərəcək həmin ocaq,
Mən dünyada olmasam da.

Atdan düşdüm, sən süvarsan,
Məni qəlbindən sorarsan.
Xəyalımla ovunarsan,
Mən dünyada olmasam da.

***1975***

## AKADEMİYA

***Moskvada oxuduğum elm ocağının girəcəyində yazılmışdı: «Akademiyada oxumaq və işləmək böyük şərəfdir».***

Burada qovuşur yollar, cığırlar,
Burda hər ürəyin öz mənzili var.
Burada yenidən yola çıxırlar,
Burda bahar tapır, çiçəklənir qar.

Burda hər bir dilin şərbəti, camı,
Sibiri, cənubu, şərqi burda gəz.
Bir ocaq başına yığışıb hamı,
Burda bambaşqadır Himalay, Kəpəz.

Qayğıdan hörülüb burda binalar,
Burada doğulur, böyüyür niyyət.
Burda baxışların odu – etibar,
Burda qapıların adı məhəbbət.

Burada hər elin atalar sözü,
Dünyanın nə çoxmuş rəngi, boyası.
Nə çoxmuş torpağın dərəsi, düzü,
Nə çoxmuş nəğməsi, səsi, laylası.

Hamı da bir dildə dinir, danışır,
Elinin, dilinin tarixçəsini.
Adətlər – adətə hopur, qarışır,
Heç kəs də unutmur öz nəfəsini.

Bura bir dənizdir, ləpəli dəniz,
Hər ləpə sirli bir dünya daşıyır.

Buranın gecəsi, gündüzü təmiz,
Ilhamın önündə durur, baş əyir...

***Moskva, 1982***

## TƏK KEÇƏN AD GÜNÜM

***1982-ci ilin yayında Moskvada SSRİ DIN-n Milis Akademiyasının təlim məşqlərində olarkən, yadıma düşdü ki, bu gün ad günümdür.***

Otuz beş ilimin sonuncu günü,
Qəlbimi heç kimə aça bilmirəm.
Elə bil solubdur eşqimin gülü,
Yoxdur körpələrim, atam, güldürəm.

Sabah öz-özümü təbrik edəcəm,
Sağlıqlardan uzaq, hay-küydən uzaq.
Bu gün sürünəcək sübhədək gecəm,
Gələcək yuxuma dərə, dağ qonaq.

Ünvanım hamıdan qalıbdı gizli,
Bilirəm, nə təbrik, nə zəng olacaq.
Bilirəm, bu axşam dostlu, əzizli,
Yanıb, kövrələcək o doğma ocaq.

Nə edim, arzumun caynağındayam,
Ötəcək bu ağrı, ötəcək bu hiss.
Sanıram, «Alçalı» bulağındayam,
Sanıram, ad günüm keçmədi sənsiz.

***Moskva, 1982***

## YENİ ÜNVANIM

Moskva...
Akademiya...
21/2232 saylı qrup...
Dünyada ən şirin anım,
Ən şirin amalım.
Ömrümdən asılmış
Iki il – gül çələngi,
Məni yaşamaq,
Yaşatmaq üçün səsləyən
«Koroğlu», «Cəngi».
On yeddi nəfərin,
On yeddi şəhərin
Gətirdiyi mehribanlıq,
Gülüş, əyləncə.
Birgə olardıq,
Birgə yanardıq.
Kimini qınardıq,
Kimini sınardıq,
Sübh tezdən
Gün əyilincə.
Sonra dağılardıq evlərə,
Fırlanardı dövrəmizə
Uşaqlarımız pərvanə kimi.
On yeddi evi,
On yeddi ailəni
Ağac kimi bir-birinə
Calaq etmiş on yeddi ata,
Sabaha gedən on yeddi yol,
Şəhərləri birləşdirən
On yeddi körpü,
Günəşdən qopub gələn

On yeddi nida.
Akademiya –
Həyat məktəbi,
Heyrət məktəbi.
Ümid,
        inam,
                səadət,
                        məhəbbət,
İşıq dolu isti yuva.
On yeddi nəfər –
Alıb çiyinlərinə
Dünəni, bu günü,
Uzadıb əllərini sabaha,
                        sabaha.

***Moskva, 1983***

## PUŞKİN MEYDANINDA

Gəldik ad gününə çiçəklə, güllə,
Buludlar saçını yola bilmədi.
O bir qış gecəsi atılan güllə,
Səni sıramızdan ala bilmədi.

Gəldik ad günümə dəstə-dəstə biz,
Ünvan soruşmadıq, adın Günəşdi.
Eh, sənin evindir bu Yer Kürəmiz,
Çırağın, ocağın, odun Günəşdi.

Nə qapın döyüldü, nə də pəncərən,
Sıxmışdı bağrıma burda yar, yarı.
Alışdı, qovruldu hərə bir cürə,
Dolandı boynuna şeir qatarı.

Dövrəndə sinələr boşaldı, doldu,
Keçib üfüqlərdən dan aşacaqsan.
Yatmış xatirələr bir-bir ayıldı,
Mənə elə gəldi danışacaqsan.

Bu qəribə işə nə ad verim, nə?
O quş da məclisin qəlbini duydu.
Göyərçin deyildi qonan çiyninə,
Şair, şeirimizin şahlıq quşuydu.

***Moskva, 1983***

## ONU MOSKVADA DİNLƏYƏRKƏN

***Flora Kərimovaya.***

Bu gecə Bakıya apardın məni,
Şirin xəyallarda yanan mən oldum.
Elə bil yerimdən qopardın məni,
Uzaq səmalarda qalan mən oldum.

Eh, doldu gözlərim. Bu nə görüşdü
Hər kəsin yeri var, yer kürəsində.
Doğma Azərbaycan yadıma düşdü,
Qarabağ torpağı, Şirvan düzü də.

Oxudun, səsinin titrəməsindən,
Duydum, xatirələr isti yağışdı.
Oxudun, səsinin kükrəməsindən,
Araz şahə qalxdı, Kür aşdı-daşdı.

De, nədən yaranıb bu səs, bu nida
Günəş nəfəsindən, zirvə qarından?!
Yox-yox, doğulubdu bu səs dünyada,
Ana torpağımın doğmalığından.

***Moskva, 1981***

## GÖYÇAY NARI

***Ibrahim Göyçaylıya.***

Qürbət eldə bir nar kəsdik:
Qan dolusu Göyçay narı,
Hər ləpənin üstə əsdik –
Dağılmasın düzüm barı.

Bölüklədik şana-şana,
Hər dənəsi bir nişana,
Mənə nə gül, nə də qına –
Od yurdunun odmuş barı?

Hər dənəsi işıq oldu,
Süfrəyə yaraşıq oldu.
Əcnəbilər aşiq oldu.
Dadan kimi bu nübarı.

Göyçay, gəzdin dodaqlarda,
Vətənimdən uzaqlarda.
Dadın qaldı damaqlarda,
Yer üzünün qızıl şarı.

***Moskva, 1983***

## AĞACLAR DANIŞANDA

***Oleq Tayqadan danışanda varlığını belə unu-durdu. Həmişə də söhbətinin axırında deyirdi: «Akademiyanı qurtardıqdan sonra Tayqada səbirsizliklə yolunuzu gözləyəcəyəm». Hərəmiz bir söz deyərdik. Mən də bu şeiri yazdım.***

Çaylar indi yuxulu,
Zirvələrdən göləcən.
Abşeironu götürüb
Sizə qonaq gələcəm,
Ağaclar danışanda.

Basasıyam bağrıma,
Əllər sıxacaq əlimg
Yaşıllıqlar içində,
Baykal olacaq gəlin,
Ağaclar danışanda.

Səni yuxuya verib,
Azasıyam Tayqada.
Çırpasısan özünü,
Pərvanələrtək oda,
Ağaclar danışanda.

Gözlə, qonaq gələcəm...
Arzular qalaq-qalaq.
Oyanacaq cığırlar,
Oyanacaq dərə, dağ,
Ağaclar danışanda.

***Moskva, 1984***

## NƏ YAXŞI GÖRÜŞDÜK

***Mənimlə akademiyada təhsil almış bütün dinləyici dostlarıma.***

Nə yaxşı, görüşdük səninlə bu gün,
Gözümdə cığırlar, izlər qarışdı.
Xatirə dünyama sanki, doğdu Gün,
Yaşıl ağaclar da dindi, danışdı.

Danışdı çayların qolu, qanadı,
Danışdı al tonqal, tüstülü meşə.
Danışdıq, içimdə ocaq qalandı,
Yaxın dostlarımız gəldi görüşə.

O qədər güldük ki, danışdıq ki, biz,
Gecənin düşdüyün duyan olmadı.
Gedib ulduzlara çatdı səsimiz,
«Dana» kababından doyan olmadı.

Qəriblik şirinlik səpdi süfrəyə,
Insan qəriblikdə şirin olarmış.
Qəribçin sərhədlər çəkilər göyə,
Söz, söhbət, xatirə dərin olarmış.

Nə yaxşı, görüşdük bu gün Firdovsi,
Oyandı, Moskva mənim yadımda.
Susma heykəl kimi, bir din Firdovsi,
Din, danış, alışım sözün odunda.

Yadında qalıbmı o siqar köşkü?
Yəqin ki, o qız da yadında qalar.

«Belqrad», silinmir yaddan «hay-küyün»,
Nə qədər sağlıqlar, dedi uşaqlar.

Nə yaxşı, görüşdük, görüşdü illər,
Baxdı saçımızdan keçən ağ yol, iz.
Görüşdü hardasa uzaq sahillər,
Bir də ki, isindi ümidlərimiz.

***1994***

## QÜRBƏTDƏ YUXULAR

Qürbətdə yuxular yuxu deyil ki,
Insanı quzğuntək didər fikirlər.
Durub danışırsan, çoxu deyir ki:
«Inanma, yuxudu, nəfəsini dər».

Qürbətdə gecələr yağan yağış, qar
Yağır yatağına de bir yatırsan?!
Beş qəpik, on qəpik – xırda nəyin var
Durub pəncərədən fırıldadırsan.

Bu da bir ümiddi, niyyətdi, qardaş
Özünə təsəlli gəzirsən özün.
Mənə belə gəlir qürbətdə, qardaş
Nə gecən gecədi, nə də gündüzün.

Bələdçi gəzdirir səni şəhərdə
Danışır astadan, deyir astadan.
Səninsə qulağın qalır xəbərdə,
Gecəki yuxunun alovundasan.

Qürbətdə yuxular yuxu deyil ki,
Elə səhər, axşam yol çəkir gözün.

Bircə mən demirəm, aləm deyir ki:
«Nə gecən gecədi, nə də gündüzün...».

***1983***

## ÇƏKDİYİM ŞƏKİLLƏR

Çəkdiyim şəkillər yaşadır məni,
Çəkdiyim şəkillər yaddaş, xatirə.
Tanıya bilməzdi çoxları səni,
Tanıya bilməzdi nəvələrin də.

Otuz beş il əvvəl birinci dəfə,
Kənddə şəkil çəkdim, sevindi anam.
Bütün qocaları aldım hədəfə,
Heyf, bir çoxları köçüb dünyadan.

O məğrur qocalar, qədim qocalar,
Yaşayır evlərdə mənimlə qoşa.
Onlar ürəklərdə əbədi bahar,
Köçüblər torpağa, divara, daşa.

Hər şəkil balaca nişandı qardaş,
Açır mənzilimi, döyür qəlbimi.
Çəkdiyim şəkillər xatirə, yaddaş,
Yaşadır zamanı, yaşadır məni.

***1972***

## AZƏRBAYCAN HAVA YOLU, BUYURUN

Bir məlumat gözləyirdim köçümdən,
Zəng elədim, cavab verdi: – Buyurun.
Tanıyıram min cür səsin içindən,
«Azərbaycan hava yolu, buyurun».

Neçə şirin, neçə təmiz, neçə tər,
Dan yerində düyün düşən al səhər.
Sökdü mənim ürəyimi bu sözlər:
«Azərbaycan hava yolu, buyurun».

Çap atını, öz dilində indi çap,
Öz ölkəndə, öz elində indi çap,
Gör necə də işıqlıdır bu cavab:
«Azərbaycan hava yolu, buyurun».

Göy yoluna, göy yolları calandı,
Çox ocaq var, bir ocaq da qalandı.
Bu kəlmələr daha yadda qalandı:
«Azərbaycan hava yolu, buyurun».

***1996***

## MÜQƏDDƏS ADAMLAR

Çökür yaddaşıma vaxtsız yağan qar,
Silinmir beynimdən qasırğa, tufan.
Müqəddəs adamlar, təmiz adamlar,
Barmaqla sayılır, «bir-iki», «beş-on».

Qaranquş görəndə quşa dönürəm,
Bayquş səsi gəlsə çəkilir yuxum.
Qarşıma «pis» çıxsa daşa dönürəm,
Qaranlıq içində fırlanır çarxım.

Bənövşə qarşımda boyun əyəndə,
Dərin dəryalardan üzüb keçirəm.
Müqəddəs adamlar sağlıq deyəndə,
Şərab əvəzinə şərbət içirəm.

Müqəddəs adamlar saçımda dən-dən,
Gözümə işıqdır, beynimə şirə.
Ağır bir iş üçün çıxanda evdən,
Çıxdımı qarşıma, dönürəm şirə,

Müqəddəs adamlar nurdan yoğrulur,
Baxışı, arzusu, niyyəti təmiz.
Müqəddəs adamlar nadir doğulur,
Müqəddəs adamlar – çırpınan dəniz.

***1986***

## QAR YAĞIR ÜSTÜMƏ

Yenə də hadisə, yenə də soraq,
Yığışıb gedirik xəbər yerinə.
Qar yağır, elə bil yerə-yurda yox,
Qar yağır kükrəmiş əsəblərimə.

Boğuram içimdə odumu bir az,
Təsəlli verirəm öz-özümə mən.
Kiminsə əlini qurudub ayaz,
Kiminsə vicdanı düşüb əlindən.

Kiməsə ümidi qaytarmalıyam,
Kiməsə vicdanı. Bu güman yeri.
Qar yağır üstümə, qar, aram-aram,
Udur buz bağlamış ləpirlərimi.

Cinayət. Vəhşilik. Qarda qan izi...
Insan da insanın qanın içərmi?
Məgər  belə deyib Yaradan bizi...
Qar yağır, soyudur əsəblərimi...
Qar yağır, soyuyur cinayət yeri...

***1984***

# POLIS ÖMRÜ

Deyirlər, polisdən şeir yazmıram,
Bunu nəsillər də məndən umacaq.
Nə vaxt istəsəniz o gün hazıram,
Polisə «detektiv» yaraşır ancaq.

Harda qaranlıqdı, orda çıraqdı,
Gördüyü, çəkdiyi, kədər, ah olur.
Şirin gecələrdən polis uzaqdı,
Yatdımı, durdumu, nişangah olur.

Onların gəncliyi dərindən-dərin,
Tikandı, çiçəkdi, günəşdi, qardı.
Ömrünü bu yolda əridənlərin,
Tənha qocalığı yetim bahardı.

Görüb duyduqlarım yük olur mənə,
Böyük gəmiçilər qayıqsız olur.
Ömür, gün ötüşər əyilir sinə,
Qayğı daşıyanlar, qayğısız qalır.

Elə ki, barmağın tətik tutmadı,
Həyat özü verir sənin əmrini.
Hardasa doyunca yatdı, yatmadı,
Beləcə, qurtarır polis ömrünü.

***1993***

## SONU GÖRÜNMÜR

Elə ki, dağlardan gen düşürəm mən,
Quruyur çiçəyi lal məhəbbətin.
Küsürəm dünyada özüm-özümdən,
Qurtaran deyildir «dərdi xidmətin»

Görünmür gecəmin əzəli, sonu,
Günüm-gündüzüm də qarışır ona.
Necə bağışlayım özümə bunu?
Bilirəm, gözlərin yol çəkir, ana.

Sizin gileyiniz, qınağınız mən,
Bəlkə də bezibdi məndən dünya dag
Deyirsiz yaşamaq gəlmir əlimdən –
Barı açıb demə yaxına, yada.

Arxamca nə qədər desəniz də mən,
Danışan deyiləm, dinən deyiləm.
Qocalıq tutmasa əgər əlimdən,
Bilin, ilqarımdan dönən deyiləm.

Məni yoğurmusuz daşdan, dözümdən,
Olubdur deyirsiz daş məhəbbətim.
Küssəm də dünyada özüm-özümdən,
Qurtaran deyildir sonu xidmətin.

***1995***

## GÖYLƏRIN AĞ DƏNIZI

Təbiət buludları
Doğrayır tikə-tikə.
O məğrur qayaları
Boğça paltarı kimi
Öz ağ bağlamasına
Sakitcə
Bükə-bükə –
Qar yağır.
Eh,
Nə gözəl görünür,
Qarda əl-ayaq izi.
Yerə qonaqmı gəldi
Göylərin ağ dənizi?
Üfüqlər də ağappaq,
Ağaclar geyib papaq.
Quşların başı boyda
Tikə-tikə
Qar yağır...
Çayları, sahilləri,
Uzanan sərhədləri,
Ayları, fəsilləri,
Bir-birinə calayır,
Tikə-tikə qar yağır...
Canlı, cansız nə varsa,
Bütöv, bölük nə varsa,
Uçuq-sökük nə varsa,
Ağ geyinib...
Qar yağır...
Qırış-qırış vurulmuş
Düyünlərə qar yağır.
Ümidlərə qar yağır,

Dar günlərə qar yağır.
Kəlbəcərə, Şuşaya,
Cəbrayıla qar yağır,
Göynəm-göynəm qar yağır.
Sonu yoxdu nifrətin,
Didərgin dərdi dərin.
Çadır şəhərlərinin
Kürəyinə qar yağır.
Qar yağır,
Yolların, irizlərin
Ərimәsi görünmür.
Aman Allah, axşamdan
Bu kişisiz çadırda
Ac-yalavac körpənin
Kiriməsi görünmür.
Qar yağır,
Ağır yağır...

***1994***

## BU KƏDƏRİN AXARI YOX

Həsrət qarı çıxıb dizə,
Ürəyimin baharı yox.
Xatirələr gəzə-gəzə,
Gəlir, budaqda narı yox.

Çiskin basıb hər bir yanı,
Qovmaq olmur kor dumanı.
Bu yerin bəzəyi hanı?
Gülü, gümanı, yarı yox.

Nədən oldu, nədən küsdüm,
Qurban dedim, qurban kəsdim.

Alışıram, çıxmır tüstüm,
Ağacımın eh, qoru yox.

Çiçək əkdim, tikan dərdim,
Düyünləri yudum, sərdim...
Qoy dağlara çıxsın dərdim,
Daha ondan yuxarı yox.

Əhvalımı qəm pozalı,
Anın da ömrü uzanır.
Nə əksilir, nə azalır,
Bu kədərin axarı yox...
***1995***

## QARA YAĞIŞ YAĞASIDIR...

Didərginin sözü qara,
Didərginin gözü qara.
Bulud qara, ümid qara,
Qara yağış yağasıdırg
Yellər əsər başım üstən,
Daşlar düşər başım üstən,
Keçər ömrün ili, ayı,
Uçmaz könlümün sarayı.
Acı günlərin harayı.
Ötüb gedər, geri dönməz,
O ürək ki, alışıbdır,
Daha sönməz.
Anam, məni tələsdirmə,
Sonam, məni tələsdirmə,
Gözlər qara, bulud qara,
Qara yağış yağasıdır,
Hələ, hələ harasıdır?

Tələsdirmə, bu dünyanın
Sahibi var, sabahı var.
Tələsdirmə, günün, ayın,
Düyün düşmüş bir ahı var.
Bulud ötər, şəfəq gülər,
Gülər o dağ, o daş yenə.
Gülüşümüz çiçək kimi,
Səpələnər dağ döşünə,
Dağ döşünə.

***1996***

## TORPAĞIM HANI?

***Didərginlər dünyanın ən bəxti qara sakinləridir.***

Saçım-saqqalıma qarışıb bu gün,
Özüm də bilmirəm darağım hanı?
Kəndimə quzğunlar daraşıb bu gün,
Didərgin düşmüşəm, sorağım hanı?

Qalmışım heç nədi, ötmüşüm ötüb,
Oğlumun məzarı gözümdə bitib.
Doğma qardaşa da ümidim itib,
Dörd yanım düşməndi, yarağım hanı?

Heç bilə bilmədim, qarayam, ağam,
Çiçəkləri yanmış çılpaq bir dağam.
Üstümə qar yağır, çılınçılpağam,
Ölsəm, qara basdır, torpağım hanı?

Salıbdı yerini qayada həsrət,
Qalmışam ulduza, Aya da həsrət.

Indi çal zurnanı ay aşıq Həsrət,
Gecəm qara gəlib, çırağım hanı?

***1993***

## ŞUŞADA

Soyuq daşam, çılpaq bağam,
Donubdur «dözüm» açılmır.
Nə ölüyəm, nə də sağam,
Kəfənim, bezim açılmır,

Düyün düşdü dağım, düzüm,
Yol gözləyir «Cıdır düzü».
Kimə deyim doğru sözü?
Dodaqda sözüm açılmır.

Ayrılıq da böyük yükdü,
Dərdi özündən böyükdü.
«Gülüşlər» belimi bükdü,
Getməyə dizim açılmır.

Ömür dərddən şələ tutub,
Həyat məni dilə tutub,
Ocağımı güllə tutub,
Ha çalış, gözüm açılmır.

***1997***

## MƏN AĞI DEYIRDIM

Yuxuma girmişdi bu gecə Şuşa,
Üstümdən axırdı Isa bulağı.
Dönmüşdüm mən yurdsuz-yuvasız quşa,
Mən ağı deyirdim, gülürdü yağı.

«Əzizim, güllər yara,
Güllər çəkilib dara.
Ürəyim qan içində,
Qayalar geyib qara.

O yamac da, o yal da,
Saçını yolhayolda.
Ziyarətə gələm yox,
Ruhların gözü yolda.

Qəribsəyib ağaclar,
Yetim qalıb ocaqlar.
Sənin anan yanında,
Bəs məni kim qucaqlar?

O dağlar, ulu dağlar,
Əritməz dolu dağlar.
Saralıb yarpaq kimi,
Həsrətin yolu dağlar.

Əzizim, Şuşa dərdim.
Dolubdur yaşa dərdim.
Qəmim bircə səniydin,
Indisə qoşa dərdim».

Yuxuma girmişdi bu gecə Şuşa,
Üstümdən axırdı Isa Bulağı.
Dönmüşdüm mən yurdsuz-yuvasız quşa,
Mən ağı deyirdim, gülürdü yağı...

***1995***

## ÖLƏR? ÖLMƏZ!

Çox oyunlar görüb dünya,
Biri budur – «gedər-gəlməz».
Al üfüqlər yana-yana,
Qan gölündə gülər?.. Gülməz...

Taleləri döyər dolu,
Görünmür ümidin sonu.
Qapanıbdı haqqın yolu,
Yola çıxan dönər? Dönməz...

Evləri qara gecədən,
Gecə ayrılmır gecədən.
Öz komasından köç edən,
Komasına köçər? Köçməz...

Qocaları fikrə dalıb,
Anaların gözü dolub.
Düşmən deyir: Kini qalıb?
Didərginlər ölər? Ölməz!!

***1996***

## QAR YAĞIRDI

Boğulmuşdu ağ dərə,
Dağa-düzə qar yağırdı.
Qonaq gəldik meşələrə
Yola-izə qar yağırdı.

Möcüzəymiş bu yaradan,
Günəş «torda» qapqara dan.
Dönüb olduq biz «qar adam»
Üstümüzə qar yağırdı.

Sevinirdik uşaq kimi,
Açılırdıq qucaq kimi.
Göynəyirdik ocaq kimi –
Tüstümüzə qar yağırdı.

Sən gəlinə, mən də bəyə,
Oxşayırdıq, sorma niyə?
Ehtiraslar sönsün deyə –
Istimizə qar yağırdı.

***1981***

## ALTMIŞ YAŞ NƏDIR HƏLƏ...

Demə, keçir günün-ayın,
Altmış yaş nədir hələ?
Ağ saçlardan danışmayın,
Altmış yaş nədir hələ?

Ağ qar yağır. Yenə də qış...
Başı qarlı dağlar tanış,
Yüzdən danış, yüzdən yapış,
Altmış yaş nədir hələ?

Ömür keçib daşla, dağla,
Sən özünü bərkdə yoxla,
Birdəfəlik yadda saxla:
Altmış yaş nədir hələ?

Dolub gözün, axı neyçün?
Sağlıqları için, için!
Ay insanlar sizin üçün,
Altmış yaş nədir hələ?

Qohum-qardaş sağda, solda,
Hələ gücün qalır qolda,
Qocalığa gedən yolda
Altmış yaş nədir hələ?

***1995***

## MÖHKƏM OL, DEYIRƏM...

***Beş qardaş, iki bacı uçmuşuq kəndimizdən uzaqlara, istəyimizin ardınca. Yazıq anam, bizi bir yerə yığıb ürəyini boşalda bilmir.***

Möhkəm ol deyirəm, sənə, ana can,
Heç vaxt səksəkədə qalma gecələr.
Deyir ki, nə edim: ha alış, ha yan...
Oğul, ürəyimi didir «necə»lər.

Deyirəm, bəlkə də bizsiz, əzizim,
Yaşaya bilməzdi bu gün Bakı da.
Kənddə bir evimiz var idi bizim,
Yeddi ev olmuşuq indi Bakıda.

Biz də darıxırıq o dağlar üçün,
Kənd üstə köklənib, ana, yeddi sim.
Ana da darıxır budaqlar üçün,
Ömrün bu yaşında axı neynəsin...

Deyir: – istəyirəm sizi bir yerə
Yığım, cəm eyləyim, sonra baxarıq.
Deyirəm: – ay arvad, bir az səbr elə,
Allaha çox şükür, möhkəmik, varıq.

Deyir: – bu il keçdi, sizi gələn il,
Novruz bayramında yığasıyam mən.
Anamın qayğısı qurtaran deyil,
Bizi aparmasa kəndə şəhərdən.

Möhkəm ol deyirəm, sənə, ana can,
Bizi səksəkədə qoyma gecələr.
Deyir ki, nə edim: ha alış, ha yan,
Didir ürəyimi «niyə», «necə»lər.

***1978***

## UŞAQ GÜLÜŞÜ

Uşaq gülüşünün bircə rəngi var,
Uşaqlar güləndə ürəkdən gülür.
Körpədən öyrənib gülməyi bahar,
Körpələr güləndə sanki dan gülür.

Gülüş var, – gözümdə səhər, axşamım...
Ömrümü mənzil tək açır, bəzəyir.
Gülüş var – dünyada şöhrətim-şanım
Gülüş var – dumana, çənə bənzəyir.

Gülüş var, səsləyər xoruz banında,
Qəlbimi saz kimi çalar, incələr.
Gülüş var, sürünər ilan donunda,
Gözümün içindən çalar, dincələr.

Üzümə gülüblərg gülüş bilmişəm,
Arxamca qayalar yuvarlanıbdı.
Dost tək sevinmişəm, dost tək gülmüşəm,
Düşmən hiyləsiylə oğurlanıbdı.

Nə qədər gülüş var dünyada rəng-rəng,
Nə qədər gülüş var, varaq-varaqdı.
Tək uşaq gülüşü – dünyada bir rəng,
Alışan ocaqdı, yanan çıraqdı...

***1977***

## XATİRƏLƏR OCAĞININ İŞIĞINDA

Xatirələr ocağının işığında isinirəm,
Xatirə var şirin-şəkər, xatirə var kədər, kindir.
Xatirələr dənizində batan, doğan canlı sirrəm,
Xatirə var büküm-büküm, qəbrə qədər mənimkidir.

Xatirələr ocağına qalanmışam, tüstüm bomboz,
Eh, bəlkə də boz qanadlı, boz çaparlı dumandı bu.
Bir dəhşətin yaddaşını düşünürəm, əlim bumbuz,
Yol gedirəm, yol gəlirəm, eh bəlkə də gümandı bu.

Hər zamanın bir tarixi, görünənli, görünməzli,
Hər ömrün də tarixçəsi, görünür də görünmür də.
Xatirələr toplusunda çırpınırıq, sizli, bizli,
Xatirəmiz  xatırlardan, silinir də, silinmir də.

Eh, nə var ki, bir qırpımda fikir dağı-daşı gəzir,
Bir nöqtədə düyün düşür, itir-batır gözün nuru.
Bir tonqalın kənarında ürək bəzən qışı gəzir.
Eh, bəzən də qamarlayır qızıl rəngli odu, qoru.

Xatirələr ocağının işığında isinirəm,
Nə yaxşı ki, xatirələr əllərindən tutur sənin.
Göy üzündən qar ələnir, soyuq-soyuq, birəm-birəm,
Xatirələr sahilində ağ sahillər gözlər məni.

***1997***

## XATIRƏ

Xatirə
          məktəb cığırlarına
Çanta-çanta səpilmiş
          gülüşlər...
Söyüdlər kölgəsində,
Zil qara gecələrdə,
Işıqsız küçələrdə
Azdırılmış görüşlər.
Xatirə –
          uşaqlıq,
Xatirə –
          gənclik.
Xatirə –
Könüldə «ah» silsiləsi.
Gözlərdə həsrət məhəlləsi.
Xəyallarda
Bölük-bölük,
Çilik-çilik.
Xatirə –
Ürəklərin itirdiyi
          döyüntü.
Ömürlərdə
          izi qalmış,
Közü qalmış
          göyüntü.

*Uzaq Şərq, 1969*

## XATIRƏLƏR QOCALMAZ

Göy Xəzər, Qara dəniz,
Bu Moskva, bu da biz.
Qocalsa da izimiz,
Xatirələr qocalmaz.

Məhəbbət də qocalar,
Səadət də qocalar,
Sədaqət də qocalar,
Xatirələr qocalmaz.

Qara saçlar ağarar,
Ağı yalnız ağ arar,
Ziynət qalar, yara yar,
Xatirələr qocalmaz.

Ürəklərdə daş olar,
Kirpiklərdə yaş olar,
Əbədi yaddaş olar –
Xatirələr qocalmaz.

Gəlib, gedər cavanlıq,
Gülüb, gedər cavanlıq,
Solub, gedər cavanlıq...
Xatirələr qocalmaz.

***1987***

## DOST İTİRƏN VAXTIM DEYİL

Dost itirən vaxtım deyil,
Yarı yaşı adlamışam.
«Zilə» çəkir məni bu il,
Sellər döyən, qovan daşam,
Yarı yaşı adlamışam...

Istəmirəm yenisini,
Kimim varsa bəsim olar.
Görməmisən «dəlisini»,
Səsim batsa, səsim olar,
Kimim varsa bəsim olar...

Seyrəkləşir yanım-yörəm,
Bu dünyada bir qaydamı?
Kiri, sən ürəyim, kiri,
Keçəcək bu yolu hamı...
Bu dünyada bir qaydamı?

Tək deyilsən! Olsan da tək...
Sən ağ sular, qəlbin gəmi.
Dost deyilmi sənə ürək?
Ayrılmazsız sona kimi,
Sən ağ sular, qəlbin gəmi.

***1994***

## CƏRRAH OTAĞINDA

Yuxuma giribdir Xəzər bu gecə,
Aydınlıq içində çırpınan Xəzər.
Üzürdü sularda hər ev, hər küçə,
Bu gün kəsə bilməz məni göz, nəzər,

Rəhim* də bu gecə yanımda idi,
Mürgülü illəri oyadırdı o.
Qəlbindən keçənlər gözümə dəydi...
Anam da qışqırıb deyirdi: – «alo»...

**** Uşaqlıq dostum***

Yandırın ağappaq işıqları siz,
Xəbər göndərməyin ulduza, aya.
Geyin xalatları səssiz-səmirsiz,
Özüm uzanacam ağ çarpayıya.

Qohuma-qardaşa verməyin xəbər,
Cərrah bıçağımın yaşatması var!
Yuxuma giribdir bu gecə Xəzər,
Yuxuma giribdir əziz adamlar.

***Moskva, 1983***

## NƏ İTİRDİN, NƏ TAPDIN

Tale görür, soruşur –
Nə itirdin, nə tapdın?
Qəm sevincə qarışırg
Nə itirdin, nə tapdın?

Sevdin, qismət olmadı,
Könül zəfər çalmadı.
Dünya sənə qalmadı,
Nə itirdin, nə tapdın?

Hər şey qalıb arxada,
Su gəlmədi arxa da.
Kimin durub arxada?
Nə itirdin, nə tapdın?

Güllər kola dönərmiş,
Vicdan pula dönərmiş.
«Qayalar» da dönərmiş,
Nə itirdin, nə tapdın?

Fələk dediyin dedi,
Həyat yediyin yedi,
Nə şirin günlər idi...
Nə itirdin, nə tapdın?

Bundan belə ha göynə,
Diş köhnə, baş da köhnə.
Daha sazını köklə,
Nə itirdin, nə tapdın?

***1991***

## TƏLƏBƏLİK

Tələbəlik Tələbəlik
Şamaxıda üç il sənə
            yoldaş oldum,
            yoldaş nədir –
            qardaş oldum,
            sirdaş oldum.
Səndə duydum nədir həyat,
            nədir heyrət.
Səndə tapdım mənliyimi,
            gəncliyimi.
Tələbəlik
Şirin gördüm
Çörəyini, çayını da.
Yoldaşımın mənim üçün
Saxladığı,
Boyat xörək payını da.
Şirin idi təqaüdün
Atam verən xərclikdən də,

Dərslərimi hazırlayıb
dincələndə
Tələbəlik
Sən, sən idin.
Gecə idin,
Səhər idin.
Tələbəlik
Ürəyimi iki bölüb
Keçir izin.
Səndə duydum
Sevginin də əzizliyin.
Tələbəlik
Tələbəlik
Ötüşsə də, on il, yüz il,
Tələbəlik illərində,
Yanan ürək sönən deyil!
Sevən ürək dönən deyil!

***1965***

## GÖRƏ BİLMİRƏM

Tonqallar, ocaqlar necə yanırsa,
Odumu, hisimi görə bilmirəm.
Buludlar üstümü necə alırsa,
Yaxşımı, pisimi görə bilmirəm.

Bəxtimə çiçək yox, sarmaşıq düşür,
Gahdan qar ələnir, gah işıq düşür.
Sözlərim hardasa dolaşıq düşür,
Duyğumu, hissimi görə bilmirəm.

Həyat gah «dur», – deyir, gah «yıxıl»,– deyir,
Hər yerindən qalxan bir ağıl deyir.
Qohumlar hərəsi bir «nağıl» deyir,
Umumu, küsümü görə bilmirəm.

Bu nə fəlsəfədi, bu nə dəryadı,
Uzaqlaş yaxından, gedib «dər» yadı.
Bu da yaradandan gələn qaydadı...
Gözümlə gözümü görə bilmirəm.

Bilmirəm nökərəm, bilmirəm bəyəm,
Yerdəyəm, göydəyəm, nəçiyəm, nəyəm.
Gərək inciməyəm, gərək küsməyəm,
Mən özüm-özümü görə bilmirəm.

***1990***

## GECƏLƏR

Gecələr çatıram çox arzuma mən,
Dünyanın qəribə təzadları var.
Hardasa yuxular tutur əlimdən
Mənimlə yanaşı dincəlir bahar.

Bələnərəm gülə, bataram qara,
Bəzən qayalardan uçar oluram.
Eh, sirli gecələr gözümdən qara,
Sirli düyünlərə açar oluram.

Sevdiyin gözəl də bağrına sıxır,
Axır ürəyindən baharın seli.
Vüsal da həsrətin sonuna çıxır,
Gəzir saçlarında sevincin əli.

Deyirsən ay allah, oyatma məni,
Oyatsan məhv olar sanki kainat.
Danışa bilsəydim mən o səhnəni...
Gecələr gözümdə şirin bir həyat.

Bəxtin qarasında, bəxtin ağında,
Yarımçıq ömür də elə bil, dolur.
Yetişir həyatda çatmadığın da,
Çatırsan, bir anın bir əsr olur.

Gecələr çatıram çox arzuma mən,
Dünyanın qəribə təzadları var,
Hardasa yuxular tutur əlimdən,
Mənimlə yanaşı dincəlir bahar.

***1994***

## ƏN BÖYÜK TAPINTIM

Hər giley, hər söhbət məni əymədi,
Vicdanım qəlbimdə yandırdı çıraq.
Sənə bu dünyada əlim dəymədi,
Hər zaman adıma çıxıblar ancaq.

Vurubdu ömrünü başa qul, ağa,
Azad bir ünsiyyət istərəm bir az.
Böhtanlar yağışı yağıb qulağa –
«Qadınla kişinin dostluğu tutmaz».

Çoxu bilməsə də, çoxları bilir,
Əyrini yonmusan, sən düz etmisən.
Üzümə çırpılan yoxlarım bilir,
Nə qədər gecəmi gündüz etmisən.

Mən səni geymişəm, dostum, əynimə.
Yağsın ağ leysanlar, nə qədər yağır.
Qadınla dost olmaq çətinmiş demə,
Bu şirin arzudan suallar doğur.

Min kişini basar qeyrətin sənin,
Səni qorxutmasın o filan, filan...
Nə bilim, bəlkə də həyatda mənim,
Ən böyük tapıntım sənsən, sənsən, sən!!!

***1990***

## BİR BAHAR YAĞIŞI

Qəfil yaz yağışı aldı üstümü,
Bir yaz köynəyində, o dağ yolunda.
Yollar incidimi, daşlar küsdümü?
Dumanı dəsmal tək asıb qolundan

Qayalar qanadın çəkdi üstümə.
Deyin bircə ağız göylər yoruldu?!
Ildırım odunu tökdü üstümə.
Qayalar əlimdə qalxanım oldu.

Əlini-üzünü yudu çiçəklər,
Yudu palıdların ayağını sel.
Yapışıb yağışdan tər biçənəklər,
Ulduzlara tərəf uzandı tel-tel.

Söyüdlər saçını hördü təzədən,
Heyrətdən əllərim üzümdə qaldı.
Torpağın qoynunda biri yüz edən
Buludlar boşaldı, göylər boşaldı...

O bahar yağışı gecə də yağdı,
Bilmədim heç necə açdım gündüzü.
Elə bilirdim ki, qoşa çıraqdı –
Üstümə bərələn canavar gözü.

***1972***

## YAĞIŞDAN QABAQ

Tutulur göylərin qaşı-qabağı,
Kədəri var kimi, qəmi var kimi.
Qarışır gözünün qarası, ağı,
Oğul-qız həsrətli analar kimi.

Küləklər özündən inciyər, küsər,
Bulud saçlarını atar çiyninə.
Şimşək təbiətin saçını kəsər,
Qızıl köynək kimi geyər əyninə.

***Qorki, 1977***

## GECƏ YAĞIŞ YAĞIRDI

Bir söyüd bu gecə yaz yağışında,
Yuyundu, darandı, nura büründü.
Mənim pəncərəmin ağ işığında,
Toy günü utancaq gəlinə döndü.

Dayandım yerimdə, dondum yerimdə,
Fikrim budaqlardan asılı qaldı.
Pəncərəm yerində, söyüd yerində...
Bunu duymamışam, bu necə haldı?!

Bir sevgi yağışı yudu söyüdü,
Bu da bir qismətdi, bir naxış idi.
Leysan ürəyimi sanki döyürdü,
Üstümə çilənən nur yağış idi.

***1978***

## BU GÜN YAĞIŞ YAĞACAQ...

Şimşəklər dönəcək qızıl qayçıya,
Qara buludlardan ülgü biçəcək.
Daşıb qarışacaq bu gün çay-çaya,
Yamaclar, yarğanlar şərbət içəcək.

Başına çəkəcək ağaclar suyu,
Bu gün çiçəklərin «çiçək» günüdür.
Bu gün dərə boyu, bu gün dağ boyu,
Qara qayaların göyçək günüdür.

Torpağın ağrısı çıxacaq bu gün,
Qartallar özü də yuyunasıdır.
Göylərdə ildırım çaxacaq bu gün,
Yuxuya gedənlər oyanasıdır.

***1978***

## YAĞIŞDIMI, ŞEHDIMI BU?

Ulduzlardan işıq yağar,
Yağışdımı, şehdimi bu?
Həsrətmidir aşıb-daşır?
Tora salıb əhdimi bu.

Ulduzlardan işıq yağır,
Ağ daşlara, boz dağlara.
Payız gəlir, ağır-ağır.
Titrək-titrək budaqlara.

Ulduzlardan işıq yağır,
Yuxuları içib gedir.
Yamaclardan duman qalxır,
Ilıq gecə uçub gedir,

Döyür, döyür pəncərəmi,
Sarıyarpaq xatirələr.
Yağışına bükür məni
Sevgi dolu bu gecələr.

Ulduzlardan gələn nurdan
Tutub getmək istəyirəm.
Ayrı düşsəm də bahardan,
Hərdən gülmək istəyirəm.

***1973***

## ARAZLA DANIŞDIM

***Məndən kəndimiz də küsübdür, deyir,***
***Yoluma göz dikən yollar yorulub.***
***M.Araz***

Arazla danışdım dünən gizlicə,
Dəydi bir-birinə sanki dağ, aran.
Sorub «Məmməd Araz necədir, necə?!»
Axdı dalğa-dalğa, axdı nigaran.

Yolların qulağı səsdə-soraqda,
Arazın gözləri nisgilli, qəmli.
Açıb qollarını qaya da, dağ da,
Bir şair gözləyir əli qələmli.

Gecikmə, geciksən yaş boğar, ağlar,
Gəl dindir, danışdır yollar yorğunun.
Alıb qucağına «Araz»ı dağlar,
Aparır...
Görünmür sonu sorğunun.

Şairim, geciksən, gecikər Yazım,
Bir bahar yağışı ləngiyə bilər.
Sənsizlik üzündən perikər Yazım,
Dəyişər yerini aylar, fəsillər...

Göyərt qələmini dağ sularında,
Köçür ürəyini torpağa, daşa.
Açılsın bükümü sualların da,
Buludlar, durnalar versin baş-başa,

Bu «dəli» həsrəti boynunda qoyma,
Sevindir bu bahar sirdaş elləri.
Dağların əlini qoynunda qoyma,
Uzadıb əlini, sıx daş əlləri.

Nəğməndən göylərə sirli cuna tut,
Süzülsün Günəş də, yağış da, qar da.
Bir də ki, şairim, hər şeyi unut,
Insana məhrəmdi qış da, bahar da.

Hələ uzaqdadır dağların qışı,
Bir sevgi tonqalı yandır «Araz»da.
Əl-ələ yapışıb dursun yanaşı,
Məmməd Ibrahim də, Məmməd Araz da.

***1986***

## YAŞA, MƏMMƏD ARAZ

***Haqqın var Məmməd Araz,***
***Haqqın var yaşamağa.***
***M.Araz***

Şair yox, şeirimiz yatırdı xəstə,
Isti yataqlara qar yağırdı, qar.
Bu gün ümid tapdı söz də, nəfəs də,
Uzatdı ömrünü bu bahar, bahar.

Ay ustad, ucaldı şeirin şöhrəti,
Uzandı dünyanın boyu bir qarış.
Yetdimi bir xalqın «Araz» niyyəti?
Qoyma sönə tonqal, alışdır, alış...

Daha bundan belə susma, danış, din,
Şair nəğməsini torpaq eşidir.
Əzrayıl qapından qovuldu sənin,
Geri qayıtması Allah işidir...

Sevincdən göylərin yaşardı gözü,
Dəli ildırımlar çaxdı, nə çaxdı.
Kövrəldi bir az da şairin özü,
Baxdım, düşündüm ki, dağ elə dağdı.

Araz da sevindi, «Kür» də sevindi,
Çırpındı danışan dəli «Xəzər» də.
Anamın əlində kündə sevindi,
Öldü səni kəsən göz də, nəzər də.

Sağ ol, ün eşidən, ay Allah, sağ ol,
Ömrü bağışlayan, alan da sənsən.
Məmməd Araz ki, varg doğuldu bir yol...
Yaşa, Məmməd Araz, ölən deyilsən...

***1995***

## GÖRSƏN Kİ, TƏNHA QALDIN

***Məmməd Aslana.***

Kəlbəcərin torpaqdan çox daşı var,
Sapandına bircə-bircə qoy at sən.
Dərəsi var, gədiyi var, qaşı varg
Söhbətinə bircə çimdik qor at sən.

Günəş enib bu yerlərdə daş əmdi,
Cəsarətin varsa, indi «daşam» – de!
Ayaq izin cığırlara döşəndi,
Dərdi-səri bu dağlarda unut sən.

Dəlidağın yeri-yurdu toyxana,
Külək əsə, körpə otlar yayxana.
Sıx çiçəyi, qayalara qoy xına,
Sonra dağı yuxusundan oyat sən.

Ağ zirvələr – dərələrin bacası,
«Qartal qaya» qanad gərib uçası,
Duman olar bu yerlərdən qaçası –
Çəmənlərə xəyalını boyat sən.

Yamacları heykəl olub düzünə,
Dağ ömrünü tutub gedir düzünə.
Tənha qalsan, yalqız demə özünə:
Sığın dağa, palıd olub boy at sən!

***1979***

## TANIDIM ŞAIRI...

Uzaqdan tanıdım onu metroda,
Tanıdım sehirli baxışlarından.
Sığmışdı gözünə güllü bahar da,
Sığmışdı gözünə bütöv bir cahan.

Necə də duyarmış insanı-insan;
Necə də oxşarmış qardaş-qardaşa
Ulduzlu gözündə sökülürdü dan,
Ulduzlu gözündə dağlar baş-başa.

Kim deyir gözünün alovu sönüb?
Içində qanadlı od var, ocaq var!
Odur e...
Bir dəli yağışa dönüb...
Odur ee...
Gözündə yatıb uşaqlar.

Tanıdım gözündən şairi, qardaş,
Qolunda od gözlü yar da var idi.
Baxırdı üzümə hər qaya, hər daş...
Gözündə Günəş də, qar da var idi.

Gülüşü var idi qılıncdan iti,
Qayğılar – gözündə arzu şəhəri...

Gülüşün qoynunda bir az nifrəti,
Bir az da mürgülü, qəmi, kədəri...

Tanıdım şairi insan selində,
Yaşı bir qərinə, saçları dən-dən.
Tanıdım şairi qələm əlində,
Unutdum dünyamı bir anlığa mən.

Təkcə öz dərdini çəkməyə nə var?
Kiminsə gözünü silə biləsən!
Nə olsun köçür qış, doğulur bahar...
Bir parça sevinci bölə biləsən.

Tanıdım, qəlbimi açana kimi,
Gecəli-gündüzlü alışanı mən.
Tanıdım dırnaqdan-saçına kimi,
Əlləri saçına dolaşanı mən.

Uzaqdan tanıdım onu metroda,
Tanıdım sehirli baxışlarından!
Sığmışdı gözünə güllü bahar da,
Sığmışdı gözünə bütöv bir cahan...

***1978***

## SÖZÜM SOLMASIN DEYƏ...

Hərdən xatirələr üstümə yağır,
Narın yağış kimi, sulu qar kimi.
Odur ey, dağlardan bir uşaq baxır
Sualı var kimi, sözü var kimi,

Günəşin özündən əvvəl çıxardım,
Ayaq səslərimə oyanardı dağ.

Yollardan sel olub düzə axardım,
Dərə budaq-budaq, sel budaq-budaq.

Dəridən çıxmışam bir gilə üçün,
Köynəyim kolların əlində qalıb.
Anam kötəkləyib, danlayıb hər gün,
Qıymayıb, qarğışı dilində qalıb.

Mən ki, doymamışam dağdan, qayadan.
(Nəsil-nəsil keçib mənə bu adət.)
Dağları titrədən dəli qıyyadan
Səsimə səs gəlib, qoluma qüvvət.

Xəyalım baş alır dağlara sarı,
Qəlbim darıxmasın, gözüm dolmasın.
Şeirimə «qatıram» indi dağları,
Misram saralmasın, sözüm solmasın.

***1977***

## BAŞ REDAKTORA MƏKTUB

Tanıya bilmədim özümü, qardaş,
Elə dostlarım da tanımamışdı.
Belə deməmişdim sözümü, qardaş,
Axı bu misralar niyə dolaşdı?

Şeirdə bir sözü dəyişmək olar,
Bağışlamaq olar ixtisarı da.
Qardaş, müəlliflə «güləşmək» olar?
Axı deməmişdik belə, bu boyda.

Sizin qəzetiniz çox oxunandı,
Nə qədər oxucu «tanıdı» məni.

Şairin atası burdaca yandı,
Məni bəyənənlər qınadı məni.

De, necə söyləyim, o, mən deyiləm?
Indi danış özün, cavab ver özün.
Belə bir «qayğı»nı istəmirəm mən,
Dilim əsir düşüb, dolaşıb sözüm.

Qəlbim qovrulmuşdu şeirdə mənim,
Ya onu çap elə, ya da eləmə.
Daşı da mənimdi, tozu da mənim,
Şeirimi qum bilib, qardaş, ələmə.

Incimə, demə ki, nə qalmaqaldı?
Necə var, çap elə, ömrün naxşıdı.
Qoy oxucu desin, zəhərdi, baldı,
Qoy  oxucu desin, pisdi, yaxşıdı.

***1993***

## DAĞLARIN YAZ GÜNÜ

Torpağa təzəcə yaşıllıq düşüb,
Dağların ovcuna gül ələnibdir.
Ulduzlar elə bil göydən sürüşüb,
Otların gözündə giləlænibdir.

Hava da, torpaq da sütüldü hələ,
Mənim də yağışım, qardaş, öndədir.
Gəlmişəm dağlara qoşulub yelə,
Ürəyim dağ boyda, düzən endədir...

Titrəyir körpülər,
Çay hayda-küydə,

Azarsan, Ay boyda çıraq olmasa.
Üstümə çiləyir ətrini iydə –
Dönüb daş olaram bu dağ olmasa.

Söyüd ayağını çaya qoyubdur –
Yorulub üzülmüş yolçular kimi.
Daşlar da elə bil yazı duyubdur –
Nəfəsi var kimi, canı var kimi.

Duman dəsmal atıb yaşıl süfrəyə,
Bir yaz yağışında dünya dincəlir.
Daş-daşa söykənib, zirvə-zirvəyə,
Dərələr baş alıb qapıma gəlir.

***1979***

## GÖZÜBAĞLI APARSANIZ DAĞLARA

Bu dağlarda gecələsəm xəbərsiz,
Nəfəsindən, duyğusundan duyaram.
Külək qopsa, leysan yağsa, bilin siz,
Buludunun yaxasından duyaram.

Kəklikotu – kəkliyinin çörəyi,
Itburnusu sınıq könlün gərəyi.
Ana kimi anaların kövrəyi,
Qayasının yuxusundan duyaram.

Baxıb ötmə, ayaq saxla, nəfəs dər,
Yeri-göyü od yaşadar, sirr ələr.
Yamacların bəzəyidir sürülər,
Oğlağından, quzusundan duyaram.

Mən oğulam buz bulaqlı dağlara,
Şah palıdlı, nər qovaqlı dağlara,
Aparsanız gözübağlı dağlara,
Yovşanının qoxusundan duyaram.

***1979***

## YENƏ SIZI GÖRDÜM

Dağlar, sizi gördüm, ay ulu dağlar,
Dərələr yoluma qənbər döşədi.
Bir dəstə bənövşə dilədim sizdən,
Baxdım ki, düz-dünya tər bənövşədi,

Buruldu cığırlar dolaybadolay,
Axdı xatirələr cığırı kimi,
Nənəli günlərin həsrəti lay-lay,
Keçir ürəyimdən bir ağrı kimi.

Dağlar, sizi gördüm, yadıma düşdü,
Sizdə eşitdiyim ovsun nağıllar.
Dağlar, sizi gördüm, qəlbim üşüdü:
Gözümə dəymədi közlər, ağıllar.

Itmiş izlərimi gəzdim, aradım,
Çəmənlər gülünü yoluma sərdi.
Istədim bir əsər yazım, yaradım,
Baxdım ki, hər yanım bitkin əsərdi!

***1978***

## TÜKƏNMƏYƏN MÖVZULARIM

Dağlar mənim tükənməyən mövzularımdır,
Sözlərimin işığında alışıb, yanıb.
Dağlar mənim yola çıxmış daş qatarımdı,
Elə bil ki, mənzilinə çatıb dayanıb.

Hər yamacı, hər uçurumu sirli bir nağıl,
Rişələri yer şarının ətəyindədir.
Küləkləri saçlarıma çəkilmiş sığal,
Yağış gözlü buludları ürəyimdədir.

Dağımızdan uzaqlarda bir dağ görürəm,
Sanıram ki, bizim dağın süd qardaşıdır.
Dağ görəndə özü boyda çıraq görürəm,
Sanıram ki, Günəşi də dağlar yaşadır.

Ya qış olsun, ya da bahar, dağdı, elə dağ –
Ağ paltarda, yaşıl donda könül yarıdı.
Hər qayası gözə gəlmiş bir yaşıl budaq,
Hər qayası bir igidin daş vüqarıdı!

Leysan yağsın, ağ qar yağsın, yağsın ağ dolu,
Inanma ki, mövzularım tükənəsidir.
Nağıl dolu, sehir dolu, səadət dolu
Dağlar bizim evladların dağ nənəsidir.

Dağlar mənim tükənməyən mövzularımdı,
Sözlərimin işığında alışıb, yanıb.
Dağlar mənim yola çıxmış daş qatarımdı,
Sanırsan ki, mənzilinə çatıb dayanıb.

***1979***

## DAĞA QIŞDA GƏLDIM

Qışla qoşa gəldim bizim dağlara,
Torpağa baş qoyub yatmışdı daşlar.
Əyilib öpüşdüm buz bulağınnan,
Dikəlib gördüm ki, gülür yoxuşlar.

Məni qarşıladı dağ gözətçisi,
Sellərə-sulara qarışdım yenə.
Dəydi nəfəsimə dağın nəfəsi,
Xəyalım döşəndi ağ sinəsinə.

Axdı həsrətimiz gen dərələrə,
Qayalar söhbətə qulaq asdılar.
Kiridi küləklər, susdu bənd-bərə,
Dağlar səsimizi daşa yazdılar.

***1978***

## ELƏ KI, DAĞLARA GECƏLƏR DÜŞÜR

Elə ki, gün batır, düşür qaranlıq,
Gecə köynəyini geyir dərə, dağ.
Ay təpə dalından çıxıb bir anlıq,
Dağların qoynunda yandırır çıraq.

Dərələr – basılmaz səngərlər kimi,
Burda zirvələrə arxalanırsan.
Bu zəncir qayalar əsgərlər kimi
Yurdun keşiyində durub sanırsan.

***1980***

## DAĞ LÖVHƏLƏRI

Buludun ovcunda yağış, qar, dolu,
Hər qaya özünə pay alasıdır.
Dağlardan başlayır çayların yolu,
Dərələr duz təki yalanasıdır.

* * *

Dolaylar dağlara dolanıb keçər,
Yolçu yorulmasın, yol üzülməsin.
Dolaylar bulağa gələr, su içər,
Kəklik dağ suyunda yuyar kölgəsin.

* * *

Qartallar – zirvədə durmuş gözətçi,
Çırpınsa, küləklər deyinəsidir.
Görsə ki, ildırım olub bələdçi,
Daşları əyninə geyinəsidir,

* * *

Zirvələr – hərəsi bir adam kimi,
Əl tutub, diz büküb, bardaş qurubdur.
Dağlardan bu yana Günəş bir gəlin,
Dağlardan o yana Günəş qürubdur.

* * *

Aşıqlı, gəlinli, dəvəli karvan,
Daş olub, daş yolda gözə gəlibdir.
Ocağı islanıb əlacsız çoban,
Lalənin yanına gözə gəlibdir.

***1980***

## DAĞ ÇEŞMƏSI

Yüz ilin, min ilin yağışı bu su,
Günəş sığal çəkən zirvədə qardı.
Güngörməz kahalar – soyuducusu,
Dodağı qaymaqlı qaynamalardı.

Doldur piyaləni, ver içim barı,
Qədim torpağımın dadı var onda!
Ağbirçək nənəmin namusu, arı
Durulub yaşayır çeşmə suyunda.

***1980***

## NƏRGİZLİ DƏRƏ

Nərgizli dərəylə bölərdik dərdi,
Ildə bircə dəfə ağarardı o.
Ildə bircə dəfə «xəstələnərdi»,
Ildə bircə dəfə «sağalardı» o.

Siz, ey gəncliyimin ağ çiçəkləri,
Sizi kim isidir, deyin, kim yığır?!
Dərə çiçəkləri, dağ çiçəkləri,
Sizsiz yaşamaq da ağırdır, ağır.

O qızla gələrdik siz bitən yerə,
Nə ondan xəbər var, nə də ki, məndən.
Bağışla sən bizi, nərgizli dərə,
Hal-əhval tutmuruq biz daha səndən.

Indi dərələrdən uzağıq, uzaq,
Baxır uzaqlardan uzaq illərim.
Güllərin içindən baxır bir uşaq,
Güllərin içindən baxır əllərim.

Kəndin cavanları toxunmur gözə,
Mənim qəlbimdəki yara sağalmır.
Nərgizli dərədə gül çıxıb dizə,
Nərgizli dərədə çiçək yığılmır.

***1997***

## NİYƏ SUSURSAN, AŞIQ ?!

Pas atıb sazının teli,
Niyə susursan, aşıq?
Olmaz insan gileyli,
Niyə susursan, aşıq?

Yeni dastan görmürəm,
Yadımdan çıxıb Kərəm.
De gəlsin, birəm-birəm,
Niyə susursan, aşıq?

Hanı Ələsgər, Alı ?
Unudubdur yar-yarı.
Baxır dağların qarı,
Niyə susursan, aşıq?

Çiçəkdən yaz, güldən yaz,
Vətəndən yaz, eldən yaz.
Söz üçün söz gəzir Yaz,
Niyə susursan, aşıq?

Qəm, kədər də az deyil,
Ağır gəlir ildən-il.
Mənim göz yaşımı sil,
Niyə susursan, aşıq?

***1997***

## «SARIKÖYNƏK» ÇALIN

Ürəyim yenə də çırpınır mənim,
«Sarıköynək» çalın, həsrətəm ona.
Dağları başına götürüb qəmim,
«Sarıköynək» çalın, həsrətəm ona.

Barışmaq istəyir illər ayrısı,
Danışmaq istəyir ürək yarası.
Qarışıb gözümün ağı, qarası,
«Sarıköynək» çalın, həsrətəm ona.

Necə də uzaqdır mənə o səslər,
Didir ürəyimi saralmış izlər.
Məni bu dünyada kədər əzizlər,
«Sarıköynək» çalın, həsrətəm ona.

Dilimdə söz yanır, gözümdə həsrət,
Boylanır yamacdan keçmiş məhəbbət.
Itirib dünyada məni səadət,
«Sarıköynək» çalın, həsrətəm ona.

Sizə qurban olum, çalın ucadan,
Çalın üfüqlərdə köz bağlasın dan.
Ölüb-dirilibdir küsmüş iki can,
«Sarıköynək» çalın, həsrətəm ona.

***1998***

## ONUN SON SÖZLƏRI...

***Hamımızın sevimlisi Eteri xanım heyflər olsun ki, çox sevdiyi bu dünyada az yaşadı.***

Bakıdan Medforda çağırdın məni,
Tahiri, Yeməni, Sədaqəti də.
Bəs niyə Əzrail apardı səni?
Apardı səninlə səadəti də...

Sənin son sözünün rəngi yadımda,
Quruyub gözümdə gözümün yaşı.
Soldu gözəlliyin adı, adında,
Yağdı üstümüzə kədərin daşı.

Axı sən nur idin, yaşamalıydın,
Bilirəm bir daha dönməyəcəksən.
Köçüb qəlbimizə soyadın, adın,
Nə qədər həyat var, sönməyəcəksən...

Yaşamaq həvəsin, yanmaq həvəsin,
Deyirəm, bəlkə də gəldi nəzərə.
Hanı od nəfəsin, qaynar nəfəsin?
Tökülə Xəzərə, axa Xəzərə...

Nə səsinə çatdıq, nə harayına,
Allahmı vermişdi bu hökmü, görən?
Dəyişdin dünyanı alışa-yana,
Bürüdü dağları sanki duman, çən.

Yox! Allah bu tezkən qıymazdı sənə,
Bəlkə də yoluna cadugar çıxıb.
Yaza da bilmirəm, daş olub qələm,
Elə bil gözümdə ildırım çaxıb.

Oğul toylarının bəzəyi ana,
Eh, şirin arzular...
                                        Nakam arzular...
Necə də tez yetdi bir ömür sona,
Quruyub daş oldu ağappaq sular.

Şamaxı dağları itirdi səni,
O nəfəs çaylara qovuşmaz daha.
Dərələr səsini elə udub ki,
Sanki qayaları batıb günaha.

Dəyişdin ABŞ-da qaraya ağı,
Didir qərənfillər Bakıda məni.
Desəm də içimdə acı bir ağı,
Bəzəyə bilmədim qərib qəbrini.

Bir insan borcunu verə bilmədim,
Bilmirəm dünyada kimdir günahkar?
Bağışla, can bacı, dedin, gəlmədim,
Düzü, inanmazdım qar yağacaq, qar...

Səni kim apardı uzaq ellərə?
Atanın yol çəkən lal baxışları?
Bir insan qəbrini bükər güllərə,
Indi kim yuyacaq daş naxışları?

Ananın qəbri də daşlar içində,
Özün tənha bilib qəribsəyəcək.
Dərd üstə dərd gəlir mənim içimdə,
Yolur saçlarımı dəli bir külək.

Qəlbimdə son sözün daş bağlayacaq,
Daha çiçəkləməz nə yağış, nə qar.
Bilmirəm kim gülüb, kim ağlayacaq,
Bilmirəm hayana uçubdu bahar?..

Bakıdan Medforda çağırdın məni,
Tahiri, Yeməni, Sədaqəti də.
Bəs niyə Əzrail apardı səni?
Apardı səninlə səadəti də...

***1998***

## XƏTRİNƏ DƏYMƏYİN ULU DAĞLARIN

Gəldim, gur yağışlar yudu zirvəni,
Sellərdən, sulardan bəzəndi dağlar.
Neçə yol ildırım vurdu zirvəni,
Ağrıya-acıya dözəndi dağlar.

Unutsan, görkəmi itər dağların,
Xətrinə dəyiblər – nədir dağların?!
Hikkəsi bağrını didir dağların,
Yaman inciyəndi, küsəndi dağlar!

Dolub bənövşəylə yenə kol dibi,
Bələndən burulan, baxın, gəldimi?!
Üstünə yad nəfəs, yad səs gəldimi,
Yolları qılıncla kəsəndi dağlar.

Günəş yuva qurar çiyinlərində,
Xəyalım qızınar ocaq yerində.
Əlləri ulduzda, kökü dərində,
Dünyanı dinməzcə süzəndi dağlar.

***1976***

## ZİRVƏ YOLU

Dağ yolu keçmişəm qarda-yağışda,
Daşları sulayıb alnımın təri.
Sümüyüm bərkiyib eniş-yoxuşda,
Zirvədə qucmuşam doğan səhəri.

Dağı kövsər kimi varlığım içib,
Öpmüşəm torpağı mən fəsil-fəsil.
Kim ki, gəncliyində dağ yolu keçib,
Ömrünün qışında üşüyən deyil.

***1978***

## YAZ SƏHƏRİ

Ulduzlar yoxa çıxar,
Şehlər ulduza dönər.
Güllər yuxulu baxar,
Təbiət zər geyinər –
Açılanda gözləri səhərin.

Quşların hay-küyündən,
Yarpaqlar da titrəşər.
Günəşin kirpiyindən,
Üfüqlərə od düşər –
Açılanda gözləri səhərin.

Dağ da, düz də, təpə də,
Şəfəqlərə sarılar.
Gecə də gündüz ilə
Görüşməkçin ayrılar –
Açılanda gözləri səhərin.

*1975*

## FƏSİLLƏRDƏN GƏLƏN SƏSLƏR

### Yaz

Qaranquş ləngisə, gecikər bahar,
Uzanar nəfəsi qışın bir ağız.
Gəldimi, daşlarda gül əgər bahar,
Bənövşə gözündə əriyər ağ iz.

## Yay

Günəşin yanğısı nar dənəsində;
Hələ qızarası, allanasıdır.
Yenə yaylaqların daş sinəsində
Çoban bayatısı çalınasıdır.

## Payız

Hələ qar yağmamış yağar yarpaqlar,
Soyunar ağaclar yuyunmaq üçün.
Xəzəli üstünə çəkər torpaqlar,
Yağar ağ yağışlar «yun» yumaq üçün.

## Qış

Səsini içinə çəkibdi daşlar,
Qar yağıb torpağın qulaqlarına.
Başını qoynunda gizlədən quşlar,
Qardan corab geyib ayaqlarına.

***1976***

## ÇOBAN

O başdan haraylayıb
Gecəni yola salar.
Səhər vədə geciksə,
Ulduzları qoparıb
Dağlarda tonqal qalar.

***1975***

## GÜNDOĞANDA

Üfüq od içində alışıb yanır,
Buludlar sevincək, buludlar güləş.
Yox, nənəm təndirə bu gün od salır,
Təndir çörəyi tək qızarır Günəş.

***1975***

## QIZIL DAN

Yenə ovsunlayıb aldın ağlımı,
Ay səhər qoxulu, sirli qızıl dan!
Yer kürrəsi – evin, səmalar – damın,
Üfüq, pəncərənin gözü – qızıldan.

***1975***

## GƏLİN

Al geyimli gündoğan,
Öpərək yanağından
Yola salır Günəşi.
Yerə-göyə nur yağır...
Günbatan həsrət çəkir.
Axı gəlin yoldadır.
Yaşmağı bulud gəlin,
Dünyada ulu gəlin,
Qaldırıb yaşmağını
Boylanır günbatana.
Günbatan bu gəlindən
Nura boyanar, nura.

***1968***

## ŞEH

Çiçəklər, yarpaqlar, otlar mənzili,
O səhər nurudur yaşıl baharda.
Sayrışarg Üzülər dünyadan əli,
Içilib gedəndə zər şüalarda.

***1967***

## BULUD

Bulud göyə ucaldı,
Göylərə ucalsa da,
Elə kölgəsi kimi,
Sürünməyi bacardı.

***1966***

## QIZIL GÜL

Qızılgül qırçın-qırçın.
Bax, beləcə açıl, gül!
Gözəl olmasaydınız,
«Gümüş gül» deyərdilər,
Deməzdilər qızılgül.

***1967***

## ÜNVANIMI SORUŞSAN...

Nəyin olmasa da, ümidin ola,
Baxışın ümidlə sevilə, sevə!
Çıxasan ümidlə çıxanda yola,
Ümidlə dönəsən yollardan evə.

Ümidsiz yaşamaq çətindən çətin,
Bir ocaq istisi arzusundayam.
Arzular baş-başa, arzular çin-çin,
Olubmu görəsən arzudan doyan?!

Sənə gərək olsa ünvanım mənim,
Ancaq ümidimdən soruş yerimi.
Istəsən gözündə məhv olum sənin,
Əvvəlcə dəfn elə ümidlərimi.

***1970***

## NURLU QOCALAR

***Qocalar canlı kitablarımızdır.***

Bu gecənin pəncəsində
Gecə kimi qaralmışam.
Yuxum ərşə çəkilibdi –
Kirpiyimə qor almışam.

Bir ömrün də sonu çatdı;
Neyçin, nədən, nə gec duydumg
Oxunmamış uçub getdi,
Bu itkiyə necə qıydım?!

Bir vaxt mənə hopan nağıl,
Indi daşa, torpağa sız.
Elim-obam heç qalmasın
Sərkərdəsiz, ağsaqqalsız!

Getdi mənim kitabxanam,
Nağıl dünyam, hikmət yurdum,
Getdi nənəm – kitabxanam,
Arxasınca boyun burdum.

Düşünürəm: hər qocanın,
Tərpənişi namus-ardı.
Düşünürəm: hər ucanın
Ucalığı qocalardı.

***1983***

## QAYALAR DA QIŞQIRARMIŞ

Yormuşdu məni şəhər,
yormuşdu küçələr,
Səhərə kimi çırpınan gecələr...
Yormuşdu avtomobillərin səsi,
                    tüstüsü, nəfəsi,
Bezdirmişdi məni 9-cu mikrorayon,
                    9-cu mərtəbə –
Başımın üstündə,
Küləkli gecələrdə
Antennaların hıçqırığı.
Küləklərin caynağına alıb gətirdiyi
Pəncərələrə çırpılan
Daş parçası, ağac qırığı.
Bezdirmişdi məni susuzluq,
Pilləkənlərlə enmək, qalxmaq...
Deyinirdim öz-özümə: –
                              Ax... Ax!!!
Səbirsizliklə gözləyirdim məzuniyyətimi.
Deyirdim:

– Gedib söykənəcəm qoca qovaqlara,
Danışacam dərdimi dost qayalara,
              həsrətli dərələrə,
              dağlara...
Gəlib çatdı o gün,
                    döndüm «yarpağa»...
Soruşdular:
– Hara gedirsən?
– Uzağag
(Gizlədim ürəyimdə məqsədimi)
Yazıb verdilər sənədimi.

Hamıdan xəbərsiz gəldim dağlara
                    qışda.
Dərələri kirpiyinə qədər basmışdı qar.
Qayalara yalvardım ki,
                    dinləsin məni,
Cavab qaytarmasınlar.
Küləklər əl atıb saçımı yoldu.
Ağzımı açmamış,
Qışqırdı qayalar
Həsrətdən: hardasan?
Şəhər yalan oldu...

***1982***

## ŞAMAXIDAN ÜZÜM GƏTIRMIŞDILƏR

Bibim oğlu üzüm gətirmişdi bizə –
Moskvaya.
Gilələri qara-qara,
Gözlərinin qarası kimi;
          qırçın-qırçın, sıra-sıra,
          barmağından süzülmüş
          zəhmətinin sədası kimi.

Tanıdım dağ üzümünü
əllərinin qabarından,
Gilələrin balı daman damarından.
Tənək kimi
köklərimlə qamarladığım
torpağın bərəkətindən.
Dilimi yandıran
şəkərindən, şərbətindən.
Yurdumuzun odu vardı zərrəsində,
Pirsaatın dadı vardı zərrəsində...

Tanıdım
qara səbəti yaşından,
toxunuşundan...
Səbətə döşənmiş
zərif-zərif üzüm yarpaqlarının
saplağından;
Tanıdım dağ üzümümü
qarasından, ağından...
Bu axşam yarpaq dolması bişirəcək
həyat yoldaşım,
Bu axşam qonağımız olacaq
əsgər qardaşım.
Bu axşam işığını yandıracaq
ürəyimin məhəbbət dolu küçələri,

Bu axşam daha nurlu görünəcək
Moskva gecələri.

Bu axşam evimizdən
Şamaxının
yamaclara döşənmiş
Üzüm bağlarının qoxusu gələcək.
Bu gecə çırtdayacaq sevincimizin çiçəyi.
Ay da baxıb sevinəcək,
ulduzlar da güləcək...

***Moskva, 1983***

## BELƏCƏ YAŞAR İNSAN

Bu əbədi dünyaya
Oda, ocağa gələr.
Dərəsinə, düzünə
Ütü çəkər, su çilər –
Beləcə yaşar insan.

Yumruğuyla dağ əzər,
Əliylə dağ yaradar.
Düzü-dünyanı bəzər,
Daş üstdə bağ yaradar –
Beləcə yaşar insan.

Bu dünyanın dərdini
Xəlbir-xəlbir ələyər.
Hər açılan səhəri
Arzusuna bələyər –
Beləcə yaşar insan...

***1979***

## YAŞAMAQÇIN... YAŞATMAQÇIN...

Demə bəxtim düyün düşüb,
Hər düyünə dözməlisən!
Bu qismətdi, bu taledi,
Gördüyünə dözməlisən!

Hər ağrının bir sonu var,
Inanmırsan – bir sına, var!
Axtardığın bir sona var,
Dözdün, yenə dözməlisən!

Şıltaq bəxti yumşaltmaqçın,
Ürəyini boşaltmaqçın,
Yaşamaqçün, yaşatmaqçın
Çətin günə dözməlisən.

***1979***

## ŞƏHƏR UŞAQLARI

Deməyin dolaşıb axarım, çayım,
Nə bilim, bəlkə də cığır azmışam,
Şeirimin dalınca siz daş atmayın,
Ürək hökm eyləyib, mən də yazmışam.

Məni duyğularım çəkir yollara,
Qələmim əlimdə yüyrək at olur.
Kəndin uşaqları batanda qara,
Şəhər evlərində yathayat  olur.

Əliniz ağappaq təzə qar kimi,
Məndən inciməsin nə oğlan, nə qız.

«Parnik»də yetişən bir nübar kimi
Günəş caynağında çırpılmamısız.

Siz mənim gözümün çiçəyi, nuru,
Şəhər uşağıdı mənim də balam.
Sən, ey uşaqlığım, adını qoru,
Sənin çiynində yaşayır cahan.

Günəşi yuxudan oyadan da sən,
Günəşi dağlardan yola salan da.
Dünyanın gözündə doğan dan da sən,
Qayğılı, qayğısız olan, qalan da.

Burnumda göynəyir dağların iyi,
Sən, ey doğma kəndim, gəl, məni dindir.
Şəhərin öz yeri, öz gözəlliyi,
Bu qaynar qazanda bişmək çətindir.

Şəhər uşaqları, məndən küsməyin,
O sizin babalar deyin hardadır?
Axı kökləriniz dərindən-dərin,
Axı kökləriniz qayalardadır.

Elə bu dünyanın ənginliyi də,
Günəşin saçından tel-tel ayrılıb.
Bütün şəhərlərin ilkinliyi də
Hardasa kiçik bir kənddən yoğrulub.

Şəhər uşaqları, kənd uşaqları,
Hərənin öz dadı, öz səhəri var.
Yazıram, əriyir dağların qarı,
Yazıram, küsməyin, məndən uşaqlar...

Bir dəstə uşağın arasındayam,
Bir əlim şəhərdə, bir əlim kənddə.
Sizin gözünüzün qarasındayam,
Şəhərdə də mənimdi, elə o kənd də.

Deməyin dolaşıb axarım, çayım,
Nə bilim, bəlkə də çığır azmışam.
Şeirimin dalınca siz daş atmayın,
Ürək hökm eyləyib, mən də yazmışam.

***1994***

## İLLƏRIN HEYFİI

Şeirsiz yaşayan saatlarımdan,
Illərin heyfini çıxasıyam mən.
Qədim bağımızın qızıl narından,
Qəlbimi kağıza sıxasıyam mən.

Bir zaman alışdım, odunda yandım,
Arxanca özümü şair də sandım.
O yan düşdü məndən... Eh, mən də sındım,
Ağ günlər dalınca baxasıyam mən.

Dedilər dövlətim, varımdı şeirim,
Sevgim-sevincimdi, yarımdı şeirim.
Göyərən, göynəyən yaramdı şeirim,
Bir dəli çay kimi axasıyam mən.

Əyildim, istəyim ucaldı getdi,
Ömrümün çoxunu bac aldı getdi,
Gəncliyim özü də qocaldı getdi,
Hər şeyə təzədən baxasıyam mən,
Illərin heyfini çıxasıyam mən.

***1991***

## ŞEİR GÜNÜ

***Peredelkinoda (Moskva yaxınlığında) – yazıçıların yaradıcılıq evində 56 nömrəli otaqda şair Ibrahim Göyçaylının başına yığışmışdıq. Söhbət əsnasında kədərli-kədərli dedi ki, bu otaqda vaxtilə Əli Kərim yaşayıb.***

Kövrəldi Ibrahim, susdu Ibrahim,
Alnında qırışlar dalğaya döndü.
Mənə elə gəldi buzdu Ibrahim,
Dağlardan başlayan bir çaya döndü.

Bir anın sükutu nələr danışdı,
Şairin önündə baş əydi şair.
Söz sözə calandı, yandı, alışdı,
Hamı ürəyini boşaltdı bir-bir.

Oyatdı Ibrahim xəfif günləri,
Oturdu Əliylə ocaq başında.
Sən bir istiyə bax, o vaxtdan bəri,
Saxlayıb özünü ocaq daşında.

Danışdı Ibrahim xatirələrin,
Əli ləhcəsində, Əli dilimdə.
Elə bil döyündü ürəyi yerin,
Qələm də çırpındı mənim əlimdə.

Kim deyir Əlinin sönübdür şamı?
Kim deyir köçübdür son yatağına?
Şairə həsr oldu şeir axşamı,
Qaytardıq şairi öz otağına.

***Moskva, 1982***

## DIDƏRGIN

***Onun qardaşına dediklərini unuda bilmirəm: «Əsirlik məni Almaniyaya aparıb çıxardı. Indi orada malım, mülküm, arvad-uşağım, hər şeyim, hər şeyim var. Bu hər şeyin mənim gözümdə bir qara quruş qiyməti yoxdu. Kəsəsi, heç cürə oraya qayıtmaq istəmirəm. Otur avtomobilə, çıxaq uşaqlığım qoynunda keçən o ulu dağlarımıza. Sonra maşını uçur qayaların birindən, Ölüm qalım Vətəndə».***

Nə yaman döyündü ürəyim qəfil,
Mənim bu gördüyüm yuxudu, nədi?!
Gözümdə ildırım çaxdı elə bil,
Ağrıya dözümü yoxudu, nədi?!

Hələ istəyə bax, hələ sözə bax,
Bir qərib ölkədən bir ölü baxır.
Sən bir ürəyə bax, sən bir gözə bax,
Təpədən dırnağa əriyib axır.

Torpağı dadmağa yurda dönmüsən,
Vətənin həsrəti əyib qəddini.
Sən ki tonqal idin, nə tez sönmüsən?!
Bu ulu torpağa ünün yetdimi?!

Ölməyə nə var ki: yum-aç gözünü,
Vətən bir qəbirlik yer verər sənə.
Kiridə bilməzsən özün-özünü,
Torpaq qəhər kimi çəkər üstünə.

...Daha amanını kəsibdi qürbət,
Yad eldə ölməyin ar gəlir sənə.
Yerlər də dəhşətdir, göylər də dəhşət,
Indi bu gen dünya dar gəlir sənə.

Çox olur günahın qarası, ağı,
Qoy deyim eşitsin qayalar, daşlar:
Anan tək bağrına bas bu torpağı,
Səni bağışlasa, Anan bağışlar!

***1980***

## MƏN BİR ATA TANIYIRAM

Mən bir ata tanıyıram:
Baxışları kiçilməyən,
Divarları keçilməyən
Bir xatirə qalasıdır.
Səngərlərin yeri, yolu,
Səngərlərdə çıxan günəş,
yağan yağış,
çırpan dolu,
Gözlərinin səngərində qalasıdır.
Mən bir ata tanıyıram:
Sevincini oğurladıb
Ömrünün oğlan çağında.
Barıt udub, mərmi dadıb
Əcəlin sərt caynağında.
Mən bir ata tanıyıram;
Qucağında yoldaş ölüb,
ağlamayıb,
Qardaş ölüb, ağlamayıb.
Dəhşətlərin qucağında
daş olub o.

Beş il qarlı qış olub o.
Mən bir ata tanıyıram – mənim atam!
Mən özüm də indi ata,
Hərdən düşür xəyalıma ötən illər
adda-budda.
Istəyirəm mən özümü uşaq kimi,
O atanın qucağına birdən atam.
Yalvaram ki, danış yenə cəbhələrdən.
Acıqlana deyə: – «Kiri
Dönməsin o illər geri!»

***1980***

## BİR YUXU GÖRMÜŞƏM

Bir yuxu görmüşəm bu gün dəhşətli,
Güllələr, mərmilər od ələyirdi.
Atamın yanına düşmüşdü əli,
Kişi qan içində iməkləyirdi.

Torpağı qucmuşdu zavallı atam,
Düşmənin qanını içəsidir o?
(Adam öldürməkçün yaranıb adam?
Onsuz da vaxt gəldi köçəsidir o.)

Ayıldım yuxudan qan-tər içində,
Atam şirin-şirin yuxu yatırdı.
Bir ağrı, bir dəhşət qopdu içimdə,
Kim isə, hardasa güllə atırdı.

Hardasa dünyada yaralanan var,
Nə bilim, bəlkə də atam yaşlıdı.
Səngərlər qoynunda qalıb uşaqlar,
Dodaqlar sevincsiz, gözlər yaşlıdı.

Bəlkə də yuxuma girən o imiş,
Ölümün əlində oyuncaq idi.
Istəyi nə qızıl, nə ad, nə gümüş,
Istəyi doğmaca torpağı idi.

Nifrətim selləndi ağ yatağımda,
Atam danışanlar yadıma düşdü.
Çox da ki, xoşbəxtəm öz otağımda,
Qara bir yuxunun oduna düşdüm.

Bir yuxu görmüşəm bu gün dəhşətli,
Güllələr, mərmilər od ələyirdi.
Atamın yanına düşmüşdü əli,
Kişi qan içində iməkləyirdi.

***1970***

## BEŞ QARLI BAHAR

***Müharibənin qurtarmasından uzun illər keçməsinə baxmayaraq, tez-tez yuxularda döyüşürəm.***

***(Atamın söhbətlərindən)***

Ata, bu söhbəti niyə açdın sən,
Bu may səhərinə qar ələdin, qar.
Hər gün yuxularda səngər görürsən,
Hər gün çarpayına yağır bombalar.

Deyirəm, nə üçün quru sümüksən,
Deyirəm, gözlərin niyə yol çəkir.
Bu gecə kimisə itirmisən sən?
Nə qədər qəm olar?! Nə qədər fikir?!

Üzübdür canını sayıqlamalar:
«Ura»lar – gecələr düşmür dilindən.
Deyirsən: «Tez elə, «snaryad» apar,
Sən də tozunu çırp, yapış əlimdən».

Ay ata, bu qəmə dözməz qaya da,
Donub gözlərində beş qarlı bahar,
Dərdin edib səni yumruğun boyda,
Nə qədər yuxuda döyüşmək olar?!

Gedəcək yuxuya odlu yuxular
Bir ata ömrünün toranlığında.
Dönməsin! Qayıtsa, dünya yox olar,
Bizim gecələrin qaranlığında.

***1979***

## ONA TOXUNMAYIN

***Bizdən irəlidə «Jiquli» avtomobili hərəkət edirdi. Üstündəki dövlət nömrə nişanını göstərərək qızım maraqla soruşdu:***

***– Ata, bu avtomobilin nömrəsi niyə belə qəribədi?***

***– Sahibinin vətəndaşlığı yoxdur, qızım.***

***– Bəs Vətənsiz necə yaşayır? – dedi.***

Onun kür taleyi adı kimidir,
Payız günləritək dəyişir halı.
Maşını yüyənsiz atı kimidir,
Dolaşıb əlinə illərin yalı.

O çox yaxşı bilir bu ad nə addı,
Haradan od alıb, yanıb çırağı.
Onu bilirəm ki, bu kişi yaddı,
Itirib dünyada daşı, torpağı.

Sığınıb bir elin dirəklərinə,
Özgə gözləriylə baxır cahana.
Sığınıb bir para diləklərinə,
Elə diləklər də sığınıb ona.

Gecə də, gündüz də onu yandırır.
Maşının uzaqdan tanınması da.
Sevinc əvəzinə kədər andırır
Əyninə geydiyi toy libası da.

Nə yurda daş oldu, nə bir uçruma,
Sellərin əlindən zinhara gəlib.
A qızım, «kiş» edib onu uçurma,
Gör harda doğulub, gör hara gəlib?

***1978***

## ƏLİMİN BƏRƏKƏTİ

Mənim əllərimin bərəkəti var,
Mənim əllərimin duzu «şirindi».
Əlimin içindən baxır işıqlar,
Hikməti, sevinci, eşqi dərindi.

Mənim əllərimin bərəkəti var,
Yaşıl budaqlarda yetişər, dəyər.
Daşlara toxunsam, səadət tapar,
Torpağa əl çəksəm, yaşıl don geyər.

Əlimin içində tale yolları
Qovuşar, ayrılar cığırlar kimi,
Əlimin içinin çiçəyi, qarı
Bəzəyər əlimi ilk bahar kimi,

Mənim əllərimin bərəkəti çox...
Mənim bərəkətim mənim bəsimdir!
Yox, yanılıb dedim, bircə mənim yox,
Ehtiyacı olan hər bir kəsindi.

Yollarda, izlərdə, mürgüləsə qış,
Onu bərəkətim öpər, isidər.
Mənim əllərimin odundan yapış,
Onu Yer üzünə səpsəm bəs edər.

***1985***

## ÇAY İSTƏYİRƏM

Ürəyim çırpınır, tər basır məni,
Mənə çay gətirin, çay istəyirəm.
Bir dəli məhəbbət didir qəlbimi,
Mənə çay gətirin, çay istəyirəm.

Ağac kölgəsində çiçəkli yazda,
Yarpağı tökülmüş qızıl payızda,
Günəş pəncəsində, qarda, ayazda
Mənə çay gətirin, çay istəyirəm.

Meşəsi danışan «dəli» dağında,
Araz sahilində, Kür qırağında,
Yaman kövrəlmişəm yar sorağında,
Mənə çay gətirin, çay istəyirəm.

Araq da görmüşük, elə şərab da,
Ayran da içmişik, təmiz gülab da,
Dinclik tapıram mən ətirli çayda,
Mənə çay gətirin, çay istəyirəm.

Bir az kəklikotu, bir az da mixək,
Araşdır, qarışdır, dəm alsın, içək.
Yanında mürəbbə, bir də şor-çörək,
Mənə çay gətirin, çay istəyirəm.

***1995***

## O DA BIR YUXUYDU...

O da bir yuxuydu, qayıtmaz daha,
Qayıtmaz, əbədi yatanlar kimi.
Yatıram göz yumub ulduza, aya,
Dururam gəmisi batanlar kimi.

Yatanda deyirəm, Allah kərimdi,
Bəlkə o günləri bir də yaşadım.
Indi yuxularım pərən-pərəndi,
Elə bil, gecəmə kimsə daş atıb.

Bir yuxu görəydim, bütöv... Eh, düzü...
Hər şeyi dəftərə yaza bilmirəm,
Bəzən qələmimdən qopan «yad» sözü
Pozmaq istəyirəm, poza bilmirəm.

Yağaydı üstümə bir də o yağış,
Yağaydı gecənin tən yarısında.
Deyən ümidimi kəsibdi qarğış,
Kəsibdi göz ilə qaş arasında.

Bütöv bir yuxunun həsrətindəyəm,
Yuxum pərən-pərən, çilik-çilikdi.
Mənim kövrək yuxum... Açıb onu sən,
Vərəqlə, yuxum da bir gündəlikdir.

***1987***

## KİTABLAR

Dünyanın ən qədim nağıllarını,
Bu qədim kitablar çatdırıb mənə.
Sevginin qar basmış ağ yollarını,
Yaşadıb əlində bir dəstə lalə.

Hər kitab bir cığır, hər kitab bir iz,
Kitablar soyumur, boyada qalmır.
Yazılmayan sətir, deyilməyən söz,
Əriyən qar kimi, dünyada qalmır.

Kitablar yaşadır mənim səsimi,
Kitab var kəhkəşan, kitab var kədər.
Şirin bir məhəbbət faciəsini,
Oxudum axşamdan səhərə qədər.

Kitablar saçımda əlmi, daraqmı?
Kitablar qələmdən qopan xatirə.
Günəşdən, ulduzdan gələn soraqmı?
Baxır vərəqlərdən o dağ, bu dərə.

Hələ yazılmamış kitablarım var,
Dinəcək həsrətim, günahım mənim.
Kitablar, kitablar, yenə kitablar,
Dünənim, bu günüm, sabahım mənim.

***1995***

## XƏZİNƏ

Doldur xəzinəni, qızılla doldur,
Qızılı yoxdursa heçdi xəzinə.
Dövlətdə dövlətdir, gücdür, ordudur,
Işıqdır, nəfəsdir, eh, nə bilim nə...

Doldur xəzinəni quru sözlə yox,
Çıxar qara nefti, ək ağ pambığı.
Şahdağın, Kəpəzin zirvəsinə çıx,
Görünsün oradan qırmızım, ağım.

Yerbəyer eləyək torpağı, daşı,
Suçuya bel verək, şikəstə çəlik.
Alimə tapşıraq düşünən başı,
Şagirdə ağappaq təzə gündəlik.

Quruyur dənizim, quruyur gölüm,
Quruyur hər şeyim, bir quru adıq.
De necə yaşayım, de necə gülüm,
Boşdusa xəzinə, boşdusa sandıq.

Parçala göyləri, parçala dağı,
De niyə susmusan, ey qızıl şimşək?
Doldur xəzinəni, doldur sandığı,
Sonra qılınc çəkib, sonra güləşək.

Mənim yaşım qızıl, qeyrətim qızıl,
Qaldır bu milləti, göylərə qaldır!
Mənim daşım qızıl, sərvətim qızıl,
Doldur xəzinəni, qızılla doldur...

***1995***

## HƏR KÖRPƏ – BİR SİRLİ AÇAR

***Atasının hədiyyə aldığı stolüstü futbol oyununu görən oğlu soruşur: – Bunu kiminlə oynayasıyam?***

Bu dünyanın nə qəribə qanunları var,
Düşünəndə əlim-qolum yanıma düşür.
Günü necə axşam etsin bircə balalar? –
Ayaq altda yer titrəyir, torpaq sürüşür.

Görən niyə unudulur sabahkı günlər?
Bir gün ömür bir quş kimi uçub gedəsi.
Tək qardaşlar, tək bacılar, tək
axı neylər?
Yalqızları təndir kimi həyat ütəsi.

Bir vətəndaş az olarsa, gücüm az olar,
Bir nəsilin gələcəyi titrəyər, əsər.
Iki gözün nuru itsə, işıq azalar,
Qılınc tutub yolumuzu qayğılar kəsər.

Axı nəyə işləyənin azalsın sayı?
Görüləsi işlər durur: əl toxunmayıb...
Doğulandan tez doğulur qisməti, payı,
Günəş bizə işıq verib, işıq ummayıb!

Ay atalar, ay analar, qalmayın naçar,
Çox uşaqın qayğısını çəkməyə nə var?!
Hər doğulan bu dünyada sirli bir açar,
Yol gözləyir bu gün neçə bağlı qapılar.

***1981***

## UŞAQLIQ ŞƏKLİMƏ

Baxırsan gözümə sözü var kimi;
– Mən hara, sən hara, ay uşaqlığım!
Sən ki, çox uzaqsan Uzaqlar kimi,
Mənim əllər üstdə bəslənən çağım!

Baxıram, nə qədər totuqdur əlin,
Dodağın necə də süd qoxuludur!
Alnına çiçək tək tökülüb telin,
Gözlərin gör necə gül yuxuludur!

Balaca boy-buxun... Balaca dünya,
Ağrıdan-acıdan, qayğıdan uzaq...
Sənin o pak dünyan indi bir röya,
Gəl, ay uşaqlığım, qol-boyun olaq.

***1980***

## TƏBRİK

Ad günü keçirdi ana övlada
Ad günü yaraşır körpə qızlara!
Yazıldı bu gecə yaddaşa, yada,
Yazıldı bu gecə ağ ulduzlara.

Heç kəs duymadı ki, düşünmədi ki,
Ananın qəlbindən nələr keçirdi.
Görən nə olmuşdu, görən nədi ki,
Gülənlər gülürdü, içən içirdi...

Sevindi qədəhlər, sevindi güllər,
Bir damla sevincdən nələr yarandı.
Bəs ata... Daş oldu işıqlı günlər,
Ananın atəşi alışdı, yandı.

Ata soruşmadı öz övladını...
Ana sevincliydi, həm də ki, ünlü,
Ana təbrik etdi qız övladını,
Ən şirin söhbətlər qaldı düyünlü...

***1993***

## MEDEO

Baharda gəldim mən, Alma-Ataya,
Dumanım çiskinim, şehim qarışdı.
«Medeo»dan əlim uzandı Aya,
Ordan ulduzlara bircə qarışdı.

Düz-dünya yamyaşıl, hay-harayında,
Orda iz yox idi bahardan, yazdan.
Dünyanın ən böyük dağ sarayında,
Döşəmə də buzdan, yollar da buzdan.

Öpüşlər bəxş edib bu buz adası,
Nə qədər görüşlər yol alıb burdan.
Buz üstə səslərin əks-sədası,
Buz üstə rənglərdən doğan qızıl dan...

Ən təzə mahnılar eşitdim orda,
(Mahnılar ilk dəfə burda doğulur).
Bir əlim Günəşdə, bir əlim qarda,
Dağda ürəklər də, dönüb dağ olur.

«MEDEO» – zirvədə sehirli aləm,
Günəşdən asılmış sirli bar nənni.
Nə yaxşı əlimdə çırpınır qələm,
Yoxsa ki... «MEDEO», duymazdım səni.

***Alma-Ata, 1994***

## TUT AĞACI

***«Bakı Soveti» (indiki «İçəri şəhər») metro stansiyası yanında gövdəsi torpaqla sürünən, düyün-düyün, qırış-qırış olmuş, saysız-hesabsız illərin şahidi nəhəng bir tut ağacı həyat eşqi çırpına-çırpına yaşayır.***

Küləklərmi yıxdı səni? Yağan qarmı?
Tut ağacı, ulu ağac, şikəst ağac.
Əllərindən bir yapışan kimsə varmı?
Qoca ağac, can çəkirsən, ac-yalavac.

Arzuya bax, istəyə bax, inada bax,
Ağacın da taleyi var, şirin, acı.
Eləsi var, çiçək açır budaq-budaq.
Eləsi var, bircə gilə su möhtacı.

Ucalana, yıxılana şahid ağac,
Susma belə, baxma belə, bir danış,
Şəhidlərin arasında şəhid ağac,
Yoxsa belə dizin-dizin sürünməzdin.

Kimsə səni dayaz əkib tut ağacı,
Yoxsa belə əyilməzdin, bükülməzdin.
Hey baxırsan qəmli-qəmli, acı-acı,
Bu ağrıya, bu acıya necə dözdün?

Nə gövdənə çıxanın var, çırpanın var,
Bu kədərin bəhrəsini yemək olmaz.
O ki, gülmür, nə gülürsən, sən ey bahar?
Ətrafında şirin söz də demək olmaz.

Tut ağacı, qədim şəhər – hər ikisi,
Düyün-düyün, yumruq-yumruq, qabar-qabar.
Hər ikisi mübarizə nişanəsi,
Sən ey Xəzər, susma, sən də qabar, qabar...

Bu torpağa bax beləcə dolaşmalı,
Əllərinlə, köklərinlə, yarpağınla.
Vərəqləyib əsrləri, dağ aşmalı,
Kədərinlə, sevincinlə, sorağınla.

Tut ağacı, şikəst ağac, qəm yolusan,
Dünən səndə, bu gün səndə, sabah səndə.
Tut ağacı, sən dözümlük simvolusan,
Çırpınırsan düz Bakının mərkəzində.

***1995***

## MƏNƏ KAĞIZ VERİN

Minnət götürmürəm, şöhrət gəzmirəm,
Sürəkli alqışlar gərəyim deyil.
Sizdən incimirəm, sizdən küsmürəm,
O, siz deyən ürək, ürəyim deyil.

Bir kəlmə «sağ ol» da bəs edər mənə,
Mən də bir varlığam, mən də yazıyam.
Qızıl ildırımlar səs elər mənə,
Axı təbiətin bir parçasıyam.

Bir kəlmə xoş sözə, qaçan dodağa,
Gülən yazmı deyim? Yaz elə yazdı...
Mənə heykəl olan o yaşıl dağa,
Ömrümü calasam, azdır ki, azdır.

Sizin bir ömrünüz, mənim bir ömrüm,
Hanı, iki ömür yaşayan, hanı?
Ağ qarın altında istidir ömrüm,
Bəlkə o isidə bütün dünyanı.

Bir içim su olsun, bir əlcə çörək,
Bir varaq ağ kağızg İstəyim bumu?..
Şairəm, çırpınır sinəmdə ürək,
Nə minnət götürür, nə şöhrət umur.

***1995***

## MƏN DƏ BIR QONAĞAM

Hərdən qəhər olur boğazda dünyam,
Dilimin ucundan qıfıl asılır.
Sanıram buluda bələnmiş Ayam,
Şimşəklər yağışı intiqam alır.

Hərdən itirirəm yolu, irizi,
Azıram kədərin dolaylarında.
Hərdən də nadanın, şərin birisi,
Basdırır odumu qışın qarında.

Hərdən əl atıram ulduz toruna,
Məni kəhkəşan da bəzən aldadır.
Bəzən sığınıram ocaq qoruna,
Sanıram səadət hələ yoldadır.

Heçlikdən-heçliyə gedən bir yolun,
Sərt bir döngəsində kirpik döyürəm,
Dağların boynundan üzülür qolum,
Sanki qar altında mürgüləyirəm.

Bir əlim qımışan uşaq saçımda,
Bir əlim anamın titrək əlində.
Gedirəm ömrümü barmaq ucunda,
Tuturam yasını solan gülün də.

Gənc idim, duymazdım vaxt qiymətini,
Toz-torpaq içində illər itirdim.
Ayrılıq döngəsi, ya görüş tini,
Məni gör haradan hara gətirdi.

Indi düşünürəm qələm əlimdə,
Heçlikdən yoğrulmuş varlığa tayam.
Susur, dinə bilmir cürət dilimdə,
Heçliklə varlığın arasındayam.

Həyat da, ölüm də gedir yanaşı,
Qırmızı, ağ, yaşıl işıqlar yanır.
Üzlərə baxıram, gözüm qamaşır,
Gözlərə baxıram, qəlbim odlanır.

Dünənim gözəllər yaxasında gül,
Bu günüm qayğıdı, sevincdi, dərddi.
Dünənim bu günə qoyulmuş özül,
Sabahım dünəndən bu günə şərtdi.

Keçmiş də şirindi, sabah da şirin,
Məni zaman əyər, insanlar əyməz.
Mən də qonağıyam əjdaha Yerin,
Kövrəlməyə dəyməz, qəhərə dəyməz.

***1995***

## TELEFON

Səni yola saldım əllərimlə mən,
Sonra da zəng vurdum telefonuna.
Sən yoxsan, dəstəyi yoxdur götürən,
Sən yoxsan, çatmışam ömrün sonuna.

Zəng vurdum, zəng vurdum, sənsizliyə mən,
Möcüzə gəzirdim barmaqlarımla.
Qarışdım sükuta, səssizliyə mən,
Qıfılı bağlanmış dodaqlarımla.

Taleyi dolaşıb telefonumun,
Hörümçək torunda çırpınırıq biz...
Daha innən belə telefonunun,
Qulağı kar olar, dili lal sənsiz.

Sənin yoxluğunu bilə-bilə mən,
Döydüm qapısını kimsəsizliyin.
Yığırdım nömrəni «gülə-gülə» mən,
Əlim titrəyirdig əsirdi dizim.

Necə danışardıq, necə gülərdik,
O da titrəyərdi canı var kimi.
Sonra da, sonra da onu öpərdik,
Ən doğma, ən əziz adamlar kimi.

Yəqin bu nömrəni telefonçular,
Başqa bir mənzilə köçürəcəkdir.
Xəbərsiz ustalar Eh, sizə nə var...
Sinəmdə bir tufan göyərəcəkdir.

Udub «ağ telefon» mənim sevgimi,
Başqa bir mənzildə danışmaz, gülməz.
Səni bu dünyada məzara kimi,
Heç kəs ürəyimdən köçürə bilməz.

Zəng vurdumg Məftillər boğdu səsimi,
Dedim ki, bəlkə də qonşulardasan.
Yox! Yox! Bu yalandır, ucalt səsini,
Bu sonsuz dünyada, bilim hardasan.

Çıxıb ulduzlara sən məni çağır,
Gözləyir zəngini bəli, bir nəfər.
Mənim nömrələrim eləcə qalır,
Qalacaq ömrümün sonuna qədər.

***1995***

**+994552010290**

Sən mənim ürəkdə vuran ürəyim,
Sən mənim səsimdə dünyaya gəldin.
Sən mənim yağışım, qarım, küləyim,
Sən mənim içimdə sızladm, güldün.

Nə qədər insana bağladm məni,
Səsimə səs verdi dostum, sevgilim.
Elə də oldu ki, ağlatdm məni,
Düymələr üstündə dolaşdı əlim.

Hava tellərinlə canlandım ona,
Səninlə saçıma tumar çəkdilər.
Hava tellərinlə çağırdı anam,
Nələr eşitmisən, sən, məndən, nələr.

Sən mənim söz dünyam, söz arxivimsən,
Bir insan taleyi səndə boy atır.
Gizli söhbətlərin şahidi sənsən,
Sənin qulağmda nağıllar yatır.

Nağıllar deyəcəm hələ səninlə,
Dünyanı gəzəcək söz karvanlanm.
Kimlər danışacaq hələ mənimlə,
Yanacaq, sönəcək şirin anlarım.

Öpəcəm dilindən son nəfəsimdə,
Bir yurddan bir yurda mən də köçəcəm,
Yadigar qalacaq səsim səsində,
Nə bir zəng olacaq, nə zəng edəcəm.

***2009***

## ÜMİD GÜCLÜ OLUR

Ümid güclü olur hər vaxt gümandan,
Gözün yolda qalır, anlar ötüşür.
Çıxmaq çətin olur qatı dumandan,
Beynində fıkirlər dolaşıq düşür.

Qalırsan yox ilə hə arasında,
Baxır quyulardan alacaqların.
Şişir «problemlər» ha darasan da,
Dönüb dövrə olur düzbucaqların.

Döyürsən gözünü, daha nə qalır?
Gecikir məvacib, saralır ümid.
Aşıq zurnasını havaya çalır,
Başmın üstündə fırlanır bulud.

Bürüyüb dünyanı süni «krizis»,
Enibdir qiymətlər öz zirvəsindən.
Nələr yaşayırıq gör dünyada biz,
Atılır uçuruma söz zirvəsindən.

Nağıla bənzəyən nağıllar gəzir,
Inana bilmirsən qulaqlarına.
Unutma, halalhq yalanı kəsir,
Közərti çəkilir dodaqlarına.

Ümid güclü olur hər vaxt gümandan,
Gözün yolda qalır, anlar ötüşür.
Çıxmaq çətin olur qatı dumandan,
Beynində fikirlər dolaşıq düşür.

***2009***

## MƏHƏBBƏTİM AZALMADI

Körpə üçün, qoca üçün,
Məhəbbətim azalmadı.
Qayalara hopub gücüm,
Məhəbbəti azalmadı.

Paltarmda yamaq gördüm,
Yumruq gördüm, sığal gördüm,
Uçrum gördüm, dayaq gördüm,
Məhəbbətim azalmadı.

Əl dedilər, əl uzatdım,
Bel dedilər, bel uzatdım,
Kol yerinə gül uzatdım,
Məhəbbətim azalmadı.

Yaşa doldum addım-addım,
Işıq üçün addım atdım,
Yamaclarda ocaq çatdım,
Məhəbbətim azalmadı.

Nələr çəkdi başım, nələr...
«Baba» dedi gül körpələr.
Mənə baxıb güldü güllər,
Məhəbbətim azalmadı.

Verdim ömrü oda, külə,
Sevdim onu deyə, gülə.
Bir anama, bir Vətənə,
Məhəbbətim azalmadı.

***2009***

## SAPSARI AĞAC

Bir ağac boylanır pəncərəmizdən,
Sapsarı libasda, sapsarı şalda.
Nağıllar dolanır pəncərəmizdə,
Bir əli dərədə, bir əli yalda.

Yaşıl xatirələr baxır içimdən,
Xəyalım ən uzaq illərə uçur.
Atam da, anam da dönür biçimdən,
Yandırır qələmi söz puçur-puçur.

Baxır gözlərimə saprsarı ağac,
Payız qılıncını çəkib dayanıb.
Sönüb yamaclarda qalanan ocaq,
Yağışlar, çiskinlər nə tez oyanıb?

Dönüb xatirəyə ömrün baharı,
Saralmış ağacın yarpaqlarında.
Yağacaq bir azdan göylərin qarı,
Küçələr susacaq ayaqlarımda.

Bu sarı yarpaqlar danışacaqdır,
Bu sarı ağacın dönəcək yazı.
Keçmişim, qalmışım barışacaqdır,
Bir yazı yazacam, sapsarı yazı...

Bir ağac boylanır pəncərəmizdən,
Sapsarı libasda, sapsarı şalda.
Nağıllar dolanır pəncərəmizdə,
Bir əli dərədə, bir əli yalda.

***2008***

## YAD ÖLKƏDƏ

Gördüklərim, çəkdiklərim yazıya sığmaz,
Yad ölkədə kirpiklərdə duman sürünür.
Yad ölkədə yağan qar da qar kimi yağmaz,
Yad ölkədə çiçəklər də qəmli görünür.

Insanlar da qalıb elə «insan» donunda,
Elə bil ki, vurub şaxta, qurudub ayaz.
Səndən uzaq, məndən uzaq, yansan, son anda
Su gətirən, haray çəkən kimsə tapılmaz.

Məhəbbəti, sədaqəti aparıbdı çay,
Sevgi sözün zəhər kəsib ilan dişində.
Tora düşüb bulud boğmuş, rəngi qaçmış Ay,
Nə görən var, nə duyan var, al Günəşi də.

Nə övlad var, nə ana var, nə də ki, ata,
Bir mənzildə hərəsinin öz dünyası var.
Hərə bir cür sıçrayıbdı yüyənsiz ata,
Taleyini bir at bilib çapır, ha çapır.

Pişiklərin yeri vardır süfrə başında,
Itlərində qalıb deyən bir az etibar.
Fərq qalmayıb duyğularla qaya daşında,
Qara geyib göylərində yamyaşıl bahar.

Qapıları qonaq döyməz, ürəkləri hiss,
Dizlərinin üstündədi duzu, çörəyi.
Bizim isə pəncərəni döyərdi dəniz...
Ürəyimi oynadardı Bakı küləyi.

Vətən oğlu, qurban olum, baxışlarına,
Nifrətin də, əzabın da mənə əzizdi.
Qurban olum, qaya-qaya naxışlarına,
Yad torpağın yad gülüşü canımı üzdü.

Telefonlar həsrətimə su çiləyirdi,
Dinləyərdim nəğməsini mən Arazın da.
Uzaq düşmüş xatirələr çiçəkləyirdi,
Bir qohumun bayram səsli salamlarında.

Bir həmvətən bir gün bizə qonaq gələndə,
Mənzilimiz başdan-başa olurdu vətən.
Gedər-getməz, düyülürdü yaşım əlimdə...
Buludlar da ağlayırdı tutub əlimdən.

Yazılmasın qismətimə bir də bu səfər,
Yazıq olur yad ölkədə yaz da, bahar da.
Eh, dərd imiş qərib eldə açılan səhər...
Daşların da nəfəsi var ata yurdunda.

***1983***

## KÜSMƏ... KÜSMƏ...

Kimdənsə küsməyim dağ olur mənə,
Sanıram qabarır içimdə sular.
Tutur əllərimdən bir qara kölgə,
Didir quzğun kimi məni suallar.

Deyirəm şeytanmı azdırdı məni,
Bəlkə də qəlbimə girib ilanlar.
Öpüb-oxşayıram küsən qəlbimi,
Çıxsın axarından, axan gümanlar.

Girəvə gəzirəm barışmaq üçün,
Şeytanlar qarşımda sədd qurub, nədi?
O itən günlərə qovuşmaq üçün,
Sinəsi baharlı novruz gərəkdi.

Bir ömür yaşayır insan dünyada,
Küsülü, küsüsüz rənglər içində...
Qəfləti od alıb yansam dünyada,
O kəs də alışıb yanar içimdə.

Soyumaq da olar, lap incimək də,
Bəs niyə küsürük, barışırıq biz?
Buynuzlu şeytanlar yatır ürəkdə,
Süzgəcdən keçirilsin gərək qəlbimiz.

Küsülü günlərim ömürdə quzey,
Çırpıb, sökəsiyəm ağ buzlarını.
Insanlar, qışqırıb deyirəm: – Ehey!!!
Qırın şeytanların buynuzlarını!

Girəvə gəzirəm barışmaq üçün,
Şeytanlar qarşımda sədd qurub, nədi?
O itən günlərə qovuşmaq üçün,
Sinəsi baharlı novruz gərəkdi...

***1994***

## QOŞA QANAD

Uç, qon pəncərəmə, ey ağ göyərçin,
Bir ovuc sülh gətir, sülh acıyam mən.
Alıb qanadında su gətir içim,
Qoşa qanadların möhtacıyam mən.

Qoşa qanadlardır yaşadan bizi,
Mənim də şeirimin ikidir qolu.
Tanrı, parça-parça daş udan bizik,
Yağır üstümüzə yağış, qar, dolu.

Bir göyərçin göndər qoşa qanadlı,
Ağ bir ümid kimi, bəyaz qar kimi.
Bir göyərçin göndər səadət adlı,
Qanadı çiçəkli bir bahar kimi.

Qoşa əl, qoşa göz, qoşa qanadlar,
Görəcək, uçacaq, çiçək dərəcək.
Mənim ürəyimi didən inadlar,
Qoşa qanadlarda geri dönəcək.

***1997***

## DÜŞÜNCƏLƏR...

Oturmuşam göy Xəzərin sahilində,
Sarı yarpaq yağışı da nəğmə deyir.
Rəngi qaçıb, dadı qaçıb sahilin də,
Iki payız, payızını vərəqləyir.

Gözlərimin istisini udur sular,
Çılın-çılpaq budaqlarla danışıram.
Inanmazdım!
Ürəyin də rəngi solar?!
Xatirələr işığına qarışıram...

Uşaqların gülüşündən titrəyir yer,
Sanırsan ki, hər bir körpə bir ocaqdır.
Eh, payızın dövrəsində fırlanır Yer,
Acan kimi qamarlayıb udacaqdır.

Qağayılar yem axtarır, payız yemi,
Dəli külək daşları da süpürübdür.
Qəribsəyir sahillərdə bir qız yeri,
Gəncliyimin gölgəsi də əsir tir-tir.

Qucaqlayıb öpür məni düşüncələr,
Ağ ləpələr sözlərimə hopur mənim.
O payızda, onu, məni udan yerlər,
Hər payızda gəzər məni, tapar məni.

Oturmuşam göy Xəzərin sahilində,
Sarı yarpaq yağışı da nəğmə deyir.
Rəngi qaçıb, dadı qaçıb sahilin də,
Iki payız, payızını vərəqləyir.

***1997***

## BU DÜNYA GÖZLƏMİR

Çapır çaparını vaxt da, həyat da,
Nə dünya gözləyir, nə mənim yaşım.
Baxıram eləcə qardaş həyatda,
Döyür kirpiyini dağların daşı.

Daşın da dilini bilə bilmədim,
Çox insan dili də düyün-düyündü.
Saçımdan ağ rəngi silə bilmədim,
Həyat yazanları pozmaq çətindi.

Gözləmir fəsillər, nə gün, nə də ay,
Nə ölüm, nə olum... Nə bilim nələr...
Gözləmir bu dünya, haray, ay haray,
Gözləmir dünyada nağıllı illər.

Külək qanadında uçur bu dünya,
Əlvida soraqlı bir muğam çalın.
Baş alıb hayana qaçır bu dünya,
Qaçır başı açıq, ayağı yalın.

Əbədi qalanım Sənsən ey Vətən,
Daşını yalayan Arazam, Kürəm.
Bu gün qonağınam Vətən, ay Vətən,
Hələ ki, hələ ki, mən yol gedirəm...

Çapır çaparını vaxt da, həyat da,
Nə dünya gözləyir, nə mənim yaşım.
Baxıram eləcə qardaş həyatda,
Döyür kirpiyini dağların daşı.

***1997***

## ÜZƏRLİK YANDIRIN

Doymuram dünyanın gözəlliyindən,
O məni yandırır, onu alov, köz.
Ana, o dağların üzərliyindən,
Yandır, yandırmasın bizi nəzər, göz.

Qəlbimdə o qədər istək yatır ki,
Birinə yetirəm, görünmür biri.
Əllərim əllərə o vaxt çatır ki,
Qarışır tüstüsü, göynəyir yeri.

Üzərlik yandırın bizim ocaqda,
Tüstüsü saçımda dönsün darağa.
Üzərlik yandırın siz Qarabağda,
Dağ dağa qovuşsun, torpaq torpağa.

Torpağa qarışmış sənsən, igid sən,
Öpmək istəyirəm torpağı, daşı.
Yox! Yox bu dünyada ağır gündə mən,
Ölmək istəmirəm torpaqlı, daşlı.

Dövlət də, Tanrı da ədalət gəzir,
Ay ana, sənin də duan ağırdı.
Üzərlik yandırın, kül olsun nəzər,
Üzərlik yandırın, zaman ağırdı.

Doymuram dünyanın gözəlliyindən,
O məni yandırır, onu alov, köz.
Ana, o dağların üzərliyindən,
Yandır, yandırmasın bizi nəzər, göz.

***1997***

## GƏLDİ

Beşcə gün yaşadın fani dünyada,
Dərd tutub əlindən əl-ələ gəldi.
Sən yumruq göstərdin düşmənə, yada,
Gülüşün saralmış qəm ilə gəldi.

Ürək əzabını özün çək indi,
Qurğuşun kimidi, Allah, yük indi.
Ölməyə nə var ki, olmaq çətindi -
Qovrulub ağızda dil, dilə gəldi.

Yerli də, yersiz də bəzən alçaldın,
Sən qara zurnanı «qapqara» çaldın.
Özün də bilmirsən necə qocaldın,
Gün günə qovuşdu, il-ilə gəldi.

Sən haray qaldırıb, qardaş, ağlama,
Bu dünya belədi - bağlı bağlama.
Qara saç ağ saçı basıb bağrına,
Dolaşdı, qarışdı, tel, telə gəldi.

***1997***

## QONŞU

Şöhrətdən danışma, addan danışma,
Sən nazir oğlusan, mən pinəçiyəm.
Yaxın qonşu kimi çıxdın qarşıma,
Fəqət tanımadın kiməm, nəçiyəm.

Od, ocaq nədir ki? - Bilməsən də sən,
Çilçıraq içində atırsan əl-qol.
Mənəm bu dünyadan inciyən, küsən,
Mənəm bu dünyada «sağ ol»u bol-bol.

Sən saxta sənədsən, qara yalansan,
Üzük barmağında başından ağır.
Sən elə «gölgəsən», elə «ilansan»,
Zəhəri dağların daşından ağır.

Səninlə üz-üzə gəlməyə dəyməz,
Yaxın tanımırsan, yad tanımırsan.
Heyif, bu dünyada alırsan nəfəs,
Bilmə kişiliyi bu qədər asan.

Sahibi göyərdər torpaq dərdini,
Onun qoxusunu duya bilməzsən.
«Firəng» ətirləri yaşadır səni,
Qorxma, keçər onsuz, qorxma, ölməzsən.

Səndən uzaqlarda mürgüləyir qar,
Düyün-düyün olub, eh, gülməm mənim.
Yolumuz eynidir, bir az fərqi var,
Səni qorxutmasın bu kəlməm mənim.

***1997***

## BIR SÜRÜCÜ TANIYIRAM

***Kaş bütün insanlar həyatın onlar üçün yandırdığı qırmızı, sarı, yaşıl işıqları görə biləydi.***

Bu şəhərdə bir sürücü tanıyıram,
Hərflərin sayını da bilmir hələ.
Küçələrdə yuva salsa tufan, boran,
Gedər, gələr düşməz kökdən ruhu belə.

Bir sürücü tanıyıram əlifbası,
Yol bağlayan, yollar açan işıqlardı.
Kitablardan uzaqsa da ...
Eh mayası,
Təmizlikdi, sədaqətdi, düz ilqardı.

Fəlsəfəsi fəlsəfələr fəlsəfəsi,
Tərəzisi gümüşdəndi, qızıldandı.
Bərəkəti, söz dünyası, od nəfəsi,
Insanlığın üfüqündə Qızıl Dandı.

Alimlər də tanıyıram ilan başlı,
Dişindəki, göy zəhərdən çox acıdı.
Eh, olsa da yollar çiçək, yollar daşlı.
Sürünəcək, sürünməyin möhtacıdı.

Belələri nə işığı görə bilir,
Nə üstünə qılınc çəkən qaranlığı.
Qulağıma o dünyanın səsi gəlir,
Gözlərimə bu dünyanın toranlığı.

Bir sürücü tanıyıram kövrək, zərif,
Təkərlərin arasında fırlanır o.
Tanımayır nə bir yazı, nə bir hərf,
Dünyasından dünyalara boylanır o.

*1998*

## OXU, EL QIZI, OXU...

***Sevimli müğənnimiz***
***Nazpəri Dostəliyevaya.***

Dünyamızı ovladın
Oxu, el qızı, oxu...
Sən güldün, mən ağladım,
Oxu, el qızı, oxu...

Bağrım yanıb köz oldu,
Çiçəklər göz-göz oldu.
Gecəmiz gündüz oldu,
Oxu, el qızı, oxu...

Səsin kökü qayada,
Sevinərmiş qaya da.
Sən Yaz, mən yaşıl ada,
Oxu, el qızı, oxu...

Eh, səsin də rəngi var
Nəfəsin də rəngi var.
Bəmin, zilin cəngi var,
Oxu, el qızı, oxu...

Səs şəlalədir, nədir ?
Qızıl lalədir, nədir ?

Yer, Göy nalədir, nədir ?
Oxu, el qızı, oxu...

Qar yağır birəm-birəm,
Götür sazını, Kərəm,
Mən söz tapa bilmirəm...
Oxu, el qızı, oxu...

***1998***

## SƏNƏ OXUYURAM...

***Bütün yazılarımın ilk oxucusu Zülfüqar Şahsevənliyə.***

Qaldırıb yuxudan isti-isti mən,
Sənə oxuyuram şeirlərimi.
Gözündə göynəyən ocaq, tüstü mən,
Bölürəm səninlə xeyir-şeirimi.

Bölürəm «lal olmuş» telefonda mən,
Qəlbinin,qəlbimin intizarını.
Tərəzi qurursan hardan-hara sən,
Tutursan ağ duza göynər yaramı.

Bəzən misraları açıb sökürsən,
Çırpınıb çıxmaq da olmur əlindən.
Bəzən  də bir sözlə sən ev tikirsən,
Üfüqlər görünür pəncərəsindən.

Sənə oxuyuram yazdıqlarımı,
Hərdən tutulursan, hərdən gülürsən.
Dumanlı yollarda azdıqlarımı,
Hamıdan tez duyub, əvvəl görürsən.

Çalxalan yataqda, sonra da durul,
Dostların səsindən nur, göz istəyir.
Kimisi zəng vurub pul istəyir, pul,
Kimi də zəng vurub bir söz istəyir.

Qaldırıb yuxudan isti-isti mən,
Sənə oxuyuram şeirlərimi.
Gözünü göynədən ocaq, tüstü mən,
Bölürəm səninlə xeyir-şərimi.

***1997***

## BAHAR YAĞIŞI

Bu gün yağış yağır, bahar yağışı,
Bir ucu torpaqda, bir ucu göydə.
Tanrı, çək buludu, apar yağışı,
O, yuya bilmədi dərdi ürəkdən.

Hər leysan, hər çiskin kədəri yumur,
Odunu, suyunu saf-çürük elə.
Odur ee... Qayalar gözünü yumur,
Ayağı altından boylanan gülə.

Bu eşqin dərdinin kökü dərində,
Bir bahar yağışı haraya çatmaz.
Qardaş, xan Arazın, dəli Kürün də,
Dərdini  yumağa gücü azdır, az.

Kədərin kədərə qarışa bilər,
Yaşımı tufan da quruda bilməz.
Bu dərdi nə vaxtsa siləcək illər,
Yağışı da silməz, qarı da silməz.

Bu gün yağış yağır, bahar yağışı,
Bir ucu torpaqda, bir ucu göydə.
Tanrı, çək buludu, apar yağışı,
O, yuya bilmədi dərdi ürəkdən.

***1992***

## QIZIL MİSMAR

Demirəm çox yazıb, çox yaratmışam,
Həyatda hər sözə çatmayıb gücüm.
Sətirlər içindən mən boy atmışam,
Kədərli, kədərsiz anlarım üçün.

Elə də olub ki, yazmışam dən-dən,
Xəstə ürək kimi çırpınıb sözlər.
Təkbətək qalmışam ürəklə hərdən,
Uzaq üfüqlərdən boylanıb səhər.

Şeirlə almışam bir qız qəlbini,
Bir-iki sözümlə vurulub mənə.
Şeirlər içində basdırın məni,
Bitəcək üstümdə yasəmən, lalə.

Qəlbimdən doğanlar qəlbimi bəzər,
Şeir ilik kimi sovrulmalıdır.
Misra var, qızıl bir mismara bənzər,
Şair ürəyinə vurulmalıdır.

Demirəm dünyanın sonudur bu gün,
Demirəm sabaha ümidim azdır.
Göydən şeir yağır, göydən nur bu gün,
Küçəni qar basıb, ürəkdə yazdır.

***1997***

## BAKIYA QAR YARAŞMIR...

Qar yaraşmır Bakıya,
Küləyi zəncir qırıb,
Alt-üst edir
dünyanı...
Ağ qar torpaq istəyir, —
hanı?
Pərən-pərən olub qar,
ağ saçım kimi.
Toxum yox, acım kimi.
Qar yaraşmır Bakıya,
Yollar bağlı qalacaq,
Insanlar qalaq-qalaq,
Bu zəncirsiz küləyin
Şilləsini udacaq.
Işıqlar da sönəcək,
Kəsiləcək sular da.
Bu küləyin fitindən
it hürər də,
ular da.
Qar yaraşmır Bakıya,
Əgər külək qoparsa,
Qarışacaq nə varsa...
Şal köhnə, çəkmə köhnə,
Isti köynək də köhnə.
Göynəməyim tər-təzə,
Heç qar yaraşmır bizə.
Sular sığmır dənizə.
Bir hıçqırıq duyuram,
Ağacların səsində.
Daşın əsnəməsində,
Torpağın nəfəsində.

Bir hıçqırıq duyuram,
Çadır şəhərciyində,
yanır göyün bəbəyi...
Dünya çiyinlərimdə
ay ana,
Qayıdıram Bakıya.
Bakıya qar yaraşmır,
Yaraşmır qar Bakıya,
Zəncir qırıb küləyi...

***1997***

## AY ANA

Gözümün qarasında,
Yurd salmısan ay ana.
Yerlə göy arasında,
Allahımsan, ay ana.

Sözün şəkərdi, baldı,
Demə nə qalmaqaldı?
Canım sənə halaldı,
Allahımsan, ay ana.

Gözəllər gözəlisən,
Duzlusan, məzəlisən.
Hər şeyin əzəli sən,
Allahımsan, ay ana.

Sənsiz dünyam kədərdi,
Yaşamaq da hədərdi.
O, bu gəldi gedərdi,
Allahımsan, ay ana.

Səsimsən, nəfəsimsən,
Ayım sən, ulduzum sən.
Çiçəyim sən, yazım sən,
Allahımsan, ay ana.

Sən şöləm, sən çırağım,
Bəzəyim, boyunbağım.
Laylam, bayatım, ağım,
Allahımsan, ay ana.

***2000***

## ATA EVİ

Qocalıb evimiz çox evlər kimi,
Elə bil qocalıb atasız günlər.
Bürüyüb daşları, daşların qəmi,
Kol olub qırmızı, ağappaq güllər.

Çoxdandır bir kişi əli dəyməyib,
Sınıb, tökülübdür küçə qapısı.
Kərpic barılar da belini əyib,
Dağılıb yarısı, qalıb parası.

Gərək hər baharda əl gəzdirəydim,
Ağrın da mənimdir, acın da mənim .
Bu gün daş bağlayıb kədərim, qəmim,
Gözün yol çəkirmiş deyirlər sənin.

Gəlmişəm, bağışla, günahkaram  mən,
Təqsirim dağlardan qat-qat ağırdır.
Məni közərməyən,  məni gülməyən,
Bu soyuq ocağın dərdi ağrıdır.

Hanı o hay-haray, hanı o illər,
Atam hara köçdü... Gör anam hara...
Gör necə qayıdıb gedib gələnlər,
Gör necə dönübdür bahar dağlara.

Gəlmişəm doğma yurd, yu günahımı,
Gəlmişəm, dağlara yayılsın səsim.
Gəlmişəm, götürüb ov silahımı,
Gəlmişəm, bu yurdun odu sönməsin...

***2000***

## DAĞLAR MƏNİ TANIMADI

Minib ağ atımı gəldim dağlara,
Gəldim ki, bir dəstə gül-çiçək yığım.
Gəldim ki, quzeydə batım ağ qara,
Dəymədi gözümə yox olan çağım.

Buludlar qaşını çatdı nə çatdı,
Qarışdı göylərin ağı, qarası.
Dağları şimşəyin səsi oyatdı,
Məni ürəyimin gənclik yarası.

Kövrəltdi qəlbimi bir qərib baxış,
Kövrəltdi qəlbimi quzeylərdə qar.
Döydü çiçəkləri güneydə yağış,
Dedim çiçəklərin nə günahı var?

Çiçək yığmıram mən gör neçə ildir,
Hopubdur şəhərə mənim izlərim.
Bilirəm, bilirəm dağlar gözəldir,
Dağlarda yox olub dağ gözəlləri!..

Gizlənpaç oynardım qayalarda mən,
Nə qaya tanıdı, nə cığır məni.
Yox olub o gözlər, saçlarım dən-dən,
Lal olan gəncliyim, sən çağır məni.

Mənsiz qəribsəyib çiçəyim, odum,
Heyf dağ gözəli itirdim səni.
Heyf səndən ağ at, yordum, yoruldum,
Nə dağlar tanıdı, nə yollar məni...

***2000***

## YAZ GƏLƏNDƏ

Yaz gələndə yaşıllaşır söhbət, söz,
Yaz gələndə qayalar da oyanır.
Yaz gələndə təzələnir ocaq, köz,
Kol dibindən ağ çiçəklər boylanır.

Ağ yağışa, qara torpaq qarışar,
Sel kükrəyər, dərələrə hay düşər.
Sevənlər də puçur-puçur danışar,
Talelərə lalələrdən pay düşər.

Ovuxlarda saxladığı ağ qarı,
Gen dərələr al günəşə pay verər.
Bağrının başına sıxar yar, yarı,
Xatirələr dünyasını vərəqlər.

Yaşıl köynək, ağ düymələr necə də,
Yamaclara, dərələrə yaraşar.
Nəğmə deyər Ay qonaqlı gecə də,
Ay ulduza, ulduz Aya dolaşar.

Yaz özü də möcüzədir... Kiməm mən?
Nərə çəkən, tumar çəkən Allah var...
Yaz gəlibdir, gülüm yapış əlimdən,
Haray çəkib bizi çağırır bahar...

***2000***

## YAZ GÜNLƏRI

Yaz gəlibdir əzizim,
Gəl, yapışaq əl-ələ.
Gəl, unudub kədəri,
Atıl üstümə,
Gülə-gülə...
Gedib qoşulaq
Əl-ələ dayanmış dağlara.
Bəsdir daha, boğdu bizi
Şəhərin istisi.
Boğdu bizi
Şəhərin tüstüsü.
Boğdu bizi
Bu siyasətçilərin
Dedi-qodusu.
Gəl əzizim, gəl gedək.
Gözləyir bizi
Kəndimizdəki dağlar.
Gözləyir bizi,
Çiçəklərdən don geymiş,
Sənsiz, mənsiz
Yamaclar.
Gəl gedək əzizim,
Gedək.
Bizi gözləyənlərin
Ürəyində

Bir çimdik
Ümid əkək...

***2000***

## BİR KƏNDDƏ DOĞULMUŞAM

Bir kənddə doğulmuşam,
Indi mənə çox uzaq,
Bir dağın ətəyində,
Aclığın yedəyində.
Böyüdüm qarış-qarış,
Ayağım yüngül oldu.
Gəncliyim ağ bir çiçək,
Eşqim qızılgül oldu.
Varımız aşdı, daşdı,
Torpaq dənə qarışdı,
Dən torpağa qarışdı.
Suyumuz da çəkildi,
Qazımız da çəkildi,
Işıqlar da çəkildi,
Kənd dönüb şəhər oldu,
Gecəmiz səhər oldu.
Bir kənddə doğulmuşam,
Odlu, ocaqlı kənddə.
Qaraçıraqlı kənddə,
Nə yağışdan qorxmuşuq,
Nə də qışın qarından.
Yapışıb baharından,
Pöhrə-pöhrə olmuşuq.
Nərgiz, bənövşə, lalə,
Kol dibindən baxanda,

Yumurta döyüşərdik,
Qızıl tonqal qalardıq.
Bölünüb dəstə-dəstə,
Evlərin bacasından
Ağ bir kəndir salardıq.
Ağ günləri bölərdik
Qaranlıq gecələrdə.
O zaman məhlə vardı,
Yox idi küçələr də.
Bir kənddə doğulmuşam,
Ayrı düşmüşük indi.
Yox, Yox! Allah kərimdi,
Indi o bir dünyadı,
Indi mən bir dünyayam.
Hanı işıq, hanı qaz?
Hanı oğlan, hanı qız?
Hanı kəhrəba buğda?
Söz quruyur dodaqda...
Danış ey doğma kəndim,
Danış, rəvayət danış.
Danış, bir nağıl danış,
Ya da ki, ağla kəndim.
Indi ağlamaq sənə,
Daha gözəl yaraşır,
Dərdin kükrəyib daşır.
Bir kənddə doğulmuşam
Bir quru adı qalıb,
Bir də qəbir daşları.
Bir də bir-iki qoca...
Yaşamadım doyunca
Sənin dərələrində,

Sənin yamaclarında.
Budağı da quruyub,
Kökləri də quruyub
Ağacların acından
Heyf səndən doğma kənd,
Heyf sizdən budaqlar,
Heyf sizdən ağaclar.
Heyf sizdən bulaqlar,
Heyif sizdən a dağlar...
Bir kənddə doğulmuşam,
Torpaq olana kimi,
Ürəyimin içində
Bir ovuc yaş olmuşam.
Bir əlcə daş olmuşam.
Bərbəzəksiz baş daşı
Yuyub qurtara bilmir
Görən niyə yaş daşı?
Yaş daşı?...

***1992***

## HAVA

Havam çatmır ay aman,
Havam çatmır ay Allah.
Bəlkə yoxdur xəbərim,
Özəlləşib hava da?
Bəlkə pul var havada?
Bəlkə, bəlkə kimlərsə,
Balonlara doldurub
Tanrının nemətini?

Tanrının sərvətini?
Qram-qram satacaq,
Havanı qram-qram?
Allah, yaman qorxuram!
Torpaqları satmışıq,
Ocaqları satmışıq,
Çıraqları satmışıq.
Bizim deyil Xəzər də,
Bizim deyil gilavar,
Bizim deyil xəzri də.
Bağımız da satılıb,
Qaramız da satılıb,
Ağımız da satılıb.
Bizim deyil Kür, Araz,
Bizim deyil dağ, aran,
Mənə söyləmə: «Dayan!»
Qoy mən sayım sən eşit,
Mən qalmışam, bir də it...
Yox məni də satıblar,
Yox səni də satıblar,
Tapdalanıb qeyrət, ar.
Bircə hava qalmışdı...
Dünya yaman qarışdı...
Havam çatmır ay aman,
Havam çatmır ay Allah.
Bəlkə yoxdur xəbərim
Özəlləşib hava da?
Bəlkə pul var havada?!

***1992***

## SU

Sular
Cürbəcür olur
Dayaz, dərin.
Turş,
Duzlu,
Acı,
Şirin.
Çox qəribədir.
Söz ki var,
O da belədir.
Şirin su axtarıram,
Şirin söz axtarıram.
Göynəyir ürəyim,
Göynəyir yaram.
Şor torpağın suyu şor,
Acıların sözü acı.
Elə bil zəhər sızıb,
Sözə, suya, havaya.
Mən şirinlik möhtacı,
O şirinlik möhtacı,
Sən şirinlik möhtacı.
Şirin su axtarıram,
Şirin söz axtarıram.
Yox, yox bal axtarmaram,
Şirin su ver içim mən.
Şirin söz de canımdan,
Sənin üçün keçim mən.
Şirin su axtarıram,
Şirin söz axtarıram,
Göynəyir yaram...
Göynəyir yaram...

***1993***

## QASIRĞALAR

Daxilimdə qasırğalar oyatmısan,
Daxilimdə fırtınalar baş-başadır.
Bir sevginin dünyasında boy atmısan,
Eh məni də, bilirsən ki, bu yaşadır.

Daxilimdə bir dənizin hıçqırığı,
Kükrəməsi, göynəməsi, susması var.
Sən taleyin bircə parça daş qırığı,
Sən taleyə doğan payız, ələnən qar.

Görən niyə bölünmüşük ikiyə biz,
Biz ki, bütöv bir taleyi yaşayırdıq.
Sevinc oldu bu dünyaya gəlişimiz,
Hönkürürük parça-parça, qırıq-qırıq...

Nədən doğdu qəlbimdəki qasırğalar!
Nədən oldu, neyçin oldu dünyam qara?
Sevgimizi yarpaq kimi qopardılar,
Dəli külək çırpır bizi ora, bura.

Qasırğalar ürəyimi qopardı ki,
Indən belə nəyim gülər, nəyim sızlar?
Qasırğalar olmasaydı nə vardı ki?
Qasırğalar... Qasırğalar... Qasırğalar...

***1996***

## DAĞLAR ŞAMAXIYA ÇAĞIRIR MƏNİ

Yaz gəlib budaqlar puçur-puçurdu,
Dağlar Şamaxıya çağırır məni.
Ilham ürəyimi qəfil uçurdu,
Dağlar Şamaxıya çağırır məni.

Dərələr dumanlı, dağ şəlaləli,
Üfüqə bənzəyən düzlər laləli.
Onların baxışı şehli, şanəli,
Dağlar Şamaxıya çağırır  məni.

Sevinir könül də, sevinir göz də,
Çoban ocağından boylanır köz də.
Donubdur cığırlar, donubdur iz də,
Dağlar Şamaxıya çağırır məni.

Nə yaxşı payız var, nə yaxşı yaz var,
Nə yaxşı yaşıl var, al var, bəyaz var.
Yağış var, dolu var, qar var, ayaz var,
Dağlar Şamaxıya çağırır məni.

Hopub ürəyimə, hopub dağ, dərə,
Unutdum - deməyin a qızlar, mənə.
Nə qədər kədərli olsam da yenə...
Dağlar Şamaxıya çağırır məni.

Çox olub dünyada ağrım, qəmim də,
Kökündən düşməyib daş qələmim də.
Gözləyin a dağlar gəlirəm kəndə...
Dağlar Şamaxıya çağırır məni...

***2000***

## PIÇILDA GÖY DƏNİZ

Pıçılda göy dəniz, pıçılda mənə,
Yuxuna girirmi o qız, o mələk.
Bağışla göy dəniz, doludur sinəm,
Bu günkü görüşə tək gəlmişəm, tək.

Həmişə yanına qoşa gələrdik,
Həmişə bölərdik, bölüşərdik biz.
Ürəyim sınıbdır eh, çilik-çilik,
Daha ürəyimi sağaltmaz dəniz.

O şıltaq, ərköyün bir kəs deyiləm,
Sahil qumlarında itib izimiz.
Gələrdim, gülərdim, gözdən uzaq qəm,
Gümüş dalğalarla dalaşardıq biz.

Nə yaxşı bu günü o qız görmədi,
Dalğalar sevgimi aldı əlimdən.
Yox bu həyat deyil, bir əfsanədi,
O şirin sevginin kölgəsiyəm mən.

Fitçalan küləklər içdi gəncliyi,
Sahildə tək qalmış dərvişəm, kiməm?
Soruşma, soruşma məndən hər şeyi,
Bir ocaq yeriyəm, bir qalaq küləm.

Pıçılda göy dəniz, danış göy dəniz,
Istəsən gurlayıb atıl üstümə,
Alışıb yanıram səssiz-səmirsiz,
Bir ovuc su çilə dəniz, tüstümə,
Atıl üstümə...

***2000***

## DAĞLAR MƏNİ GÖZLƏYİR

Gözləyir yolumu kəndin yolları,
Gözü yolda qalıb dağların indi.
Gözü yolda qalıb əziz dostların,
Dünyada nəyim var hamsı sizindi.

Sizdən uzaqlarda yaşasam da mən,
Sizdən uzaqlarda olmadım, dağlar.
Ömrün qayğısını daşısam da mən,
Sizə də biganə qalmadım dağlar.

Dolub ürəyimə vurduz qəlbimdə,
Hər gün qayalardan kəndir tulladım.
Sıxdım  əlinizi hər gün əlimdə,
Hər gün yaxanızda tonqal qaladım.

Sizsiz bir anım da keçmədi mənim,
Sizi arxa bildim, arxalı dağlar.
Bakıdan bir əlim, sizdən bir əlim,
Yapışdı, böyüdü qızlar, oğullar...

Bir nəsil böyüdü sizdən uzaqda,
Bir nəsil böyüdü ürəyində siz.
Bir nəsil böyüdü, qar da, sızaq da,
Sordular, dedilər: «Doğma Ləngəbiz...»

Gözləyir yolumu bir ata qəbri,
Gözləyir yolumu daşlar, məzarlar.
Dağlar, sizə verib Tanrı da səbri,
Gəlirəm, mənimlə gəlir yazarlar.

Gəlirik qoynunda dincəlmək üçün,
Gəlirik mayını yarı bölək biz.
Için sağlıqları, qayalar için,
Gəlirik sizinlə deyək, gülək biz.

***2000***

## MƏNİM MİSRALARIM

Mənim misralarım mavi küləkdi,
Mənim misralarım yatmış dənizdi.
Mənim misralarım kövrək ürəkdi,
Sevgidi, həsrətdi, cığırdı, izdi.

Dənizin nə vaxtsa qabarması var,
Mavilik hardasa çırpılır daşa.
Ürəyin bir şivən qoparması var,
Hələ ki, mənimlə verib baş-başa.

Mənim misralarım çinar geyimli,
Payız qələm çəksə yükünü tökər.
Bir qız tanıyıram kirpiyi nəmli,
Görsə bir misramı qəlbini sökər.

Mənim sözlərimin qanadlarında,
Böyük bir məhəbbət yatır, dincəlir.
Susuz bir dodağın cadarlarında,
Bir qızın alışmaq qoxusu gəlir.

Mənim misralarım aylı səmadı,
Ulduzlar yağışı yağır üstümə.
Baxır sətirlərdən o qızın adı,
Qarışıb tüstümə, batıb tüstümə.

Göynəyir gözümdə bu gün dağ, dərə,
Göynəyir gözümdə yaşıl ağaclar.
Mənim misralarım ümid, xatirə,
Birini gəzirəm, birisi ağlar...

***1999***

## KÖLGƏMİN AĞ İŞİĞI

Məni təbrik etdi bu gün bir nəfər,
Mən elə sanırdım unudulmuşam.
Böyüdü gözümdə böyük bir şəhər,
Uzaq xatirələr şam yandırdı, şam.

Məni təbrik etdi yaşı əllidə,
Məni təbrik etdi dodağı titrək.
Odlu sözlərilə qışı əlimdən
Qopardı, apardı, çaparlı, yüyrək...

Mənə zəng eləyib ad günümdə o,
Görünməz Allahdan dua dilədi.
Eşidib səsimi şad günümdə o,
Böyük bir şəhərdə şadlıq elədi.

Kövrək məftillərdə hopdu söz-sözə,
Bir ovuc qar kimi tel-tel əridik.
Dayandıq üz-üzə, durduq göz-gözə,
Itmiş o günləri hey vərəqlədik...

Mənə zəng elədi yoxluğum mənim,
Göyərdi dağların ağappaq qarı.
Öldü bu dünyada həsrətim mənim,
Doğuldu kölgəmin ağ işıqları.

***2000***

## MƏRD KİŞİ

***Bu şeir yazılanda qayınatam***
***Əskər kişi hələ sağ idi.***

Uca dağlar kimi saç-saqqal bəyaz,
Bu qoca dünyada canlı əsərsən.
Desəm möcüzəsən vallah azdır, az,
Heyrətsən, hikmətsən, sözsən, kəsərsən ...

Yüzünə ocaqsan, yüzünə çıraq,
Yağışa dönərsən od tutsa biri.
Yaxşı nə etmisən, eh necə sayaq ...
Gedirsən çiyninə alıb illəri ...

Sən torpaq oğlusan, bir mərd kişisən,
Sənin bir üzün var, bir sifətin var.
Səninlə dünyada öyünmüşəm mən,
Səninlə öyünür dünyada bahar.

Yaşamaq çətindir, yaşatmaq çətin,
Bunu sən bilirsən, bilmir çoxları.
Didib caynağında səni də çin-çin
Bu qoca dünyanın dişli çarxları.

Eh kişi saymıram sürünənləri,
Gör ürək nə deyir, dayan qulaq as.
Haqqın köynəyinə bürünənləri,
Bu iti qılınclar kəsməz, doğramaz! ...

***1997***

## ODLA KÜL ARASINDA

Oddan bir addım uzaq.
Külə bir əlcə yaxın.
Kədərdən, qəmdən uzaq
Kövrək sevincə yaxın.
Günləri yaşayıram.
Dodağı qabar-qabar,
Dodağı köz bağlamış,
Gülür üzümə bahar,
Çiçəyi köz bağlamış,
Illəri yaşayıram.
Odla kül arasında.
Közərən bir dünya var.
Çoxunun görmədiyi,
Bir rəng var, bir boya var.
Yaşayıram o rəngi
Könlüm bir köz çələngi ...
Yaşayıram əzizim.
Odla kül arasında,
Tikan, gül arasında.
Yaşayıram əzizim,
Gözünün qarasında.
Qəlbinin yarasında.
Fırtınalar, küləklər,
Çırpır divara məni.
Çırpır daşa, qayaya,
Nə bilim hara məni ...
Ölməmişəm əzizim,
Ölməmisən əzizim.
Ölmək bizə yaraşmaz,
Mən yazıram, sən də yaz,
Odla kül arasında,

Bərk yapış əllərimdən,
Qalaq el arasında.
Baxışları közərmiş,
Bir eli deyirəm mən.
Qanadları göyərmiş,
Diləyi deyirəm mən.
Odla kül arasında.
Közərən bir dünya var.
Üfürüb bu dünyanı,
Alova döndərəcəm.
Bu qara buludları,
Məzara göndərəcəm.
Mən kül olan deyiləm!
Səsi gömgöy göyərən,
Taram, kamanam, neyəm.
Yaşayıram əzizim.
Odla kül arasında.
Oddan bir adım uzaq,
Külə bir əlcə yaxın.
Inanmırsız?
Inanın! ...
Sökün sinəmi, baxın!
Sökün, sinəmi baxın! ...
Odla kül arasında...

***1992***

## SƏHƏR YELİ

Qapılarımı
Səhər yeli açır üzümə.
Səhər nurunu,
Səhər yeli hopur gözümə.

Nə yaxşı ki, sən varsan,
Eləcə mehribansan.
Mən sənə hər səhər,
Yuxumu danışaram,
Gecəmi danışaram,
Necəmi danışaram.
Tutub əlimdən mənim,
Bir nəğmə söyləyirsən.
Pəncərəni açanda
Səhər yeli deyirsən:
«Zaman ağır zamandı,
Gərək gülə biləsən».
Səhər yeli, nə yaxşı,
Nə yaxşı ki, qalmısan.
Səhər yeli,
Bir məzar,
Qazan axtararam mən.
Sən ol qəbrimi qazan,
Qoy yerim dərin olsun,
Qoy yerim sərin olsun.
Qulağım eşitməsin,
Vəhşilərin səsini.
Nə qədər əzmək olar,
Nə qədər soymaq olar,
Özünə həmdəmi yox,
Başqa bir özgəsini.
O sənin özgən deyil,
O ağıldan kəm deyil.
O sənin qardaşındı,
Oğlundu, qızındı.
Nə etsən, necə etsən
Yenə vətəndaşındı.
Səhər yeli, gül dedin!

Vallah gülə bilmirəm.
Hərdən elə olur ki,
Səni qucaqlamaqçün
Durub gələ bilmirəm.
Bağışla, səhər yeli,
Ürəyimi boşaltdım.
Gülə-gülə gəlmişdin
Sevincinə daş atdım.
Səhər yeli incimə,
Daha keçib iş-işdən.
Qismətimiz daş oldu.
Baharımız qış oldu.
Döy qapımı həmişə,
Aç qapımı taybatay.
Baxma qaş-qabaqlıyam,
Sənin bu yel atının
Dırnağının nalıyam.
Bu gəldiyin mənzildə,
Uşaq da var, böyük də.
Inanıram bir zaman
Əriyəcək bu yük də.
Səhər yeli, incimə,
Döy qapımı həmişə.
Gələcəyi gətir sən,
Gül-çiçəyi gətir sən.
Gül-çiçəyi gətirsən...
Səhər yeli, incimə,
Min atını get gətir,
Çıl-çıraqlı, ocaqlı,
Işıqlı bir gün gətir...
Işıqlı bir gün gətir...

***1993***

## YOVŞAN

Qəribədir həyat...
Narahat yaşayıram
Narahat...
Dərman içirəm,
Faydası yox,
Ziyan çox.
Durub qaçıram
Yaşım imkan vermir.
Çağırıram gəncliyimi,
Gəlmir ki, gəlmir.
Əkdiyim kolların,
Gülləri
Yaraşıqlı olsa da,
Mənə bir körpə kimi
Şirin layla çalsa da,
Qoxusunu duymuram.
Ləzzətini görmürəm...
Bərbəzəkli arılar,
Dərdlidi, kədərlidi.
Bu dünyaya gələnlər,
Bir gün də gedərlidi.
Gülmək istəyirəm mən,
Çiçəklər arasında.
Gülmək istəyirəm mən,
Bir gözəlin gözünün,
Ağında, qarasında,
Nə mən gülə bilirəm,
Nə də gözəllər gülür.
Istəmirəm cah-calal,
Istəmirəm var, dövlət.
Istəmirəm,

Nəhayət,
Dağımızdan bir dəstə,
Yovşan yığın gətirin.
Başımı qoyub üstə
Yatmaq istəyirəm mən.
Çox çalışdım vuruşdum,
Çox arzuma çatmadım.
Qınamasın inadım...
Dağımızdan bir dəstə,
Yovşan yığıb gətirin,
Bihuş olum iyindən.
Yovşan yığıb gətirin...
Yovşan yığıb gətirin...
Quyusunda dünyanı
Boğmaq istəyirəm mən...

***2000***

## BƏNÖVŞƏ

Bənövşə təbiətin
Tikansız, ağ,
Bapbalaca gülüdür.
Ülvü, gümüş baharın
Gəlin gəlmiş bir qızın
Başına səpilən noğul kimidir.
Bənövşələr,
Təzə, tər...
Torpağı,
Bircə gecədə,
Bircə gündə
Öz zərifliyinə bükər.
Bənövşələr...
Səssiz gələr,

Səssiz gedər
Səssiz bir sevinc,
Səssiz bir kədər...
Eh bənövşələr,
Bənövşələr...

***2000***

## DAĞ ÇAYLARI

Dağ çayları,
Dağları başına götürər.
Hayı-harayı ilə
Sanki qayaları bir yerdən
Başqa bir yerə köçürər.
Dağ çayları,
Insanların insanlara
Etirazıdır?
Nə bilim bəlkə də
Dağların bəslədiyi,
Bir nəğmənin avazıdır.
Nə olur-olsun,
Bu harayı eşidəndə,
Bir təskinlik tapıram,
Bir sərinlik tapıram,
Bir şirinlik tapıram.
Deyirəm: –
Təki bütün haraylar,
Sərinlik gətirsin!
Şirinlik gətirsin!

***2000***

## GÖY ÜZÜ QARALANDA

Göy üzü qaralanda,
Qorxuram.
Elə bilirəm ki, bir daha
Səhər açılmayacaq.
Susacaq dünyamız,
Susacaq od, ocaq?
Göy üzü qaralanda
Qorxuram.
Elə bilirəm hər şeyin,
Hər şeyin sonu çatacaq.
Göy üzü qaralanda
Qorxuram.
Qorxuram qaradan,
Qorxuram ki, dan...
Qorxuram qaranlıqdan,
Bir də ki,
Qapqara saçlarının
Bir zaman ağarmasından...
Əzizim qorxuram, inan...

***2000***

## ŞƏLALƏNİN ZİRVƏSİ

Cürbəcür olur zirvələr
Ululuq,
Ucalıq,
Qocalıq.
Cürbəcür olur ömür-gün
Sevincli,
Qəhərli,
Kədərli.

Cürbəcür olur yaşamaq,
Ölmək.
Cürbəcür gəlir fəsillər,
Nə bilim nələr.
Şəlalə də,
Ömrünün zirvəsini,
Qayalardan atılmağında
Görür.
Burulan,
Köpüklü sulara
Qatılmağında
Görür.
Əzizim,
Həyat belədir.
Çox qəribədir...

***2000***

## SƏBR ELƏ

Hər axşam,
Gün üfüqlərdə yox olanda
Elə bilirəm
Dönməyəcək geri.
Elə bilirəm,
Günəşi
Kimlərsə birdəfəlik udacaq
Bizə ulduzlar qalacaq.
Bir də soyuq bir qəbir.
O da olacaq
Əzizim, olacaq,
Darıxma,
Bir az səbr elə, səbr...

***2000***

## BULAQ

Nəğməli bulaq öyünmə,
De, nə qədər yaşın var?
De nə qədər daşın var?
Sənin kimi bulaqlar,
Çox olub, çox.
Çoxları da yox olub, yox.
Ya quruyublar,
Ya da qurudulublar.
Qorxma, sən axacaqsan...
Ancaq yadda saxla ki,
Bir gün gələcək,
Hara axacağını,
Niyə axacağını
Bilməyəcəksən.
Sən də çoxları kimi
Gülməyəcəksən...
Gülməyəcəksən...

***2000***

## LALƏ

Lalə, gözəlsən...
Gözəllər gözəl olur...
Gözəllər,
Bir yandan boşalır,
Bir yandan dolur.
Birinin boyu uca,
Birinin dişləri  sədəf,
Birinin saçları şəlalə.
Biri pərvanə,
Biri də nə bilim nə...

Ancaq sən,
Mənə oxşayırsan,
Bağrın qaradır sənin də
Mənim də.
Al qanında,
Çırpınırsan sən də,
Mən də.
Gözəlliyimiz də elə bundadır,
Yandır işığını, yandır,
Çiyinlərimizə götürüb gedək.
Mən heç,
Yazıq lalə,
Yazıq çiçək...

***2000***

## NAR

Nar özü də bir dünyadır,
Pərdələrlə bölünüb qitələrə,
ölkələrə.
Gilə-gilə, dənə-dənə.
Cənubu var, Şimalı var...
Gün doğanı, gün batanı,
Nar pətəyi-arı şanı.
Nar düzümü - gün düzümü,
Il düzümü.
Nar dənəsi - qan damlası,
Oxumamış nağıl, layla,
Nar dilimi dağ zirvəsi,
Yamac, yayla.
Dünyamız da möcüzədir.
Narımız da möcüzədir.
Nə dünyanı görürük biz,
Nə payızı, nə baharı.

Nə də,
Nə də bapbalaca,
Yumruq boyda,
Qızıl narı...
Qızıl narı...

***2000***

## TUMURCUQ

Tumurcuq...
O da yaşamaq istəyir.
O da puçur-puçur,
Danışmaq istəyir.
O da öz boynuna düşən yükü
Daşımaq istəyir.
Körpələr də belədir...
Yox, tumurcuqlar
Körpələr kimidir.
Amma bircə fərqi var,
Tumurcuqlar açılıb,
Budaqlarda sel olur,
Çiçək olur, gül olur.
Körpələrsə cürbəcür böyüyür,
Kimisi ali olur,
Kimisi alim olur.
Kimisi gözləri kor,
Qulaqları kar olur.
Cinayətkar olur...
Belədir təbiətin,
Cəmiyyətin qanunları.
Düşünürəm mən...
Nə edəsən?
Nə edə bilərsən?...

***2000***

## ŞAXTA

Qışda şaxta düşür,
Qar yağır,
Təbiət dəyişir.
Qışda tək ağaclar yox,
Insanlar da sərtləşir.
Bahar gələndə
Dünyamıza
Gözəllik toxumu səpilir.
Bəzi insanların isə
Qışdan qalan şaxtası
Ərimir ki, ərimir...

***2000***

## LAMPA

Mən lampa işığından
Diksinmirəm,
Səksənmirəm.
Misralarım
Pərəm-pərəm olub
Qaçmır məndən.
Məni səksəndirən
Işıqlarımızın sönməsi olur.
Doğulan bir misramın
Ölməsi olur.
Yandır lampanı,
Əzizim yandır,
Uzansın gecəm.
Yorulanda
Özüm söndürəcəm.
Lampasız

Mənimlə oyaq qalma!
Istəmirəm əzizim,
Sən
Doğulan misralarımın
Ölməsini görəsən,
Yandır lampanı,
Əzizim yandır.
Işıqlar sönə bilər...
Misralarım ölə bilər.
Dur, əzizim, dur,
O keçmişdən qalan
Lampanı yandır...

***2000***

## ZİRVƏ

Övlad üçün zirvə
Atadır, anadır.
Dost üçün zirvə
Etibardır.
Qarışqa üçün zirvə
Bir buğda dənəsidir.
Mələklər üçün zirvə
Əfsanədir.
Dünya zirvələrlə doludur...
Uzanan yollar,
Zirvələrin yoludur.
Bircə mənim
Sevgimin zirvəsi yoxdur,
Bir də kədərimin,
Niyə? Nə bilim?

***2000***

## ŞAM İŞIĞI

Yandır əzizim,
Yandır şamları,
Işıqlar yanmayacaq...
Ancaq və ancaq
Şamlara qalıb ümid.
Yandır şamları,
Qoy uçub gəlsin
Pərvanələr barı.
Onlar da,
Şam işığında görüşürlər,
Dərdi-qəmi,
Şam işığında bölüşürlər.
Bir də ki, nə fərqi
Bizim və pərvanələrin.
Yandır, isinsin əllərin.
Şirin olur şam işığı.
Unutma əzizim, unutma,
Axşam işığı...
Yandır zəif yox,
Zərif işıqları...
Sonra
Qara basar uşaqları,
Qara basar məni,
Qara basar səni.
Yandır əzizim,
Yandır şamları.
Qurtarmaq istəmir
Bu qış axşamları...

***2000***

## QARA TİKAN

Bizim dağda
Uzanan bir yamac var.
Uzanan bir nava var,
«Qara tikan» navası.
Qara tikan yaylası.
Bu qapqara tikanlar,
Əl atır, caynaq atır,
Hər gələnə, gedənə.
Qoyunun yunu qalır,
Quşun lələyi qalır.
Kiminin qanı qalır,
Nə bilim nəyi qalır.
Baxıb bu tikanlara,
Qara tikan xislətli,
Qara tikan niyyətli,
Adamlarla üz-üzə,
Göz-gözə dayanıram.
Öz içimdə sayıram...
Nə qədər qoparan var -
Bir, iki, beş, on beş,
Yüz... Beş yüz... Neçə min...
Quruyur ağızda,
Quruyur dilim...
Sayıram...
Axı necə olacaq?
Dünya belə qalacaq?

***2000***

## YAŞIL OTLAR

Yaşıl otlar
Göz oxşayır,
Saralana kimi,
Yem olana kimi.
Elə ki, dəryaz ağardır dişini
Elə ki, dəryazçı görür işini,
Elə ki, bıçaqlar dayanır ərşə...
Bəli, yaşıl olmaq
Olmur həmişə...

***2000***

## CİNCİLİM

Könlümə qutab düşmüşdü,
Yığıb gətirdilər
Təzə-tər
Gicitkənlərı,
Cincilimləri,
Dağ keşnişini,
Yarpızları,
Kənd qızları.
Bir də nə bilim nələri, nələri...
Hələ ayılmamışdı
Bu vəhşi dağ otları,
Dağ çiçəkləri.
Səhər-səhər
Təmizləndi göylər...
Heyfim gəldi cincilimlərə...
Sizdən heyf, cincilimlər...
Bir-birinə
Zəncir kimi bağlı

Ətirli, zərif cincilimlər...
Insanlar sizin kimi
Zəncir olmağı bacarmır.
Fikirlər
Yağsız cəhrə kimi,
Beynimdə edir cır-cır...
Cincilimlər heyf sizdən,
Heyf sizdən...

***2000***

## OD

Ürəyimin odu var,
Gözlərimin odu var,
Sözlərimin odu var...
Çıraq da odsuz deyil,
Ocaq da odsuz deyil.
Həyətin də öz odu,
Həyatın da öz odu.
Dörd yanımdan közərən,
Alov baxır, od baxır
Ancaq qəmimin odu,
Çox ağırdır, çox ağır...

***2000***

## ÜFÜQLƏR

Həmişə,
Göylə Yer birləşən yerdə,
Elə bil ki,
Allahın öz əlləriylə
Bir çilçıraq qurulur.
Özü də bu közərən üfüqlərə

Gedib çatmaq olmur...
Gedib çatmaq olmur,
Nə Yerin Göylə
Əl-ələ verdiyi uzaqlara,
Nə də hər ikisinin
Söykəndiyi dağlara.
Dünyada
Nə Yerlə Göy birləşir,
Nə də səninlə mən.
Saçlarım dən-dən...
Ürəyim yanır...
Düşündükcə,
Dünyamdan dünya boylanır...
Bir də ki, nə qəm,
Mən sənin dünyanda
Fırlandığım kimi,
Yer də Göyün
Qucağında fırlanır...

***2000***

## CIĞIRLAR

Cürbəcür olur cığırlar,
Biri elə
Biri də belə.
Gedirik cığırları...
Hansısa qovuşur yollara,
Hansısa qarışır kollara.
Indi özünüz bilin,
Özünüz seçin.
Çırmayıb qolunuzu,
Gedin bu cığırları
Gedin və keçin...

***2000***

## QARAÇIRAQ

Mənim müasirim,
Mənim varlığım.
Sevincim, qəmim, ahım,
Mənim dünənim yox,
Bu günüm, sabahım.
Qaraçıraq görmüsənmi?
Çıraq yox, qaraçıraq.
Bir parça «şinel»,
Bir litr neft
Ya qara olsun, ya ağ.
Bir də cürbəcür qablar,
Hamısı bir yerdə
Qaraçıraq,
Qaranlıq  çırağı.
Görməzsən sən,
Görsən də
Muzeylərdə görərsən.
Muzeylərdə
Keçmişimizi göstərirlər bizə.
Baxdıqca keçmişimizə,
Ürəyim ağrıyır.
Gör nələr olub keçmişdə,
Gör bu gün nələr var, nələr...
Yazıq körpələr,
Yazıq qocalar...
Işıqlı gündüzə
Həsrət qalıb
Qaraçıraqlar,
Qayıdır geriyə,
Qayıdırıq sizə.
«Geriyə yol yoxdur» deyənlər,

Yalan deyiblər!
Susardım...
Susa bilmirəm.
Gəncliyimizə güldüyüm qədər,
Kədərli də olsa
Bir dəfə gülmürəm...
Mənim müasirlərim,
Yadınızdan çıxmasın
Ağ çıraqlar yox,
Qara çıraqlar...
Qara çıraqlar...
Qapqara çağlar...

***2000***

## DUMAN

Dumana dönüb,
Döşənmisən
Çiçəklərin yarpağına,
Ocaqların ayağına.
Dumana dönüb,
Qucaqlamısan
Dərələri, daşları.
Çatmısan bir-birinə
Sirləri, sirdaşları.
Kəndimizdən yuxarı
Yaşıl-yaşıl yamaclar
Dönüb ağ yamac olub.
Yamac görmək istəyən
Yamaca möhtac olub.
Duman -
Bu mənim sevgilimdir,
Xəyalı sevgilimdir,
Məni dərdə salıbdır.

Yaxası, yaxalığı,
Çiçəklərin, kolların,
Əllərində qalıbdır.
Əs ey külək, doğ ey gün...
Hərdəmxəyal olmuşam...
Yaman paxıl olmuşam,
Paxıl olmuşam!

***2000***

## SEL

Sel gəlir...
Bir çayın seli yox,
Bir yağışın seli yox,
Bir qışın seli yox,
Bir qarğışın seli yox,
Bir çağırışın seli yox,
Dünyanın seli gəlir.
Bu selin
Qarşısına çıxsa
Dünya özü çıxacaq.
Ya da qoşulub selə
Ömrünün
Sonsuzluğuna doğru axacaq...

***1999***

## DOLU

Günah nədir?
Bilmirəm!
Ancaq elə
Kəl kimi döyülürəm,
Kəl kimi böyüyürəm.

Dolu istəyirəm mən...
Təbiət də az tökür
Dolusunu...Bəs niyə?
Deyirəm ki, başlaya,
Bircə aylıq kəsməyə,
Məni döyən «kişilər»
Çaşbaş sala yolunu.
Az yağırsan, az, dolu!..
Xırda yağma, iri yağ,
Gecə-gündüz yağ, dolu!..
Yumruq görməyənlərin
Başına yağ, başına.
Aşına yağ, aşına.
Deyib-gülməyənlərin,
Üstünə yağma, dolu,
Üstümə yağma, dolu.
Elə yağ ki,
Bilim ki,
Əvəzini çıxırsan
Mənə dəyən daşların.
Elə yağ ki,
Bilim ki,
Başı daşa dönəcək
Danabaşlı başların.
Başların...

***1993***

## KÜLƏK

Bakının
Küləkdən başqa
Heç nəyi yoxdu!..
Yox, yox!... Niyə?...
Nefti də çoxdu,
Qazı da çoxdu.

Az-çox hər şeyi var...
Düşünəni yoxdu,
Düşünəni!
Düşünəni!..

***1992***

## AY

Buludların
Gözü doymadı...
Qızıl bilib gizlətdilər Ayı...
Küləklər qoymadı!..
Bəziləri də,
Varı, dövləti Ay kimi
Basdırdılar...
Ay, hay...
Unutmayın ki,
Küləkdən də güclü
Əzrayıl var,
Ölüm var...

***1998***

## ULDUZ

Demirəm ki, yoxuq,
Varıq, özü də
Ulduz qədər çoxuq.
Amma
Heç olmasa onlar
Alışır çıraq-çıraq.
Biz isə
Sürünməyi də bacarmırıq...

***2000***

## BULUDLARIN QARASI

Buludların
Qarasını xoşlamıram.
Göylərin bir parçası
Yanır içində.
Qara buludları
Söküb parçalamaq hissi
Yaşayır içimdə.
Təbiət özü də
Xoşlamır onu.
Onun qara bənizini,
Onun qara dənizini.
Dənizi sevirəm
Sakit durumunu da,
Hıçqırığını da,
Kişnəməsini də.
Qızıl quma baş qoyub,
Mürgüləyən gözəllər
Dincəlir qəlbimdə.
Sevirəm,
Sevilməli olan hər şeyi.
Mənəm,
Sevilənin, sevənin beşiyi.
Sevirəm sevməyi,
Sevirəm sevilməyi.
Amma bu qara bulud
Kəsib başımın üstünü.
Dağ basıb ürəyimə,
Udub tüstümü,
Getmir ki, getmir.
Parçalamaq istəyirəm
Bu qara buludu.

Bu boyda göydə
Fırlanıb-fırlanıb
Mənim başımın
Üstə dayanıb,
Üsyan edir.
Nə yükünü boşaldıb qurtarır,
Nə də çıxıb gedir.
Parçalamaq istəyirəm
Bu qara buludu...
Nə əlim çatır, nə gücüm...
Nə gündüz gündüzümdür,
Nə gecə gecəm.
Yalvarıram
Bakı küləklərinə,
Eşitmir məni.
Demək istəyirəm ki,
Süpürün, silin bu şəhəri.
Qara adları,
Qovun
Qara buludları.
Qorxuram
Buludların qarasından...
Qorxuram...
Qorxuram...

***2000***

## YARPAQLAR SARALANDA

Yarpaqlar saralanda,
Qayalar da kövrəlir,
Cığırlar da kövrəlir,
Ağaclar da kövrəlir,
Ocaqlar da kövrəlir.

Elə dağ da, dərə də,
Başı qarlı zirvə də,
Ağ duman da , yağış da,
Damla-damla kövrəlir.
Elə ki, payız gəlir,
Elə ki, qısalır gün
Ağaclar yığdığını -
Sarı qızıllarını
Tökür torpağa...
Yenə yaşamaq üçün.
Bu zaman,
Bir söz qopur qəlbimdən,
Qəfil, qəfildən qəfil...
Insanlar belə deyil!!!
Ağac qədər də yoxuq.
Gözlər görmür nədənsə
Nədir payız, nədir yaz.
Nə çox bilir, nə də az.
Eh insanlar, insanlar,
Siz yaddan çıxarmayın,
Dağı, daşı, torpağı.
Siz yaddan çıxarmayın,
Nə qaranı, nə ağı...
Elə ki, payız gəlir,
Elə ki, qısalır gün,
Ağaclar yığdığını -
Sarı qızıllarını
Tökür torpağa...
Yenədən yaşamaq üçün...

***2000***

## AĞLAYA BİLMİRƏM

Çox şeyi dünyada öyrətdin ana,
Öyrətdin sevməyi, sevilməyi sən.
Öyrətdin yanmağı sən yana-yana,
Bu gün öyüdlərin tutur əlimdən.

Yaxşı ki, demisən xeyir-şər nədir,
Yaxşı ki, demisən böyük-kiçik var.
Ey ana, sözlərin bir şəlalədir,
Yaşıl arzuların yaşıl bir bahar.

Göyün yağışının, göyün qarının,
Gəzirəm kökünü, səndə tapıram.
Qəlbimdə yaşayan uca Tanrının.
Ən ülvi yükünü səndə tapıram.

Dağların rişəsi, qayanın kökü,
Sənin ürəyinin içində vurur.
Ana, sirr deyilsə onu da de ki,
Niyə sənin kimi ağlamaq olmur.

Məni düşündürür illərdən bəri,
Gözüm də yaşarır, qəhər də boğur.
Deyirəm bəlkə də çox kişiləri,
Hardasa analar elə daş doğur.

Ağlaya bilmirəm sənin təki mən,
Yerimə buludlar göz yaşı tökür.
Ay Allah, kədərdən uzaq saxla sən,
Onsuz da öz dərdim bağrımı sökür.

***1997***

## KAŞ Kİ...

Uşaqlıqdan arzu deyib gəlmişəm,
Kaş ki, arzum qədər ömrüm olaydı.
Ana, ata, bacı qədri bilmişəm,
Kaş ki, arzum qədər ömrüm olaydı.

Sanıram ki, ağ qanadlı bir quşam,
Heç bilmirəm uduzmuşam, udmuşam.
Ürəyimdə nələr... Nələr qurmuşam,
Kaş ki, arzum qədər ömrüm olaydı.

Demirəm ki, buludlara baş vurum,
Demirəm ki, daş vurana daş vurum.
Deyirəm ki, duruldüqca durulum,
Kaş ki, arzum qədər ömrüm olaydı.

Istəmirəm desinlər ki, daşdı bu,
Yetişdiyim arzular da arzudu.
Ömür yolu qırılacaq... Haqdı bu,
Kaş ki, arzum qədər ömrüm olaydı.

Mən insan övladı, Allah bəndəsi,
Hopubdur qanıma Quran kəlməsi.
Gözümün nurudur Tanrının səsi,
Kaş ki, arzum qədər ömrüm olaydı.

Cığır da itəcək, iz də itəcək,
Üstündə tikan da, gül də bitəcək.
Son dəfə gözümdən torpaq öpəcək,
Kaş ki, arzum qədər ömrüm olaydı.

***2003***

## YETİM

Yetim uşaq çırtım-çırtım ərisə,
ərəsəyə çatmasına çalışın.
Alov onun üzərinə yerisə,
Od əlindən alım deyə alışın.

Yetim uşaq- çək saçına əlini,
Ata, ana tumarından uzaqdır.
Şirin elə, şəkər elə dilini,
Axı onun ürəyində sazaqdır.

Qoru onu, ülfətini azaltma,
Qoru onun gözlərinin odunu.
Yetim deyib onu cəllada satma,
Çək üstünə təmiz ana adını.

Yetimə qayğını Tanrı buyurub,
Kim görməsə, Tanrı görür, unutma!
Səni, məni, onu Tanrı qoruyub,
Get bu yolla, haqq yolundan qayıtma.

Qoyma onu uşaqlardan seçilə,
Bu dünyanın günahıdır o yetim.
Qoyma onu bu dünyada kiçilə,
Milyonların sabahıdır o yetim.

***2003***

## MÜNƏCCİM AĞA

Əhvalım küləkli yağışa bənzər,
Allah gözə girən qardan saxlasın.
Qəlbimi  saralmış yarpaqlar bəzər,
Ötər... Allah məni dardan saxlasın.

Olmayım bir tikə çörəyə möhtac,
Açın pəncərəni, qoy hava dolsun.
Əhvalım olsa da bir azacıq ac,
Mənəvi dünyamın gözü tox olsun!

Ötəsi bir ağrı ağrı deyil ki,
Allah o ağrıdan saxlasın məni.
Tanrı əyil desə, bir az əyil ki,
Iblisin şilləsi tutmasın səni.

Təskinlik, təsəlli, böyük sirdi, sirr...
Səbirsiz olma gəl, axı ayıbdı.
Hərdən görürsən ki, taleyin küsür,
Hərdən görürsən ki, pas bağlayıbdır.

Bu gün birtəhərəm, de hara qaçım?
Əhvalım bükülüb bir parça ağa!
Qarışıb düz-dünyam, qarışıb saçım,
Sabahdan xəbər ver, münəccim ağa,
Münəccim ağa!..

***2001***

## MÜDRİK

Müdriklik «başı» olan deyil,
Əli, ayağı, gözü, söhbəti, sözü,
Lap elə çox yaşlı olan deyil.
Başının içində başlar olanlardır.
Ən kiçik
beyninin qırışlarında belə
qırışlar olanlardır.
Müdrik olun insanlar...
Ancaq....

***2001***

## GÖZƏLLİK QORUNARSA...

***Bir yaşlı qadının dediklərindən.***

Qədrini bilmədim gəncliyimin mən,
Xərclədim «bazarda» qara pul kimi.
Mən heç, yadda saxla, bunu gözəl sən,
Əyilmə, bükülmə qara qul kimi.

Demə ki, ehtiyac at minib sürür,
Dinc yaşa, ac yaşa, ağılla yaşa.
Tanı Allahını, o baxır, görür,
Harın, həyasızı çırpacaq daşa.

Bir az gec, bir az tez, qərar onundu,
Ürəkdən qəşş edib gülə bilmir o.
Onu bilən bilir, azar onundu...
Ölümü çatsa da ölə bilmir o.

Qoru gözəlliyi, pula satılma,
Açanda gözünü artıq gec olar.
Soyulub, siyrilib sonra atılma,
Qaldıra bilməzsən anla, güc olar.

O insan donunda görən nədirsə,
Talelə oynamaq kor niyyətidir,
Gözəllik Allahın qüdrətindəsə,
Qorumaq insanın ləyaqətidir.
***2001***

## GÜNAHLAR... GÜMANLAR...

Bəzən düşünürəm tər basa-basa,
Bəzən də qəlbimi şeytanlar didir.
Sonuncu zəruri bir addımdısa,
Göyərən günahlar... Gümanlar nədir?

Bəzən dırnağımı yeyir dişlərim,
Qalıram xeyirlə-şər arasında.
Düyülür, dolaşır ülvi işlərim,
Dolaşır kölgələr öz qarasında.

Dolaşır gözümün işığı, nuru,
Günahlar yerində gümanlar bitir.
Bəzən yağış kimi qəlbim dumduru,
Bəzən külək qopur, dumanlar itir...

Dərinə getməyək... Bəzən hardasa,
Doğub-doğulmaq da özü günahdır.
Günah ləkə deyil, insan dardasa...
Ürəyi sındırmaq düzü günahdır.

Ürək çırpınanda, işıq sönəndə,
Günahlar içində ümid gəzirəm.
Taleyin təkəri geri dönəndə,
Uçuruma, tufana, selə dözürəm.

Yox! Günah deyildir, gümandır ancaq,
Sonuncu, zəruri atılan addım.
Gəl tut əllərimdən, əzizim uçaq,
Soruşma bəs niyə çəkilir adım?..

***2002***

## TANRI

***Yuxularda yazılmış şeirlər silsiləsindən.***

Insan bəzəyidir, çiçəyin, yazın...
Tanrı təbiəti lal yaradıbdır!
Gözlərdə həsrəti, bir də hicranı,
Dağlarda daşları sal yaradıbdır.

***2002***

## SÖZ YARASI...

Qardaş, bəzən acı bir söz, yersiz kəlmə,
Tufan olub qayalara çırpır səni.
Ağ dişlərin lüləsindən çıxan güllə,
Yolun azıb, uçub gəlir tapır məni.

Söz yarası tel-tel olub rişə salır,
Torpaq bilib qamarlayır varlığını.
Söz yarası elə dinir, elə çalır,
Sanırsan ki, Tanrı boğur çırağını.

Nə təbiblər məlhəm tapır, nə qocalar,
Nə mələklər dada çatır, nə də özün.
Çiçəkləri böcəklərə satır bahar,
Yağış döyür, duman basır nurlu gözü.

Söz yarası... Şeytanların daş arzusu,
Şeytanların daş yarpağı, daş çiçəyi.
Söz yarası... Əzrayılın qaraltısı,
Bilinməyir bu ürəyin qalacağı, köçəcəyi...
***2001***

## KÖYNƏK-AVTOQRAF

***Oğluma.***

Son zəngə geydiyin köynək yuyulmur,
O günün ən şirin xatirəsi tək.
Üstündə rəngbərəng imzalar durur,
Rəngbərəng illərin nişanəsi tək.

Ilgəkdən asılmış muzey kimidir,
Baxıram, son zəngin son nöqtəsinə.
Deməyin soyuqdu, quzey kimidir,
Yox, yox, ürək qoymaz bu ocaq sönə.

Illərin közüdür hər imza, hər söz,
Köynəkdən boylanır oğlanlar, qızlar.
Didir baxışımı kədərli bir köz,
Didir varlığımı... Qayıtmaz o yar...

Köynəklər geymişəm ağ, yaşıl, qara,
Yoxdur o köynəklər, niyə. Bilmirəm...
Uçubdur o illər, söyləyin, hara?
Saçıma qar yağır, qar birəm-birəm...

Oğlumun geydiyi o ağ köynəyi,
Cürbə-cür imzalar aşadacaqdır.
Son zəngin sönməyən odu, göynəyi,
Mürgülü illəri oyadacaqdır...

***2002***

## İLK ŞEİRİNİ YAZAN GƏNCƏ

***Yuxularda yazılmış şeirlər silsiləsindən.***

Sən elə tumurcuq, elə pöhrəsən,
Gələcək özünü səndə tapacaq.
Sən elə çıraqsan, elə laləsən,
Doğan gün də nuru səndən alacaq.

Məhəbbət damlası, sevgi qətrəsi,
Vüsaldan vüsala yolsan, cığırsan.
Uzaq ulduzların nəğməsi, səsi,
Torpağa yağırsan, daşa yağırsan.

Qələmin nurunda hər şey əriyər,
Saf-çürük edilər xatirə, zaman.
Ağac bar gətirər başını əyər,
Günəş baş qaldırar alov tutar dan.

Nəyi səsləyəcək, nəyi tapacaq?
Demirəm, sözlərin rəngləri nədir.
Sənin əllərinlə qalanan ocaq,
Bəlkə də dünyanı isidəcəkdir.

Sən elə tapıntı, elə incisən,
Qarşında dağlar da baş əyəcəkdir.
Bu gün kim bilir ki, kimsən sabah sən,
Kəlməndən ürəklər əriyəcəkdir.

Sən elə tumurcuq, elə pöhrəsən,
Gələcək özünü səndə tapacaq.
Sən elə çıraqsan, elə laləsən,
Doğan gün də nuru səndən alacaq.

***2003***

## «YOLKA»

Bizə yığışardı hər təzə ildə,
Ən əziz, ən kövrək, ən şən adamlar.
Bəzənmiş gəlinə dönərdi il də,
Həsrət qanadında yaşardı bahar.

Ən böyük, ən əlvan, başdan-başa zər,
Yamyaşıl «yolka» da bizdə olardı.
Bəlkə də dünyada ən böyük şəhər,
Bir evin içində mənzil tapardı.

Illəri illərə calaq edərdik,
Səhər gözlərini açana kimi.
Yuxusu gələnə biz lağ edərdik,
Səksənib fikrini tapana kimi.

Saxlaya bilmirəm içimdə sözü,
Indi dəyişibdir çarxı zamanın.
Bəlkə də dəyişib gəncliyin özü,
Yeri görünməyir yaxşı-yamanın...

Mənə qəlbim dedi «yolka» qurublar,
Əzizlər hərəsi öz mənzilində.
Deyrəm: – Yaxşı ki, hələ ümid var,
Boylanır üfüqdən işığı dən-dən....

Bir «yolka» qurmuşam... Baxışı solub?..
Mən ona baxıram, o mənə baxır.
Əl donub, dil donub, lap il də donub,
Içimdə suallar, çöldə qar yağır.

Insanmış «yolka»nın bəzəyi, demə,
Insandır ağlayan, insandır gülən!
Eh, uçub gedərmiş hər duzlu kəlmə,
Eh, uçub gedərmiş hər uçub gələn.

Baxdım bu səhnəyə qanım qaraldı,
Ilin qırıq-qırıq qərib səsində.
O yaşıl «yolka»yla baş-başa qaldım,
Ötüşən illərin xatirəsində.

***2001***

## YOLAYRICLARI

Həyatda çox olur yolayrıcları,
Bəzən sevinirsən, bəzən ağrılar...
Bəzən çiçək basır, bəzən qar qarı,
Yapışır yaxandan daşlı cığırlar.

Sən yola çıxırsan səadət üçün,
Uzaqdan boylanır qara qayalar.
Tökmək istəyirsən... Yüklənir yükün,
Kədərə yem olur yaxşı nəyin var.

Bəzən də Günəşin odun içirsən,
Heç bilə bilmirsən necə olur bu.
Bəzən dəryaları yarıb keçirsən,
Bir əlin qılınclı, bir əlin odlu.

Həyatda çox olur yolayrıcları,
Özü də kiçik yox, irisən, iri.
Bəzən də itirir əziz yar, yarı,
Bəzən də yar tapır özünə biri.

Yıxıla-yıxıla, dura-dura mən,
Yollar ayrıcında kirpik döymüşəm.
Bəzən qəhqəhələr tutub əlimdən,
Bəzən də özümü qəlbən söymüşəm.

Yollar ayrıcında çırpınır insan,
Qara div, ağ divlə üz-üzə gəlir.
Allah göstərməsin! Aman ay aman,
Başının altında ilan dincəlir.

Pis, yaxşı bu günə gəlib çıxmışıq,
Qovrulub yollarda səsilə səsim.
Sənə qurban olum aşıq, ay aşıq,
Çal ki, bu ağ yollar düyün düşməsin.
***2003***

## ÜRƏK SINDIRMAĞA ÖYRƏNMƏMİŞƏM

***Yuxularda yazılmış şeirlər silsiləsindən)***

Çoxdur qorxunc yalan,
inam qalmayıb,
Olub ki, yalan da söyləmişəm mən.
Faciə gətirən işim olmayıb,
Faciə gətirən söz dedəmişəm.

Düzlüyün həmişə görünür yeri,
Həyatda qarışıq süd əmməmişəm.
Neynim, döyün məni!
Öldürün məni!
Ürək sındırmağa öyrənməmişəm...

## GÖRƏN NƏ VAXT QURTARACAQ?

Günəş kimi
doğmasan sən,
batmasan sən...
Bu ilğımı, bu işığı
görməsəm mən,
Varlığımın, yoxluğumun
Sənin üçün fərqi nədi?

Çiçək kimi xəfif mehdən
əsməsən sən,
Haqqım var ki,
deyim sənə:
Sevməyin də bəhanədi...
Mən qınağa çəkəndə ki,
Sənə yadam!
quru adam
ya mən mənəm!..
Heç bilmirəm kim olursan,
kim oluram!
Deyirsən ki, aram-aram...
Sınaqlara çəkirəm ki,
hər addımı ölçürəm ki...
Heç bilmirəm nə deyirsən?
Boşqab kimi sınaq, sınaq?
Axı bunu bilə-bilə,
Rəqəmləri bir-birinə bölə-bölə.

Belə olmur gülüm, sınaq!
Yaşamışıq yarpaq-yarpaq
budaq-budaq.
Axı yaxşı tanıyırsan
mən nəçiyəm.
Duz yığanla duz yığıram,
çörəkçiylə çörəkçiyəm.
Gülüm, sınaq belə olmur,
Gülüm, yanmaq belə olmur...
Hər kəlmənin,
Hər addımın çəkisi var.
Hər adamın bu dünyada
qisməti var, tikəsi var.
Belə olmur sınaq, gülüm!
Bölünməyən qaya olaq
daş olaq biz!
Deməyək ki, kaş
olaq biz...
Yoxluğunu bilə-bilə
nə yaşamaq?
Ölə-ölə nə yaşamaq?!
Bir yalanın caynağından doğan sınaq,
Bir buludun yaxasından
Şüşə kimi yağan sınaq,
Sınaq deyil!
Sınaq qalır sınaqların sınağında.
Heç bilmirəm
Sınayırsan ya özünü, ya da məni.
Calaq etmə yada məni!
Deyirsən ki, sınaq, sınaq...
Görən belə söhbətlərdən
Ürək nə vaxt qurtaracaq?!

***2001***

## QOŞA QARALTILAR

Yuxu da, yozum da, qaraltı da var,
Insanlar hərəsi bir cürə çalır.
Varsa da, yoxsa da qaraltıda var,
Yozanlar yozurlar, qəlbi dərd alır.

Bəzən qaraltıdan böhtan da doğur,
Işığa qaranlıq yol açasıdır!..
Dumanı ha yoğur, çəni ha yoğur,
Yenə təbiətin bir parçasıdır.

Bəzən qaranlıqlar evlər dağıdır,
Orda ki hiylə var, məkr var, məkr!..
Əl-ələ tutanlar sevgi dağıdır,
Toxumçu tarlaya sanki tum əkir.

Böhtan eşidirəm qulağım batır,
Yalan eşidirəm vücudum əsir.
Təmiz qaraltılar təmiz boy atır,
Şərin şərçiliyi yolları kəsir.

Yuxuya, yozuma, qaraltılara,
Inanmaq da olar, inanmamaq da.
Nə bilim... Yalanlar bar gətirsə bar...
Sındırmaq da olar, sındırmamaq da...

Qoşa qaraltını edib nişangah,
Böhtan tətiyini göyə sıxırsan.
Yadında saxla ki, sənindi günah,
Tikilmiş, bəzənmiş evi yıxırsan.

Qəribə gəlməsin sənə bu səhnə,
Demə ki, böhtanlar durulacaqdır.
Dəmir libas geyib uçsan da göyə,
Sənin də arxanca atılacaqdır.

***2001***

## ƏGƏR YAŞAMAĞA BİR GÜN QALIBSA

Xatirəyə dönür ötən anlarım,
Deyirəm yaxşı ki, ana bilirəm.
Bu gün zirvələrdən aşan yolları,
Bu gün hər qayanı anam bilirəm.

Bir də ki, sanırdım bu qoca daşlar,
Qoca anam kimi öpəcək məni.
Bağrına sıxırdı məni yağışlar,
Sanırdım isladıb içəcək məni.

Selbə fırladırdım yaşıl qozlara,
Alardım dağlardan əncir payımı.
Belə göstərəcəm qızıl qızlara,
Ömrümün cəngavər hay-harayını.

Nə bilim hər sözün nöqtəsi varmış,
Mən hardan biləydim yol yoxmuş bəri.
Sən demə, gəncliyin öz səsi varmış,
Bir də bu dünyanın təəssüfləri...

Doğumla ölümün arası qısa,
Bu qısa böyükdür, fəqət yaz deyil!
Əgər yaşamağa bir gün qalıbsa,
Onu duyan üçün bu da az deyil!

***2002***

## BUNDAN SONRA

Qarğı atım, qamış atım, ağac atım,
Hara getdiz, niyə getdiz, nədən getdiz?
Indi mənə qismət olub addım-addım,
Bircə qarış yol getməyim kimli, kimsiz.

Nə siz varsız, nə o yollar, nə uşaqlıq,
Axtarıram təndirləri, isti çörək...
Eh, nə qədər xatirə var, qırıq-qırıq,
Daha bizə nə qalır ki, yeyək-içək!

Istəyirəm yolum düşsün dağa-daşa,
Qayalarla qardaşlaşım qaya olum!
Istəyirəm sellər kimi daşa-daşa,
Dərələrə sığışmayan haray olum!

Qarğı atım, qamış atım, dönün gəlin!
Çapım sizi tərləyincə, yorulunca.
Nə edim ki, sözlərimə baxmır əlim,
Yazır-pozur, baxmır toxa, baxmır aca!

Həyat məndən nə istəyir? Gəlmir dilim,
Verdiyini verəsiyəm... Alasıdır...
Görən mənim verdiklərim... Eh, nə bilim?
Yarpaq boyda, nöqtə boyda qalasıdır?

Qarğı atım, qamış atım, ağac atım!
Hara getdiz? Axı məni əyən əyir?
Heç bilmirəm bundan sonra atacağım,
Uçur, uçur... Kimə dəyir, nəyə dəyir?

***2002***

## DEMƏYİN LALƏNİN ÖMRÜ AZ OLUR

Lalələr haqqında çox olub yazan,
Ürəyim deyir ki, sən də durma, yaz!
Hardasa dumanda, çəndə yol azan,
Lalə işığında yolu itirməz.

Göylərdən tökülən ulduz topası,
Ya da ki, yerlərin alovu, közü.
Ya da təbiətin qızıl adası,
Ya da gözəlliyin gözüdür, gözü!

Lap çox az yaşayır zavallı nəsə,
Döşündə qara xal, düyündür nədir?
Çəkir uzaqlara məni fəlsəfə,
Quruyub, çürüyüb ölmək çətindir!

Duyulub gözümdə yaş damla-damla,
Göylər də leysanın üstümə tökür.
Gəlmişdim sizləri görüm... Əlvida!
Əllərim sükanda titrədi tir-tir!

Deməyin, lalənin ömrü az olur!
Deməyin, çiçəklər çiçəyi udur.
Biri qeyb olmasa biri doğulur,
Bu ki, təbiətin şah qanunudur.

***2002***

## SARIKÖYNƏK

Sarıköynək quşu bahar quşudur,
Çox quşlar baharda qayıdar, gələr.
Sarıköynək quşu ilqar quşudur,
Sarı libasında göylərdən enər.

Bizə qışda gəldi... Əsirdi tir-tir...
Qarın ağlığına sarı bir çıraq.
Bu bir möcüzəmi? Allah işidir!..
Sevənə sevəndən bir səs, bir soraq...

Yazıq quşcuğazı tutub itimiz,
Döydü qapıları şikar əlində,
Actana daşında donduq ikimiz,
Sevdiyim xanımın doğum günündə.

Bu bir möcüzəmi?.. Bilmirəm nədir...
Evi bahar bilib qanad gərdi quş.
Bəli, bu sirr deyil, Allah işidir,
Allaha nə bahar, Allaha nə qış.

Bax belə, ad günü bir sarıköynək,
Bu evi özünə bir ev bilirdi...
Çöldə qar yağırdı, əsirdi külək,
Mənim ürəyimdə Günəş gülürdü.

***2001***

## ADLAR

Ay ana, ad qoydun mənə dünyada,
Ad qoydun bacıma, qardaşıma sən.
Yaraşıq gətirdi, ana, ad ada –
Şahməmməd, Dostməmməd...
arzular dən-dən.

Yaşada bildikmi sən qoyan adı?
Biz adı gəzdirdik, adımız bizi...
Tanıya bildikmi qohumu, yadı?
Ayıra bildikmi yaxşını, pisi?

Ay ana, dünyada nə qədər ad var,
Çoxu bu adlara ləkədir, ləkə.
Elə də olub ki, qoyulan adlar
Çoxunun boynunda çevrilib yükə.

Ana «Kamal» dedi, kamalsız oldu,
Ana «Pələng» dedi, pişik dedilər.
Dünyamız adlarla boşaldı, doldu,
Elə çox adlar da yaşadı hədər.

Bəzən ad qoyan da lağa qoyuldu,
«Gorbagor» – dedilər sağ ikən... Niyə?
Yaxşılar, yamanlar ad-ad sayıldı,
Yaxşını yamandan ayıraq deyə.

Hər adın özünün yağışı, qarı,
Hər adın öz odu, öz işığı var.
Ikiyə bölürəm bütün adları:
Doğulur gözündə pislər, yaxşılar!!

***1978***

## UMUD KİŞİ

Nərimankənddə qonaq olduq yay gecəsi,
Salam verdik, salam aldı Umud kişi.
Dadaş çaldı, ərşə yetdi tarın səsi,
Telman dedi, fikrə daldı Umud kişi.

Qoca kişi qoca yurda, qoca dirək,
Söylədim ki, sənə şeir yazam gərək.
Bircə anda qurban getdi illik erkək,
Kabab üçün od qaladı Umud kişi.

Zarafat da elədik biz, bilə-bilə,
Sualları əritdi o, gilə-gilə,
Cavab verdi şirin-şirin, gülə-gülə,
Sözümüzə söz caladı Umud kişi.

Məxməri çay, böyürtikan mürəbbəsi...
Səsimizdən silkələndi Yer Kürəsi.
Öpdü bizi, dedi «Allah, göz dəyməsin»,
Başımıza duz doladı Umud kişi.

***1995***

## MÜNDƏRİCAT

ŞAHMƏMMƏDIN HƏYAT VƏ
YARADICILIĞI HAQQINDA . . . . . . . . . . . . . . . . . . . . 3
AZƏRBAYCAN, BIR DƏ HEYDƏR! . . . . . . . . . . . 106
ATA – OĞUL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 108
ƏR OĞLU ƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 109
NƏ DEYIM KI?... . . . . . . . . . . . . . . . . . . . . . . . 110
AZƏRBAYCAN QARTAL KIMI . . . . . . . . . . . . . . 111
AZƏRBAYCAN . . . . . . . . . . . . . . . . . . . . . . . . . 113
AĞSU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 114
QALX AYAĞA, AZƏRBAYCAN! . . . . . . . . . . . . . 115
AZƏRBAYCAN ƏSGƏRI . . . . . . . . . . . . . . . . . . 116
VƏTƏN! VƏTƏN! . . . . . . . . . . . . . . . . . . . . . . . 117
VƏTƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 118
VƏTƏNƏ SEVGI . . . . . . . . . . . . . . . . . . . . . . . . 118
VƏTƏN UĞRUNDA . . . . . . . . . . . . . . . . . . . . . . 119
YADDA SAXLA! . . . . . . . . . . . . . . . . . . . . . . . . 119
YURDUM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 121
BERLINDƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 122
ULULAR YURDU . . . . . . . . . . . . . . . . . . . . . . . . 123
MƏNƏ ELƏ GƏLIR KI... . . . . . . . . . . . . . . . . . 123
UNUDULMUŞ YURD YERI . . . . . . . . . . . . . . . . 124
EL-OBA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 125
OCAĞIMIN ODU . . . . . . . . . . . . . . . . . . . . . . . . 126
LƏNGƏBIZƏ GEDƏN YOL . . . . . . . . . . . . . . . . 127
LƏNGƏBIZ DAĞI . . . . . . . . . . . . . . . . . . . . . . . 128

SALAM, DOĞMA KSSNDIM . . . . . . . . . . . . . . . . 129
«ILANLI DAĞ» . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 130
ÇAYKƏNDDƏ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 131
SEVMƏSƏYDIM, YAŞAMAZDIM. . . . . . . . . . . . . 131
BIZIM DAĞIN ITBURNUSU. . . . . . . . . . . . . . . . 132
MART GƏLIR, BAHAR GƏLIR . . . . . . . . . . . . . 134
TÜSTÜLÜ BACALAR . . . . . . . . . . . . . . . . . . . . 135
ÇƏRŞƏNBƏLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . 136
TONQAL. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 137
NOVRUZ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 138
SƏMƏNI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139
«QULAQ FALI». . . . . . . . . . . . . . . . . . . . . . . . . 140
«PIR QARAĞAC» . . . . . . . . . . . . . . . . . . . . . . . 141
«GÜZGÜ QAYA». . . . . . . . . . . . . . . . . . . . . . . . 142
«KÜÇÜKLÜ QAYA» . . . . . . . . . . . . . . . . . . . . . 143
«QƏRIB BULAQ» . . . . . . . . . . . . . . . . . . . . . . . 143
QORXURAM KI... . . . . . . . . . . . . . . . . . . . . . . . 144
ÇINARLI-ÇAYLI ŞƏHƏR. . . . . . . . . . . . . . . . . . 145
GÖY GÖLÜM, MARAL GÖLÜM . . . . . . . . . . . 147
VƏTƏNƏ TƏLƏSIRƏM . . . . . . . . . . . . . . . . . . 147
ƏSGƏRƏM, YATMAMIŞAM . . . . . . . . . . . . . . . 148
ƏSGƏR YUXUM . . . . . . . . . . . . . . . . . . . . . . . 150
SƏRHƏDÇI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 151
ATAMA MƏKTUB. . . . . . . . . . . . . . . . . . . . . . . 152
ƏSGƏR DOSTUM . . . . . . . . . . . . . . . . . . . . . . 153
RƏŞIDIN SƏSI. . . . . . . . . . . . . . . . . . . . . . . . . 155
BAYATILAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 157

MƏN ƏSGƏR GEDƏNDƏ. . . . . . . . . . . . . . . . . . . . 158
SARALMIŞ NAĞILLAR . . . . . . . . . . . . . . . . . . . . . 159
ZEYA ÇAYI SAHILINDƏ . . . . . . . . . . . . . . . . . . . . 159
MARŞ, IRƏLI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 160
RUS DILINI BILMƏSƏM DƏ . . . . . . . . . . . . . . . . 161
STARŞINA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 161
ƏMRLƏRIN SOYUQLUĞU. . . . . . . . . . . . . . . . . . . 162
YARPAQLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 163
QOZ AĞACLARI . . . . . . . . . . . . . . . . . . . . . . . . 163
HAYDI, SABAHA DOĞRU. . . . . . . . . . . . . . . . . . . 165
LAYLAMI DEYIM SƏNƏ. . . . . . . . . . . . . . . . . . . . 165
SƏN MƏNIM ÖMRÜM. . . . . . . . . . . . . . . . . . . . . 166
BU GÜN ADDIM ATDIN . . . . . . . . . . . . . . . . . . . 167
OĞUL GÖZLƏRINDƏ . . . . . . . . . . . . . . . . . . . . . 168
ANA TORPAQ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 169
TORPAQ MƏNIMDI. . . . . . . . . . . . . . . . . . . . . . . 170
TORPAQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 171
BARI TORPAĞI ITIRMƏ... . . . . . . . . . . . . . . . . . . 172
ÜMID DOLU BIR SƏHƏR . . . . . . . . . . . . . . . . . . 173
ANAMIN YUN PALAZI . . . . . . . . . . . . . . . . . . . . 174
ANA PAYI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 175
YAXŞI YADIMDADIR . . . . . . . . . . . . . . . . . . . . . 175
BAYRAM AXŞAMI . . . . . . . . . . . . . . . . . . . . . . . 176
BAYRAM PAYI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 177
O YOL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 178
NƏĞMƏLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 179
ANA, KƏNDDƏN GƏLƏR OLSAN... . . . . . . . . . . . 179

ANAM BIZƏ GƏLMIŞDI . . . . . . . . . . . . . . . . . . . 180
ANA – OĞUL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 181
OXŞARLIQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 182
QALDI DAĞLARDA . . . . . . . . . . . . . . . . . . . . . 183
ÇINARLI ÖMRÜM. . . . . . . . . . . . . . . . . . . . . . . 184
BU YERLƏRƏ DÖNƏSIYƏM . . . . . . . . . . . . . . . 184
NƏ VAXTSA DINƏCƏK YAŞIL AĞACLAR... . . 185
ÖMRÜMÜZÜN RƏNGLƏRI . . . . . . . . . . . . . . . 186
DAĞLAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 187
YAY... DAĞ... GECƏ... . . . . . . . . . . . . . . . . . . . 188
YAY DÜŞÜB. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 189
PIRQULU DAĞINDA . . . . . . . . . . . . . . . . . . . . 190
MƏNƏ DAĞLAR QALDI . . . . . . . . . . . . . . . . . 190
PAYIZDA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 191
ŞAMAXIDA. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 192
ŞAMAXI PAYIZI . . . . . . . . . . . . . . . . . . . . . . . 193
MƏNSIZ KEÇƏN PAYIZ . . . . . . . . . . . . . . . . . 194
ELƏ KI, PAYIZ GƏLIR . . . . . . . . . . . . . . . . . . 194
ŞAMAXI MEŞƏLƏRI . . . . . . . . . . . . . . . . . . . . 195
BU AYLI GECƏ. . . . . . . . . . . . . . . . . . . . . . . . 196
BIR VAXTI ŞƏHƏRƏ CAN ATAN CANIM... . . . . 197
DALĞALAR... SAHILLƏR... . . . . . . . . . . . . . . . 198
XƏZƏR SAHILINDƏ . . . . . . . . . . . . . . . . . . . . 198
YOLLAR, YOLLAR . . . . . . . . . . . . . . . . . . . . . 199
AĞ YOLLAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 200
SÖZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 200
ŞEIR SƏNƏTDIR . . . . . . . . . . . . . . . . . . . . . . 200

ŞEIR YOLU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 201
UTANCAQ QIZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . 201
MƏRC. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 201
LALƏ QÖNÇƏSI . . . . . . . . . . . . . . . . . . . . . . . . 202
SAHILLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 202
TÜTƏK SƏSI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 202
BIR ANLIQ MƏHƏBBƏT. . . . . . . . . . . . . . . . . . . 203
BƏNÖVŞƏNIN CAVABI . . . . . . . . . . . . . . . . . . . 203
AY HƏSRƏTI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 203
QANIN ŞIRINLIYI . . . . . . . . . . . . . . . . . . . . . . 204
PƏRVANƏ KIMI . . . . . . . . . . . . . . . . . . . . . . . . 204
SƏN, SƏN IDIN... . . . . . . . . . . . . . . . . . . . . . . . 204
BÖYÜKSÜZ OLMASIN HEÇ KƏS DÜNYADA . . 206
HARDASAN, HARDA?. . . . . . . . . . . . . . . . . . . . . 207
BAŞ DAŞI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 208
SƏNI KIM APARDI? . . . . . . . . . . . . . . . . . . . . . 209
HEÇ KƏS... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 210
SAĞ IKƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 210
QOŞA BAŞ DAŞI. . . . . . . . . . . . . . . . . . . . . . . . 211
SAĞ OL, QARA SAÇIM. . . . . . . . . . . . . . . . . . . . 212
ACIZ OLMA BU DÜNYADA . . . . . . . . . . . . . . . . 213
OTUZ IL ƏVVƏL. . . . . . . . . . . . . . . . . . . . . . . . 214
QALAN QALIR, KÖÇƏN KÖÇÜR... . . . . . . . . . . . 215
MƏNDƏN SONRA . . . . . . . . . . . . . . . . . . . . . . . 216
AKADEMIYA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 217
TƏK KEÇƏN AD GÜNÜM . . . . . . . . . . . . . . . . . 218
YENI ÜNVANIM . . . . . . . . . . . . . . . . . . . . . . . . 219

PUŞKIN MEYDANINDA . . . . . . . . . . . . . . . . . . . 220
ONU MOSKVADA DINLƏYƏRKƏN. . . . . . . . . . . 221
GÖYÇAY NARI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 222
AĞACLAR DANIŞANDA . . . . . . . . . . . . . . . . . . 223
NƏ YAXŞI GÖRÜŞDÜK. . . . . . . . . . . . . . . . . . . 224
QÜRBƏTDƏ YUXULAR . . . . . . . . . . . . . . . . . . 225
ÇƏKDIYIM ŞƏKILLƏR . . . . . . . . . . . . . . . . . . . 226
AZƏRBAYCAN HAVA YOLU, BUYURUN . . . . . 226
MÜQƏDDƏS ADAMLAR. . . . . . . . . . . . . . . . . . 227
QAR YAĞIR ÜSTÜMƏ . . . . . . . . . . . . . . . . . . . 228
POLIS ÖMRÜ . . . . . . . . . . . . . . . . . . . . . . . . . 229
SONU GÖRÜNMÜR. . . . . . . . . . . . . . . . . . . . . 230
GÖYLƏRIN AĞ DƏNIZI . . . . . . . . . . . . . . . . . 231
BU KƏDƏRIN AXARI YOX . . . . . . . . . . . . . . . 232
QARA YAĞIŞ YAĞASIDIR... . . . . . . . . . . . . . . 233
TORPAĞIM HANI? . . . . . . . . . . . . . . . . . . . . . 234
ŞUŞADA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 235
MƏN AĞI DEYIRDIM . . . . . . . . . . . . . . . . . . . 235
ÖLƏR? ÖLMƏZ! . . . . . . . . . . . . . . . . . . . . . . . 237
QAR YAĞIRDI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 237
ALTMIŞ YAŞ NƏDIR HƏLƏ... . . . . . . . . . . . . . 238
MÖHKƏM OL, DEYIRƏM... . . . . . . . . . . . . . . 239
UŞAQ GÜLÜŞÜ. . . . . . . . . . . . . . . . . . . . . . . . 240
XATIRƏLƏR OCAĞININ IŞIĞINDA . . . . . . . . . . 241
XATIRƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 242
XATIRƏLƏR QOCALMAZ . . . . . . . . . . . . . . . . 243
DOST ITIRƏN VAXTIM DEYIL . . . . . . . . . . . . 243

CƏRRAH OTAĞINDA . . . . . . . . . . . . . . . . . . . . . 244
NƏ ITIRDIN, NƏ TAPDIN . . . . . . . . . . . . . . . . . . 245
TƏLƏBƏLIK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 246
GÖRƏ BILMIRƏM. . . . . . . . . . . . . . . . . . . . . . . 247
GECƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 248
ƏN BÖYÜK TAPINTIM . . . . . . . . . . . . . . . . . . . 249
BIR BAHAR YAĞIŞI . . . . . . . . . . . . . . . . . . . . . 250
YAĞIŞDAN QABAQ . . . . . . . . . . . . . . . . . . . . . 251
GECƏ YAĞIŞ YAĞIRDI. . . . . . . . . . . . . . . . . . . 251
BU GÜN YAĞIŞ YAĞACAQ... . . . . . . . . . . . . . . . 252
YAĞIŞDIMI, ŞEHDIMI BU? . . . . . . . . . . . . . . . . 252
ARAZLA DANIŞDIM . . . . . . . . . . . . . . . . . . . . 253
YAŞA, MƏMMƏD ARAZ. . . . . . . . . . . . . . . . . . 255
GÖRSƏN KI, TƏNHA QALDIN . . . . . . . . . . . . . 256
TANIDIM ŞAIRI... . . . . . . . . . . . . . . . . . . . . . . 257
SÖZÜM SOLMASIN DEYƏ... . . . . . . . . . . . . . . . 258
BAŞ REDAKTORA MƏKTUB. . . . . . . . . . . . . . . 259
DAĞLARIN YAZ GÜNÜ . . . . . . . . . . . . . . . . . . 260
GÖZÜBAĞLI APARSANIZ DAĞLARA . . . . . . . . 261
YENƏ SIZI GÖRDÜM . . . . . . . . . . . . . . . . . . . . 262
TÜKƏNMƏYƏN MÖVZULARIM . . . . . . . . . . . . 263
DAĞA QIŞDA GƏLDIM. . . . . . . . . . . . . . . . . . . 264
ELƏ KI, DAĞLARA GECƏLƏR DÜŞÜR . . . . . . . 264
DAĞ LÖVHƏLƏRI. . . . . . . . . . . . . . . . . . . . . . . 265
DAĞ ÇEŞMƏSI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 266
NƏRGIZLI DƏRƏ . . . . . . . . . . . . . . . . . . . . . . . 266
NIYƏ SUSURSAN, AŞIQ . . . . . . . . . . . . . . . . . 267

«SARIKÖYNƏK» ÇALIN . . . . . . . . . . . . . . . . . . . 268
ONUN SON SÖZLƏRI... . . . . . . . . . . . . . . . . . . . . . 269
XƏTRINƏ DƏYMƏYIN ULU DAĞLARIN . . . . . . 271
ZIRVƏ YOLU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 272
YAZ SƏHƏRI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 273
FƏSILLƏRDƏN GƏLƏN SƏSLƏR . . . . . . . . . . . 273
ÇOBAN. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 274
GÜNDOĞANDA . . . . . . . . . . . . . . . . . . . . . . . 275
QIZIL DAN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275
GƏLIN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275
ŞEH . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 276
BULUD. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 276
QIZIL GÜL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 276
ÜNVANIMI SORUŞSAN... . . . . . . . . . . . . . . . . . 276
NURLU QOCALAR . . . . . . . . . . . . . . . . . . . . . 277
QAYALAR DA QIŞQIRARMIŞ . . . . . . . . . . . . . 278
ŞAMAXIDAN ÜZÜM GƏTIRMIŞDILƏR . . . . . . . 279
BELƏCƏ YAŞAR INSAN . . . . . . . . . . . . . . . . . 281
YAŞAMAQÇIN... YAŞATMAQÇIN... . . . . . . . . . . 282
ŞƏHƏR UŞAQLARI . . . . . . . . . . . . . . . . . . . . . 282
ILLƏRIN HEYFI . . . . . . . . . . . . . . . . . . . . . . . 284
ŞEIR GÜNÜ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 285
DIDƏRGIN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 286
MƏN BIR ATA TANIYIRAM . . . . . . . . . . . . . . . 287
BIR YUXU GÖRMÜŞƏM . . . . . . . . . . . . . . . . . 288
BEŞ QARLI BAHAR . . . . . . . . . . . . . . . . . . . . . 289
ONA TOXUNMAYIN . . . . . . . . . . . . . . . . . . . . 290

ƏLIMIN BƏRƏKƏTI . . . . . . . . . . . . . . . . . . . . . . 291
ÇAY ISTƏYIRƏM . . . . . . . . . . . . . . . . . . . . . . . 292
O DA BIR YUXUYDU... . . . . . . . . . . . . . . . . . . . . 293
KITABLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 294
XƏZINƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295
HƏR KÖRPƏ – BIR SIRLI AÇAR . . . . . . . . . . . . 296
UŞAQLIQ ŞƏKLIMƏ . . . . . . . . . . . . . . . . . . . . . 297
TƏBRIK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 297
MEDEO. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 298
TUT AĞACI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 299
MƏNƏ KAĞIZ VERIN . . . . . . . . . . . . . . . . . . . . 300
MƏN DƏ BIR QONAĞAM . . . . . . . . . . . . . . . . . 301
TELEFON . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 303
+994552010290 . . . . . . . . . . . . . . . . . . . . . . 304
ÜMID GÜCLÜ OLUR. . . . . . . . . . . . . . . . . . . . 305
MƏHƏBBƏTIM AZALMADI . . . . . . . . . . . . . . . . 306
SAPSARI AĞAC . . . . . . . . . . . . . . . . . . . . . . . 307
YAD ÖLKƏDƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . 308
KÜSMƏ... KÜSMƏ... . . . . . . . . . . . . . . . . . . . 310
QOŞA QANAD . . . . . . . . . . . . . . . . . . . . . . . . 311
DÜŞÜNCƏLƏR... . . . . . . . . . . . . . . . . . . . . . . 312
BU DÜNYA GÖZLƏMIR . . . . . . . . . . . . . . . . . . 313
ÜZƏRLIK YANDIRIN . . . . . . . . . . . . . . . . . . . . 314
GƏLDI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 315
QONŞU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 316
BIR SÜRÜCÜ TANIYIRAM . . . . . . . . . . . . . . . . 317
OXU, EL QIZI, OXU... . . . . . . . . . . . . . . . . . . . 318

SƏNƏ OXUYURAM... . . . . . . . . . . . . . . . . . . . . 319
BAHAR YAĞIŞI . . . . . . . . . . . . . . . . . . . . . . . . 320
QIZIL MISMAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . 321
BAKIYA QAR YARAŞMIR... . . . . . . . . . . . . . . . 322
AY ANA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 323
ATA EVI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 324
DAĞLAR MƏNI TANIMADI . . . . . . . . . . . . . . . 325
YAZ GƏLƏNDƏ . . . . . . . . . . . . . . . . . . . . . . . 326
YAZ GÜNLƏRI . . . . . . . . . . . . . . . . . . . . . . . . 327
BIR KƏNDDƏ DOĞULMUŞAM . . . . . . . . . . . . 328
HAVA. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 330
SU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 332
QASIRĞALAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 333
DAĞLAR ŞAMAXIYA ÇAĞIRIR MƏNI . . . . . . . 334
PIÇILDA GÖY DƏNIZ . . . . . . . . . . . . . . . . . . . 335
DAĞLAR MƏNI GÖZLƏYIR . . . . . . . . . . . . . . . 336
MƏNIM MISRALARIM . . . . . . . . . . . . . . . . . . . 337
KÖLGƏMIN AĞ IŞIĞI . . . . . . . . . . . . . . . . . . . 338
MƏRD KIŞI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 339
ODLA KÜL ARASINDA. . . . . . . . . . . . . . . . . . . 340
SƏHƏR YELI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 341
YOVŞAN. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 344
BƏNÖVŞƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 345
DAĞ ÇAYLARI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 346
GÖY ÜZÜ QARALANDA. . . . . . . . . . . . . . . . . . 347
ŞƏLALƏNIN ZIRVƏSI . . . . . . . . . . . . . . . . . . . 347
SƏBR ELƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 348

BULAQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 349
LALƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 349
NAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 350
TUMURCUQ . . . . . . . . . . . . . . . . . . . . . . . . 351
ŞAXTA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 352
LAMPA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 352
ZIRVƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 353
ŞAM IŞIĞI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 354
QARA TIKAN . . . . . . . . . . . . . . . . . . . . . . . . 355
YAŞIL OTLAR . . . . . . . . . . . . . . . . . . . . . . . 356
CINCILIM . . . . . . . . . . . . . . . . . . . . . . . . . 356
OD . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 357
ÜFÜQLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 357
CIĞIRLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 358
QARAÇIRAQ. . . . . . . . . . . . . . . . . . . . . . . . 359
DUMAN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 360
SEL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 361
DOLU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 361
KÜLƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 362
AY . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 363
ULDUZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 363
BULUDLARIN QARASI . . . . . . . . . . . . . . . . . 364
YARPAQLAR SARALANDA . . . . . . . . . . . . . . 365
AĞLAYA BILMIRƏM . . . . . . . . . . . . . . . . . . 367
KAŞ KI.... . . . . . . . . . . . . . . . . . . . . . . . . . 368
YETIM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 369
MÜNƏCCIM AĞA . . . . . . . . . . . . . . . . . . . . 370

MÜDRIK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 371
GÖZƏLLIK QORUNARSA... . . . . . . . . . . . . . . . . 371
GÜNAHLAR... GÜMANLAR... . . . . . . . . . . . . . . . 372
TANRI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 373
SÖZ YARASI... . . . . . . . . . . . . . . . . . . . . . . . . 373
KÖYNƏK-AVTOQRAF. . . . . . . . . . . . . . . . . . . . 374
ILK ŞEIRINI YAZAN GƏNCƏ . . . . . . . . . . . . . 375
«YOLKA» . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 376
YOLAYRICLARI . . . . . . . . . . . . . . . . . . . . . . . 377
ÜRƏK SINDIRMAĞA ÖYRƏNMƏMIŞƏM. . . . . . 378
GÖRƏN NƏ VAXT QURTARACAQ?. . . . . . . . . . 379
QOŞA QARALTILAR. . . . . . . . . . . . . . . . . . . . . 381
ƏGƏR YAŞAMAĞA BIR GÜN QALIBSA . . . . . . 382
BUNDAN SONRA . . . . . . . . . . . . . . . . . . . . . . 383
DEMƏYIN LALƏNIN ÖMRÜ AZ OLUR . . . . . . . 384
SARIKÖYNƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . 384
ADLAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 385
UMUD KIŞI. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 386

ŞAHMƏMMƏD

# SEÇİLMİŞ ƏSƏRLƏR
# Beş cilddə

Cild I

---

Yğılmağa verilmişdir: 29.03.09
Çapa imzalanmışdır: 29.05.09
Format 84x105, 1/16,
Ş.ç.v. 25, tiraj 1000

«MBM» mətbəəsində çap olunumuşdur.